Texnologiya və pozuntular potensialı bu gün biznesin hər tərəfində üstünlük təşkil edir. İşçilərin məlumat itkisi və bunun qarşısının alınması barədə məlumatlı olduğundan əmin olmaq üçün İT departamentinizə etibar etmək kifayət deyil.

Təşkilat işçilərin məlumatların təhlükəsizliyində rolları barədə məlumatlandırılması üçün təlimlərin keçirilməsini təmin etməlidir. Onlar təhlükəsizlik protokollarının nə olduğunu, güclü parolların necə hazırlanması və istifadə olunacağını, eləcə də, problemdən şübhələndikdə və ya biznes üçün istifadə etdikləri cihazı itirdikdə prosesin nə olduğunu bilməlidirlər.

İnsan Resursları mütəxəssisləri işçilərin təhlükəsizlik siyasətlərinə riayət etmələrini təmin etmək üçün məsuliyyət daşıyırlar. İnsan resursları departamenti informasiya təhlükəsizliyi siyasətlərinin düzgün təqdim edilməsini, sənədləşdirilməsini, çatdırılmasını və tətbiq edilməsini təmin etmək üçün vacibdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. James Riddle. Devolutions. “Kibertəhlükəsizlikdə HR-nin rolu nədir və bu niyə vacibdir?” 31 iyul 2019-cu il. https://blog.devolutions.net/2019/07/whats-the-role-of-hr-in-cybersecurity-and-why-is-it-important
2. Net At Work Komandası. İşdə Net. “Kibertəhlükəsizlik Təhdidlərinin Azaldılmasında HR-nin Rolu”. https://www.netatwork.com/the-role-of-hr-mitigating-cyber-security-threats/
3. İqtisadiyyatda informasiya sistemləri: dərslik, red. G.A. Titorenko, 2-ci nəşr, M.: 2008, - 463s.
4. “İnformasiya texnologiyaları”. Dərslik, red. V. V. Trofimova. M.: Yurayt nəşriyyatı, 2011, 624s.
5. Bazarov T. Y. “Kadrların idarə edilməsi”. V nəşr, stereotipik. M.: Akademiya, 2007. - 224 s.

**Халида Мехди кызы Агаева, PhD, доцент**
**Исрафил Аяз оглы Гурбанов**
**Азербайджанский Технологический Университет**

## Роль и совершенствование информационной безопасности в управлении человеческими ресурсами

**Резюме**

Информационные технологии использовались для модернизации информационных систем и устранения их недостатков. Это инструмент, который помогает разрабатывать, внедрять и поддерживать информационные системы. Он также используется в качестве инструмента для достижения бизнес-целей и бизнес-задач, а также для оптимизации бизнес-процессов. Такие процессы включают управление человеческими ресурсами, в том числе набор, обучение, развитие и компенсацию людей в организации. Эти процессы влияют на внутренние процессы организации, основные компетенции, соответствующие рынки и организационную структуру.

Все это требует информационной безопасности. Средства контроля информационной безопасности гарантируют, что сотрудники и подрядчики в организации понимают свои обязанности, соответствуют ролям, в которые они входят, и защищают информацию, хранящуюся в организации.

**Ключевые слова:** информационная безопасность; система безопасности; корпоративная культура; Управление персоналом; мотивационная среда

**Khalida Mehdi Aghayeva, PhD, assoc.prof.**
**Israfil Ayaz oglu Gurbanov**
**Azerbaijan Technology University**

**The role and improvement of information security in human resource management**

**Summary**

Information technologies were used to modernize information systems and eliminate their shortcomings. It is a tool that helps to develop, implement and maintain Information Systems. It is also used as a tool to achieve business goals and business objectives as well as to optimize business processes. Such processes include the management of human resources, including the recruitment, training, development and compensation of people in the organization.

These processes affect the organization's internal processes, core competencies, relevant markets and organizational structure. All this requires information security. Information security controls ensure that employees and contractors in the organization understand their responsibilities, are appropriate for the roles they are placed in, and protect the information held by the organization.

**Key words:** information security; security system; corporate culture; personnel management; motivational environment

**Vəfa Qəmbər qızı MƏMMƏDOVA, PhD, dosent**

**İsmayıl Səməddin oğlu XASAYLI**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: mina34mk@mail.ru

# AQRAR SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İXRAC POTENSİALININ YÜKSƏLDİLMƏSİNDƏ LOGİSTİKANIN ROLU

**Xülasə**

Məqalədə aqrar sənaye müəssisələrində ixrac yönümlü məhsul istehsalının nəzəri əsaslarının və onların ixrac potensialının iqtisadi inkişafa təsirinin metodoloji aspektləri tədqiq edilmiş; aqrar sənaye müəssisələrinin ixrac imkanlarının artırılması üzrə beynəlxalq təcrübə nəzərdən keçirilmiş, ixrac yönümlü məhsul istehsal edən müəssisələrin modernləşdirilməsi problemləri araşdırılmış; aqrar sənaye müəssisələrində ixrac yönümlü məhsul istehsalına dövlət dəstəyinin strateji istiqamətlərinin tədqiq edilməsi və bu sahə məhsullarının rəqabətqabiliyyətliyinin təmin edilməsi istiqamətində təklifləri hazırlanmışdır.

Azərbaycanın ixrac potensialının artırılmasının ölkənin iqtisadi inkişafına, həmçinin, enerji daşıyıcılarının, eləcə də, qeyri-neft sektoru məhsullarının ixracının ölkənin xarici ticarət fəaliyyətinə təsirləri əsaslandırılmış, ixrac strukturunun logistik təkmilləşdirilməsinin perspektiv imkanları təhlil olunmuşdur.

**Açar sözlər:** aqrar sənaye, kənd məhsulları, ixrac potensialı.

**UOT:338**
**JEL: O13**

## Giriş

Ötən dövrdə Azərbaycanda kənd təsərrüfatı sürətlə inkişaf edərək, iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilmişdir. Aqrar sektorda həyata keçirilən islahatlar və yeni çağırışlara uyğun strateji hədəflərin müəyyənləşdirilməsi kənd təsərrüfatının davamlı inkişafına əhəmiyyətli təsir göstərmişdir. Bu çərçivədə elektronlaşmanın tətbiqi, dövlət xidmətlərinin optimallaşdırılması, eləcə də səmərəli idarəetmə sisteminin qurulması aqrar sahədə keyfiyyət dəyişikliyini şərtləndirmiş və emal sənayesinin güclənməsi üçün əlverişli imkanlar yaratmışdır.

Ölkənin aqrar sektorunun müasir simasını nəinki sovet dönəmi, hətta müstəqilliyin ilk illəri ilə müqayisə edəndə ciddi fərqlərlə rastlaşırıq. 1990-cı illərdə meyvələri dərərdilər, yeşiklərə doldurub maşına vurardılar. Məhsul Bakı bazarına çatanda yeşiklərdəki giləmeyvələr yarıya enərdi. Yollar o qədər pis idi ki, maşın bağdan Bakıya çatana kimi yeşiklər silkələndikcə məhsul da əzilib zay olardı.

İndi istənilən bağın, bostanın yanından keçən müasir yollar fermerlərə məhsulu bazara sürətlə və itkisiz çıxarmaq imkanı yaradır. Xaçmazdan, ya da elə Bakıdan həmin məsafədə yerləşən istənilən rayondan çıxan meyvə maşınları iki saat yarımdan sonra "Meyvəli" topdansatış bazarına çatır, məhsul yolda silkələnib əzilmir, görkəmini itirmir, rahat satılır. Belə sadə misal Azərbaycanda mürəkkəb logistika sisteminin qurulmasından xəbər verir.

## Materiallar və müzakirələr

Ölkədə aqrar sənayenin dayanıqlı inkişafı, ixrac potensialının möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından vacibdir. Bunu nəzərə alaraq, kənd təsərrüfatının yüksəlişinə dəstək mexanizmi məqsədyönlü şəkildə davamlı olaraq təkmilləşdirilməlidir.

Kəndarası, ölkədaxili yollar, hava və dəmir yolları, məhsulun daşınması üçün nəqliyyat vasitələri, qablaşdırılması üçün konteynerlər də logistik sistemin ritmik fəaliyyətini təmin edən amillərdəndir. Eyni zamanda, emal sənayesi, soyuducu və malın saxlanılması üçün anbarlar hamısı logistikanı əhatə edən sahələrdir. Kiçik kapilyardan, fermerlərdən, aqroparklardan gələn məhsullar bu yolda sürətlə anbarlara, soyuduculara yığılır, emal edilir, alıcıya çatdırılır, şəbəkə sistemi ilə paylaşdırılır. İtkilər, nəqliyyat və emal xərcləri nə qədər az olursa, həm fermerlərin, həm də logistik sistemdə fəaliyyət göstərən bütün təşkilatların işi asan, gəliri çox olur. Logistik sistemi qurulmayan istənilən ölkə kənd təsərrüfatı məhsullarının istehsalında böyük itkilərlə üzləşəcək və ciddi

qazanc əldə edə bilməyəcək. Ölkəmizdə də logistik şəbəkənin qurulması və inkişafı istiqamətində atılan mühüm addımlar aqrar sektorun simasını büsbütün dəyişdirə bildi. Ümumiyyətlə, əsrin əvvəlindən bugünədək həyata keçirilən nəhəng layihələr ölkədə aqrar sektorun simasını büsbütün dəyişmiş, müasir tələblərə cavab verən logistik sistemin yaranmasına imkan yaratmışdır.

Əgər biz logistikanı qısaca ərzaq və digər məhsulların istehsalçıdan istehlakçıya qədər axın proseslərinin sistemli surətdə idarə olunması kimi nəzərdən keçirsək, logistik zəncirin qurulması üçün görülən işlərin mühüm əhəmiyyət kəsb etdiyini aydın görəcəyik. Logistika iqtisadi fəaliyyətin tam bir dövrü kimi nəzərdən keçirilir. Ayrı-ayrılıqda ehtiyatların, nəqliyyatın, alış-satışın, paylaşmanın, istehsal münasibətlərinin, anbarların və məlumatların logistikaları mövcuddur. Logistika gərəkli məhsulun lazım olan miqdarda, lazım olan vaxtda, lazım olan yerə minimal xərclərlə çatdırılmasını təmin etmək deməkdir. Bu sahədə ölkəmizdə görülən işləri sadalayıb qurtarmaq mümkün deyil.

Logistikanın qurulması istiqamətində əldə olunan nailiyyətlər bu gün ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarını sürətlə həm daxili, həm də xarici bazarlarda alıcılara çatdırmağa imkan yaradır. Üstəlik yeni bazarları fəth etmək üçün yeni şanslara rəvac verir.

İqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində aqrar sektorunun inkişafının təmin edilməsi dövlətimizin əsas iqtisadi prioritetlərindəndir. Bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın diversifikasiyasına nail olunması ilə yanaşı, qeyri-neft sektorunun da ümumi daxili məhsulda xüsusi çəkisi nəzərə çarpacaq dərəcədə artmışdır.

Ölkənin sosial-iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb etdiyi üçün qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektoru ötən dövr ərzində iqtisadiyyatın əsas sektorlarından biri kimi müəyyənləşdirilmiş və görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sektorun inkişafı üçün əlverişli şərait yaradılmışdır.

Kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, baramaçılığın sürətli inkişafı, kənd təsərrüfatı məhsullarına tələbatın ödənilməsi, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması və emal sənayesinin genişlənməsi istiqamətində dövlət dəstəyinin gücləndirilməsi ilə əlaqədar bir sıra hüquqi aktlar, o cümlədən dövlət proqramları qəbul edilmişdir.

Hazırda kənd təsərrüfatı sektoru Azərbaycanın qeyri-neft ixracının artmasında müstəsna rol oynayan mənbələrdən biridir. Belə ki, 2019-cu ildə ölkəmizdən 760 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulu ixrac edilmişdir. 2019-cu ildə qeyri-neft ixracında kənd təsərrüfatı məhsullarının payı 39 faiz təşkil etmişdir. 2020-ci ilin 9 ayı ərzində də kənd təsərrüfatı sektoru qeyri-neft ixracındakı mövqeyini qoruyub saxlamışdır. Hesablamalarımız göstərir ki, qarşıdakı illərdə də kənd təsərrüfatı məhsullarının ixracının artırılması imkanları var. Xüsusən də son illər ərzində meyvə-tərəvəz ixracının artımı müşahidə olunmuşdur. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 2019-cu ildə Azərbaycandan 189 milyon ABŞ dolları dəyərində pomidor ixrac edilmişdir. 2020-ci ilin 9 ayı ərzində isə ölkəmizdən pomidor ixracı 168 milyon ABŞ dolları təşkil etmiş və 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 18 faiz artmışdır.

Əhalinin ərzaq məhsullarına tələbatın davamlı şəkildə ödənilməsi məqsədi ilə son illərdə qəbul edilmiş dövlət proqramlarının icrası, aqrar sahənin ixracyönümlü məhsullarının istehsalının təşviqi istiqamətində həyata keçirilən tədbirlər ölkədə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələrin əldə olunmasına səbəb olmuş, bölgələrdə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına etibarlı zəmin yaratmışdır.

Hazırda Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş dövlət proqramlarının, o cümlədən “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”, “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı”, “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”, “Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”, Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı”, “Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”nın icrası nəticəsində

kənd təsərrüfatı sahələrinin inkişafında bir sıra uğurlu nəticələr əldə olunmaqdadır.

Son dövrlər ölkənin ixrac potensialının yüksəldilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların innovativ qabiliyyətlərinin artırılması, yüksək məhsuldarlığın əldə olunması, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı prosesində intensiv metodların geniş tətbiqində istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiyanın formalaşmasında önəmli rolu olan aqroparkların yaradılması istiqamətində mühüm addımlar atılmışdır.

Artıq Azərbaycanda aqrar sektorun yeni siması olan — Aqroparkların yaradılması istiqamətində kompleks tədbirlər uğurla həyata keçirilməkdədir.

Məlumdur ki, dünyada kənd təsərrüfatının mütərəqqi üsullarla inkişafının yeni formaları yaranır. Ölkəmiz də bu təcrübələrdən faydalanmaq üçün müvafiq tədbirlər görür. Belə mütərəqqi üsullardan biri də aqroparklardır.

Aqropark biznes modeli - kənd təsərrüfatı məhsullarının istehsalını, emalını, logistikasını və digər xidmətləri əhatə etməklə bu zənciri özündə birləşdirən təsərrüfat subyektidir. Aqroparklarda kənd təsərrüfatı məhsullarının istehsalı və emal prosesləri, aqrotexniki və logistika, sanitar və fitosanitar, marketinq, satış (daxili bazar və ixrac) və digər xidmətlər, xammal istehsalı, emal prosesləri yüksək gəlirlilik şəraitində həyata keçirilir. Bununla yanaşı, ətraf mühitin qorunması, torpaq və su resurslarından səmərəli istifadə, onların mühafizəsi təmin olunur, eləcə də bitkiçiliyin, heyvandarlığın, emal sənayesinin və digər sektorların inkişafı üçün möhkəm əsaslar yaranır. Ərzaq məhsullarının istehsalı ilə bağlı əsas fəaliyyətləri — enerji, su və tullantıların idarə edilməsi, logistika, nəqliyyat, ərazinin planlaşdırılması və digər proseslərin həyata keçirilməsini təmin edən aqroparklar həmçinin davamlı inkişaf prinsiplərinə əsaslanaraq istehsal, emal, tədarük, tədqiqat və inkişaf, ticarət və sosial funksiyaları özündə birləşdirən bir mərkəz kimi xarakterizə olunur.

Bu gün Azərbaycanın qarşısında duran əsas hədəflərdən birinin – qeyri-neft sektorunun aparıcı bölməsi olan aqrar sənaye sahəsinin inkişafını təmin etmək üçün həmin sahənin innovativ meyarlara uyğun qurulması, o cümlədən aqroparkların yaradılması əsas istiqamətlərdəndir.

Uzun illər Ermənistanın hərbi təcavüzü nəticəsində işğal altında qalan torpaqlarımız əsasən kənd təsərrüfatı sahəsində böyük iqtisadi potensiala malik ərazilər olmuşdur. Hazırda işğaldan azad edilmiş ərazilər üzrə Strateji Fəaliyyət Planı hazırlanıb və bütün ərazilərin və şəhərlərin bərpası vahid konsepsiya əsasında həyata keçirilir. Azad edilmiş ərazilərdə torpaq islahatının aparılması üçün yeni mexanizm və meyarların işlənib hazırlanması, heyvandarlıq, bağçılıq, tərəvəzçilik, üzümçülük və taxılçılıq kimi mühüm kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi istiqamətində işlər aparılır.

**Görülən məqsədyönlü işlərin nəticəsidir ki, ölkəmizdə fındıq ixracı 33 faiz artaraq 125 milyon dollar təşkil edib.**

Azərbaycanda həyata keçirilən məqsədyönlü inkişaf strategiyası və islahatlar kursu ölkəmizin davamlı inkişafını təmin edib. Bu gün regionun lider ölkəsi olan Azərbaycanın inkişafını şərtləndirən əsas faktorlardan biri də respublikamızın regionlarının dinamik inkişafıdır.

Bu mənada yeni iqtisadi şəraitdə aqrar sektorun üstün inkişafına nail olmaq da mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatının inkişafı istiqamətində görülən tədbirlər sırasında ixrac potensialı yüksək olan sahələrin yenidən dirçəldilməsi və inkişaf etdirilməsi xüsusi rol oynayır. Ölkəmizdə ənənəvi sahələrdən olan qərzəkli meyvəçiliyin, ən əsası fındıqçılığın, o cümlədən üzümçülüyün inkişafı ilə bağlı həyata keçirilən davamlı tədbirlər, bu sahələrə dövlət dəstəyinin gücləndirilməsi adıçəkilən sahələrə marağın artmasına səbəb olub. Bu sahələrin inkişaf etdirilməsi isə yaxın gələcəkdə həm kənd əhalisinin məşğulluğunun daha da artırılması, həm ixracın artırılması, həm də ölkəyə valyuta gətirilməsində önəmli rol oynayacaq. Bu səbəbdəndir ki, regionlarda fermerlər bu sahələrin inkişafına xüsusi maraq göstərir, qabaqcıl təcrübənin də tətbiq edilməsi ilə məhsuldarlığın artırılması istiqamətində məqsədyönlü iş aparırlar.

Təsadüfi deyil ki, "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxış edən Prezident İlham Əliyev bildirib ki, ölkəmizdə fındıq ixracı artıb: "Meyvəçilikdə 240 milyon dollarlıq meyvə ixrac olunub, artım 11 faiz. Amma bu meyvənin içində fındıq da var. 125 milyon dollarlıq fındıq ixrac olunub, dövlətin hesabına artım 33 faiz olmuşdur".

Yeri gəlmişkən, ixrac qabiliyyəti yüksək məhsullardan sayılan fındıqçılığın inkişaf etdirilməsi məqsədilə bu ilin yaz aylarında Şəki rayonunda

daha 180 hektarda yeni fındıq bağının salınması nəzərdə tutulur. Beləliklə, 2016-cı ildən sonra rayonda yeni salınan fındıq bağlarının ümumi sahəsi 2,9 min hektara çatdırılacaq. Qeyd edək ki, Prezident İlham Əliyevin fındıqçılığın daha da inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərinin icrasını təmin etmək məqsədilə təkcə ötən il rayon ərazisində 1068 hektarda yeni fındıq bağı salınıb.

Hazırda rayonda mövcud fındıq bağlarının ümumi sahəsi 3 min 891 hektardır. Ötən il bağlardan 3 min 297 ton məhsul tədarük olunub. Fındıq istehsalı əvvəlki illə müqayisədə 217 ton artıb.

Son illər Qəbələ rayonunda da 2000 hektardan çox yeni fındıq bağları salınıb, mövcud bağların sahəsi 7069 hektara çatıb. 2019-cu ildə rayonda 8,7 min ton fındıq tədarük edilib, məhsul satışından 26 milyon manatdan çox gəlir götürülüb, fındıq tədarükünə 20 min nəfərdən çox işçi cəlb olunub. Tədarük olunan fındıq Qəbələ fındıq zavodunda emal olunaraq İtaliya, Almaniya və Rusiyaya ixrac edilib. Ümumiyyətlə, Qəbələdə fəaliyyət göstərən digər sənaye müəssisələrində istehsal olunan məhsullar dünyanın 27 ölkəsinə göndərilir.

Vurğulandığı kimi, ənənəvi sahələrdən olan fındıqçılığın inkişaf etdirilməsi Qax rayonunun kənd təsərrüfatı üçün də prioritet istiqamətlərdən biri sayılır. Dövlətimizin başçısının bu sahənin daha da inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrasını təmin etmək məqsədilə Qax rayonunda da davamlı iş aparılır. Belə ki, son illər rayon ərazisində 3 min 283 hektarda yeni fındıq bağı salınıb. Hazırda rayonda mövcud fındıq bağlarının ümumi sahəsi 10 min 111 hektardır. Bu bağların 6 min 228 hektarı barverəndir. Aqrar sahədə yeni subsidiya mexanizminin tətbiqinə başlanılması ilə əlaqədar indi fermerlər fındıq bağlarında aqrotexniki qulluq işlərinə daha çox diqqət ayırırlar. Bu da səbəbsiz deyildir. Yeni qaydalara əsasən, fermerlərə bağın hər hektarına görə 240 manat subsidiya veriləcək. Dövlət dəstəyinin göstərilməsi, eyni zamanda, bağların məhsuldarlığının artmasına da öz təsirini göstərəcək.

Qeyd edək ki, havaların əlverişli keçməsindən istifadə edən qaxlı fermerlər artıq fındıq bağlarında budama işlərinə də başlayıblar. Eyni zamanda, bağlara üzvi gübrə verilir, suvarılır. Xatırladaq ki, ötən il rayonun fındıq bağlarından 4848 ton məhsul tədarük olunub.

Dövlətimizin başçısının kənd təsərrüfatının ixrac potensialı yüksək sahələrinin, o cümlədən qərzəkli meyvəçiliyin inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrasını təmin etmək məqsədilə son illər Zaqatala rayonunda da davamlı iş aparılır. Son iki ildə rayonda 44 hektarda yeni qoz bağları salınaraq, mövcud bağların sahəsi 525,5 hektara çatdırılıb. Bu bağların 449 hektarı barverəndir. Keçən il qoz bağlarından 785 ton məhsul tədarük olunub. Hər hektar bağdan orta hesabla 17,5 sentner məhsul götürülüb.

Fındıqçılığın inkişaf etdirilməsi məqsədi ilə bu il Oğuz rayonunda daha 425 hektarda yeni fındıq bağlarının salınması nəzərdə tutulur. Beləliklə, son illər rayonda yeni salınan fındıq bağlarının ümumi sahəsi 2 min hektara çatdırılacaq. Qeyd edək ki, hazırda rayonda 3695,5 hektar fındıq bağları var. Ötən il bağlardan 820 ton məhsul tədarük olunub.

Qərzəkli meyvəçiliklə yanaşı ixrac potensialı yüksək məhsullardan sayılan üzümçülüyün inkişafı istiqamətində də mühüm addımlar atılmaqdadır. Belə ki, Aqrar Elm və İnnovasiya Mərkəzinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu emal müəssisələri ilə əməkdaşlığı genişləndirir. Göygöl şərab zavodunda müəssisənin rəhbərliyi, italiyalı mütəxəssislər Alberto Fagiani, Cristian Dejakumla görüş keçirilərək Azərbaycanın qiymətli üzüm sortu olan "Mədrəsə"nin bərpası və artırılması ilə əlaqədar elmi seminar keçirilib. Göygöl şərab zavodu milli brendlərin bərpası məqsədilə "Mədrəsə" üzüm sortundan 5 hektarda bioloji təmiz üzüm bağı salmaq istəyir. Zavodun üzüm bağlarında mədrəsə üzüm sortu yetişdirilsə də, sort qarışıqları var və bioloji təmiz əkin materialına ehtiyac var. Sevindirici haldır ki, zavodda yetişdirilən mədrəsə sortu italiyalı mütəxəssislər tərəfindən İtaliyada müvafiq müəssisədə genetik analiz edilib. Müəyyən olunub ki, VİVC (Vitis-International Variety Catalogue) bazasında yerləşdirilmiş genetik kodla əldə olunan nəticə üst-üstə düşür. Bu isə "Mədrəsə" sortunun genetik təmizliyinin sübutudur.

Göygöl şərab zavodu, o cümlədən italiyalı mütəxəssislər Azərbaycanın yerli texniki üzüm sortlarının, xüsusən də "Mədrəsə"nin bioloji-genetik təmiz nümunələrinin əldə olunmasında, onların genetik və fitopatoloji baxımdan təmiz əkin materiallarının əldə olunması məqsədilə birgə əməkdaşlığın davam etdirilməsini təklif ediblər.

Qeyd edək ki, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, rəqabətqabiliyyətli milli brendlərin istehsalı və ixrac potensialının yüksəldilməsi məqsədilə yerli üzüm sortlarının

müasir üsullarla artırılması və istehsalçıların keyfiyyətli əkin materialları ilə təmin edilməsi üçün yerli nadir "Mədrəsə" üzüm sortunun bərpa olunması istiqamətində Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu tərəfindən elmi-seleksiya işlərinə başlanılıb. Bununla əlaqədar olaraq institut əməkdaşları tərəfindən müxtəlif regionlardakı köhnə üzüm bağlarında, fermer, ailə kəndli və ev təsərrüfatlarında sortun müəyyən edilərək, gələcəkdə bioloji-genetik baxımdan təmiz əkin materialı tədarükü üçün tədqiqatlar həyata keçirilib. İlk olaraq araşdırma və tədqiqat işləri Şamaxı rayonunda həyata keçirilib. İnstitutun mütəxəssisləri tərəfindən Şamaxı rayonunda və Abşeronda yerləşən Ampeloqrafik kolleksiya bağında becərilən "Mədrəsə" üzüm sortunun tənəkləri etiketlənib və nişanlanmış tənəklərin sayı, hər tənəkdən əldə ediləcək təqribi çubuq miqdarı qeydiyyat-uçot işlərində öz əksini tapıb.

Hazırda "Mədrəsə" sortunun 10-a yaxın mənfi və müsbət variasiyası var və bunların qarışığı şəklində əkilib becərilir. Bu isə sortun "bioloji çirklənməsinə" gətirib çıxarır. Bunları nəzərə alaraq, sortun bioloji və genetik baxımdan təmiz formalarının seçilib artırılması məqsədilə bu sort institut tərəfindən yaxşılaşdırılma proqramına cəlb edilib. Xarici mütəxəssislərin diqqətinə çatdırılıb ki, institut tərəfindən Azərbaycanın 70 üzüm genotipi, o cümlədən "Mədrəsə" üzüm sortu ilkin olaraq 24 molekulyar-genetik marker və hər markerdə iki allel olmaq şərtilə identifikasiya olunub. Bu məlumatlar dünyanın üzüm genotipləri üzrə ən böyük bazası olan VİVC (Vitis- International Variety Catalogue) Vitis üzüm məlumat bazasına yerləşdirilib.

Vaxtilə üzüm və şərab istehsalına görə respublikamızda şöhrət qazanmış Samux rayonunda da bu sahəyə maraq artmaqdadır. 2003-cü ildə rayonda üzüm bağları 232 hektar olduğu halda, son 16 ildə 4,4 dəfə artaraq 1025 hektara çatıb. Hazırda rayonda 937 hektar bar verən üzüm bağları mövcuddur. Bağların 488 hektarı süfrə, 537 hektarı isə şərab üzümü sortlarından ibarətdir. 2019-cu ildə bağlardan 11625 ton üzüm yığılıb. Üzüm istehsalının 11 tonu dövlət, 3774 tonu qeyri-dövlət, 7840 tonu isə əhali təsərrüfatlarında olub. Ötən il üzüm istehsalı əvvəlki ilə nisbətən 2005 ton və ya 20,8 faizdən çox artıb.

Yeri gəlmişkən, bağların qış becərilməsi gələcək yüksək məhsul üçün mühüm şərtdir və bu məqsədlə hazırda İsmayıllı rayonunun üzüm plantasiyalarında cərgə araları şumlanır, quru budama aparılır. Artıq mövcud bağların 700 hektarından çox sahəsində üzümçülükdə mühüm aqrotexniki tədbir olan quru budama işləri başa çatdırılıb. Məhsulun əsasını təşkil edən bar zoğlarının seçilib-saxlanılmasında təcrübəli üzümçülərlə yanaşı, mütəxəssis tövsiyələrindən də istifadə olunur. Rayonun üzüm plantasiyalarında quru budamanın mart ayının əvvəlinədək yekunlaşdırılması nəzərdə tutulub. Qeyd edək ki, son illər rayonda üzümçülüyün inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Hazırda 1123 hektar üzüm bağı var ki, bunun 1012,9 hektarı bar verəndir.

**Nəticə**

Prezident İlham Əliyevin 2003-cü il 24 noyabr tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkəmizdə aqrar sektorda islahatların ikinci mərhələsi başlamış və çox uğurlu nəticələr əldə edilmişdir. Apardığımız araşdırma göstərir ki, Azərbaycan Respublikası kənd təsərrüfatının dayanıqlı inkişafına və ərzaq təhlükəsizliyinin təmini məsələsinə xüsusi diqqət yetirməklə səmərəli siyasət həyata keçirmişdir. Eyni zamanda, kənd təsərrüfatının inkişafı qeyri-neft sektoru üzrə ixracın artmasına da mühüm töhfə vermişdir. Qarşıdakı illərdə də Azərbaycanın kənd təsərrüfatı ixracını artırmaq potensialı böyükdür. Xüsusən də işğaldan azad olunan ərazilərimizin təsərrüfat dövriyyəsinə cəlb edilməsi ölkəmizə əlavə imkanlar verəcəkdir. Strateji yol xəritəsinin qeyri-neft sektoru üzrə ixracın adambaşına 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması hədəfinin reallaşdırılmasında kənd təsərrüfatı sektoru mühüm rol oynayacaqdır. Qeyd olunanlarla yanaşı uzunmüddətli qeyri-neft ixracı strategiyasında aqrar sektora aid məhsulların ixracı ilə bağlı xüsusi yanaşmanın olmasını təklif edirik. Belə bir yanaşma kənd təsərrüfatı məhsulları üzrə ixrac potensialının tam reallaşmasına xidmət edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının "Auditor xidməti haqqında" Qanunu. Bakı, "Qanun" -1994.
2. Azərbaycan Respublikasının "Daxili audit haqqında" Qanunu. Bakı, "Qanun"-2007.
3. Audit standartları. Azərbaycan Respublikası Hesablama Palatası. "Mars-Print" nəşriyyatı - 2003.
4. Hacıyev F.Ş. Əliyev Ş.H. "Audit". Dərs vəsaiti, Bakı,"İndiqo" nəşriyyatı. 2011.
5. Novruzov V.T. və başqaları. "Audit". Dərs vəsaiti. Bakı, 2012.

6. Rzayev Q.R. Nəzarət və təftiş (dərslik) Bakı, “Adiloğlu” nəşriyyatı, 2011.
7. Алборов Р.А., Хоружий Л.И. и другие. Основы аудита. Москва, «Дело и сервис» 2010.
8. Миннигалеева В.З. Роль аудиторской деятельности в аграрном секторе // Научнометодический электронный журнал «Концепт». - 2017. - Т. 31. - С. 156–160. http://e-koncept.ru/2017/970046.htm.

**Вафа Гамбар кызы Мамедова, доцент**

**Исмаил Самаддин оглы Хасайлы**
Азербайджанский Технологический Университет
E-mail: mina34mk@mail.ru

**Резюме**

В статье изучены методологические аспекты теоретических основ производства экспортоориентированной продукции в агропромышленных предприятиях и влияние их экспортного потенциала на развитие экономики; рассмотрен зарубежный опыт по увеличению экспортных возможностей агропромышленных предприятий, исследованы проблемы модернизации предприятий, выпускающих экспортоориентированную продукцию; Подготовлены предложения в направлении исследования стратегических направлений государственной поддержки производства экспортоориентированной продукции в агропромышленных предприятиях и обеспечения конкурентоспособности продукции в этой сфере.

Обосновано влияние увеличения экспортного потенциала Азербайджана на экономическое развитие страны, а также влияние экспорта энергоносителей, а также продукции ненефтяного сектора на внешнеторговую деятельность страны, и намечены перспективы проанализированы возможности логистического улучшения структуры экспорта.

**Ключевые слова:** агропромышленный комплекс, сельскохозяйственная продукция, экспортный потенциал.

**Vafa Gambar gizi Mammadova, PhD, assoc. prof.**

**Xasayli İsmayil Samaddin**
Azerbaijan Technological University
E-mail: mina34mk@mail.ru

**Summary**

In the article, methodological aspects of the theoretical basis of export-oriented product production in agro-industrial enterprises and the influence of their export potential on economic development were studied; the international experience on increasing the export opportunities of agro-industrial enterprises was reviewed, the problems of modernization of enterprises producing export-oriented products were investigated; Proposals were prepared in the direction of researching the strategic directions of state support for export-oriented product production in agro-industrial enterprises and ensuring the competitiveness of products in this field.

The effects of increasing the export potential of Azerbaijan on the economic development of the country, as well as the effects of the export of energy carriers, as well as non-oil sector products on the country's foreign trade activity, were substantiated, and the prospective possibilities of logistic improvement of the export structure were analyzed.

**Keywords:** agricultural industry, agricultural products, export potential.

**Vüqar Muxtar oğlu MEHDİYEV**
i.ü.f.d., dosent, Azərbaycan Kooperasiya Universiteti
AZ1124, Azərbaycan Respublikası, Bakı şəhəri, N.Nərimanov küç.93,
E-mail: vugarmehdiyev@yandex.ru

# KAPİTALIN DÖVRANI, DÖVRİYYƏSİ VƏ MƏNFƏƏTİN YARANMASI PROSESLƏRİNƏ MÜHASİBAT UÇOTU BAXIŞI

**Xülasə**

**Tədqiqatın məqsədi** kapitalın dövranı və dövriyyəsi proseslərinə cəmiyyət miqyasında nəzəri cəhətdən deyil, müəssisə miqyasında praktik mühasibat uçotu nöqteyi-nəzərindən baxılması və bu proseslərdə müəssisənin bölüşdürülməmiş mənfəətinin meydana gəlməsi istiqamətində baş verən biznes-təsərrüfat əməliyyatlarının mühasibat uçotunda beynəlxalq standartların tələblərinə uyğun əks etdirilməsi məsələlərinin araşdırılmasından və buna dair təkmilləşdirmə təkliflərinin verilməsindən ibarətdir.

**Tədqiqatın metodu** mühasibat uçotu və maliyyə hesabatı üzrə müasir dövrə aid olan normativ-hüquqi bazaya, Mühasibat Uçotunun Beynəlxalq Standartlarına, həmçinin də iqtisad elminin bu sahəsi üzrə məşhur iqtisadçı alimlərin müvafiq əsərlərinə əsaslanaraq, müşahidə, iqtisadi təhlil, yekunlaşdırma və sintez metodlarından istifadə edilməklə, kapitalın dövranı və dövriyyəsi proseslərində bölüşdürülməmiş mənfəətin yaranması əməliyyatlarının təhlil edilərək araşdırılmasından, bunların əsasında mühasibat uçotunun müvafiq sahəsinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsindən ibarətdir.

**Tədqiqatın nəticələri** biznes-təsərrüfat fəaliyyətinin son maliyyə nəticəsi olaraq bölüşdürülməmiş mənfəətin meydana gəlməsinin müəssisənin kapitalının dövriyyəsi ilə birbaşa bağlı olmasının müəyyən edilməsindən, burada baş verən biznes-təsərrüfat əməliyyatlarının mühasibat uçotu formatında təqdim edilməsindən, kapitalının dövranı və dövriyyəsi proseslərinin sintez edilməsi və bunların əsasında mühasibat uçotu yanaşmalarının nəzəri iqtisadi yanaşmalarla bir araya gətirilməsindən ibarətdir.

**Açar sözlər:** kapitalın dövranı və dövriyyəsi, kapital elementlərinin hərəkəti, bölüşdürülməmiş mənfəət.

**UOT 336.64, 336.66;**
**JEL E22, D24, G29**

## Giriş

**Problemin qoyuluşu.** Müəssisənin kapitalının mühüm tərkib hissələrindən biri də bölüşdürülməmiş mənfəətdir. Bölüşdürülməmiş mənfəət müəssisənin bütün fəaliyyəti nəticəsində əldə etdiyi marjinal mənfəətdən vergi tutulduqdan sonra onun sərəncamında qalan mənfəətin məbləğidir. Bölüşdürülməmiş mənfəətə biznes-təsərrüfat fəaliyyəti nöqteyi-nəzərindən yanaşdıqda, o, müəssisənin qazandığı gəlirlərin cəmi məbləğindən xərclərinin cəmi məbləğini çıxmaqla alınan marjinal mənfəətdən vergi çıxıldıqdan sonra yerdə qalan mənfəətin məbləği kimi başa düşülür. Burada kapitalın dövranı və dövriyyəsi məsələlərinə bütövlükdə cəmiyyət miqyasında deyil, ayrılıqda götürülmüş bir müəssisənin miqyasında baxılır və bu zaman bu proseslərin daxilində baş verən dəyişikliklər mühasibat uçotu yanaşmalarının vasitəsi ilə araşdırılır. Bununla da bir müəssisənin miqyasında onun kapitalının necə dövr etməsi, bu zaman kapitalın hər bir dövriyyəsinin maliyyə nəticəsi olaraq, müəssisənin bölüşdürülməmiş mənfəətinin hansı ardıcıllıqla yaranması və mühasibat uçotunda necə əks etdirilməsi məsələləri şərh edilir. Bu sahədə elmi araşdırmaların kifayət qədər olmaması mövzunun aktuallığını gündəmə gətirir. Qeyd etmək lazımdır ki, ümumilikdə cəmiyyət miqyasında kapitalın dövranı və dövriyyəsi məsələləri nəzəri baxımdan bir çox iqtisadçı alimlərin əsərlərində tədqiq edilmişdir [7, 8, 9]. Belə əsərlərin bir çoxunda kapitalın dövr etməsinin nəticəsində mənfəətin yaranması və bununla da kapitalın davamlı olaraq artması vurğulanmışdır [17, 18, 19]. Lakin bu proseslərin ayrılıqda götürülmüş bir müəssisənin miqyasında necə baş verməsi və onların detallı şəkildə təhlil edilərək, daxili xırdalıqlarınadək nümayiş etdirilməsinə dair kifayət qədər tədqiqatlar aparılmamışdır. Ona görə də kapitalın dövranı və dövriyyəsi məsələlərinə bütövlükdə cəmiyyət miqyasında deyil, ayrılıqda götürülmüş bir müəssisənin miqyasında tədqiq edilməsi üçün ona mühasibat uçotu nöqteyi-nəzərindən yanaşılması və proseslərin daxilinə nüfuz edilərək, burada baş

verən dəyişikliklərin ayrı-ayrı biznes-təsərrüfat əməliyyatlarının sintezində araşdırılması məqsədəuyğundur. Bunun üçün kapitalın dövranı və dövriyyəsi proseslərinə mühasibat uçotu baxışının formalaşdırılması, bu proseslərin bir müəssisənun miqyasında necə baş verdiyinin və nəticədə bölüşdürülməmiş mənfəətin necə yaranmasının araşdırılması, həmçinin, bu proseslərin sintetik uçotu məsələlərinin işlənməsi vacib hesab edilir.

**Kapitalın dövranı və dövriyyəsində bölüşdürülməmiş mənfəətin yeri**

Kapital nöqteyi-nəzərindən yanaşdıqda, bölüşdürülməmiş mənfəət müəssisənin kapitalının sonsuz dövranı ərzində xalis kapitalın artımıdır. Bu qəbildən bölüşdürülməmiş mənfəət müəssisənin öz kapitalını mütəmadi olaraq artıran əsas mənbələrdən biri hesab olunur. Kapital dövr etdikcə, hər bir dövriyyənin maliyyə nəticəsi olaraq, mənfəət meydana gəlir. Kapitalın çoxsaylı və daimi olaraq davam edən dövriyyələri onun dövranını təşkil edir. Müəssisə miqyasında kapitalın dövranı onun biznes-təsərrüfat fəaliyyətinin özüdür ki, bu da mühasibat uçotunun əsas konsepsiyalarında sonu görünməyən proses kimi qəbul edilir. Müəssisənin kapitalının dövranı prosesində onun məbləği bir qayda olaraq, artmağa doğru meyl etməlidir. Lakin burada əks proseslər də baş verə bilər ki, bu da müəssisənin biznes-təsərrüfat fəaliyyətinin gedişatı prosesində daimi nəzarətdə saxlanılmalı və belə halların baş verməməsi üçün müvafiq idarəetmə tədbirləri görülməlidir. Mühasibat uçotu nöqteyi-nəzərindən yanaşdıqda, bölüşdürülməmiş mənfəət hər bir hesabat dövrünün sonunda həmin dövrə aid olan gəlirlərlə xərclərin fərqi kimi hesablanan marjinal mənfəətin əsas hissəsi kimi qəbul edilir [6, 14, 16]. Burada hesabat dövrləri aylıq, rüblük və illik olmaqla, mənfəətin məbləği ilin sonunadək davamlı olaraq artan yekunlarla hesablanır. Hər ayın sonunda müəssisənin biznes-təsərrüfat fəaliyyətinin maliyyə nəticələri hesablanır. Maliyyə nəticəsi mənfəətdən və ya zərərdən ibarət ola bilər. Burada tədqiqat obyekti bölüşdürülməmiş mənfəət olduğu üçün, mənfəətlilik variantına üstünlük verilir. Aylar üzrə mənfəət əlahiddə şəkildə hesablanaraq, ilin əvvəlindən hesabat tarixinədək olan dövr üzrə artan yekunla göstərilir. İl ərzində hər rübün sonunda məcmu mənfəətdən vergi tutulur və müəssisənin sərəncamında qalan xalis mənfəətin məbləği hesablanır [1, 12, 13]. İlin sonunda hesablanmış vergilər üzrə dəqiqləşdirmələr aparılır və müəssisənin sərəncamında qalan mənfəət bölüşdürülməmiş mənfəət ststusunda tanınaraq, maliyyə hesabatlarında əks etdirilir [15, 20]. Qeyd edək ki, kapitalın dövranı və dövriyyəsini həm biznes-təsərrüfat fəaliyyətinin davamlılığı baxımından, həm kapitalın hərəkəti (davamlı artımı) baxımından, həm də mühasibat uçotu nöqteyi-nəzərindən spiralvari qrafik formasında təsəvvür etmək olar. Biznes-təsərrüfat fəaliyyətinin davamlılığı baxımından yanaşdıqda, bu spiral-qrafikin hər bir aşırımında (hər bir dövrəsində) istehsal, xidmət və satış proseslərinin başa çatmasını və nəticədə mənfəətin alınmasını, eləcə də bu prosesin növbəti aşırımda təkrarlanaraq, ardıcıl şəkildə sonsuz qaydada davam etməsini görmək olar.

**Bölüşdürülməmiş mənfəətin yaranması və inkişafının mühasibat uçotu aspektləri**

Bundan əvvəldə qeyd edildiyi kimi, müəssisə miqyasında götürülmüş kapitalın bir dövriyyəsinə mühasibat uçotu prizmasından baxdıqda, onun müəssisənin biznes-təsərrüfat fəaliyyətinin bir tsiklini tam əhatə etdiyi görünür. Belə ki, müəssisənin biznes-təsərrüfat fəaliyyətini formalaşdıran ayrı-ayrı əməliyyatların məcmusu həmin müəssisədə baş verən kapitalın bir dövriyyəsinin mikrohissəcikləridir. Bu proses müəssisənin dövriyyə aktivlərinin dövriyyəsindən və bu zaman uzunmüddətli sabit aktivlərlə birləşərək, əmtəəlik məhsulun və ya xidmətin yaradılmasından, sonra isə onun satışının təşkil edilərək, real mənfəətin formalaşdırılması ilə kapitalın yeni artımının əldə edilməsindən ibarətdir. Mühasibat uçotunda bu proseslərin mal-material ehtiyatlarının tədarükündən başlandığı qəbul edilir. Belə ki, hər hansı bir müəssisədə təsərrüfat proseslərini təşkil etmək üçün ilk növbədə mal-material ehtiyatları tədarük edilərək, proseslərin ahəngdar və davamlı təşkil edilməsi üçün baza hazırlanır, sonra isə işçi qüvvəsi, maşın və avadanlıqlar, təchizat komponentlərinin cəlb edilməsi ilə yeni məhsul alınır, yaxud da xidmət göstərilir, işlər yerinə yetirilir. Bütün bunların da sonunda satış prosesləri baş verir və yeni pul vəsaitinin meydana gəlməsi ilə dövriyyə vəsaitlərinin cari dövriyyəsi başa çatır ki, bunların da maliyyə

nəticəsində mənfəət meydana gəlir. Burada təsvir edilən kapitalın dövriyyəsi prosesini detallı şəkildə görmək üçün yuxarıda sözügedən biznes-təsərrüfat əməliyyatlarının mühasibat uçotunda necə göründüyünə nəzər salmaq məqsədəuyğundur. İstər kapitalın dövriyyəsi prosesinin, istərsə də bu prosesdə bölüşdürülməmiş mənfəətin yaranması üzrə biznes-təsərrüfat əməliyyatlarının uçotu "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında [2], eləcə də bu Qanunun tələbləri üzrə ölkəmizdə tətbiq edilən Maliyyə Hesabatlarının Beynəlxalq Standartları [3, 4] və onların mühasibat uçotu subyektləri tərəfindən icrasını tənzimləyən müvafiq Uçot Qaydaları üzrə qurulur [5].

**Kapitalın bir dövriyyəsində onun elementlərinin hərəkətinə mühasibat uçotu baxışı.** Bir müəssisənin biznes-təsərrüfat fəaliyyətində onun kapitalının necə dövr etdiyi və nəticədə mənfəətin necə yarandığı aşağıda verilmiş biznes-təsərrüfat əməliyyatlarına dair müxabirləşmələrdə tədarükdən mənfəətədək ardıcıllıqla göstərilir (Bax: Cədvəl 1):

**Cədvəl 1**

**Kapitalın bir dövriyyəsi prosesində baş verən biznes-təsərrüfat əməliyyatlarının mühasibat müxabirləşmələrində əks etdirilməsi**

| Sıra № | Əməliyyatın məzmunu | Müxabirləşmə | |
|---|---|---|---|
| | | D-t | K-t |
| *1* | *2* | *3* | *4* |
| 1. | Material ehtiyatlarının tədarükü | 201 | 531 |
| 2. | İstehsal prosesində material məsrəfləri | 202 | 201 |
| 3. | İşçi qüvvəsinin məsrəfləri | 202 | 533 |
| 4. | Sosial sığorta məsrəfləri | 202 | 522 |
| 5. | Torpaq, tikili və avadanlıqların amortizasiyası | 202 | 112 |
| 6. | Qeyri-maddi aktivlərin amortizasiyası | 202 | 102 |
| 7. | Digər məsrəflər | 202 | 538 |
| 8. | Yeni məhsul çıxımı | 204 | 202 |
| 9. | Məhsul satışı | 211 | 601 |
| 10. | Satılmış məhsulun maya dəyəri | 601 | 204 |
| 11. | Marjinal mənfəət | 601 | 801 |
| 12. | Kommersiya xərcləri | 801 | 711 |
| 13. | Cari mənfəət vergisinin hesablanması | 801 | 901 |
| 14. | Cari mənfəət vergisinin büdcəyə kreditor borcu kimi tanınması | 901 | 521 |
| 15. | Müəssisənin sərəncamında qalan bölüşdürülməmiş mənfəətin (xalis mənfəətin) tanınması | 801 | 341 |

**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir.

1-ci cədvəldə verilmiş biznes-təsərrüfat əməliyyatlarının məzmunundan göründüyü kimi, burada istehsal fəaliyyəti üzrə dövriyyədə olan kapital elementlərinin hərəkətinə dair dövriyyənin ardıcıl mərhələləri göstərilmişdir. Verilmiş əməliyyatlar kapitalın dövriyyəsinin üç mərhələsini əhatə edir. Birinci mərhələdə istehsal prosesinin başlanmasından əvvəl lazımi material ehtiyatları tədarük edilir, ikinci mərhələdə istehsal prosesi baş verir, üçüncü mərhələdə isə istehsaldan alınmış məhsulun satışı təşkil edilərək, mənfəət əldə edilir. Kapitalın dövriyyəsinin birinci mərhələsində müəssisə yeni məhsulun istehsalı üçün lazım olan materialları tədarük edir və material anbarlarında ehtiyatlar yaradır. Bu mərhələ cədvəldə verilmiş 1-ci əməliyyatla ifadə olunmuşdur. Kapitalın dövriyyəsinin ikinci mərhələsi istehsal mərhələsidir ki, buraya da cədvəldə verilmiş 2-8-ci əməliyyatlar aiddir. Burada materialların anbarlardan istehsal sexinə buraxılması, istehsal prosesinin gedişatı və istehsaldan əmtəəlik məhsulun alınması ifadə olunmuşdur. İstehsal prosesinin gedişatını isə işçi qüvvəsinin sərf edilməsi, sosial sığorta məsələləri, istehsalda istifadə edilən uzunmüddətli aktivlərin amortizasiyası və digər məsrəflər (yanacaq, elektrik enerjisi, idarəetmə məsrəfləri və s.) əhatə edir. Üçüncü mərhələdə kapitalın dövriyyəsi istehsal prosesindən çıxmış yeni məhsulun satışı ilə davam edərək, yeni mənfəətin əldə edilməsi ilə başa çatır. Cədvəldə verilmiş biznes-təsərrüfat əməliyyatlarına ətraflı nəzər saldıqda və onların hər birini mühasibat qaydasında şərh etdikdə kapitalın dövriyyəsi prosesinin necə baş verdiyi və bölüşdürülməmiş mənfəətin alınması ilə onun necə artması daha aydın ifadə olunur. Müəssisədə yeni məhsulun istehsal edilməsi üçün hər şeydən əvvəl, həmin məhsulun fiziki və istehlak xassələrinə uyğun olan materialların tədarük edilməsi (burada satın alınması) və bununla da yeni məhsulun istehsalı üçün lazım olan materialların

anbar ehtiyatlarının yaradılması tələb olunur [21]. Bu əməliyyat malsatan subyektlərin alıcı subyektə (burada sözügedən müəssisəyə) təqdim etdiyi hesab-faktura əsasında tədarük edilmiş materialların dəyəri üzrə 201№-li "Material ehtiyatları" sintetik hesabının tərkibində olan müvafiq subhesabların debetində, 531№-li "Malsatan və podratçılara qısamüddətli kreditor borcları" sintetik hesabının kreditində əks etdirilir. Qeyd edək ki, burada göstərilən situasiyalarda kapitalın dövriyyəsi prosesini sadə formada təsvir etmək naminə, vergi məsələlərindən yan keçilmiş, müxabirləşmələrdə subhesablar göstərilməmiş və bir çox xərc əməliyyatları, məsələn, inzibati xərclər, maliyyə xərcləri və digər bəzi əməliyyatlar cədvələ daxil edilməmişdir. Anbarlardan istehsala buraxılan materialların məbləği 202№-li "İstehsalat (iş və xidmət) məsrəfləri" sintetik hesabının tərkibində olan müvafiq subhesabların debetində və 201№-li "Material ehtiyatları" sintetik hesabının tərkibində olan müvafiq subhesabların kreditində əks etdirilir.

Məhsul istehsalına sərf edilmiş işçi qüvvəsi (əmək) məsrəflərinin məbləği 533№-li "Əməyin ödənişi üzrə işçi heyətinə olan borclar" hesabının, ona müvafiq olaraq hesablanmış sosial sığorta ayırmalarının məbləği 522№-li "Sosial sığorta və təminat üzrə öhdəliklər" hesabının, istehsal prosesinin gedişatında istifadə olunan uzunmüddətli aktiv obyektlərinə hesablanmış amortizasiya ayırmalarının məbləği müvafiq olaraq 102№-li "Qeyri-maddi aktivlər üzrə yığılmış amortizasiya və qiymətdəndüşmə zərərləri" və 112№-li "Torpaq, tikili və avadanlıqlar üzrə yığılmış amortizasiya və qiymətdəndüşmə zərərləri" hesablarının, digər bəzi məsrəflər 538№-li "Digər qısamüddətli kreditor borcları" hesabının kreditinə yazılmaqla, bunların hamısı 202№-li "İstehsalat (iş və xidmət) məsrəfləri" sintetik hesabının tərkibində olan müvafiq subhesabların debetində əks etdirilir. Burada 202№-li "İstehsalat (iş və xidmət) məsrəfləri" sintetik hesabının debetində toplanan müxtəlif məsrəf məbləğlərinin cəmi həmin istehsal partiyasına aid olan yeni məhsulların istehsalat maya dəyərini formalaşdırır ki, bu maya dəyəri ilə yeni məhsul partiyası istehsaldan buraxılaraq, hazır məhsul anbarına mədaxil edilir. Yeni məhsul partiyasının hazır məhsul anbarına mədaxil edilməsi əməliyyatı 204№-li "Hazır məhsul" hesabının debetində və 202№-li "İstehsalat (iş və xidmət) məsrəfləri" hesabının kreditində əks etdirilir. Bununla da istehsal prosesinin başa çatması tanınır və kapitalın dövriyyəsi satış prosesləri mərhələsində davam edir. Satış proseslərində mühüm məsələlərdən biri məhsulun satış qiymətlərinin müəyyən edilməsidir. Satış qiymətləri elə müəyyənləşdirilməlidir ki, həm bazar konyukturasına uyğun olsun, həm də dövriyyə tsiklinin kifayət qədər mənfəətlə başa çatmasını təmin etsin. Bu məsələlərin mühüm əhəmiyyətə malik olduğu üçün satış proseslərinin idarəetmə uçotu həmişə öz aktuallığı ilə tədqiqatçıların diqqət mərkəzində olur. Digər tərəfdən də satış prosesinin təşkil edilməsi müəssisənin menecer heyətinin vacib vəzifələrindən hesab olunur. Müasir dövrdə məhsul satışının müvəffəqiyyətlə və optimal qaydada təşkil edilməsi, eləcə də bunların əsasında dövriyyə tsiklinin mənfəətliliyinin təmin edilməsi müəssisənin menecer heyəti tərəfindən ardıcıl şəkildə yerinə yetirilən marketinq işinin keyfiyyətli olub-olmamasından asılı olur [10]. Optimal və keyfiyyətli marketinq işinin təşkil edilmiş olduğu müəssisələrdə məhsul hələ istehsal olunub, anbara daxil olmamışdan əvvəl, alıcılarla iş aparılır və satış müqavilələri bağlanmış olur. Belə satış müqavilələrində digər şərtlərlə yanaşı, məhsulun hər bir çeşidi üzrə razılaşdırılmış satış qiymətləri də göstərilir. Satış prosesinin əsasını həmin müqavilələr və onlarda göstərilən satış qiymətləri təşkil edir. İstehsaldan yeni çıxmış məhsulun satışı prosesi satıcı müəssisə tərəfindən satılan məhsul çeşidlərinə dair hesab-fakturanın tərtib olunması ilə başlayır. Bu sənəddə satış məqsədi ilə alıcıya təqdim olunan məhsul çeşidlərinin miqdarı, müqavilədə göstərilən satış qiymətləri və məbləği əks etdirilir. Həmin hesab-fakturanın yekun məbləği üzrə satılan məhsul partiyasının cəmi məbləği 211№-li "Alıcılar və sifarişçilərin qısamüddətli debitor borcları" hesabının debetinə və 601№-li "Satış" hesabının kreditinə yazılmaqla, alıcı müəssisənin hesabında olan qısamüddətli debitor borcu mühasibat qeydiyyatına alınır. Satılmış məhsul partiyasının bundan əvvəl, istehsal prosesi başa çatarkən 204№-li "Hazır məhsul" hesabının debetində əks etdirilmiş maya dəyəri üzrə məbləği 601№-li "Satış" hesabının debetinə 204№-li "Hazır məhsul" hesabının kreditində yazılmaqla, satılmış məhsulun maya dəyəri satışdan əldə edilmiş gəlir hesabına silinir. Hesab-fakturada göstərilmiş satış qiymətləri üzrə məbləğlə maya dəyəri məbləğinin arasında formalaşmış olan fərqin məbləği 801№-li "Ümumi mənfəət (zərər)" hesabının debetinə və 601№-li "Satış" hesabının kreditinə yazılır ki, bu da məhsul partiyasının satışından əldə edilən marjinal mənfəəti əks etdirir. Bundan sonra istehsal müəssisəsinin məhsulun istehsal maya dəyərinə bilavasitə aid edilməyən digər xərcləri, burada göstərilən situasiyada kommersiya xərcləri 801№-li "Ümumi mənfəət (zərər)" hesabının debetinə və 711№-li "Kommersiya xərcləri" hesabının kreditinə yazılmaqla, marjinal mənfəətin azaldılması hesabına silinir. Bundan sonra mənfəətin yerdə qalan məbləği vergiyə cəlb olunan mənfəət adlanır və həmin mənfəətin məbləğindən

vergi qanunları ilə müəyyən olunmuş qaydada vergi tutulur. Mənfəətdən tutulan verginin hesablanması əməliyyatı 801№-li "Ümumi mənfəət (zərər)" hesabının debetində və 901№-li "Cari mənfəət vergisi üzrə xərclər" hesabının kreditində əks etdirilir. Mənfəət vergisinin müəssisənin büdcəyə olan kreditor borcu kimi tanınması 901№-li "Cari mənfəət vergisi üzrə xərclər" hesabının debetində və 521№-li "Vergi öhdəlikləri" hesabının kreditində göstərilir. Vergi tutulduqdan sonra mənfəətin yerdə qalan məbləği bütün ödənişlər hesablandıqdan sonra müəssisənin sərəncamında qalan xalis mənfəət kimi qəbul edilir. Bu məbləğ eyni zamanda bölüşdürülməmiş mənfəət də adlanır və kapitalın dövriyyəsi tsiklində onun artımı kimi tanınaraq, 801№-li "Ümumi mənfəət (zərər)" hesabının debetinə və 341№-li "Hesabat dövründə xalis mənfəət" hesabının kreditinə yazılır. Bununla da kapitalın bir dövriyyəsi başa çatır və bu dövriyyə ərzində əldə edilmiş mənfəətin məbləği maliyyə uçotunda xalis mənfəət və bölüşdürülməmiş mənfəət kimi tanınaraq [11], kapitalın ümumi məbləğini artırır.

**Bölüşdürülməmiş mənfəətin sintetik uçotu**

Mühasibat uçotu subyektləri üçün hesablar planında bölüşdürülməmiş mənfəətin (ödənilməmiş zərərin) sintetik uçotunun aparılması üçün nəzərdə tutulmuş hesablar aşağıdakı cədvəldə verilmişdir (*Bax: Cədvəl 2*):

**Cədvəl 2**

**Mühasibat uçotu subyektləri üçün hesablar planında bölüşdürülməmiş mənfəətin (ödənilməmiş zərərin) sintetik uçotunun aparılması üçün nəzərdə tutulmuş hesablar**

*(hesablar planından çıxarış)*

| Bölmə № | Sintetik hesab № | Sub-hesab № | Hesabın adı |
|---|---|---|---|
| **34** | | | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** |
| | 341 | | Hesabat dövründə xalis mənfəət (zərər) |
| | 342 | | Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər |
| | 343 | | Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) |
| | 344 | | Elan edilmiş dividendlər |

**Mənbə:** Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları. 30 yanvar 2017-ci il [5, s.16].

2-ci cədvəldən göründüyü kimi, bölüşdürülməmiş mənfəətin (ödənilməmiş zərərin) sintetik uçotunun aparılması üçün Mühasibat uçotu subyektləri üçün hesablar planının 34-cü bölməsində 4 ədəd sintetik hesab nəzərdə tutulmuşdur. Müəssisənin sərəncamında qalan mənfəətin məbləği ilin əvvəlindən artan yekunla hər ayın sonunda 341№-li "Hesabat dövründə xalis mənfəət (zərər)" hesabında yığılır. Hesabat ili başa çatdıqdan sonra həmin ilə aid olan xalis mənfəətin məbləği səlahiyyətli idarə heyətinin qərarı əsasında iki yerə bölünür. Onlardan birincisi mənfəətin dividend ödnişləri üşün ayrılan hissəsi, ikincisi isə mənfəətin bölüşdürülməyərək, müəssisənin kapitalını artıran hissəsidir. Hər ilin sonunda hesabat ilinin xalis mənfəətindən müəssisənin səlahiyyətli idarə heyətinin qərarı əsasında onun təsisçilərinə, səhmdarlara və payçılara dividend ödənişləri edilə bilər. Belə ödənişlər mənfəətin kapitala daxil edilən hissəsini azaldır. Müəssisənin biznes-təsərrüfat fəaliyyətində onun bölüşdürülməmiş mənfəətinə aid olan əməliyyatlara dair müxabirləşmələr növbəti 3-cü cədvəldə verilir *(Bax: Cədvəl 3).*

3-cü cədvəldə verilmiş müxabirləşmələrin məzmunundan göründüyü kimi, il ərzində hər ayın sonunda müəssisənin sərəncamında qalan bölüşdürülməmiş mənfəətin (xalis mənfəətin) tanınması əməliyyatı 801№-li "Ümumi mənfəət (zərər)" hesabının debetində və 341№-li "Hesabat dövründə xalis mənfəət (zərər)" hesabının kreditində əks etdirilməklə, müəssisənin xalis mənfəətinin 341№-li "Hesabat dövründə xalis mənfəət (zərər)" hesabında yığılması təmin edilir. Hesabat ili başa çatdıqdan sonra həmin ilə aid olan xalis mənfəətin dividend ödənişləri üçün ayrılan məbləği 341№-li "Hesabat dövründə xalis mənfəət (zərər)" hesabının debetinə və 344№-li "Elan edilmiş dividendlər" hesabının kreditinə, xalis mənfəətin bölüşdürülməmiş məbləği isə 341№-li "Hesabat dö-

vründə xalis mənfəət (zərər)" hesabının debetinə və 343№-li "Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" hesabının kreditinə yazılır. Bununla da müəssisənin sərəncamında qalan bölüşdürülməmiş mənfəət mühasibat qaydasında tanınır və müəssisənin kapitalının tərkibinə daxil edilir.

**Cədvəl 3**

**Bölüşdürülməmiş mənfəətə aid baş verən biznes-təsərrüfat əməliyyatlarının mühasibat müxabirləşmələrində əks etdirilməsi**

| Sıra № | Əməliyyatın məzmunu | Müxabirləşmə | |
|---|---|---|---|
| | | D-t | K-t |
| *1* | *2* | *3* | *4* |
| 1. | İl ərzində hər ayın sonunda müəssisənin sərəncamında qalan bölüşdürülməmiş mənfəətin (xalis mənfəətin) tanınması | 801 | 341 |
| 2. | Hesabat ili başa çatdıqdan sonra həmin ilə aid olan xalis mənfəətin dividend ödənişləri üçün ayrılan məbləği | 341 | 344 |
| 3. | Hesabat ili başa çatdıqdan sonra həmin ilə aid olan xalis mənfəətin bölüşdürülməmiş məbləği | 341 | 343 |
| 4. | Elan edilmiş dividend məbləğinin təsisçilər, səhmdarlar və payçılara ödənişi | 344 | 223 |

**Mənbə**: Müəllif tərəfindən tərtib edilmişdir.

Burada ardıcıllıqla verimiş biznes-təsərrüfat əməliyyatlarının şərh edilməsi materiallarından göründüyü kimi, kapitalın tərkib hissəsi olan bölüşdürülməmiş mənfəət müəssisənin adi biznes-təsərrüfat fəaliyyətində yaranır və il ərzində artan yekunla qeydə alınaraq, cari hesabat ili başa çatdıqdan sonra mühasibat uçotunda keçmiş illərin bölüşdürülməmiş mənfəəti kimi tanınır. Bu məbləğ müəssisənin maliyyə hesabatlarında kapitalın tərkibində göstərilir [3].

**Nəticə**

Beləliklə, aparılmış tədqiqatın nəticələri göstərir ki, müəssisənin biznes-təsərrüfat fəaliyyətinin son maliyyə nəticəsi olaraq bölüşdürülməmiş mənfəətin meydana gəlməsi, onun mövcud kapitalının dövriyyəsi ilə birbaşa bağlıdır. Burada baş verən biznes-təsərrüfat əməliyyatları kapitalın dövriyyəsinin daxili hissəcikləridir. Onların mühasibat uçotu formatında təqdim edilməsi kapitalın dövranı və dövriyyəsi proseslərinin bölüşdürülməmiş mənfəətin yaranması prosesləri ilə sintez edilməklə, bu sahədə mövcud olan nəzəri iqtisadi yanaşmaların mühasibat uçotu yanaşmaları ilə müqayisə edilməsini və bunların əsasında bölüşdürülməmiş mənfəətin uçotu konteksində kapitalın dövranı və dövriyyəsi proseslərinə mühasibat uçotu baxışının formalaşdırılmasını təmin edir. Bununla yanaşı, xidmət sferasının müəssisələrində bölüşdürülməmiş mənfəətin yaranması proseslərində yer alan xərc və məsrəf əməliyyatlarının sintetik uçotunda, Qaydalarda göstərildiyi kimi, 202№-li "İstehsalat (iş və xidmət) məsrəfləri" hesabından deyil, bizim təklif etdiyimiz kimi, 711№-li "Kommersiya xərcləri" hesabından istifadə edilməsinin məqsədəuyğun olması əsaslandırılmışdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 2019-cu il 1 fevral tarixinədək edilmiş düzəlişlərlə. Bakı, "BESTPACK" Mətbəəsi, 2019-cu il, 276 s.
2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. 4 may 2018. 27 s.
3. "Maliyyə hesabatlarının təqdimatı" adlı 1№-li MUBS. https://maliyye.gov.az
4. "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının ilk dəfə tətbiq edilməsi" adlı 1№-li MHBS. https://maliyye.gov.az
5. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının 30 yanvar 2017-ci il tarixli Q-01№li Qərarı ilə təsdiq edilmiş və 18 oktyabr 2018-ci il tarixli Q-09№li Qərarı ilə dəyişiklik edilmişdir. 212 s.
6. Böyük İqtisadi Ensiklopediya. Akad.Z.Ə.Səmədzadənin elmi redaktorluğu ilə. 7 cilddə, 3-cü cild. Bakı, "Şərq-Qərb" Nəşriyyat evi. 2012, 608 s.
7. Karl Marks. Kapital. I cild. Bakı, "Qanun" Nəşriyyatı, 2016, 808 s.
8. N.Qreqori Mənkyu. Ekonomiksin əsasları. Yenidən işlənmiş üçüncü nəşri. İngilis dilindən tərcümə. Bakı, 2014, 836 s.
9. Juravlyova Q.P. və b. İqtisadi nəzəriyyə. Makroiqtisadiyyat-1,2. Metaiqtisadiyyat. Transformasiya iqtisadiyyatı. Dərslik. Rus dilindən

tərcümə: Babayev Ə.P. və b. Moskva, "Daşkov və K" Nəşriyyatı, 2008, 920 s.

10. "GTGL UK" şirkəti. İdarəetmə uçotu. Peşəkar mühasib proqramı. Fundamental səviyyə, 2-ci fənn. Tədris vəsaiti. Bakı, METM, 2013, 777 s.

11. "GTGL UK" şirkəti. Maliyyə uçotu. Peşəkar mühasib proqramı. Fundamental səviyyə, 3-cü fənn. Tədris vəsaiti. Bakı, METM, 2013, 680 s.

12. Salahov Ə.S., Mehdiyev V.M. Mühasibat uçotu. Dərslik. Bakı, "3 saylı Bakı Mətbəəsi" ASC, 2016. 566 s.

13. Sadıqov Ə.A.və b. Mühasibat uçotu. Dərslik. Bakı, "Təhsil İşçisi Mətbəəsi" MMC, 2012. 688 s.

14. Səbzəliyev S. M., Quliyev V.M.. İdarəetmə uçotu. Dərslik. Bakı, "Elm vəTəhsil" Nəşriyyatı, 2014. 524 s.

15. Devid Aleksander, Anne Britton, Ann Yorissen. Maliyyə hesabatının beynəlxalq standartları: nəzəriyyədən praktikaya/Rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti"Nəşriyyatı, 2010.764s.

16. David Alexander, Christopher Nobes. Financial accounting. An international introduction. Fifth edition. Pearson Education Limited, 2013. - 508 p.

17. Мустафаев Ф.Ф. Макроэкономика (экономическая теория). Баку, Təhsil, 2014,544 с.

18. Кейнс Дж.М. Общая теория занятости, процента и денег. Москва, ЭКСМО, 2007, 483 с.

19. Маршалл А. Принципы экономической науки. Т.13. Москва, Прогресс, 1993, 531 с.

20. Нидлз Б., Андерсон Х., Колдуэлл Д. Принципы бухгалтерского учета. Пер. с англ./Под ред. Я.В.Соколова -5-е изд. М. «Финансы и статистика», 2014. 496 с.

21. Хорнгрен Ч., Фостер Дж., Датар Ш. Управленческий учет. 10-е издание. Пер. с англ. СП-б.: Питер, 2015, 1008 с.

**Мехдиев Вугар Мухтар оглы**
к.э.н., доцент, Азербайджанский Университет Кооперации
E-mail: vugarmehdiyev@yandex.ru

## БУХГАЛТЕРСКИЙ ОБЗОР ПРОЦЕССОВ ОБРАЩЕНИЯ, ОБОРОТА КАПИТАЛА И ОБРАЗОВАНИЯ ПРИБЫЛИ

### Резюме

*Цель исследования* - посмотреть на процессы обращения и оборота капитала не на теоретическом уровне в масштабе всего общества, а с точки зрения практического бухгалтерского учета на уровне предприятия, рассмотреть вопросы отражения хозяйственных бизнес-операций в бухгалтерском учете в соответствии с требованиями международных стандартов в этих процессах, в направлении формирования нераспределенной прибыли предприятия, а также заключается в даче предложений по совершенствованию в связи с этим.

*Методология исследования* основана на нормативно-правовой базе бухгалтерского учета и финансовой отчетности современной эпохи, международных стандартах бухгалтерского учета, а также соответствующих работах известных экономистов в этой области экономической науки с использованием методов наблюдения, экономический анализ, обобщение и синтез и состоит в анализе и исследовании операций формирования нераспределенной прибыли в процессах обращения капитала и на их основе в определении направлений совершенствования соответствующей области учета.

*Результаты исследования* базируются на определении того, что формирование нераспределенной прибыли как конечного финансового результата хозяйственной деятельности напрямую связано с оборачиваемостью капитала предприятия, представлением совершаемых здесь хозяйственных операций в бухгалтерской форме, синтез процессов обращения и оборота капитала и основанных на них учетных подходов и состоит в сочетании его с теоретическими экономическими подходами.

**Ключевые слова:** обращения и оборот капитала, движение элементов капитала, нераспределенная прибыль.

**Mehdiyev Vugar Muxtar**
PhD in economics, Associate Professor
Azerbaijan University of Cooperation
E-mail: vugarmehdiyev@yandex.ru

# AN ACCOUNTİNG OVERVİEW OF CAPİTAL CİRCULATİON, TURNOVER AND PROFİT GENERATİON PROCESSES

**Summary**

*The purpose of the study* is to look at the processes of capital circulation and circulation not theoretically at the societal level, but from the point of view of practical accounting at the enterprise level, and to examine the issues of reflecting the business and economic transactions in accounting in accordance with the requirements of international standards in these processes in the direction of the formation of the undistributed profit of the enterprise, and in this regard It consists of giving suggestions for improvement.

*The method of the research* is based on the normative-legal basis of accounting and financial reporting of the modern era, the International Standards of Accounting, as well as the relevant works of famous economists in this field of economic science, using the methods of observation, economic analysis, summarization and synthesis, the circulation of capital. and it consists of analyzing and investigating the operations of undistributed profit generation in the processes of circulation, and on the basis of them, determining the directions for improving the relevant area of accounting.

*The results of the research* are based on the determination that the formation of undistributed profit as the final financial result of business activity is directly related to the turnover of the enterprise's capital, the presentation of the business transactions that take place here in the accounting format, the synthesis of the processes of the circulation and turnover of capital and the accounting approaches based on them. it consists of combining it with theoretical economic approaches.

***Keywords:*** *circulation and turnover of capital, movement of capital elements, retained earnings.*

**Aidə Ziyad qızı BƏXTİYAROVA**
Azərbaycan Dövlət Neft və Sənaye Unversitetinin doktorantı,
E-mail: aida.baxtiyarovaa1@gmail.com.

# AZƏRBAYCANDA NEFTKİMYA EMAL MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTİNİN GÜCLƏNDİRİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ VƏ PRAKTİKİ MƏSƏLƏLƏRİ

**Xülasə**

Tədqiqatın məqsədi Azərbaycanda neftkimya emalı müəssisələrinin rəqabət qabiliyyətinin gücləndirilməsinin nəzəri-metodoloji və praktiki məsələlərinin baxılmasından ibarətdir. Bunun üçün neftkimya emal müəssisələrinin rəqabət qabiliyyətliliyi problemləri araşdırılmış və bununla bağlı məsələlər ümumiləşdirilmişdir. Azərbaycanda neftkimya emal müəssisələrinin gücləndirilməsi üçün zəruri addımların atılmasının vacibliyi əsaslandırılmışdır. Neftkimya emal müəssisələrinin müasir dövürdə qarşısında duran hədəflər müəyyənləşdirilmişdir. Yaxın perspektivdə Azərbaycanda neftkimya emal müəssisələrinin rəqabət qabiliyyətinin artırılması istiqamətində konseptual baxımdan tövsiyələr verilmiş və təkliflər irəli sürülmüşdür. Tədqiqarın metodologiyası əsas etibarilə məlum olan iqtisadi metodlardan - analiz, sintez, müqayisə, statistika və ümumiləşdirmə metodlarından ibarətdir. Məqalənin hazırlanmasında həmçinin müxtəlif tədqiqatçıların neftkimya emal müəssisələrinin rəqabət qabiliyyətlilik problemlərinə dair fikirləri də nəzərə alınmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti əsas etibarilə Azərbaycanda qeyri-neft sektorunun mühüm sahələrindən olan neftkimya kompleksinin müəssisələrin rəqabət qabiliyyətinin artırılması istiqamətində təkliflərin hazırlanması və fəaliyyət strategiyalarının yenilənməsi ilə bağlıdır. Tədqiqatın nəticələri Azərbaycanda neftkimya müəssisələrinin rəqabət qabiliyyətinin artırılması istiqamətində daha səmərəli fəaliyyət mexanizmlərinin hazırlanaraq tətbiq edilməsilə bilavasitə əlaqəlidir. Tədqiqatın orjinallığı və elmi yeniliyi baxımından qeyd edə bilərik ki, bu tədqiqatda verilmiş materiallar əsas etibarilə aparılmış təhlillərə söykənmiş və bu baxımdan orijinallığı ilə fərqlənir. Başlıca elmi yenilik isə müasir dövrdə Azərbaycan iqtisadiyyatının diversfikasiyalaşdırılması kontekstində neftkimya emal müəssisələrinin rəqabət qabiliyyətinin artırılması istiqamətində səmərəli təkliflərin hazırlanması və bununla bağlı əsaslandırmaların aparılmasıdır. Eyni zamanda, qlobal çağırışlara cavab verən fəaliyyət mexanizmlərinin işlənməsi və həyata keçirilməsi istiqamətində əsaslı tədbirlərin görülməsinin vacibliyi əsaslandırılmışdır. Baxılan problemlər üzrə təkliflər irəli sürülmüşdür.

**Açar sözlər**: Azərbaycan, neftkimya emal müəssisələri, neftkimya emal müəssisələrinin problemləri, rəqabətqabiliyyətlilik problemləri, rəqabət qabiliyyətinin gücləndirilməsi, nəzəri-metodoloji yanaşmalar, praktiki məsələlər.

**UOT: 330.356:661:338.24**
**JEL: F15; F19; L60**

## Giriş

Müasir dövrdə emal sənayesinin inkişaf etdirilməsi, mövcud xammal resurslarından səmərəli istifadə edilməsi, xammal resurslarından təkrar emal proseslərinin təşkili hesabına yeni istehsal sahələrinin yaradılması, istehsal zənciri üzrə istehsalın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bununla xammal resurslarından səmərəli istifadə edilməsi hesabına daha çox gəlir əldə götürmək və fəaliyyətin rentabellik səviyyəsinin yüksəldiməsi mümkündür. Belə ki, dünya təcrübəsində ən güclü resurslara malik olan enerji resursları bazarının son onilliklərdə emal istiqaməti daha çox maraq doğurmaqdadır. Bir çox texnoloji cəhətdən inkişaf etmiş ölkələrdə müxtəlif ölkələrdən ucuz xammallar, o cümlədən, ilk növbədə enerji xammalları - neft və qaz təbii xammallarını alaraq onları emal etməklə daha çox gəlir əldə edirlər. Digər tərəfdən, dünyanın neftkimya bazarı özünün dəyərinə və intensivliyinə görə heç də neft bazarından geri qalmır və əldə olunan gəlirlilik səviyyəsinə görə yüksəkdir [1].

Bütün bunlar onu göstərir ki, neft və təbii qaz kimi mühüm xammalların daha dərin emalında neft-kimya kompleksinin rolunu artırmaq müasir dövrdə strateji fəaliyyət istiqamətlərindən biridir.

Bu amillər Azərbaycan üçün də xarakterikdir. Belə ki, Azərbaycan neft ölkəsidir və neft sənayesinin inkişafı məhz bizim ölkə ilə bağlıdır. Hələ 19-cu əsrin ikinci yarısından başlayaraq Azərbaycanda neft sənayesi inkişaf etdikcə emal sənayesi də inkişaf etmiş, neftkimya və kimya müəssisələri də yaranmağa başlamışdır. Keçmiş SSRİ dövründə Azərbaycanda çox güclü neftkimya kompleksi Sumqayıt sənaye mərkəzində formalaşdırılmışdır. Bakıda istehsal olunan neft xammalının müəyyən bir hissəsinin neftkimya kompleksində emal edilərək müxtəlif kimya və neftkimya məhsullarının alınması üçün yarımfabrikatlar alınmışdır. Lakin, həmin dövrdə bu məsələlərin daha yüksək səviyyədə və milli maraqlara uyğun olaraq fəaliyyətinin təmin edilməsi mümkün olmamışdır. Belə ki, bu kimi istehsalatların yaradılması, zavodların tikilməsi, xammalla təminat məsələləri, eyni zamanda hazır məhsulların bölüşdürülməsi Moskva tərəfindən aparılırdı və demək olar ki, nə etmək lazım olduğunu yalnız Moskva müəyyənləşdirirdi və s.

**Neftkimya emal müəssisələrinin formalaşdırılması və inkişaf etdirilməsinə konseptual yanaşmaların tədqiqi**

Qeyd edək ki, Sovetlər Birliyi dövründə iri müəssisələrin hamısı demək olar ki, Moskvaya tabe idi və ittifaq tabeçiliyində idarə olunurdular. Buna görə də istehsal sahələrinin genişləndirilməsi ilə bağlı şərait Azərbaycanda neftkimya kompleksinin daha səmərəli təşkilinə imkan vermirdi. Əsas etibarilə Azərbaycanda xammal təyinatlı məhsulların istehsalı daha çox planlaşdırılırdı. Təsadüfi deyildir ki, Sumqayıt kimya sənaye kompleksində kiçik bir ərazidə kifayət qədər zərərli olan və ekoloji problemlər yaradan 3 xlor istehsalatı fəaliyyət göstərirdi. Əslində burada bir xlor istehsalatının olması kifayət idi. Digər tərəfdən, ətraf mühitdə ekologiya baxımından problemlər yaradan digər kimya zavodlarının da tikintisi Sumqayıtda həyata keçirilmişdi. Buna görə də, daha səmərəli ekoloji cəhətdən əlverişli olan neftkimya kompleksi sahələrinin əlavə istehsal zənciri üzrə inkişaf etdirilməsi Moskvanın maraqlarında deyildi.

Lakin, müstəqilliyimizin bərpasından sonra Azərbaycanda bu məsələlərə yanaşmalar dəyişmişdir və bir çox zərərli müəssisələr, ekoloji baxımdan əlverişsiz olan müəssisələr ləğv edilmiş, civə, xlor istehsalı və digər bu kimi ekoloji problemlərə gətirib çıxaran istehsalatlar tamamilə ləğv edilmişdir. Həmin istehsalatların yerində isə müasir dövrün texnologiyalarına uyğun kimya komplekslərinin yaradılmasına başlanılmışdır. Artıq Azərbaycan regionda ilk dəfə iri kimya sənaye parkını, yəni Sumqayıt Kimya Sənaye parkını formalaşdırmışdır.

Hazırda Sumqayıt Kimya Sənaye Parkında rezidentlərin sayı 35-ə çatmışdır və yatırılan investisiyaların ümumi həcmi 3,3 milyard dollardan çoxdur. Burada 8 min insan işlə təmin edilmişdir. Hesab edirik ki, getdikcə bu imkanklar daha da artacaqdır. Həm də bu fikirdəyik ki, burada istifadə olunmayan ehtiyat mənbələri və neftkimya emal müəssisələrinin daha yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi və onların rəqabət qabiliyyətinin gücləndirilməsi problemləri vardır. Belə ki, Sumqayıt Kimya Sənaye kompleksində, yəni ölkənin əsas neftkimya mərkəzində olan müəssisələrin əksəriyyəti iri müəssisələr, ilk növbədə neftqaz xammalının emalı ilə məşğul olan müəssisələr Azərbaycan Respublikası dövlət neft şirkətinin tabeçiliyində yerləşir. Təəssüf ki, çoxlu sayda kimya və neftkimya məhsullarının istehsal olunduğu bu kompleksdə hazırda istehsal olunan məhsulların sayı xeyli məhdudlaşdırılıb və az miqdarda neftkimya məhsulları istehsal olunur.

Son illərdə iki mühüm və iri kimya müəssisələri istismara verilmişdir və ayrıca olaraq kimya və neftkimya sturukturu kimi formalaşmışdır. Sumqayıtda istismara verilən bu müəssisələr hazırda ölkənin aparıcı qeyri-neft sektoru müəssisələri kimi qiymətləndirilə bilər və hər birinin reallaşdırılmasına 700-800 milyon avro dəyərində investisiyalar yatırılmışdır. SOCAR Polimer, eyni zamanda SOCAR Karbamid kimi iri müəssisələrin istehsal qurğularının tikilməsi, neft və təbii qaz xammallarının emalının genişləndirilmsi ilə nəticələnmişdir. Burada həm ölkəmizin tələbatına uyğun üzvi kənd təsərrüfatı gübrələrinin istehsal edilməsi, həm də çox mühüm yarımfabrikat olan polipropilen istehsalının, eyni zamanda xətti polietilenin, yəni aşağı təyziqli polietilenin istehsalı mümkünləşmişdir.

Demək olar ki, bu məhsullar üzrə ölkəmizdə daxili tələbatı ödəməklə, həm də ixrac potensialı artırılmış, xarici bazarlara rəqabətqabiliyyətli məhsullarla çıxış imkanları genişləndirilmişdir [2 s. 65]. Qeyri-neft sektorunun ixrac potensialının artırılmasında bu iki müəssisənin payı 500-600 milyon dollar həcmində qiymətləndirilir. Amma,

əslində xammal bazasının genişləndirilməsinin mümkün olacağı təqdirdə bu rəqəmin artması da mümkündür. Təəssüf ki, hazırda həmin müəssisələrin hər birinin xammal təminatında müəyyən problemlər vardır. Məsələn, bizə görə, Azərbaycanda nəinki hazıda 600 milyon kub metr təbii qaz xammalı hesabına fəaliyyət göstərən və illik gücü 600 min ton olan karbamid istehsalatının istehsal gücünün artırılması mümkündür. İkinci karbamid istehsalı qurğusunun istismara verilməsi ölkəmizə xeyli əlavə gəlir və valyuta resursları gətirə bilər. Yaxud, SOCAR Polimer kimi çox qiymətli istehsal və emal qurğusunun xammal təminatı aşağı səviyyədədir. Belə ki, hələ 1988-ci ildən istismara verilən unikal qurğu, EP-300 qurğusu hesab edirəm ki, öz texniki resurs imkanlarının tükəndiyi dövründədir və fiziki gücünün xeyli hissəsini itirmişdir. Bu qurğu nə qədər modernizasiya edilsə, təmir olunsa belə yaxın perspektivdə daha müasir texnologiyalar əsasında yeni istehsal emal kompleksini, EP-450 kompleksini və yaxud digər bu qəbildən olan emal komplekslərinin, emal qurğularının ölkəmizə gətirilməsi və neftqaz xammallarının emalı nəticəsində yeni istehsal güclərinin yaradılması olduqca vacib məsələlərdəndir. Bunun vacibliyi onunla bağlıdır ki, hazırda həm istifadəyə verilmiş və müasir texnologiyalar əsaslı SOCAR Polimerin layihə gücü ilə işləməsi, həm də digər yeni istehsal komplekslərinin yaradılması məqsədilə yarımfabrikat bazasının, yəni xammal bazasının formalaşdırılması vacibdir. Təəssüf ki, hazırda modernizasiya olunmuş "EP-300" qurğusu layihə gücünün üçdə biri səviyyəsində işləyir. Yəni bu kompleksin illik xammal emalı gücü 700-800 min ton, hətta biraz da çoxdur. Lakin, kompleksin öz texniki imkanlarını artıq itirməsi və daha yüksək səviyyədə xammal resurslarının ayrılması mexanizminin hələ ki, formalaşdırılmaması səbəbindən burada il ərzində istehsal olunan xammal layihə gücünün qeyd etdiyimiz kimi 30-40 %, başqa sözlə üçdə biri səviyyəsindədir.

Yaxın perspektivdə Azərbaycanda neftkimya emal müəssisələrinin daha rəqabətqabiliyyətli olması və dünya bazarlarına çıxarılması üçün hesab edirik ki, dünya təcrübəsinə daha dərindən müraciət edilməli və yüksək texnologiyalar əsasında qurğuların ölkəmizə gətirilərək istismara verilməsi təmin edilməlidir. Məsələn, Səudiyyə Ərəbistanında - dünyanın neft hasilatı üzrə öndə gedən ölkəsində neftkimya məhsulları istehsalının ümumi dəyəri 100 milyardlarla dollar həcmində ölçülür və burada çox iri neftkimya emal kompleksləri yaradılmışdır. Azərbaycanda da bu kimi təkliflər və fikirlər zaman-zaman səslənmişdir. Lakin, təəssüf ki, bu vaxta qədər nə müasir dünya standartlarına cavab verən neftayırma zavodu, nədə ki, çoxfunksiyalı neftkimya emal kompleksi istismara verilməmişdir. Bu haqda Qaradağ rayonu ərazisində Səngəçalda böyük layihənin olmasına baxmayaraq, hələ də bu istiqamətdə maliyyə resurslarının ayrılması və yaxud investisiyaların cəlb edilməsi məsələləri gecikməkdədir.

Hesab edirik ki, bu baxımdan neftkimya müəssisələrinin idarə edilməsi problemləri də təkmilləşdirilməlidir. Son 10-15 il ərzində bu idarəetmə prosesləri bir neçə dəfə təkmilləşdirilmə proseslərini keçmişdir və idarəetmə mexanizmlərinin yenilənməsi gedir. Yüksək texnologiyalar əsaslı və daha rəqabətqabiliyyətli emal müəssisələrinin yaradılması, həm də dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi hesabına, özəl sahibkarlıq subyektlərinin neftkimya sahəsində rolunun artırılması sayəsində mümkünləşə bilər.

Neftkimya müəssisələrinin innovativ fəaliyyətini aktivləşdirmək üçün əsas vəzifələrdən birinə həmin müəssisələrin qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi və sənayenin ümumi strukturunda elmtutumlu məhsulların xüsusi çəkisinin artırılmasını təmin edən investisiya və innovasiya siyasətinin həyata keçirilməsi daxildir. Hazırda kompleksin müəssisələrinin işgüzar fəallığının artması, əlavə dəyərdə yüksək xüsusi çəkiyə malik innovativ məhsulların buraxılışının xüsusi çəkisinin artması hesabına sənayedə istehsalın həcm və mənfəətini artırmaq mümkündür. Təkcə, innovativ məhsul yaratmaq kifayət deyil, həm də analoji məhsullar istehlakçı tərəfindən qəbul edilməli və təqdir olunmalı səviyyədə rəqabətqabiliyyətli məhsula çevrilməlidir. Buna yalnız istehlakçının nöqteyi-nəzərindən məhsulun alınmasına qərar verərkən onun ən vacib xüsusiyyətlərindən biri olan yüksək keyfiyyətli innovativ aktiv xidmətlərin köməyi ilə nail olmaq olar. Bu xüsusilə yüksək texnologiyalı məhsullar üçün keçərlidir. Buna uyğun olaraq, fikrimizcə bu halda innovativ fəaliyyət, xüsusən də müəssisədə rəqabət mühitini formalaşdıran və müəssisənin rəqabət qabiliyyətini təmin edən mal və xidmətlərin əsas xüsusiyyətlərinə nail olmağa yönəldilməlidir.

Müasir şəraitdə istehsalın səmərəliliyinin və neftkimya müəssisələrinin innovativ fəaliyyətinin artırılmasına yeni texnologiyalar, rəqabətqabiliyyətli neftkimya məhsullarının yeni növlərində ifadə olunan innovasiya proseslərinin inkişafı yolu ilə nail olmaq mümkündür. Bunun üçün dövlətin və xarici investorların dəstəyi tələb olunur. Neftkimya müəssisələrini yüksək innovativ inkişaf səviyyəsinə, rəqabətqabiliyyətli innovativ məhsul istehsalına hazırlamaq və istehsal etmək qabiliyyətinə çatdırmaq üçün daha çox investisiya, o cümlədən xarici investisiyaların cəlb edilməsi, ən son yerli və xarici texnologiyaların, elmi işlərin fəal şəkildə tətbiqi vacibdir.

Digər tərəfdən, avadanlıq və texnologiyanın daim yenilənməsi innovasiya prosesini rəqabətqabiliyyətli məhsul istehsalının, daxili və dünya bazarlarında neftkimya emalı müəssisələrinin mövqelərinin qazanılmasının, qorunub saxlanılmasının, məhsuldarlığının, səmərəliliyinin, innovativ fəallığının artırılmasının əsas şərtinə çevirir. Neftkimya emalı müəssisələrinin inkişafının elmi-texniki və innovativ sferasında əsas məqsədlər resursa qənaət edən yüksək səmərəli texnologiyaların işlənib hazırlanmasına və tətbiqinə, elmi-texniki innovasiyalara tələbatın artırılmasına yönəlmiş innovativ fəaliyyətin stimullaşdırılması, elmi-tədqiqat sahəsində kadr potensialının inkişafı və neftkimya kompleksinin hərtərəfli texniki cəhətdən yenidən təchiz edilməsidir. Lakin, müəssisədə keyfiyyətli idarəetmə sistemi tətbiq edilmədən buna nail olmaq mümkün deyil. Ona görə də neftkimya emalı müəssisələrində tətbiq olunan keyfiyyətin idarə edilməsi sisteminə xüsusi diqqət yetirilməlidir [3, s.310].

Neftkimya emalı müəssisələrinin daxili və xarici bazarlarda istehlakçıların tələblərinə tam cavab vermək, yeni və mövcud satış bazarlarını inkişaf etdirmək, innovativ məhsulların rəqabət qabiliyyətini artırmaq, davamlı mənfəət əldə etmək üçün keyfiyyət idarəetmə sistemi aşağıdakılara yönəldilməlidir:

1. Planlaşdırma və büdcələşdirmə sistemlərini, habelə idarəetmə və vergi uçotunu özündə birləşdirən mərkəzləşdirilmiş idarəetmə sisteminin fəaliyyət göstərməsi və davamlı təkmilləşdirilməsi.
2. Beynəlxalq standartların tələblərinə uyğun keyfiyyətin idarə edilməsi prinsiplərinin mərkəzləşdirilmiş idarəetmə sisteminə inteqrasiyası.
3. Beynəlxalq standartların tələblərinə uyğun keyfiyyətli idarəetmə sisteminin fəaliyyət göstərməsi və davamlı olaraq təkmilləşdirilməsi.
4. Müasir korporativ informasiya sistemindən istifadə.
5. İstehlakçıların gözləntilərinə uyğun olaraq yeni məhsul növlərinin yaradılması və mövcud güclərin genişləndirilməsi.
6. İnnovativ məhsulların keyfiyyətinin yüksəldilməsi, innovativ məhsul və xidmətlərin istehsalının maya dəyərinin azaldılması.
7. Yüksək keyfiyyətli xammal, material, komponentlərin etibarlı təchizatçılarının seçilməsi və təchizatçılarla qarşılıqlı faydalı əsasda yaradıcı əməkdaşlığın inkişafı.
8. Texnoloji pozuntuların, avadanlıqların nasazlığının, insidentlərinin, fövqəladə halların, keyfiyyətsiz xidmət hallarının sayının azaldılması.
9. Müəssisədə bütün işçilərin proseslərin davamlı təkmilləşdirilməsi, innovativ məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi üzrə fəaliyyətə cəlb edilməsi.

Keyfiyyətli idarəetmə sistemi istehsal olunan innovativ məhsulların rəqabətqabiliyyətliliyində aparıcı rol oynayır. Çünki, bu, istehsal prosesinə nəzarət etməyə, mümkün qüsurların qarşısını almağa imkan verir.

Dünya iqtisadi sistemində baş verən qlobal rəqabət mühiti, transformasiyalar neft-kimya sənayesi kimi mütərəqqi istehsal kompleksinin gücləndirilməsini, bu sahədə yeni iqtisadi vasitələrin (məsələn, texnoparkların, xüsusi iqtisadi zonaların və s.) tətbiq edilməsinin və həmin sahənin innovativ əsaslarla inkişafının sürətləndirilməsini zəruri edir. Hazırda demək olar ki, neftkimya emalı müəssisələri iri məhsuldar qüvvələr və səmərəli istehsal sahələrinə malikdir ki, onlardan tam gücü ilə istifadə olunmalıdır. Bundan əlavə, neftkimya emalı müəssisələrinin müasir texnologiyalar əsasında fəaliyyətinin gücləndirilməsi və daim modernləşdirilməsi prosesləri sürətləndirilməlidir [4, s.71]. Çünki, neftkimya emalı sənayesində müasir yüksək texnologiyalı və məhsuldar istehsal sahələrinin yaradılması milli iqtisadiyyatın inkişafına və artım dinamikasına mühüm töhfə verə bilər. Bu sahə geniş zəncirvari təsirə malikdir. Yəni, neftkimya emalı sənayesinin çoxsaylı məhsulları və yarımfabrikatları əsasında əlavə dəyər yarada bilən digər sənaye sahələrinin

təşkili, emal müəssisələrinin genişləndirilməsi, kiçik və orta sahibkarlığın güclü potensialının yaradılması, biznes mühitinin yaxşılaşdırılması və bütövlükdə ölkədə iqtisadi fəallığı artırmaq mümkündür. Respublikamızda bu məqsədlə kompleks tədbirlər həyata keçirilir və gələcəkdə də davam etdirilməlidir [5, s.2].

Məlumdur ki, yüksək texnologiyalar əsasında ölkənin texniki inkişafı neftkimya sənayesində istehsal proseslərinin təkmilləşdirilməsinə kömək edir. Bu, ona olan tələbin və rəqabətqabiliyyətlilik səviyyəsindən, neft-kimya emalı məhsullarının inkişafından asılıdır. Neft-kimya emalı sənayesində istehsal olunan məhsulların təkmilləşdirilməsi məqsədilə onların keyfiyyətinə, çeşidinə və buraxılış həcminə ciddi nəzarət olunmalıdır. Neftkimya emalı sənayesinin rəqabətə davamlı inkişafı bir sıra daxili və xarici amillərdən asılıdır. Xarici amillərə daxildir: 1) bazarda məhsulların rəqabət qabiliyyətini təmin edən xammal və materialların dəyəri əsasında müəssisənin istehsal fəaliyyətinin təşkili; 2) neftkimya emalı müəssisələrinin uzunmüddətli investisiya layihələrində iştirakı; 3) neftkimya emalı sənayesinin davamlı inkişafında dövlət investisiyalarından istifadənin stimullaşdırılması; 4) mütəxəssislərin hazırlanması və yenidən hazırlanması prosesinin təkmilləşdirilməsi. Daxili amillərə aşağıdakılar daxildir: 1) müəssisənin enerji və resursa qənaət edən texnologiyalarının dəfələrlə tətbiqi ilə istehsal; 2) emal məhsullarının istehsalında sərf edilən əmək, material və enerji xərclərinin aşağı səviyyəsi; 3) innovativ texnologiyaların tətbiq hesabına xammalın ehtiyatla emalı; nanotexnologiyaların tətbiqi və s [6, s.108].

Qeyd edək ki, neftkimya emalı müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi yollarından biri kimi onun modernləşdirilməsi çıxış edir. Neftkimya emalı sənayesi daim modernləşdirilməyə ehtiyacı olan əsas sahələrindən biridir. Neftkimya emalı sənayesinin məqsədyönlü modernləşdirilməsi yüksək keyfiyyətli neftkimya emalı məhsullarına tələbatın ödənilməsi imkanlarını əhəmiyyətli dərəcədə yaxşılaşdırmaqla, istehsalda yüksək əlavə dəyərli məhsulların payını artırmaqla ölkə iqtisadiyyatının sabitliyinin təmin edilməsinə əhəmiyyətli töhfə verə bilər. Bunun üçün neftkimya emalı müəssisələrinin modernləşdirilməsinin optimal sxem və mexanizmlərinin seçilməsi və onların həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması ilə bağlı bir çox məsələlərin həlli tələb olunur. Neftkimya emalı sənayesinin texnoloji modernləşdirilməsini stimullaşdıran və onun səmərəliliyinin artırılmasını təmin edən şərait və amillərin müəyyən edilməsinə və təhlilinə diqqət yetirilməsi bu baxımdan əhəmiyyətlidir [7, s.3].

**Yeni şəraitdə Azərbaycanda neftkimya emal müəssisələrinin rəqabətqabiliyyətinin gücləndirilməsi potensialı və istiqamətləri**

Rəqabət qabiliyyətinin bir və ya bir neçə göstərici qrupu üzrə qiymətləndirilməsi münasibdir. Çünki o, müəssisənin sənaye və ya regionda homogen müəssisələr sistemində ümumi reytinq yerini müəyyənləşdirməyə imkan verir. Bu mexanizmin əsas üstünlüyü müəssisənin müxtəlif aspektlərini əhatə edən mürəkkəb göstəricilər sisteminin təhlilinə əsaslanmasıdır. Ümumiyyətlə, neftkimya emalı müəssisəsinin fəaliyyətinin qiymətləndirilməsi və təhlili bir qrup əsas göstəricilər üzrə aparılır: 1. Qeyri-maddi aktivlər. 2. Əsas vəsaitlər. 3. İnvestisiyalar (dövriyyədənkənar aktivlər). 4. Digər uzunmüddətli aktivlər. 5. Maliyyə investisiyaları. 6. Material və istehsal ehtiyatları. 7. İstehsal məsrəfləri. 8. Debitor borcları. 9. Öz kapitalı. 10. Büdcə vəsaitləri və büdcədənkənar fondlar. 11. Kreditor borcları. 12. Maliyyə nəticələri. Yuxarıda qeyd olunan göstəricilər verilən hallar üçün istifadə oluna bilər: 1) Neftkimya emal müəssisələrinin istehsal imkanlarının hərtərəfli qiymətləndirilməsi zamanı onların istehsal güclərinin təkcə ölçüsünü deyil, həm də mütənasibliyini və istifadə səviyyəsini müəyyən etmək; 2) Neftkimya emal müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin daha əhatəli qiymətləndirilməsini aparmaq və 3) Neftkimya sənayesində rəqabətqabiliyyətlilik səviyyəsinin sistemli qiymətləndirilməsi və təhlilini aparmaq.

Cədvəl 1-də neftkimya müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi üçün göstəricilər sistemi verilmişdir.

Neftkimya emalı müəssisələrinin rəqabət qabiliyyətliliyinin artırılması üçün strateji istiqamət kimi məhz müasir yüksək texnologiyalar sisteminin formalaşmasına əsaslanmaqla modernləşdirilməsidir. Ümumiyyətlə, neftkimya emalı müəssisələrinin rəqabət qabiliyyətliliyinin artırılması üçün müasir yüksək texnologiyalar sisteminin formalaşmasına əsaslanan modernləşdirilməsi onların iqtisadi inkişafının lazımi tempini və keyfiyyətini təmin etməyə imkan verir [8, s. 433].

**Cədvəl 1**

**Neftkimya müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi üçün göstəricilərin təsnifatı [8, s.265]**

| Göstərici qrupu | Neftkimya müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin göstəriciləri | Göstəricilər qrupunun xüsusiyyətləri |
|---|---|---|
| 1. Müəssisənin maliyyə-təsərrüfat vəziyyətinin göstəriciləri. | Maya dəyəri.<br>Məhsul satışından daxilolmalar.<br>Satışdan gəlir.<br>Xalis gəlir.<br>Aktivlərin rentabelliyi.<br>Məhsulun rentabelliyi.<br>İstehsalın rentabelliyi.<br>Satışların rentabelliyi.<br>Xüsusi kapitalın rentabelliyi.<br>Mütləq likvidlik.<br>Cari likvidlik.<br>İnventar dövriyyəsi.<br>Debitor borcların (kreditor borcları) dövriyyəsi.<br>Dividend gəlirləri.<br>Müəssisənin bazar (real) dəyəri. | Müəssisənin maliyyə-texniki-iqtisadi vəziyyətinin səviyyəsini göstərir. |
| 2. İstehsalın istehsal-texnoloji səviyyə göstəriciləri. | Neftin emalı dərinliyi.<br>İkinci dərəcəli proseslərin və ilkin neft emalı aqreqatlarının faktiki yükü əmsalı. | İstehsal texnologiyalarının mütərəqqi istifadə səviyyəsini əks etdirir. |
| 3. Müəssisənin istehsal imkanları göstəriciləri | Orta illik istehsal gücü.<br>Əsas fondlardan yüklənmə əmsalı.<br>İstehsalın mərhələləri üzrə istehsal güclərinin mütənasiblik əmsalı. | İstehsal güclərinin ölçüsünü, mütənasibliyini və istifadə səviyyəsini xarakterizə edin |

Qeyd edək ki, müəssisənin rəqabət qabiliyyətinin qiymətləndirilməsində istifadə olunan matris üsulları hər bir metod üçün xüsusi olan koordinat sistemində matrislərin qurulmasına əsaslanır ki, bu da ən çox bazarın inkişaf sürətini və məhsulun və ya müəssisənin mövqeyini əks etdirir. Müəssisə sürətlə inkişaf edən bazarda nə qədər çox paya malikdirsə, bir o qədər rəqabətə davamlıdır. Digər üsullar qrupu effektiv rəqabət nəzəriyyəsinə əsaslanır. Bu üsullara görə, iqtisadi fəaliyyətin göstəriciləri şirkətin bazarda rəqabətli mövqeyini müəyyənləşdirməyə imkan verir, onun maliyyə, innovativ sabitliyini, zamanla rəqiblərin təzyiqinə tab gətirmək qabiliyyətini əks etdirir. Bu metodlar qrupunun üstünlüyü hesablamaların sadəliyindədir. Bununla belə, bu üsullardakı göstəricilər işlərin keçmiş və ya cari vəziyyətini əks etdirir və makro-ekoloji amilləri nəzərə almır.

**Rəqabət qabiliyyətliliyin qiymətləndirmənin bu metodları dörd qrup göstəriciyə əsaslanır:** 1) müəssisənin istehsal fəaliyyətinin səmərəliliyi (məhsul vahidinə istehsal xərcləri, kapitalın məhsuldarlığı, rentabellik, əmək məhsuldarlığı); 2) müəssisənin maliyyə vəziyyəti (muxtariyyət əmsalı, ödəmə qabiliyyəti əmsalı, mütləq likvidlik əmsalı, dövriyyə vəsaitlərinin dövriyyəsi əmsalı); 3) əmtəə və ya xidmətlərin satışının və təşviqinin təşkilinin səmərəliliyi (satışın rentabelliyi, məhsulların həddən artıq yığılması əmsalı, istehsal güclərindən istifadə olunma əmsalı, reklamın və satışın fəaliyyətinin təşviqinin effektivlik əmsalı); 4) malların rəqabət qabiliyyəti (malların keyfiyyəti, malın qiyməti) və s.

**Nəticə**

Yaxın perspektivdə Azərbaycanda neftkimya emal müəssisələrinin rəqabət qabiliyyətinin gücləndirilməsi baxımından bir sıra təklifləri irəli sürməyi vacib hesab etmişik:

1. İlk növbədə Azərbaycanda neft və təbii qaz xammalının neftkimya emal müəssisələrində emal olunması və yeni əlavə dəyər mənbələrinin formalaşdırılması məsələlərinə konseptual yanaşmalar yenidən baxılmalı və bununla bağlı müvafiq qərarlar qəbul olunmalıdır.
2. Azərbaycanda neftkimya emal müəssisələrinin dünya bazarlarında daha rəqabət qabiliyyətli olması üçün hazırda istismarda olan "EP-300" qurğusunun istismardan çıxarılması və yeni müasir neftkimya emal kompleksinin yaradılması istiqamətində əsaslandırılmış investisiya-innovasiya layihəsi hazırlanmalı və həyata keçirilməlidir.

3. Ölkənin neftkimya emal müəssisələri arasında rəqabət qabiliyyətinin gücləndirilməsi üçün özəl sektorun təbii qaz və neft xammalı resurslarına çıxışı təmin olunmalı, bu sahədə özəl investisiyaların cəlb edilməsi stimullaşdırılmalıdır.

4. Azərbaycanda təbii qaz və neft xammalının resurslarının müəyyən hissəsinin neftkimya emal kompleksinə göndərilməsi hədəflərinin dəqiqləşdirilməsi və bununla bağlı ölkənin enerji balansında daha dəqiq hesabatların aparılması və bu istiqamətdə əlavə dəyər yaratmaq gücünə malik olan istehsal sahələrinin tikilməsinin planlaşdırılması və bu proseslərə neftkimya sahəsində dünyada öncül texnologiyalara malik şirkətlərə və holdinqlərə müraciətlərin edilməsi, onların ölkəmizə gəlməsi və investisiyalar yatırılması məsələlərinə baxılmalı, bununla bağlı beynəlxalq əməkdaşlıq gücləndirilməlidir və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Əliyev, Ş.T. Azərbaycanın kimya və neftkimya komplekslərinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı: Elm və təhsil, – 2012, – 156 s.
2. Əliyev, Ş.T. Azərbaycanda qeyri-neft sənayesinin şaxələndirilməsi və ixrac potensialının artırılması istiqamətləri. Audit № 4, cild 26, 2019, – s. 61-73.
3. Шинкевич, А.А. Управление качеством инноваций в нефтехимической промышленности / А.А.Шинкевич, В.Р.Медведева, Р.Р.Халитов // Вестник Казанского технологического университета. – 2014. – Т. 17. № 21, – с. 305-311.
4. Əliyev, Ş.T. Azərbaycanın kimya və neftkimya kompleksi: potensialın qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı: Elm və təhsil, 2012, – 156 s.
5. Kazımova, Ə.X. Ağir sənaye sahələrinin inkişafının ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsində strateji əhəmiyyəti // "Geostrategiya" jurnalı, Bakı, 2018 № 01 (43).- s.37-39. https://www.elibrary.az/docs/jurnal/jrn2018_30.pdf.
6. Səmədova, T. Rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiyanın rolu // İpək yolu, 2017. №3, – s.106-113.
7. Золотухина, Т.В. Организационно-экономическое обеспечение модернизации предприятий нефтеперерабатывающей промышленности. Дисс. к.э.н. Нижний Новгород, 2014, – 27 с.
8. Aliyev, Sh.T. Strategic role of Sumgayit in the development of petrochemical industry of Azerbaijan / The International Conference on Actual Problems of Chemical Engineering - APCE 2020. - Azerbaijan State of Oil and Industry University. 24-25 december 2020. p.430-435.

**Аида Зияд гызы БАХТИЯРОВА,**
докторант Азербайджанского Государственного Университета Нефти и Промышленности.
E-mail: aida.baxtiyarovaa1@gmail.com.

## ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ВОПРОСЫ УСИЛЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ НЕФТЕПЕРЕРАБАТЫВАЮЩИХ ПРЕДПРИЯТИЙ В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

Целью исследования является рассмотрение теоретико-методологических и практических вопросов усиления конкурентоспособности нефтехимических предприятий Азербайджана в современных условиях. С этой целью раскрыты важнейшие проблемы повышения конкурентоспособности нефтеперерабатывающих предприятий, которые замедляют их развитие и выход на внешний рынок. Обоснована необходимость усиления трансфера высоких технологий и сдачи эксплуатацию более конкурентоспособных нефтехимических комплексов по переработке нефти и природного газа. Рассмотрены перспективные направления развития усиления конкурентоспособности нефтехимических предприятий Азербайджана в ближайшей перспективе. Подготовлены соответствующие предложения и рекомендации. Методология исследования заключается в общеизвестных экономических методах - синтеза, сравнения, статистики и обобщения. Кроме того, рассмотрены мнения и подходы разных учёных и

исследователей, которые рассматривали проблемы усиления конкурентоспособности нефтехимических предприятий в нынешних условиях. Практическая значимость исследования заключается в возможности применения научно-практических доводов данной статьи в организации и реализации более эффективных механизмов усиления конкурентоспособности нефтехимических предприятий Азербайджана. Результаты исследования заключаются в эффективном использовании полученных научных и практичных результатов исследования в разработке и реализации более эффективных механизмов и усилении стратегий деятельности для повышения конкурентоспособности нефтехимических перерабатывающих предприятий в Азербайджане. Оригинальность исследования и научная новизна исследования – материалы, использованные в статье, рассматриваются на основе конкретных анализов и обогащены авторскими подходами. В качестве основной научной новизны можно рассмотреть разработку и формирование более современных теоретико-методологических и практических подходов к усилению конкурентоспособности нефтехимических предприятий Азербайджана. Обоснована необходимость интенсификации трансфера более современных технологий, которые могут способствовать эффективной переработке сырьевых ресурсов нефти и газа Азербайджана и, тем самым, смогут создать более эффективную среду деятельности в сфере нефтехимического комплекса страны. Подготовлена группа предложений и рекомендаций по усилению конкурентоспособности нефтехимических предприятий Азербайджана для активного выхода на мировые рынки.

**Ключевые слова:** Азербайджан, нефтехимия, нефтехимические предприятия, конкурентоспособность, усиление конкурентоспособности, теоретико-методологические аспекты, практические вопросы.

**Aida Ziyad BAKHTIYAROVA,**
**Doctoral student of Azerbaijan State Oil and Industry University,**
**E-mail: aida.baxtiyarovaa1@gmail.com**

## THEORETICAL, METHODOLOGICAL AND PRACTICAL ISSUES OF STRENGTHENING THE COMPETITIVENESS OF PETROCHEMICAL ENTERPRISES IN AZERBAIJAN

**Summary**

The purpose of the research is to consider theoretical, methodological and practical issues of strengthening the competitiveness of petrochemical enterprises in Azerbaijan in modern conditions. The most important problems of increasing the competitiveness of petrochemical enterprises are revealed, which slow down their development and entry into the foreign market. The need to strengthen the transfer of high technologies and the commissioning of more competitive petrochemical complexes for the processing of oil and natural gas is justified. Promising directions for the development of strengthening the competitiveness of petrochemical enterprises of Azerbaijan in the near future are considered. Appropriate proposals and recommendations are given then. The research methodology consists in well-known economic methods - synthesis, comparison, statistics and generalization. In addition, the opinions and approaches of various scientists and researchers who considered the problems of strengthening the competitiveness of petrochemical enterprises in the current conditions are considered. The practical significance of the research lies in the possibility of using the scientific and practical arguments of this article in the organization and implementation of more effective mechanisms for strengthening the competitiveness of petrochemical enterprises in Azerbaijan. The results of the research consist in the effective use of the obtained scientific and practical results of the study in the development and implementation of more effective mechanisms and strengthening operational strategies to increase the competitiveness of petrochemical processing enterprises in Azerbaijan. The originality of the research and the scientific novelty of the research - the materials used in the article are considered on the basis of specific analyzes and enriched by the author's approaches. The main scientific novelty can be considered the development and formation

of more modern theoretical, methodological and practical approaches to strengthening the competitiveness of petrochemical enterprises in Azerbaijan. The need to intensify the transfer of more modern technologies that can contribute to the effective processing of oil and gas raw materials of Azerbaijan and, thus, will be able to create a more effective environment in the field of petrochemical complex of the country. A group of proposals and recommendations to strengthen the competitiveness of petrochemical enterprises in Azerbaijan for active access to world markets are given in the end of the article.

**Key words:** Azerbaijan, petrochemicals, petrochemical enterprises, competitiveness, strengthening of competitiveness, theoretical and methodological aspects, practical issues.

**Əligül Ağasalam oğlu AĞAYEV**
Azərbaycan Dövlət İqtisad Universiteti
Doktorant
E-mail: aligul.agayev@yahoo.com

# AZƏRBAYCANIN TURİZM KLASTERİNİN DİVERSİFİKASİYASI ÜZRƏ DÖVLƏT VƏ ŞİRKƏT TƏDBİRLƏRİ

**Xülasə**

Regional turizm bazarının rəqabət qabiliyyətinə bir çox amillər təsir edir, məsələn: dövlət maraqları, xarici və daxili tələbatın vəziyyəti, sosial-iqtisadi sistem, turizm siyasəti, biznesin maraqları, əhalinin, resursların mövcudluğu və ekoloji sistem vəziyyəti. Azərbaycan klaster siyasətinin məqsədi yeni fəaliyyət məqsədlərinə və şəraitə uyğun olaraq ətraf mühiti transformasiya etməkdir. Eyni zamanda, turizm klasterlərinin əsas funksiyası regionlarda sosial və iqtisadi artımın keyfiyyətinin yüksəldilməsi olacaq ki, bu da bunun üçün xüsusi şərait yaradacaq, regional klasterləri formalaşdıran təsərrüfat subyektlərinin rəqabət qabiliyyətini artıracaqdır. Ölkədə turizm klasterlərinin rəqabətliyiyinin və inkişafının təmin edilməsi bir sıra makro və mikro iqtisadi amillərdən aslıdır. Bu səbəblə məqalədə Azərbaycanda turizm klasterinin diversifikasiyası üzrə dövlət və şirkət tədbirləri nəzərdən keçirilmiş və təhlil aparılmışdır.

**Açar Sözlər:** Turizm, turizm klasteri, diversifikasiya

**UOT:338**
**JEL: L83**

**Giriş**

Klasterlər bir növ innovativ sistemlərdir və regionların səmərəli iqtisadi inkişafı üçün əsas ola bilər. Klaster yanaşmasının istifadəsi biliklərin inteqrasiyasının yeni formalarını yarada, innovativ və elmi-texniki sahələrin yaranmasına, onların kommersiya tətbiqinə təkan verə biləcək kifayət qədər perspektivli əsas ola bilər ki, bu da dolayı yolla təhsil, elm və biznesi dəstəkləyəcək. Turizm klasterlərinin uğurla fəaliyyət göstərməsi üçün innovativ texnologiyalar əsasında perspektivli layihələrə investisiya yatırmağa qadir olan kiçik biznes strukturlarını birləşdirmək lazımdır [4, s.1].

Bir qayda olaraq, turizm regional qonaqpərvərlik sənayesinin inkişafında multiplikativ effekt yarada bilən sənaye kimi qəbul edilir və o, həm də sosial-iqtisadi inkişafın qısamüddətli və uzunmüddətli planlarının həyata keçirilməsi üçün əsas ola bilər.. Turizmin uğurlu inkişafı üçün bazar şərtləri çərçivəsində bələdiyyə və regional hökumətlərin, turizm şirkətlərinin fəaliyyətini əlaqələndirmək lazımdır [5, s.13].

İnkişaf prosesində klaster təcrid olunmuş sənayelərdən ona axan iqtisadi resurslara təsir göstərir. Müxtəlif ölkələrin təcrübəsinin göstərdiyi kimi, turizmin inkişafı ilə dövlət, yəni dövlət dəstəyi arasında birbaşa əlaqə mövcuddur. Turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsi turizm sektorunun qlobal bazarda bərabərhüquqlu sənaye kimi məhsuldar fəaliyyət göstərməsinə imkan verəcək hüquqi bazanın yaradılmasını nəzərdə tutur.

İqtisadi inkişafın hazırkı mərhələsi həm regional, həm də milli səviyyədə turizm siyasətinin əlaqələndirilməsini təmin edən vahid milli mexanizm olmadan mövcudluğun qeyri-mümkünlüyündən danışır. Azərbaycan turizm sektorunun strategiyasını inkişaf etdirmək və yerli kurortların cəlbediciliyini artırmaq üçün yanaşmalardan biri Tufan dağ turizmi klasterinin layihəsidir. Hökumətin ən yüksək səviyyələri tərəfindən təsdiqləndi. Dövlət başçısı Avropa təcrübəsindən istifadənin və tətbiqinin zəruriliyi fikrini bildirdi. Beləliklə, dövlət başçısının sözlərinə görə, ölkədə, dünya iqtisadiyyatında mövcud vəziyyətlə əlaqədar olaraq, biz təcili olaraq Qafqazda dağ-iqlim və turizm-rekreasiya klasterləri yaradılmalıdır [7, s.122].

Regional Turizm Agentlikləri öz fəaliyyətlərini turizm sahəsində qanunvericilik və normativ-hüquqi bazanın inkişafına yönəldirlər. Bunun üçün onlar turizm infrastrukturunun həyata keçirilməsi üçün lazımi şərait yaradırlar və bununla da investisiya cəlb edirlər, ölkənin kifayət qədər turizm ehtiyatlarına və turizm məhsulunun ölkə və beynəlxalq bazarlarda daha da tanıtımı üçün

imkanlara malik region kimi yerləşdirirlər. Regionlarda klaster siyasətində səriştəli iqtisadi və təşkilati-hüquqi yanaşmaların həyata keçirilməsi ilə ayrı-ayrı ərazilərin qeyri-bərabər inkişafının xüsusiyyətlərini uğurla aradan qaldırmaq, yerli büdcəyə əlavə daxilolmalar hesabına rayon iqtisadiyyatını dirçəltmək üçün prosedurları həyata keçirmək mümkündür. O cümlədən infrastrukturun yaxşılaşdırılması, əhalinin məşğulluğunun təmin edilməsi, əmək qabiliyyətli əhalinin xarici miqrasiyasının qarşısının alınması, yerli sənaye və sahibkarlığın dəstəklənməsi, yerli istehsalçıların mallarına tələbatın təmin edilməsi, ekoloji proqramların əlavə maliyyələşdirilməsi hesabına ekoloji vəziyyətin yaxşılaşdırılması mümkündür.

Hazırda Turizm Dairəsində birbaşa xarici investisiyaların və xarici iqtisadi inteqrasiya aktivlərinin cəlb edilməsinə səbəb olan turizm-rekreasiya klasteri formalaşır, yəni deyə bilərik ki, turizm klasteri ölkəyə investisiya cəlb etmək üçün alətə çevrilə bilər. Bu gün turizm və rekreasiya klasteri formalaşma mərhələsindədir, orta iqtisadi inkişaf səviyyəsinə malik sistemlə təmsil olunur. Əlverişli şərait yaradılarsa, turizm və rekreasiya sənayesi iqtisadi sabitləşmənin və regionun iqtisadiyyatının inkişafının hərəkətverici qüvvəsinə çevrilə bilər. Azərbaycan turizmin demək olar ki, bütün mövcud növlərini təklif edə bilər: tibbi, sağlamlıq, çimərlik, əyləncə, etnik, təhsil, ekstremal və s. Bu gün klasterlərdə ən son idarəetmə texnologiyalarının tətbiqi sistematik olaraq regional strategiyalarda, rəqabətqabiliyyətli klasterlərin yaradılması və inkişafına dair qərarlarda təcəssüm olunur, çünki regional turizm və rekreasiya klasterlərinin formalaşdırılması ölkədə idarəetməyə mühüm yanaşmadır. Buna görə də, bu dəyişikliklər birbaşa turist qəbul edən turizm şirkətlərinin səmərəli fəaliyyətini təmin etməklə yanaşı, onların öz aralarında rəqabət qabiliyyətini də artırmaq üçün yeni biznes şəraitinə uyğunlaşmağın zəruriliyindən birbaşa danışır [8, s.251].

Mövcud qeyd-şərtsiz potensiala və ayrı-ayrı istiqamətlərin kifayət qədər təchizatına baxmayaraq, turizm-rekreasiya klasterinin obyektləri vahid mexanizm kimi işləməli, yəni əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməlidir. Tətbiqi klaster yanaşması dövlət-özəl tərəfdaşlığın müxtəlif formalarının inkişafını, proqramın həyata keçirilməsini və məqsədyönlü idarəetmə üsullarını nəzərdə tutur. Azərbaycan turizm klasterləri səviyyəsində dövlət idarəetmə sistemində bu cür yanaşmalar artıq öz tətbiqini tapmışdır, bu baxımdan turizm və istirahət obyektlərinə əhəmiyyətli özəl investisiyaların cəlb edilməsi üçün bütün şərait yaradıla bilər.

**Dövlət və şirkət tədbirləri**

Azərbaycanda davam edən klaster siyasəti regionda turizm sənayesinin keyfiyyətcə inkişafı və bütövlükdə ölkənin inkişafının iqtisadi səviyyəsinin yüksəldilməsi üçün zəruri olan bir sıra vəzifələrin həlli üçün əsas rıçaq ola bilər. Qeyd edək ki, böyük turist axınını cəlb etmək üçün təbii attraksionlar, mədəniyyət abidələri və memarlıqdan əlavə forumlar, konqreslər, müsabiqələr, tədbirlər də təşkil etmək və keçirmək lazımdır. Azərbaycanın turizm və rekreasiya kompleksinin obyektiv rəqabət üstünlüklərindən tam istifadə etmək üçün təşkilati, intellektual və maddi resursları aşağıdakı prioritet strateji sahələrdə cəmləşdirməkdədirlər [11, s.1]:

- maraqların stimullaşdırılması və uyğunlaşdırılması mexanizmlərinin daxil edilməsini, habelə normativ hüquqi bazanın, vergi sisteminin və kredit siyasətinin təkmilləşdirilməsini nəzərdə tutan institusional mühitin inkişafı;
- turizm sahəsində yüksək ixtisaslı kadrların hazırlanması;
- turizm biznesinin diversifikasiyası, yəni yeni turizm məhsullarının və eksklüziv marşrutların inkişafı;
- turizm xidmətlərinin və regional turizm məhsullarının beynəlxalq bazarlarda təşviqi üçün təşkilat;
- dəniz turizmi və rekreasiya sahəsində regionlararası və beynəlxalq əməkdaşlığın inkişafı;
- müxtəlif kateqoriyalı cəlbedici turizm zonalarının olması ilə əlaqədar turizm və rekreasiya klasterlərinin yaradılması.

Bununla əlaqədar olaraq, turizm klasterlərinin tənzimlənməsi üçün zəruri olan mexanizmləri hazırlamaq lazımdır.

Respublikasında turizm hazırda kifayət qədər sabit inkişaf templəri ilə xarakterizə olunur. Lakin məkan baxımından bu inkişaf son dərəcə qeyri-bərabərdir. Təklif olunan turizm məhsulları kompleksinə yalnız qismən tələbat var. Əsas turist yükü turistləri cəlb edən ən məşhur və ənənəvi mərkəzlərdən yalnız bir neçəsinin üzərinə düşür.

Turizm kompleksinin inkişafında məkan disproporsiyalarının səbəblərindən biri Azərbaycan Respublikasının ərazisinin turizm və rekreasiya resurslarının və turizm infrastrukturunun yerləşmə xüsusiyyətləri və təminat dərəcəsi baxımından əhəmiyyətli dərəcədə fərqlənməsi ilə xarakterizə olunur [5, s.11].

Turist-rekreasiya ehtiyatlarının növlərinin mövcudluğundan və birləşməsindən və turist cəlbediciliyi amillərindən, habelə turizmin təşkili səviyyəsindən asılı olaraq, region daxilində müxtəlif ərazi vahidləri fərqləndirilə bilər. Onlar onlara tətbiq olunan regional siyasət alətləri, yerləşdirmə səviyyəsi və metodları, turizm və rekreasiya fəaliyyətinin intensivliyi ilə fərqlənəcəklər. Belə ərazi vahidləri kimi turizm zonasını, turizm zonasını və turizm mərkəzini ayırmaq olar. Klasterin formalaşması üçün xarici şəraitin öyrənilməsi onun formalaşması üçün əlavə imkanların və maneələrin müəyyən edilməsinə kömək edir. Xarici şərtlərə aşağıdakılar daxildir: təbii (coğrafi yer, parklar, qoruqlar, göl sistemi), ekoloji (qoruqlar), sosial-mədəni (tarixi hadisələr, yarmarkalar), institusional və hüquqi (turizmdə qanunvericilik, turizm və region haqqında informasiya sistemləri, ətraf mühitin mühafizəsi), o cümlədən klasterin transsərhəd imkanlarının qiymətləndirilməsi kimi: sərhədi keçmənin asanlığı (sadələşdirilmiş viza rejimi), sərhəd keçidlərinin sayı, sərhəd rejiminin zəifləməsi (rahat və sürətli sərhəd keçidi) [6, s.3].

Turizmin və turizm klasterlərinin inkişafında dövlət orqanlarının iştirakına xüsusi diqqət yetirilməlidir, burada dövlət investisiyaların təminatçısı kimi çıxış etməli və əlverişli investisiya mühiti yaratmalı, bununla da "iqtisadi artım nöqtəsi" formalaşmalıdır. Turizm klasterlərinin inkişafı sahəsində xarici təcrübənin göstərdiyi kimi, hətta ən məşhur və inkişaf etmiş klasterlərin də dövlət və bələdiyyə strukturlarının dəstəyinə ehtiyacı var. Turizm sənayesinin inkişafına meylli istənilən ərazinin tədqiqi həmin ərazidə biznesdən investisiyaların hesablanması və yatırılması üçün metodoloji əsas yaratmağa, sosial tərəfdaşlıqda iştirak edən bütün tərəflərin (dövlət, biznes, əhali) maraqlarına riayət etməyə imkan verir. [12, s.23]

**Cədvəl.1**

**Azərbaycanda turizm xidmətlərinin xüsusiyyətləri [2, s.121]**

| Turizm xidmətlərinin fəaliyyətinin xarakteri | | Əhalinin xidmət növlərinə tələbatı | Səyahət xidmətləri təklif olunur |
|---|---|---|---|
| | Hiss olunan hərəkətlər | • turizm;<br>• səhiyyə;<br>• sağlamlıq mərkəzləri;<br>• Sərnişin daşımaları;<br>• otellə təminat;<br>• iaşə (restoranlar, kafelər, bistrolar);<br>• bərbər xidmətləri | • nəqliyyat;<br>• reabilitasiya;<br>• yeməklərin hazırlanması və xidməti;<br>• mehmanxana otaqlarının təmin edilməsi;<br>• avadanlıqların təmiri və quraşdırılması;<br>• ərazinin təmizlənməsi;<br>• təmizləmə və camaşırxana;<br>• təhlükəsizlik;<br>• kömək |
| | qeyri-maddi hərəkətlər | - müşahidə, dialoq, selfi və fotosessiya, habelə onların işlənməsi; - muzeylərə və attraksionlara səfərlər; - malların və xidmətlərin alınması üçün nağdsız ödəniş; - təhlükəsizlik. | -TV; - yayım - reklam fəaliyyəti; - informasiya texnologiyaları; - banklar və hesablaşma əməliyyatları; - hüquqşünas məsləhəti; - sığorta. |

Turizm sənayesinin səmərəliliyinin artırılmasına nail olmaq üçün vacib addım bütün bu qrupların maraqlarının nəzərə alınmasıdır. Bu, istehlak bazarının öyrənilməsi, onların meyl və üstünlüklərinin müəyyən edilməsi, daha sonra yeni turist xidmətlərinin təklif edilməsi - zamanla ayaqlaşan turizm agentliklərinin vəzifəsidir.

**Cədvəl.2**

**Azərbaycanda turizm xidmətlərinin marketinq strategiyaları**

| Marketinq Stratifikasiyası Strategiyası | Fərqləndirmənin marketinq strategiyası |
|---|---|
| Həm inkişafı, həm də köhnə və yeni bazarlarda təbliği üçün xeyli xərc tələb edən tamamilə yeni turpaketlərin hazırlanması (yeni festivallar, sərgilər, istehlak mallarının, sənətkarların, sənətkarların satışı, tibbi turlar üçün yeni marşrutların təşkili və s.) ;<br>Beynəlxalq səviyyəli yeni turizm xidmətlərinin inkişafı - milli idman yarışları, teatr tamaşaları, orta əsr kəndləri və s.);<br>Yeni tur paketlərini beynəlxalq səviyyədə tanıtmaq üçün tanıtım tədbirlərinin hazırlanması. | Müəyyən edilmiş turpaketlərin müxtəlifliyi;<br>Köhnə və hələ də təsirli olan turpaketlərin istehlakçıların müxtəlif təbəqələri üçün uyğunlaşdırılması (mühafizəkarlar, yaşlılar və ya yeniyetmələr üçün);<br>Korporativ alıcılar və ya ailə bayramları üçün turizm xidmətlərinin birləşməsi;<br>Xidmətlərin çeşidinin artırılması: ekoturizm, kulinariya turizmi və s.-də marşrutların müxtəlifliyi;<br>Yoxsulların turizm xidmətlərinə daxil edilməsi – yoxsullar üçün qiymətlərin aşağı salınması, varlılar üçün isə qiymətlərin artırılması. |
| Diversifikasiya Marketinq Strategiyası | Ləğv etmə Marketinq Strategiyası |
| Turizm xidmətlərinin təkmilləşdirilməsi və beynəlxalq səviyyəyə çatdırılması;<br>Əcnəbilər üçün onların düşüncə xüsusiyyətlərini nəzərə alaraq yeni turpaketlərin hazırlanması;<br>Yeni istehlakçılar üçün köhnə turizm xidmətlərinin inkişafı. | Səyahət agentliyi qlobal səviyyəyə çatıbsa, ölkə daxilində turpaketlərdən imtina;<br>ekoturlar və kulinariya turizmi üçün paketlərin uzunmüddətli təklifi. |

Mənbə: [1-3] məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Milli turizm müəssisələri, bir qayda olaraq, turizm məhsullarının təşviqi zamanı eyni vaxtda bir neçə strategiya tətbiq edirlər. Belə görünür ki, turizm məhsullarının çeşidini seçərkən və onları formalaşdırarkən bütün üstünlüklər, zəruri bazar şəraiti, təşkilatlanma və idarəetmə tələbləri, sabitliyi pozan amillər nəzərə alınır. Ancaq əslində, bir çox turizm agentlikləri eyni səhvləri təkrar-təkrar edirlər, o cümlədən [8, s.17]:

- Turizm müəssisəsinin ölçüsündən asılı olmayaraq, onların hamısı həm xarici səfərlərlə, həm də ölkə daxilində turpaketlərlə məşğul olurlar ki, bu da bütün sahələr üzrə ixtisaslaşmağa məcbur olduğundan agentliklərin özləri üçün böyük narahatlıq yaradır. Bu da öz növbəsində bir daha sübut edir ki, son 28 ildə turizm agentlikləri öz marketinq strategiyasını formalaşdıra bilməyiblər və təsadüfi inkişaf edirlər;
- Agentliklər vaxtaşırı müəyyən edilmiş turpaketlərdən imtina edirlər, çünki zaman keçdikcə bu turpaketlər ucuzlaşır və bu, turoperatorlar üçün sərfəli deyil;
- Agentliklər hər 3-4 ildən bir istiqamətlərini dəyişirlər ki, bu da təcrübəli turistlər üçün cəlbedicidir, lakin konservant qruplardan olan istehlakçılar üçün çox baha başa gəlir;
- Məhsulların geniş çeşidi ilə agentliklər bütün təkliflər (məhsullar) portfelini aktivləşdirir, lakin onların hamısı həyata keçirilmir;
- Agentliklər tez-tez turistlərin təhlükəsizliyinin təmin edilməsi məsələləri ilə üzləşirlər.

Buraya turistin özünün və ailə üzvlərinin təhlükəsizliyi, yəni. fiziki təhlükəsizlik, həmçinin valyutaların konvertasiyası zamanı təhlükəsizlik, habelə bank kartlarından istifadə zamanı təhlükəsizlik. Təbii ki, Azərbaycanda səyahətçilərə restoranlarda yerləşmə və yemək haqqını ödəyərkən, mal alarkən güzəştlər verən bank kartları yoxdur [2, s.123].

Bu problemlərin həlli uzunmüddətli, hərtərəfli və sistemli iş tələb edir. Məhz eyni iş rayonlardakı respublikanın turizm mərkəzlərinin böyük əksəriyyətinin məişət tullantılarının yığılması və utilizasiyası üçün müasir avadanlıq və kanalizasiya sistemləri ilə təmin olunmasını tələb edir. Azərbaycanda turizmin inkişafının əsas strateji prioritetləri aşağıdakılara əsaslanır [9, s.13]:

- yeni fəaliyyət sahələrinin inkişafı;
- turizm məhsullarının yeni növlərinin inkişafı;
- yeni bazarları fəth etmək.

Bu baxımdan, Azərbaycan turizm agentlikləri öz fəaliyyətlərini təkmilləşdirmək, innovativ inkişaf etdirmək və turizm xidmətlərinin göstərilməsi üzrə dünya bazarlarında mövqelərini möhkəmləndirmək üçün bir sıra marketinq strategiyalarına yiyələnməli olurlar. Müəllif marketinq strategiyalarını tərtib etmək üçün SWOT matrisindən istifadə etməyi təklif edir. Seçilmiş turizmin inkişafı prioritetlərindən hər hansı biri ərazilərin və turizm müəssisələrinin resurs potensialının təhlilini tələb edir (Turizm resursları dedikdə, turizm məhsulu yaratmaq üçün əlverişli təbii və yaradılmış obyektlərin məcmusu başa düşülür). Təhlillərin nəticələrinə görə, Azərbaycanın regionları və turizm obyektləri, məsələn, turist-ekskursiya xidmətlərinin təşkili üçün şəraitin olması, mövcud turlara daxil edilmək üçün turizm müəssisələrinin vəziyyətinə görə və s. əldə edilmiş nəticələr əsasında turizm məhsullarının təşviqinin stimullaşdırılmasının əsas vasitə və üsullarını müəyyən etmək mümkündür [10, s.31].

**Nəticə**

təhlilinin nəticələri resurs potensialından istifadənin səmərəliliyinin artırılmasının zəruriliyini göstərir. Turist resursunun yerləşdiyi ərazinin, onun əsas xüsusiyyətlərinin və funksional təyinatının yoxlanılması zamanı obyektin vəziyyətinə, ölçüsünə və digər texniki xüsusiyyətlərinə, onun yaranma mənbələrinə əsaslanaraq onun üzərinə düşən maksimum icazə verilən yük mühüm (effektiv idarəetmə üçün) mühüm rol oynayır. Turizm resursları haqqında məlumatların toplanması, emalı və sistemləşdirilməsi turizm resurslarının xüsusi reyestrinin formalaşdırılmasını tələb edir. Turizm xidmətlərinin səmərəliliyi üçün turizm agentliklərinin informasiya təminatının yaxşılaşdırılması lazımdır. Turizm resurslarının idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə turizm ehtiyatlarından istifadəyə nəzarəti gücləndirmək, icazə verilən maksimum yükləri müəyyən etmək lazımdır. Turizm məhsullarının təşviqi üçün perspektivli hədəf bazarları yaratmaq üçün onların risklərini, rəqiblərin mövcudluğunu və davranışlarını nəzərə almaq lazımdır.

Beynəlxalq əməkdaşlıq Azərbaycanda turizm bazarının inkişafına belə təsir göstərir: digər ölkələrin turizm və digər sənaye sahələrinin nümayəndələri turizm sektoruna cəlb olunur, yerli rəqabətli iştirakçıların canlanması, birləşmə və satınalma proseslərinin artması müşahidə olunur. turizm şirkətlərinin fəaliyyəti, elmi və texnoloji nailiyyətlərin sənayeyə tətbiqi, dünyanın turizm sənayesində aparıcı mütəxəssislərin təcrübəsindən istifadə etmək mümkün olur.

Azərbaycanın turizm sektorunda müsbət tendensiyanın yaranmasının əsas səbəbləri dövlət tərəfindən orada aparılan islahatlar, beynəlxalq görüşlər, dünyanın müxtəlif ölkələrində keçirilən tədbir və sərgilərdə Azərbaycanın yüksək səviyyədə təmsil olunmasıdır.

Ölkəmizin ÜTT, Avropa İttifaqı, YUNESKO, İSESKO, BMT, TÜRKSOY, MDB, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı və s. kimi beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyəti bizə imkan verir ki, Azərbaycanın mədəni və tarixi dəyərlərini dünya ictimaiyyətinə tanıtaq və tanış edək.

Bu günədək Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Rusiya, Səudiyyə Ərəbistanı Krallığı, Avstriya Respublikası, Böyük Britaniya, İsrail, İran, Bəhreyn kimi dövlətlər arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş layihəsi hazırlanıb. Daha əvvəl qeyd edildiyi kimi, Azərbaycanın inkişaf etdirilməsi və potensial turistlərin marağına səbəb olan böyük turizm potensialı var. Ölkəmizdə beynəlxalq tədbirlərin keçirilməsi bizə onun turizm imkanlarını daha səmərəli nümayiş etdirməyə imkan verir ki, bunun da mövcudluğu Eurovision Mahnı Müsabiqəsi, Birinci Avropa Oyunları, Formula 1 Avropa Qran Prisi, Avropa Qran Prisi, Avropa yarışları zamanı Azərbaycana gələn turistlərin sayı ilə bir daha təsdiqləndi.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının “Turizm haqqında” Qanunu, 4 iyun 1999.
2. “Azərbaycan-2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, 2012.
3. “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”, 2016.
4. Əlirzayev Ə.Q.“Turizmin iqtisadiyyatı və idarə edilməsi”- Bakı-2010. İqtisad
5. İsmayılov Ç.N.,Zeynalova K.Z.”Klaster konsepsiyası və onun regional inkişafda əhəmiyyəti”, “H.Əliyev və Azərbaycanda coğrafiyanın inkişafı” beynəlxalq konfransın materialları Bakı-2013(səh. 80-82.)

6. Qurbanov F., Azərbaycanda turizmin inkişaf problemləri. Bakı – 2007

7. Məmmədzadə M.. Ölkənin sosial-iqtisadi inkişafının sürətləndiril məsində turizmin rolu və əhəmiyyəti. Təhsil problemləri qəzeti. №03-04, B., 2007

8. H.B. Soltanova, Ş.H. Hüseynova (2007) “Turizmin Əsasları” Bakı, “Mütərcim”.-242 səh.

9. Məmmədov C.A., Rəhimov S.H. Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahlı lüğəti. Bakı: - “Qanun”, 2000. 272 s,

10. Ç.N. İsmayılov, K.Z. Zeynalova (2013) “Klaster konsepsiyası və onun regional inkişafda əhəmiyyəti” Bakı, “Təhsil”.-245 səh.

11. İbrahim, A., Aydın, Ü., Gülay, Ç., “Sürdürülebilir TUurizm Literatürü Üzerine Bir Değerlendirme: Türkiye Bağlamı”, Mesleki Bilimler Degisi, 4 (2), 2015, s.55 – 83

12. Kim, N., Wicks, B.E. (2010). Rethinking Tourism Cluster Development Models for Global Competitiveness, International CHRIE ConferenceRefereed Track. Paper 28, http://scholarworks.umass.edu/refereed/CHRIE_2010/Friday/28.

13. Buhalis, D., Darcy, S. (2011). Accessible Tourism: Concepts and Issues. Bristol, UK: Channel View Publications.

**Aligul Agasalam oglu AGAYEV**

## STATE AND COMPANY MEASURES ON DİVERSİFİCATİON OF TOURİSM CLUSTER OF AZERBAİJAN

**Abstract**

Many factors affect the competitiveness of the regional tourism market, for example: state interests, the position of external and internal demand, the socio-economic system, tourism policy, business interests, the population, the availability of resources and the situation of the ecological system. The aim of Azerbaijan's cluster policy is to transform the environment in accordance with new operational goals and conditions. At the same time, the main function of tourism clusters will be to improve the quality of social and economic growth in the regions, which will create special conditions for this, and increase the competitiveness of economic entities forming regional clusters. Ensuring the competitiveness and development of tourism clusters in the country depends on a number of macro and micro economic factors. For this reason, in the article, state and company measures on the diversification of the tourism cluster in Azerbaijan were reviewed and analyzed.

**Keywords:** Tourism, tourism cluster, diversification

**Алигуль Агасалам оглы АГАЕВ**

## МЕРЫ ГОСУДАРСТВА И КОМПАНИИ ПО ДИВЕРСИФИКАЦИИ ТУРИСТИЧЕСКОГО КЛАСТЕРА АЗЕРБАЙДЖАНА

**Резюме**

На конкурентоспособность регионального туристического рынка влияет множество факторов, например: государственные интересы, положение внешнего и внутреннего спроса, социально-экономическая система, туристическая политика, интересы бизнеса, численность населения, наличие ресурсов и состояние экологического система. Целью кластерной политики Азербайджана является преобразование окружающей среды в соответствии с новыми оперативными целями и условиями. При этом основной функцией туристских кластеров будет являться повышение качества социально-экономического роста в регионах, что создаст для этого особые условия, повышение конкурентоспособности хозяйствующих субъектов, образующих региональные кластеры. Обеспечение конкурентоспособности и развития туристских кластеров в стране зависит от ряда макро- и микроэкономических факторов. По этой причине в статье были рассмотрены и проанализированы меры государства и компаний по диверсификации туристического кластера в Азербайджане.

**Ключевые слова:** туризм, туристический кластер, диверсификация

**Zakir Talıb oğlu ƏHMƏDOV, PhD, dos.**

**Aqil Nuru oğlu NAMAZOV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: azpolitoloq@gmail.com

# MƏNƏVİ DƏYƏRLƏRİMİZİN VƏ HƏRBİ İRSİMİZİN TƏBLİĞİNDƏ HƏRBİ-İRS TURİZMİNİN İNKİŞAFININ ZƏRURİLİYİ

**Xülasə**

Məqalədə İkinci Qarabağ müharibəsində əldə olunmuş qələbədən sonra işğaldan azad olunan ərazilərimizdə iqtisadi inkişafa nail olmaq məqsədi ilə görülən işlərin tərkib hissəsi kimi, mədəni irsimizin, hərbi qələbəmizin təbliği istiqamətində Azərbaycanda yeni turizm sahəsinin, Hərbi-İrs turizminin yaradılmasının və inkişafının zəruriliyi araşdırılaraq nəzərdən keçirilmişdir.

**Açar sözlər:** Qarabağ, Müharibə meydanı, turizm, Vətən Müharibəsi, Hərb, Hərbi-İrs turizmi, 44 günlük müharibə.

**OUT: 338**
**JEL L83**

## Giriş

Müharibə bölgələri tarix boyu insanlar üçün maraq doğuran əsas coğrafi məkanlardan olmuşdur. Müharibələr bəşər cəmiyyətinin yaranması ilə eyni yaşı əhatə edir. Günümüzdə milyonlarla insan müharibə ərazilərini fərqli səbəblərlə ziyarət etməkdədir. Bəziləri üçün müharibə ərazisi itirdiklərini ziyarət etmək üçün bir məkan, kimiləri üçün isə müharibə dövrünü keçmiş bir qoca üçün gənclik xatirələrinin ziyarətidir. Bu ziyarətlərin səbəbləri müxtəlif olsa da, adətən mənəvi və milli duyğuların ön plana çıxdığı anlardır.

Müharibə meydanında igidlik göstərmiş hər bir qəhrəmanın şücaətinin əbədiləşdirilməsinin, dahi sərkərdələrin ev muzeylərinin, memorial abidələrinin yaradılmasının, döyüş səhnələrinin gələcək nəsillərə ötürülməsi məqsədilə həmin ərazilərdə Milli Parkların yaradılmasının, Hərbi-İrs turizminin inkişafının zəruriliyi hər ötən gün daha da artır.

## Əsas mətn

Müharibələr bəşər cəmiyyəti yaranan gündən iqtisadiyyatı, mədəniyyətləri, siyasi quruluşları, ümumiyyətlə, insanların həyatını, dəyişən əsas səbəblərdən biri olmuşdur. Həm fərdlərdə, həm də, cəmiyyətlərdə dərin dəyişikliklərin yaranması səbəbi olmuşdur. Şübhəsiz ki, müharibələr yalnız fiziki izlər buraxmır, həm də, insanların həyatında və psixikasında dərin mənəvi izlər də buraxmışdır.

Döyüş meydanları, istehkam qalaları, səngərlər, müdafiə kurqanları, donanma limanları, hərbi obyektlər, döyüş texnikaları sonradan çox mühüm turizm məhsullarına çevrilirlər. Hətta əməliyyatlar zamanı vurulan döyüş texnikalarının öz xatirəsi olduğu üçün, mahiyyətindən asılı olaraq sonralar abidə kimi əbədiləşdirilirlər. Döyüş meydanları dünyanın fərqli yerlərində yerləşsə də, bəzi ümumi xüsusiyyətlərinə görə eynilik təşkil edir:[1]

- Bir çox döyüş meydanları tarixi və mədəni əhəmiyyətinə görə milli park elan edilmişdir;
- Döyüş meydanları müəyyən bir tarixi dövrdə baş vermiş müharibələrin fiziki olaraq reallaşdığı yerlərdir;
- Müharibə bölgələrində səngərlər, mövqelər, qərargahlar, xəstəxanalar, sığınacaqlar kimi müharibə zamanı istifadə edilən yerlər var;
- Döyüş meydanları cəmiyyətdə və ayrı-ayrı fərdlərdə dərin izlər buraxıb;
- Döyüş meydanları bir çox dövlətlər tərəfindən mühafizəyə alınmaqdadır;
- Döyüş meydanlarının mədəni əhəmiyyəti vardır;
- Döyüş meydanları yenidən canlandırılaraq restavrasiya edilməli və turistlər üçün açıq elan olunmalıdır ;
- Döyüş meydanları vətənpərvərlik və vahid millət olma şüuru kimi mənəvi dəyərlərə böyük töhfə verir.

Azərbaycan tarixi müharibələrlə zəngindir, tarix boyu baş vermiş müharibələr xalqımızın həya-

tına, dini görüşlərinə, mədəniyyətinə təsir etmişdir. Son 30 il ərzində vətənimiz iki şiddətli müharibə yaşamışdır. Tarix boyu düşmənlərdən müdafiə məqsədi ilə inşa edilmiş qalalar, səngərlər, yeraltı yollar, qüllələr və s. bugün yerli və xarici turistlərə turizm obyekti kimi təqdim olunmaqdadır.

Qədim Bakı Şirvanşahlar dövlətinin strateji əhəmiyyət daşıyan ən mühüm şəhərlərindən biri idi və onu qorumaq vacib dövlət işi idi. Bu məqsədlə XII əsrdə liman şəhəri Bakıda Şirvanşah III Mənuçöhr tərəfindən möhkəm müdafiə sistemi tikilmişdi. Vaxtilə Bakı şəhəri qurudan ikiqat, dəniz tərəfdən isə tək divarla əhatə olunmuşdu. Divarın bu kimi quruluşu sayəsində düşmən yaxınlaşarkən, onu ox atəşinə tutmaq mümkün olurdu. Qala divarının altından yeraltı yol keçirdi. Möhkəm müdafiəni təmin etmək üçün qala divarları boyunca dərin xəndək qazılmışdı. Bakı qalasının Şərq divarı yanında, xüsusən şimal tərəfdən düşmənə müqavimət göstərmək məqsədi ilə dördbucaqlı qala tikilmişdi. Bürc və yarımdairəvi qalalar müdafiə sisteminin ayrılmaz hissəsi idi. Əsgərlərin sürətli hərəkəti üçün qala divarının altı boyunca davam edən yeraltı yol qoşa qala darvazasına doğru istiqamətlənmişdi. Bu yeraltı yol şəhəri şimal tərəfdən əhatə edirdi. Xalq arasında qalaya "Cəbbəxana" – silah anbarı deyirdilər. Mənbələrdə Azərbaycanın orta əsr şəhər və qalalarında yeraltı gizli yolların mövcudluğuna dair xeyli məlumat vardır. Onlar ehtiyatdan tıkilirdi. Yeraltı gizli yollardan düşmən mühasirəsi zamanı su, ərzaq, silah əldə etmək üçün, çox təhlükəli durumlarda isə, son nəfəsdə xilas olmaq məqsədilə istifadə edilirdi. Belə gizli yollar bəzi orta əsr qalalarında son vaxtlara qədər qalmışdır. Yeraltı yollar həm strateji, həm də memarlıq baxımından hələ də öz əhəmiyyətini qoruyub saxlayır [2].

Bundan əlavə, Azərbaycanın digər bölgələrində də müdafiə xarakterli qalalar inşa edilmişdir ki, bugün turizm marşrutlarının əsas istiqamətini təşkil etməkdədirlər. Qız Qalası, Ramana Qalası, Mərdəkan Qalası, Şıx Qalası, Əlincə Qalası, Şamaxı Qalasının qalıqları, Koroğlu Qalası, Cavanşir Qalası, Gülüstan Qalası, Çıraqqala və.s tarixi mədəni irsimiz hər il yüzlərlə turistlər tərəfindən ziyarət olunur.

Gəncə şəhərinin tarixi abidələri barədə söz düşəndə ilk növbədə Gəncə qalası və qapıları xüsusi qeyd olunmalıdır. Belə ki, bəhs olunan tikililər şəhərin hələ erkən orta əsrlər dövründən etibarən möhtəşəm, böyük, eyni zamanda, iqtisadi, mədəni inkişafı baxımından fərqlənir. Gəncə qalasının inşası IX-X əsrlərə aid edilir. Bu qala sədləri Gəncə çayının sağ sahilində tikilmişdir. Qalanın qalıqları isə Qədim (köhnə) Gəncənin xarabalıqları ərazisindədir. Çoxsaylı tədqiqatlarla yanaşı, Gəncə qalasının ilkin, yaxud qədim hissələrinin inşa edilmə tarixinin IX-X əsrlərlə müəyyən olunmasında ən tutarlı dəlil qismində XI əsrdə hazırlanmış məşhur Gəncə qapıları çıxış edir. Belə ki, məntiqi olaraq əvvəlcə Gəncə şəhərinin ətrafına yadelli işğalçılardan və feodal basqınlarından qorunmaq üçün müdafiə sədləri, qala çəkilmiş, sonra onun böyük, ikiqapılı dəmir darvazaları hazırlanmışdır. Günümüzdə Gəncə qalasının qalıqları və Gəncə Qalasının qapıları bərpa edilərək turistlərin ziyarəti üçün təqdim edilmişdir.

Şərqin, Avropanın, həmçinin Rusiyanın müxtəlif şəhərlərində yeraltı tunellər və ya yollar mövcud olmuşdur. Azərbaycanın isə belə şəhərlərindən biri Gəncədir. Yeraltı yollar üç istiqamətdə inşa edilərək, şəhərin bütün ərazilərini bir-biri ilə birləşdirmiş, , yeraltı yollar hərbi məqsədlər üçün istifadə olunmuşdur. Düşmənin şəhərə hücum və yürüşləri zamanı həmin yollardan mülki əhalinin təxliyə edilməsi üçün istifadə edilmişdir. Həmçinin bu yolların vasitəsi ilə şəhəri mühasirəyə alan düşmənə qəfil hücum etmək olurdu. Burada vaxtilə ərzaq və silah anbarları da yerləşdirilmişdir. Sovet dövründə yolların bəzi keçidləri bağlanıb. Bəzi ventilyasiya boruları tıxandığından isə buraya oksigenin daxil olması çətinləşib. Son dövrlər turizm sahəsində aparılan əsaslı islahatlar fonunda Gəncədə mövcud olan yeraltı yolların yenidən bərpa edilərək turistlərin ziyarətinə təqdim olunması planlaşdırılır [3].

XX əsrdə dünyada iki böyük müharibənin baş verdiyi ərazilər bugün milyonlarla insanların diqqətini çəkməkdədir. Həmin dövrün tarixini, döyüş səhnələrini, öz qalibiyyətlərini və ümumi müharibənin miqyasını gələcək nəsillərə ötürmək üçün dünyanın bir çox ölkələrində Müharibə Muzeyləri, Hərbi Qənimətlər Parkı və Milli Parklar yaradılmışdır.

Müharibələrdə qalib çıxmış tərəflər sonradan öz qalibiyyətlərinin və həmin dövrün tarixinin təbliği məqsədi ilə muzeylər yaradıblar. Məsələn, II Dünya Müharibəsindən sonra bu dəhşətli fəlakətə həsr olunmuş muzeylər Avropanın əksər

ölkələrində yaradıldı. Rusiyada, Ukraynada, Belarusda, Polşada, Danimarkada, Macarıstanda, Çexiyada, Baltikyanı ölkələrdə və sair yerlərdə bu muzeylər indi də turistlərin ən çox baş çəkdiyi məkanlardan sayılır. Qardaş Türkiyədə də yüz il əvvəlki qanlı Çanaqqala döyüşlərini xatırladan eyniadlı muzey mövcuddur. Muzey Türkiyədə turistlər tərəfindən ziyarət olunan əsas məntəqələrdən biridir.

Böyük Britaniyada London şəhərində yerləşən İmperiya Müharibə Muzeyi (İmperial War Museums) adlanan bu cəlbedici muzeydə I Dünya Müharibəsi və II Dünya Müharibəsi, eləcə də, İngilis Millətlər Cəmiyyəti dövrü sərgilənir.

Sinqapurda yerləşən Çangi muzeyi bir vaxtlar Yaponiya İmperiyası tərəfindən işğal edilmiş və böyük zərbələr almış Sinqapur da düşmənini unutmaq fikrində deyil. Dünyanın hər yerindən Sinqapura gələnlər müəyyən pul müqabilində bilet alaraq Çangi muzeyinə (Changi Museum) ona görə gəlirlər ki, orada II Dünya Müharibəsi zamanı yaponların bu ölkədə hansı vəhşilikləri törətdiklərini öz gözləri ilə görsünlər və yeni nəsillər də müasir dünyanın bu böyük iqtisadi gücünün keçmişindən xəbərdar olsunlar.

Müharibənin vurduğu ziyanlardan bəhs edən bir muzey də Avropanın ortasında yerləşən Danimarkadadır. Ölkənin cənubunda – dəniz sahilində yerləşən Varde şəhərindəki Blavand Bunker Muzeyində II Dünya Müharibəsinin ölkəyə vurduğu ziyanlar əks olunub. Almaniyanın qonşusu, bir bayraq altında yaşayan, xeyri-şəri bir olan Danimarka, vaxtilə alman işğalçılara qarşı yaradılan yeraltı sığınacaqda bu muzeyi təsis etməklə, alman və ya qeyrisi, kimliyindən asılı olmayaraq düşmənə qarşı həmişə hazır dayanmağın vacibliyini, vətən torpaqlarının hər zaman müdafiə edilməsinin zəruriliyini təbliğ edir və insanlarda müharibəyə nifrət aşılayır.

Hazırda İranın paytaxtı Tehran şəhərində də 1992-ci ildə açılmış Müqəddəs Müdafiə Muzeyi fəaliyyət göstərir. Muzey sırf 22 sentyabr 1980-ci ildən 20 avqust 1988-ci ilədək - tam 8 il davam etmiş İran-İraq müharibəsinə həsr olunub. Burada nələr var – müharibə zamanı hər iki tərəfdən istifadə edilmiş hərbi texnika – raketlər, tank-top mərmiləri, təyyarələr, helikopterlər, minalar, mumfiqur obrazlarla hərbi qərargahlar, digər silah-sursatlar, döyüşlərdə həlak olanlara məxsus əşyalar, paltarlar və sair. Hətta müharibə sırasında İraq ordusu tərəfindən işğal olunmuş, amma sonra İran silahlı qüvvələrinin azad etdiyi, Huzestan əyalətinə bağlı Xürrəmşəhrin qurtuluşunu əks etdirən panorama da yaradılıb.

Bugün Vyetnama yolu düşən hər kəs ABŞ-ın bu ölkəyə yaşatdığı insanlıq faciəsini əks etdirən, Sayqon şəhərindəki Müharibə Qalıqları muzeyinə (War Remnants Museum) baş çəkir. Bura daxil olan hər kəs sənədlərlə, fotoşəkillərlə, müharibədə istifadə edilmiş hərbi texnika, silah-sursatla – bütün ölüm vasitələri ilə 70-ci illərin müharibə illərinə səyahət etmiş olur.

İkinci Dünya müharibəsi dövründə hələ Ukraynanın bir hissəsi alman faşistlərindən azad olunmamış əsası qoyulan, burada azad olunmuş ərazilərdə almanlardan əldə edilmiş qənimətlərin ilk dəfə sərgilənməyə başlandığı hərbi muzey keçmiş SSRİ məkanında bu müharibədən sonra ilk muzey hesab olunur. İkinci Dünya müharibəsini əhatə edən Ukraynanın Milli Tarix Muzeyi adlanan, Ukraynanın şərqində suverenlik uğrunda gedən Donbas müharibəsindən qalmış əşyalar nümayiş etdirilir. Sonralar İkinci Dünya Müharibəsi ilə bağlı dünyanın bir çox yerlərində bu tip hərbi muzeylərin sayı çoxalsa da Kiyevdəki qeyd etdiyimiz muzey özünəməxsusluğu və tarixi əhəmiyyətilə fərqlənib [4]

Vaxtilə Almaniyanı iki yerə ayıran məşhur Berlin Divarlarının qalıqları günümüzdə turistlərə açıq havada təşkil olunmuş muzey kimi təqdim olunmaqdadır.

Hərb Tarixi Muzeyi Azərbaycanın hərb tarixini, hərb sənətini dövrlər üzrə öz ekspozisiya və vitrinlərində əks etdirir. Muzeydə dünya şöhrətli siyasi xadim, dahi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən fotolar, sənədlər və ona məxsus əşyalar, hərbi geyim nümunəsi, ordu quruculuğu ilə bağlı gördüyü işlər, keçirdiyi görüşlər, həmçinin Silahlı Qüvvələrin qoşun növləri üzrə hərbi geyim nümunələri nümayiş olunur. Muzeydə Azərbaycanın Milli Qəhrəmanlarından 211 şəxsə aid ayrıca stend də var. Muzeydə əsrlər öncə istifadə edilən silahlardan tutmuş, hazırda Azərbaycan Ordusunda yer alan müasir silahların maketləri və həqiqi vahidləri sərgilənir. Qarabağ müharibəsi dövründə istifadə edilən silahlar, şəhid hərbçilərimizə məxsus geyimlər, şəxsi əşyalar muzeyi ziyarət edən turistlərdə müharibə ilə bağlı təəssürat yaradır.

Muzeyin ərazisində açıq havada sərgilənən iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun və

Azərbaycanın Milli Qəhrəmanı, tank komandiri Albert Aqarunovun idarə etdiyi tankın maketləri, PDM və KDM, təyyarə və helikopterlər, HHM vasitələri, HDQ silah və sursatları, gəmilər, artilleriya və zenit qurğuları ziyarətçilər tərəfindən maraqla qarşılanır [5].

Azərbaycan tarixinə 44 gün davam edən Vətən müharibəsi kimi daxil olan İkinci Qarabağ müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində çaldığı qələbəni əyani şəkildə əks etdirən Hərbi Qənimətlər Parkı son zamanlar turistlər tərəfindən ən çox ziyarət olunan obyektlərdəndir. Azərbaycan torpaqlarının uzun illər ərzində işğalına, minlərlə insanın şəhid olmasına səbəb olan düşməni gələcək nəsillər də yaxından tanımalıdır.

Qənimətlər Parkının hər bir elementi Azərbaycan əsgərinin 44 günlük müharibə zamanı qələbə əldə etmək üçün rəşadət göstərdiyini əks etdirir. Bu mənada parkın ərazisindəki qarşı tərəfin özündə 10 elementdən ibarət mühəndis maneələr sistemini ehtiva edən möhkəmləndirilmiş müdafiə mövqeyinin nümayişi xüsusilə diqqət çəkir. Bu, Azərbaycan əsgərinin dəf etməli olduğu maneələri açıq şəkildə nümayiş etdirir. Məhz bunları gördükdən sonra bir daha əmin olursan ki, döyüşü sadəcə, yüksək texnologiyaya malik silah-sursat, hərbi texnika ilə qazanmaq olmaz. Döyüşü əsgərlər, zabitlər aparır. Buna görə də, Vətən müharibəsində rəşadət göstərən, düşmənə göz açmağa imkan verməyən Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti öz mübarizliyi ilə xalqımızın qəhrəmanlıq simvoluna çevrilib. Əsgərlərimiz, zabitlərimiz, çavuşlarımız, bu savaşa qoşulan könüllülərimiz döyüş meydanlarında əsl vətən övladının igidliyini, cəsarətini, qorxmazlığını göstəriblər. Hərbi Qənimətlər Parkı Azərbaycan xalqı və dost ölkələr üçün qürur yeri olduğu halda, ermənilər üçün göz dağına çevrilib [6].

Milli parklar insanların emosional, mədəni və fiziki regenerasiyası sahələridir. Coğrafi görünüşdə müxtəlifliyin üstünlük təşkil etdiyi bu ərazilər xalqlar üçün əhəmiyyətli olan mədəni irsin mövcud olduğu yerlər olmaqla yanaşı, gələcək nəsillər üçün qorunan təbii irsdir.

Otuz ilə yaxın bir dövrü əhatə edən zaman kəsiyində Ermənistan Azərbaycan arasındakı münaqişə zəminində Arazdan Gürcüstan Respublikasınadək ərazidə müdafiə səngərləri, hərbi obyektlər, sığınacaqlar, müdafiə qurqanları qurulmuşdur. Bütün bu mövqelər Azərbaycan əsgərinin vətən keşiyində dayanması üçün yaradılmışdır. 44 günlük Vətən Müharibəsində ordumuz həmin səngərləri, obyektləri, sığınacaqları tərk edərək düşmənin üzərinə yürüdü və işğal altında olan torpaqlarımızı azad edərək tarixi ədaləti bərpa etdi. Bugün həmin sığınacaqlar, hərbi obyektlər döyüş meydanları və igidlik göstərmiş qəhrəmanlar bizim qürur mənbəyimizdir. Həm xarici, həm də yerli turistlər üçün həmin yerləri görmək, döyüş fəaliyyətləri və döyüş səhnələri barədə məlumatlara malik olmaq onlarda çox böyük maraq doğuracaqdır. İşğaldan azad olunan ərazilərə fərqli yönlərdən, Kəlbəcər-Laçın-Şuşa, Füzuli-Cəbrayıl-Zəngilan, Füzuli- Xocavənd-Şuşa, Zəngilan-Qubadlı-Kəlbəcər, Bərdə-Ağdam, Tərtər-Suqovuşan istiqamətlərində Hərbi-İrs turizm marşrutu təchiz etməklə turistlərə həm tariximizi, mədəniyyətimizi, həm də şanlı qələbəmizi, qəhrəmanlıq salnaməmizi təbliğ etmiş olarıq. Qeyd olunan marşrutların işğaldan azad olunması uğrunda qəhrəmanlıq göstərmiş hər bir ordu mənsubu barədə məlumatlar öyrənmək, qəhrəman adına layiq olmaq üçün hansı çətin yollardan keçdiklərini bilmək hər bir kəsdə çox böyük maraq doğuracaqdır. Bu da aydındır ki, işğaldan azad edilmiş ərazilərdə infrastruktur bərpa olunduqdan sonra, ilk növbədə, Azərbaycan vətəndaşlarının həmin ərazilərə səfərləri gözlənilir. Bu isə Azərbaycanda ilk növbədə daxili turizmin inkişafına töhfə verəcəkdir.

Görülən quruculuq işləri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin yeni sahəsi kimi "Hərbi-İrs Turizmi"ni də inkişaf etdirməyi mümkün edəcəkdir. Bu sahədə bələdçi qismində ehtiyyatda olan döyüşçülərdən və qazilərdən uğurla istifadə etmək daha məqsədə uyğundur. Bütün bunlar həm daxili, həm də xarici turistlərə xalqımızın qəhrəmanlıq salnaməsinin təbliği və həmin ərazilərdə olan hərbi istehkam mövqelərinin nümayişi uğurlu nəticələr verər.

Son zamanlar turizmdə ən çox artan səfərlər arasında işğaldan azad olunan ərazilərə edilən səfərlər olmuşdur. Məhz bu səbəbdən döyüş meydanları və erməni qəsbkarlarının törətdikləri dağıntılar Milli park və ya açıq havada təşkil olunmuş muzeylər formasında gələcək nəsillərə və turistlərə təqdim olunmalıdır.

Bugün Qubada, Gəncədə, Bərdədə ermənilərin törətdikləri vəhşiliklərin izləri ölkəmizə səyahətə gələn turistlərə və rəsmi qonaqlara təqdim olunmaqdadır.

Milli parklar və açıq havada hazırlanmış muzeylər hərbi irsimizi və tarixi keçmişimizi qorumaq və təbliğ etmək üçün ən təsirli formadır. Çünki həmin tarixlər həm fiziki, həm də, mənəvi təsirlərə malikdir. Bu məqsədlə ermənilərin "Ruhlar şəhərinə" çevirdiyi Ağdam rayonunda yaradılacaq İşğal Muzeyi və Zəfər Muzeyi erməni qəsbkarlarının törətdikləri vandallığı, həm də ordumuzun zəfər tarixini təbliğ edəcəkdir. Döyüş meydanlarında müxtəlif döyüş materialları və əsgər xatirə əşyalarının sərgiləndiyi muzeylər də qurulmalıdır.

Bununla yanaşı Ağdam rayonunda görülən quruculuq işləri ilə yanaşı, mövcud "xarabalıqları", dağıntıları yerli və xarici turistlərə təqdim etmək üçün "Dark Turizm" çərçivəsində turların təşkil olunması da məqsədə uyğundur.

Hərbi İrs turizminin başqa bir meyarı da ziyarətçilərin döyüş bölgələrinin iqtisadiyyatına mühüm töhfələr verməsidir. Döyüş bölgələrinə edilən səfərləri araşdıran zaman aşağıdakı kimi qruplaşdırma aparmaq olar [1]:

- Tarixə maraq;
- Müəyyən bir qəbri və ya qəbiristanlığı ziyarət etmək istəyi;
- Tanınmış qəhrəmanın məzarını ziyarət etmək arzusu;
- Verilən qurbana görə minnətdar olmaq;
- Tanış şəhid üçün matəm;
- Şəhidlərin və müharibədə həlak olanların və veteranların yad edilməsi;
- Müharibənin özünü dərk etmək istəyi;
- Qələbəni qeyd etmək və xatırlamaq hissi;
- Müharibənin özünü daha yaxşı başa düşmək;
- Müharibə ilə bağlı abidələri və qəbiristanlıqları ziyarət etmək istəyi;
- Tarixə baxışın daha yaxşı başa düşülməsi kimi ifadə edilir.

Bir çox vacib hadisələrə şahidlik etmiş döyüş meydanları hər il müxtəlif səbəb və motivlərlə milyonlarla insanlar tərəfindən ziyarət edilir. Müharibə ərazilərinə hökumətin, qeyri-hökumət təşkilatlarının, müxtəlif fond və birliklərin səyləri ilə bir çox səfərlər təşkil edilməkdədir. Bu tədbirlərdən biri də əlamətdar tarixi hadisələri əks etdirən anım mərasimləridir. Anma tədbirləri çox ciddi təşkilatlanma tələb edən fəaliyyətlər kimi diqqət çəkir. Məkan və zaman konsentrasiyası tələb edən anım tədbirləri müharibə bölgəsi olmuş ərazilərə çoxlu ziyarətçilər cəlb edir. Emosional intensivliyə yönəlmiş bu cür turistik fəaliyyətlər də, Hərbi irsimizin daha effektiv təbliğinə imkanları daha da artırır.

**Nəticə**

Müharibələr bəşər tarixi qədər qədimdir. XIX əsrdə Vaterloo döyüş meydanının ziyarəti və Amerika Vətəndaş Müharibəsində həyatını itirən əsgərlərin xatirəsini anmaq üçün təşkil edilən anma mərasimləri ilə başlayan Hərbi-İrs turizmi, zamanla böyük kütlələri səfərbər edən bir turizm hərəkatına çevrildi. Bu gün milyonlarla insan müxtəlif səbəblərdən döyüş meydanlarını ziyarət edir. Döyüş bölgələri üçün turizm fəaliyyətləri müxtəlif olsa da, ümumilikdə mənəvi və milli hisslərin ön plana çıxdığı müşahidə edilir. Hökumətlər ölkələrdə milli şüuru gücləndirən döyüş meydanlarında keçirilən anma mərasimləri ilə döyüş turizmini təbliğ edirlər. Digər turizm fəaliyyətlərindən fərqli olaraq, döyüş meydanlarına gələn yerli və xarici turistlərin ehtiram, rəhmət, şəhidləri və həlak olanları yad etmək kimi mənəvi dəyərlərlə döyüş meydanlarını ziyarət etdiyi müşahidə edilir. Ona görə də, görünür ki, xüsusi motivasiya elementləri olan döyüş meydanlarına turizm tələbatı çox vacibdir. Döyüş meydanlarına gələn turistlərin gözləntilərini qarşılamaq və təmin etmək üçün turistik təchizat imkanları da optimallaşdırılmalıdır. Döyüş meydanlarının milli park kimi qorunub saxlanılması turizm infrastrukturunun və üst quruluşunun inkişafının arzuolunan səviyyədə olmasını çətinləşdirir. Bu səbəbdən ölkəmizdəki döyüş bölgələrinin, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bu sahə üzrə planlaşdırma və inkişaf işləri aparılmalıdır. Turizm sənayesinin peşəkarları olan turizm agentlikləri üçün döyüş meydanlarına səfərlər təşkil etmək çox vacibdir. Döyüş bölgələrinə təşkil edilən peşəkar səyahətlərlə həm ziyarətçilərin məmnuniyyəti artacaq, həm də döyüş meydanlarına şüurlu turizm etmək mümkün olacaq.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. HALL John ve BASARIN John. Battlefield Tourism in Turkey: Motives For Attendance at Anzac Day Commemeration in Turkey. 2009.
2. https://icherisheher.gov.az/az/53-defensive-structures/
3. Gəncə böyük hərflə. №15. Gəncə-2009
4. https://hafta.az/dunyadaki-muharibe-muzeyleri%C2%A0arasdirma-299871 xeber.html)
5. https://mod.gov.az/az/pre/24967.html
6. https://www.azerbaijan-news.az/az/posts/detail/xalqimizin-qurur-unvani-herbi- qenimetler-parki-1650748180.

**Закир Талиб оглу Ахмедов, PhD, Доц.**

**Агиль Нуру оглы Намазов,**
Азербайджанский Технологический Университет
E-mail: azpolitoloq@gmail.com

## НЕОБХОДИМОСТЬ РАЗВИТИЯ ВОЕННО-НАСЛЕДСТВЕННОГО ТУРИЗМА В ПРОДВИЖЕНИИ НАШИХ ДУХОВНЫХ ЦЕННОСТЕЙ И ВОЕННОГО НАСЛЕДИЯ

**Резюме**

В статье раскрывается необходимость создания и развития нового направления туризма в Азербайджане, Военно-исторического туризма, в направлении пропаганды нашего культурного наследия и военных побед, как часть работы, проделанной для достижения экономического развития в нашей территории, освобожденные от оккупации после победы во второй карабахской войне, были рассмотрены и учтены.

**Ключевые слова:** Карабах, Поле боя, туризм, Отечественная война, Военный, Военно-исторический туризм, 44-дневная война.

**Zakir Talib oghlu Ahmadov, PhD, Assoc.prof.**

**Agil Nuru oghlu Namazov**
Azerbaijan Technological University
E-mail: azpolitoloq@gmail.com

## NEED FOR THE DEVELOPMENT OF MILITARY HERITAGE TOURISM IN PROMOTING OUR SPIRITUAL VALUES AND MILITARY HERITAGE

**Summary**

In the article, the necessity of creating and developing a new area of tourism in Azerbaijan, Military-Heritage tourism, in the direction of promoting our cultural heritage and military victory, as a part of the work done to achieve economic development in our territories freed from occupation after the victory in the second Karabakh war, was examined and considered.

**Keywords:** Karabakh, Battlefield, tourism, Homeland War, Military, Military-Heritage tourism, 44-day war.

**Нилуфер Садиг кызы АКПЕРОВА**
Диссертант кафедры «Общая экономика» Азербайджанского
Государственного Экономического Университета,
AZ 1001, Баку, Азербайджанская
Республика, ул. Истиглалият, 6.
E-mail: nilufer_akperova@hotmail.com

# КЛЮЧЕВЫЕ АСПЕКТЫ АНАЛИЗА И СОВЕРШЕНСТВОВАНИЯ СТРУКТУРЫ ЗАНЯТОСТИ В ПОСТСОВЕТСКИХ РЕСПУБЛИКАХ

**Резюме**

*Целью исследования* – является анализ и совершенствование структуры занятости в постсоветских республиках. Раскрыты важнейшие проблемы и особенности действующих механизмов по совершенствованию структуры занятости. Анализированы процессы, происходящие в сфере занятости ряда постсоветских республиках, обобщены ключевые направления деятельности по совершенствованию структуры занятости. Подготовлен ряд рекомендаций и предложений по интенсификации совершенствования структуры занятости в постсоветских республиках в ближайшей перспективе.

*Методы исследования* – состоят из общеизвестных научных методов, в первую очередь, метода анализа, синтеза, сравнения и обобщения. Наряду с этим, рассмотрены мнения ряда ученых, которые изучали особенности структуры занятости в постсоветских республиках.

*Результаты исследования* – отражены в разработке и реализации целевых мероприятий и механизмов по совершенствованию структуры занятости в постсоветских республиках.

**Ключевые слова:** постсоветские республики, занятость, государственная политика занятости, стратегия занятости, структура занятости, совершенствование структуры занятости.

**UOT: 331.52: 331.522;**
**JEL: E24; J01; J21**

## Введение

В настоящее время для постсоветских республик характерен ряд трансформационных процессов. Трансформационные процессы, охватившие в последние годы все республики постсоветского пространства, вызвали изменения не только в экономике, но и в других сферах. Важнейшей социально-экономической проблемой современного экономического развития постсоветских республик является ликвидация бедности населения в результате низкой занятости и роста безработицы. Проблема занятости усугубляется также последствиями современного геополитического кризиса, приведшего к экономическому спаду и структурным изменениям в индустриальных экономиках, сокращению рабочих мест на национальном рынке труда. Кроме того, российско-украинская война усугубляет кризис. В связи с этим особую актуальность приобретает совершенствование существующих социально-экономических условий и структуры занятости в соответствии с условиями развития рынка труда в постсоветских республиках.

Известно, что в современном мире в условиях совершенствования рынка труда очень важными становятся вопросы развития человеческого капитала. Для этого следует уделить внимание повышению качества потенциального трудового ресурса, совершенствованию системы образования, а также цифровизации экономических отношений. В целях эффективного использования трудовых ресурсов необходимо разработать научно обоснованные региональные программы обеспечения занятости населения, в том числе обеспечить выполнение этих программ в полном объеме. При подготовке таких программ целесообразно всесторонне и глубоко проанализировать структуру занятости и положение населе-

ния в каждом районе и городе. В плане совершенствования структуры занятости разработка подобных программ для постсоветских республик вытекает из требований современной эпохи.

С помощью приведенной ниже таблицы проанализируем численность занятого и безработного населения в некоторых постсоветских странах за 2005-2020 годы. Таблица 1 показывает, что количество занятого населения в Азербайджане, Казахстане, Кыргызстане постоянно увеличивается. Так, если занятое население в Азербайджане в 2005 году составляло 4062,3 тыс. человек, то в 2019 году – 4909,1 тыс. человек, в Казахстане – 7260,1 тыс. человек в 2005 году, а в 2019 году – 8780,8 тыс. человек, в Кыргызстане в 2005 году 2077.1 тыс. человек, а в 2019 году насчитывалось 2442,7 тыс. человек. Только в 2020 году он снизился из-за пандемии COVID-19. Занятое население увеличивалось неравномерно в России, Украине и Узбекистане. В Молдове в исследуемые периоды он почти непрерывно снижался. Например, если в 2005 г. численность занятого населения в Молдове составляла 1318,7 тыс. человек, то в 2019 и 2020 гг. этот показатель составлял 872,4 и 834,2 тыс. человек соответственно.

**Таблица 1**

**Численность занятого и безработного населения в некоторых странах постсоветского пространства, тыс. чел (2005-2020 гг.)**

| | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| **Азербайджан** | | | | | | | |
| Занятые | 4062,3 | 4329,1 | 4671,6 | 4822,1 | 4879,3 | 4938,5 | 4876,6 |
| Безработные | 317,8 | 258,3 | 243,7 | 251,7 | 253,8 | 251,6 | 375,9 |
| **Беларусия** | | | | | | | |
| Занятые | 4414,1 | 4703,0 | 4496,0 | 4901,8 | 4896,7 | 4909,1 | 4885,4 |
| Безработные | … | … | … | 293,4 | 244,9 | 213,3 | 206,2 |
| **Казахыстан** | | | | | | | |
| Занятые | 7261,0 | 8114,2 | 8433,3 | 8585,2 | 8695,0 | 8780,8 | 8732,0 |
| Безработные | 640,7 | 496,5 | 454,2 | 442,3 | 443,6 | 440,7 | 448,8 |
| **Киргизия** | | | | | | | |
| Занятые | 2077,1 | 2243,7 | 2352,1 | 2351,2 | 2382,5 | 2442,7 | 2445,2 |
| Безработные | 183,5 | 212,3 | 192,2 | 174,0 | 156,3 | 140,9 | 150,2 |
| **Молдова** | | | | | | | |
| Занятые | 1318,7 | 1143,4 | 989,1 | 960,8 | 988,5 | 872,4 | 834,2 |
| Безработные | 103,7 | 92,0 | 62,1 | 51,6 | 38,4 | 46,9 | 33,1 |
| **Россия** | | | | | | | |
| Занятые | 68339 | 69934 | 72324 | 72316 | 72531,5 | 71933,1 | 70601,4 |
| Безработные | 5242 | 5544 | 4264 | 3967 | 3659 | 3464,8 | 4321,3 |
| **Узбекистан** | | | | | | | |
| Занятые | 10196 | 11628,0 | 13058,0 | 13520 | 13273,1 | 13541,1 | 13239,6 |
| Безработные | … | 658,2 | 709,4 | 837,0 | 1368,6 | 1335,3 | 1558,4 |
| **Украина** | | | | | | | |
| Занятые | 20680 | 20266 | 16443 | 16156 | 16360,9 | 16578,3 | 15995,6 |
| Безработные | 1601 | 1786 | 1655 | 1698 | 1579 | 1487,7 | 1674,2 |

***Источник:*** *составлено автором на основе данных Госкомстата АР.*

Отметим, что численность безработных уменьшилась неравномерно во всех странах. Например, если в 2020 г. по сравнению с 2005 г. число безработных в России сократилось на 21,3%, то в 2019 г. оно увеличилось на 24,7% [1]. По сравнению с 2005 годом количество безработных в Узбекистане увеличилось в 2,0 раза в 2019 году, но уменьшилось на 2,5% по сравнению с 2018 годом (см. рисунок 1).




**Рисунок 1. Сравнительный анализ занятости и безработицы в некоторых странах СССР в 2020 г., тыс. чел. (Источник: составлено автором на основе данных Госкомстата АР)**

Organization of accounting in the enterprise is a mandatory requirement established by the legislation. The organization of accounting means a system of conditions and elements of accounting in order to obtain reliable information about the activity of the enterprise and control the efficient use of production resources and finished products. As a result of the organization of accounting, all information should be presented in such a way that any user can compare and analyze all the information of the enterprise. For this, accounting data should be recorded, evaluated, grouped and summarized on the basis of uniform principles and rules for the organization of accounting applied by the enterprise.

**Keywords:** accounting, financial statements, regulatory documents, organization of accounting.

**Məhərrəm Cəlal oğlu HÜSEYNOV, i.e.d. prof.**

**Anarə Anar qızı QÜRBƏTZADƏ**
Azərbaycan Texnologiya Universitetinin II kurs magistrantı

**Fərid Arzu oğlu SƏFƏRLİ**
Azərbaycan Texnologiya Universitetinin II kurs magistrantı

# KİÇİK VƏ ORTA SAHİBKARLIQ MÜƏSSİSƏLƏRİNİN MALİYYƏLƏŞDİRİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Ölkəmizdə kiçik və orta sahibkarlığın dövlət tərəfindən maliyyələşdirilməsi üçün müxtəlif mexanizmlər fəaliyyət göstərir, lakin bu cür maliyyələşdirilmə zamanı da müəyyən təkmilləşdirmə işlərinin aparılmasına ehtiyac vardır. Əlavə olaraq, beynəlxalq maliyyə fondlarının vəsaitlərindən, bank kreditlərindən istifadə etməklə, eləcə də beynəlxalq təcrübədə geniş yayılan, lakin ölkəmizdə istifadəsi demək olar ki, olmayan françayzinq və həmçinin bu tip müəssisələrin avadanlıq alınması baxımından maliyyələşdirilməsində əsas mənbə kimi lizinqin istifadəsi ilə kiçik və orta bizneslə məşğul olan subyektlərinin inkişafını sürətləndirmək mümkündür.

**Açar sözlər:** *sahibkarlıq, maliyyə, biznes, lizinq, vergi, françayzinq, investisiya, risk*

**UOT 338.12:338.34:330.36**
**JEL: F41**

## Giriş

Kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyələşdirilməsi üçün bir sıra metodlar vardır. Bu metodlar arasında əlbəttə ki, dövlət hesabına maliyyələşdirilmə böyük əhəmiyyət kəsb edir. Lakin burada əsas məsələ büdcədənkənar və dövlət tərəfindən birbaşa olaraq maliyyələşdirilmədən başqa hansı metodların əhəmiyyətli dərəcədə təsir edə bilməsidir. Dünya təcrübəsindən də götürdükdə görünür ki, bu metodlar sırasında xüsusi əhəmiyyət lizinq, françayzinq, vençur kapitalı vasitəsilə maliyyələşdirilməyə verilir.

Lizinq dedikdə, ilk olaraq xatırlanan “icarə” sözüdür. Lakin lizinq elə bir icarə formasıdır ki, bu icarə müddətində lizinq obyekti olan əsas vəsait lizinq alanın mülkiyyətində olur və həmin müddətin sonunda tamamilə müəyyən bir simvolik dəyərlə onun sərəncamına keçməsidir. Lizinqverən tərəf lizinq üçün müraciət edən tərəfə onun tələb etdiyi əsas vəsaiti vermək üçün həmin əmlakı başqa bir satıcıdan öz mülkiyyətinə keçmə şərtilə satın alır və lizinqalana “Lizinq” vasitəsilə təqdim edir. Belə olduqda lizinqi 2 tərəf arasında bağlanılan uzunmüddətli maliyyə müqaviləsi də adlandırmaq olar. Lizinqi digər kredit növlərindən fərqləndirən əsas cəhət isə onun ən azı 3 il müddətinə verilməsidir. Lizinqin əsasən 2 növü var. Bunlar operativ lizinq və maliyyə lizinqidir. Sahibkarlıqda maliyyə lizinqi daha əhəmiyyətli hesab olunur. Çünki məhz onun vasitəsilə əsas vəsaitlərin- texniki avadanlıqlar, binalar, tikililər, sənayedə istifadəsi vacib olan avadanlıqların icarəsi nəzərdə tutulur. Onu da qeyd etmək olar ki, maliyyə lizinqini əldə edən zaman, yəni əsas vəsaitləri icarəsində müsbət cəhətlərdən biri də onun hesabına əldə olunan avadanlığın amortizasıya sürətinin yüksək olması lizinqalanın ödəməli olduğu vergi borclarını azaltmasına şərait yaradır. Lizinqin digər bir üstün cəhəti isə odur ki, lizinq onu alan üçün banklardan və bank olmayan kredit təşkilatlarından pul vəsaitlərinin əldə olunması üçün bir maneə törətmir.

2019-cu ildə Vergi Məcəlləsində baş verən dəyişikliklər sırasında lizinq şirkətləri üçün müəyyən yeniliklər nəzərdə tutulmuşdur. Belə ki, bu yeniliklər məhz qeyri-neft sektoruna, eləcə də sahibkarlıq sahəsinə yönəldildiyi üçün ölkədə hazırda xidmət göstərən 175 lizinq şirkətinin fəaliyyətinin genişləndirilməsini təmin edir. Vergi Məcəlləsində edilən yeniliklər içərisində lizinq vasitəsilə mal alış-verişində müəyyən dəyişikliklər edilməsi qərara alındı. Nəticə olaraq belə nəzərdə tutuldu ki, lizinq obyekti əsas vəsait olsun, lizinqalan isə hüquqi şəxs ya da fərdi sahibkar olsun. Yalnız bu zaman icra edilən əməliyyat maliyyə lizinqi hesab olunur. Həmçinin yeni qaydalara əsasən, yeni amortizasiya norması

əmsalı tətbiq edilir ki, bu da öz növbəsində sahibkarlara yeni pəncərələrin – investisiya imkanlarının açılmasına şərait yaratdı.

Qeyd edilməsi vacib olan məqamlardan biri də Azərbaycan Kredit və İnkişaf Agentliyinin fəaliyyətidir ki, agentlik kənd təsərrüfatı ilə məşğul olan şirkətlərə alınan texnikanın 40%-i dəyərində olan subsidiya təqdim edir. Belə ki, əgər texniki avadanlıq xaricdən alınıb yerli şirkətlərə satılarsa, bu zaman avadanlığı əldə edən tərəfə onun 40% gömrük qiyməti dəyərində subsidiya təqdim edilir. Lakin əgər texnika xaricdən deyil, yerli şirkətlərdən əldə edilib satılırsa, o zaman bazar qiymətləndirilməsinin 40%-i miqdarında subsidiya əldə edilə bilər. Bu prosesdə respublikamızın bir sıra bankları- Pasha Bank, Rabitə Bank, TuranBank, Muğan Bank və s. AKİA ilə əməkdaşlıq edərək Azərbaycanda sahibkarlıq fəaliyyətinin inkişafına töhfə verirlər.

**Mövzunun aktuallığı.** Cari dövrümüzdə kiçik və orta sahibkarlığın formalaşması və inkişafı bütün dünyada olduğu kimi Azərbaycan Respublikası üçün də mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, 2008-ci ildə, demək olar ki, bütün ölkələri əhatə edən maliyyə böhranından sonra neft sektorunda baş verən geriləmə səbəbi ilə qeyri-neft sektorunun, həmçinin onun bir parçası olan biznes fəaliyyətinin inkişafına təkan verdi. Qərb dövlətlərinin təcrübəsi göstərir ki, kiçik və orta sahibkarlığın genişlənməsi nəticəsində iqtisadi inkişafı bərqərar etmək mümkündür.

**Tədqiqatın məqsədi:** Aparılan tədqiqat işinin başlıca məqsədi bazar münasibətlərinin hökm sürdüyü bir şəraitdə Azərbaycanda kiçik və orta biznes müəssisələrinin maliyyələşdirilməsi məsələləri, onun müasir vəziyyətinin təhlilini və təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək və onların maliyyələşdirilməsinin səmərəliliyinin artırılması üçün elmi konsepsiyanın hazırlanmasıdır.

**Tədqiqat obyekti:** Araşdırılan tədqiqat işinin obyekti Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olan kiçik və orta biznes müəssisələrinin aktivliyi, onların davamlı inkişafı və fəaliyyətlərinin genişləndirilməsində vacib olan maliyyə təminatı məsələləridir.

**Təsələləridir.əsind** Tədqiqat işinin aparılmasında həm kəmiyyət həm də keyfiyyət metodlarından istifadə edilmişdir. Bu metodlara müqayisəli təhlil, statistik metod, qrafiki təhlil, elmi-abstraksiya, məntiqi ümumiləşdirmə və digərləri aiddir.

**Əsas mətn**

Kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyələşdirilmə mənbəyi kimi Azərbaycanda çox da geniş yayılmayan, lakin dünya praktikasında bir çox özünü təsdiq etmiş və zamanla iri şirkətlərə çevrilmiş müəssisələrin işlətdiyi françayzinq metodunu qeyd etmək olar.

Françayzinq - bir şirkətin öz əsas vəsaitlərini, idarəetməsini başqa bir şirkətə satması və ya müəyyən bir müddətə istifadəyə verməsidir. Lakin burada olan əsas məqam odur ki, bu müddət ərzində istehsal olunan məhsullar məhz həmin şirkətin – yəni istifadəsini başqasına verən müəssisənin əmtəə nişanı altında istehsal oluna bilər. Françayzinq münasibətləri müqavilə ilə tənzimlənir və burada istifadə haqqını verən tərəf françayzer, bu haqqı əldə edən sahibkar isə françayzi adlanır. Bu saziş yalnız avadanlıqların, texnikaların istifadəsini nəzərdə tutmur, həmçinin həmin iri müəssisələrin daha əvvəldən mövcud olan bazardakı mövqeyini, onların "xarici görunüşü" nü, ideyalarını və fikirlərini istifadə etməyə şərait yaradır. Françayzer olan sahibkarlar adətən iri müəssisələr olurlar. Bu müqavilə vasitəsilə həm istehsal edilən məhsulların satılması təmin olunur, həm də bu satışı təşkil edən françayzilərin, yəni, fərdi sahibkarların öz fəaliyyətlərini genişləndirməyinə şərait yaranır. Onu da qeyd etmək lazımdır ki, bu metodun iri şirkətlərdən ötrü üstün cəhətləri təkcə onların məhsullarının satılması deyil, eləcə də məhsul satışı sürətli və daha asan olduğu üçün gözlənilən və gözlənilməyən risklərin aşağı olmasındadır [1].

Ümumiyyətlə, dünya üzərində bir çox iri şirkətlərin françayzinq metodundan geniş istifadə etdiyinin bir çox nümunəsi vardır. Misal olaraq, "Hampton Hotels". Fəaliyyət istiqaməti otelçilikdir və bu metodla bağladığı sazişlə əldə etdiyi dəyər 7 milyon dollardan çox olmuşdur. Eləcə də McDonald's kimi dünyaca məşhur brend və restoranlar şəbəkəsi də məhz françayzinqdən istifadə edərək dəyərini 2 milyon dollara yaxın bir miqdarda artırmışdır. Yuxarıda qeyd edilən firmalardan əlavə olaraq Azərbaycanda da fəaliyyətini müvəffəqiyyətlə davam etdirən "Coca-cola", "Papa John's Pizza", "Pizza Hut", "Holiday İnn", "Rent-a-Car" və s. böyük müəssisələrin adlarını çəkmək mümkündür[2].

Françayzinqin müxtəlif növləri vardır ki, bu

növlərdən də müxtəlif sahələrdə istifadə etməklə effektiv qazanclar əldə etmək mümkündür. Mal-əmtəə françayzinqi bu metodun növləri arasında ən geniş yayılanıdır. Belə ki, bu növdə françayzinqi əldə edən tərəf müəyyən müsbət üstünlüklərə malik olur ki, bunlara əsasən françayzerin istehsal etdiyi məhsulu dəyərindən aşağı qiymətə satmaq imkanı, marketinq strategiyası və həmçinin reklam strategiyaları, işçilərin ixtisaslaşdırılması, onlara müxtəlif təlimatların keçirilməsi və s. aiddir. Burada əsas məqam isə istehsal olunmuş əmtəənin françayzer şirkətin əmtəə nişanı altında istehsal olunmasıdır. Məhz bu yolla kiçik müəssisələr və eləcə də, fərdi sahibkarlar həmin logo altında bazarda özlərinə müəyyən qədər mövqe qazana, rəqabətə tab gətirə bilərlər. Digər bir üstünlük isə endirimli qiymətlərin olmasıdır ki, bu zaman da daha çox müştəri cəlb etmək mümkündür və nəticədə iri sahibkarlıq müəssisələri olan firmaların da malları daha tez və asan satılmış olur. Bu növ françayzinqdən istifadə edən şirkətlərdən "General Motors"-un adını çəkmək olar.

Digər françayzinq növü isə istehsal françayzinqidir. Bu növdə adından da bəlli olduğu kimi istehsalın əsasları françayzinqi əldə edən tərəfə təqdim edilir. Yəni, hüququ verən tərəfin istehsalat qaydalarından tutmuş, kommersiya sirrlərinə qədər, həmçinin texnologiyarın istifadəsi haqqında biliklər ötürür, məhsul istehsalının keyfiyyıt standardlarını öyrədir. Habelə, bu növ françayzinq françayziyə istehsalat prosesində istifadə olunan və ya olunacaq texnikaların endirimli məbləğdə və ya dəyərinin hissə-hissə ödəyərək əldə etməyə şərait yaradır. Qeyd edilməlidir ki, bu modellə françayzi sərbəst brend formalaşdıra bilər. Belə tip modeldən istifadə edən dünyaca məşhur şirkətlərdən "Coca-cola" – nın adını qeyd etmək olar.

Üçüncü növ isə servis françayzinqidir ki, bunu əldə etməklə françayzi həmçinin patent qabiliyyətini də əldə etmiş olur. O biri növlərdə olduğu kimi bu zaman da hüququ əldə edən tərəf müxtəlif imkanlar əldə edir, onlara mütəmadi olaraq təlimlər keçirilir, bütün incəliklər izah olunur.

Sonuncu və ən vacib model – sahibkarlıq françayzinqidir. Bu növ hüquq əldə edən tərəfə yalnız müəyyən bir brend adı altında məhsul istehsalı üçün şərait yaratmır, həmçinin sahibkarlığa girişi, eləcə də, müəssisənin bazardakı vəziyyətini, rəqabət qabiliyyətini və mühitini araşdırmağa imkan verir. Bununla da françayzi daha böyük üstünlüklər əldə edərək françaysizi olduğu müəssisənin tərkib hissəsinə çevrilir. Belə olduqda isə bu iki müəssisə sanki vahid bir şirkət kimi imic formalaşdırır. Buna misal olaraq, McDonald's-ı göstərmək olar.

Investisiya nöqteyi-nəzərindən françayzinqin müsbət və mənfi cəhətləri vardır. Öncə müsbət cəhətlərə diqqət yetirdikdə aşağıdakı xüsusiyyətlər ortaya çıxır:

a. Əvvəla, onun təcrübə baxımından əhəmiyyətli təsiri vardır. Belə ki, əgər sahibkarhər şeyi sıfırdan başlamaq istəyirsə və seçdiyi sahədə yetərincə praktikası yoxdursa, o zaman bu müəssisənin özünü doğrultmasına, tamamilə etibar qazanmasına, eləcə də maliyyə cəhətdən "özünə gəlməsi"nə xeyli zaman tələb olunur. Həmçinin bu müddətdə sözügedən müəssisənin uğur qazana bilməməsi, zərərə uğraması kimi halların da baş verə biləcəyi riskini nəzərə aldıqda françayzinqin yeni bir şirkət üçün və ya hər hansı bir şirkətin daha öncə fəaliyyət göstərmədiyi bir sahədə inkişafı üçün əhəmiyyəti ortaya çıxır [3].

b. Françayzinq, eyni zamanda, sahibkarlar üçün bir növ "açıq dərs" imkanını yaradır. Yəni fərdi biznesi olan bir şəxs böyük şirkətlərdən bu hüququ əldə etməklə onun biliklərindən, məsləhətlərindən faydalana bilir ki, bununla da onun hər hansı bir addımda səhv etmə ehtimalı tamamilə azalır və eyni zamanda sahibkarlara, iri müəssisələr tərəfindən keçirilən təlimlər də bu işdə xüsusi əhəmiyyətə malikdir.

c. Daha bir müsbət cəhət isə istehsal olunan malların keyfiyyət üstünlüyünün dəyişməməsidir. Françayzer müəssisə françayziyə texnikasından istifadə imkanı verdiyi üçün məhsul istehsalında keyfiyyət dəyişikliyi baş vermir. Eləcə də, bu metod kiçik sahibkara böyük şirkətlərin müştərilərini qazandırır, yəni müştəri artıq markanın etibarlılığına və istehsal etdiyi əmtəənin keyfiyyətinə inanır. Bu səbəbdən də françayzi artıq müştəri baxımından sıxıntı çəkmir və mallar çox rahatlıqla satıla bilir.

d. Peşəkar və ixtisaslı kadr tapmaq kiçik müəssisələr üçün çətindir. Çünki həm şirkət yenidir, buna görə də, istənilən səviyyədə işçilərin marağına səbəb olmaya bilər, həm də belə potensiallı işçilərin ixtisas artırma məsələlərində kifayət qədər təcrübəsi olmayacaqdır. Françayzinq metodu yeni sahibkarlara böyük şirkətlərin kadr imkanlarından istifadə etmək şansı verir.

Yuxarıda qeyd edildiyi kimi, françayzinqin mənfi cəhətləri də var. Bunlara aşağıdakılar aiddir:

a. Onun qiyməti olduqca yüksəkdir. Buna görə də, əgər sahibkar kifayət qədər pul vəsaitinə malik deyilsə, bu metoddan istifadə etməkdə çətinlik çəkəcəkdir.

b. Franşiza müqaviləsi bağlanılan zaman françayzi alacağı alətləri və ya avadanlıqları yalnız françayzerin müəyyən etdiyi məntəqələrdən almalı, ya da elə ana firmanın özündən götürməlidir. Bu halda kiçik sahibkar daha ucuz qiymətə ala biləcəyi texnika və texnologiyanı başqa yerdən baha qiymətə almağa məcbur olur.

c. Son olaraq, mənfi cəhət odur ki, françayzi olan firma sistemə görə ödəməli olduğu məbləğdən əlavə olaraq, hər ay məhsul satışından əldə etdiyi vəsaitin müəyyən bir faizini – təqribən 1-11 faizini françayzerə verməli olur.

Beləliklə, françayzinq metodunun tətbiqinin müəyyən üstünlükləri, kiçik və ya fərdi sahibkarlar üçün müsbət təsirləri vardır. Məhz bu metodun istifadəsi, hüququ əldə edən tərəfə ilk olaraq böyük şirkətlərdən öyrənə biləcəyi uğurlu biznes təcrübəsi və ideya qazandırır. İkincisi isə əgər şirkət beynəlxalq miqyaslı bir şirkət olarsa (Coca-cola kimi), o zaman bu, həmin müəssisənin françayzisinə dünya bazarına çıxış imkanı verir, bu da öz növbəsində daha çox inkişaf imkanı, daha çox gəlir, böyümə perspektivi və praktika deməkdir. Böyük şirkətlərlə belə (françayzinq) sazişin olması həmin müəssisəyə yüksək ixtisaslı kadrlarla çalışmaq şansı yaradır.

Sahibkarlıq fəaliyyətində ən çox yaşanan problemlərdən biri də məhz risklərlə qarşılaşma və ya onların idarə edilməsində çətinliklərdir. Klassik iqtisadçılar da sahibkarlıq fəaliyyətinin ən riskli fəaliyyət növlərindən biri olduğunu qeyd etmişlər. Yalnız kiçik və orta sahibkarlıq müəssisələri deyil, böyük şirkətlər də öz idarələrində və ya istehsal prosesində, ümumiyyətlə, biznes fəaliyyətində zaman-zaman müəyyən risklərlə qarşılaşır. Bəzən bu "çətinlik"ləri əvvəlcədən müəyyənləşdirmək alınmadığı üçün firmalar onların ağır nəticələrinə məruz qalırlar. Buna görə də, müəssisənin fəaliyyət planında risklərin idarə edilməsi önəmli mövqelərdən birini tutmalıdır. Risklərin idarə edilməsi firmanın üzləşdiyi riskləri müəyyən etməyə və həll etməyə kömək edir və onun biznes məqsədlərinə nail olmaq şansını artırır[3].

Hər bir sahibkar öz fəaliyyəti çərçivəsində əvvəlcədən bilinən, yəni, gözlənilən və ya gözlənilmədən meydana çıxan digər risklərlə qarşılaşa bilər. Burada əsas məsələ isə həmin anda onun necə davranmağı, həmin riskləri necə idarə etməsidir. Risklərin idarə edilməsi prosesi özündə bir neçə mərhələni əhatə edir. Bunlar aşağıdakılardır:

- İşgüzar fəaliyyəti əhatə edən riskləri müntəzəm olaraq müəyyən etmək;
- Onların meydana gəlmə ehtimallarını qiymətləndirmək;
- Baş verdikləri halda bu vəziyyətə müəssisənin necə cavab verəcəyini və ya "ümumiyyətlə cavab verə biləcəkmi?" aydınlaşdırmaq;
- Qarşısını almaq üçün şirkətdaxili sistemlər, riskdən yayınma və ya necə daha az zərərlə vəziyyətdən çıxmaq üçün yöntəmlər formalaşdırmaq;
- Son olaraq isə, müəssisənin qurduğu riskin idarə edilməsi strategiyasının və ona nəzarətin effektivliyinin qiymətləndirilməsidir.

Risklərin idarə edilməsi üzrə kiçik və orta sahibkarlıq müəssisələri müxtəlif metodlara baş vurmalıdır. Bu metodlar riskdən yayınmaq və ya qaçmaq, ləğv etmək, riski yumşaltmaq yaxud seyrəltmək, son olaraq onu kompensasiya etməkdir. Bu yollara davranış maliyyəsində də nəzəri və təcrübi baxımdan geniş yer verilmişdir.

Sahibkar əgər riskdən qaçmaq istəyirsə, o zaman o, mütləq şəkildə etibar duymadığı partnyorlardan imtina etməlidir, riskli layihələri qəbul etməməli, onları yaradacaq halların qarşısını almaq üçün isə sığortaya baş vurmalıdır.

Əlbəttə ki, kiçik və orta sahibkarlıqla məşğul olmaq üçün vençur kapitalı əsas vəsait mənbəyi hesab edilir. Vençur kapitalı müxtəlif startap layihələrinə - elmi-texniki yeniliklərə, müxtəlif kəşflərə, ixtiralara, riskli sayılan layihələrə edilən maliyyə yardımıdır və ya bir növ kreditləşmə yoludur. O, yeni yaranan və bazarda, rəqabət şəraitində özünə yer tutmağa çalışan kiçik və orta ölçülü firmalara verilən dəstəkdir. Vençur kapitalı əsasən, investorlar tərəfindən yatırılan maliyyə vəsaiti olmasına baxmayaraq, dövlət də bu yoldan istifadə edir. Bu maliyyələşdirilmə yolu ilə qazanılan gəlirlər adətən çox yüksək olur və hətta həmin gəlirin 25-30%-i belə həmin kapitalın geri ödənilməsinə kifayət edir. 2017-ci ilə əsasən, ölkəmizdə mövcud olan yalnız 2 vençur kapitalı

fondu var idi ki, bunlar da "Khazar Ventures" və "İnfipro" şirkətləridir. Onlar əsasən informasiya texnologiyaları sahəsində olan startapları, kiçik firmaları maliyyələşdirirdilər. Belə şirkətlərin az olmasının əsas səbəbi investorların vəsaitlərini riskli və ya sonunda gəlir əldə edib- etməyəcəyini bilmədiyi layihələrə qoymaq istəməməyidir. Lakin müəssisələrdə olan riskləri ləğv etmək üçün məhz belə şirkətlərin yaradılması vacib haldır. Yaxud hər bir kiçik və orta sahibkarlıq müəssisəsi öz daxilində riskli layihələr bölməsi yaradaraq onlarla bu "departament" daxilində məşğul ola biləcək kadrlar cəlb etməlidir[4].

Şirkətlər öz fəaliyyətləri çərçivəsində riskləri yumşaltmaq və yaxud seyrəltmək üçün müəyyən addımlar atmalıdır. Bunlar aşağıdakılardır:

1. Müəssisə öz fəaliyyət dairəsini genişləndirərək müxtəlif sahələrdə istehsal və ya xidmətlə məşğul olmalıdırlar;
2. Bir çox bazarlarda özünə yer tutaraq alış-satış məntəqələrini artırmalıdırlar. Beləliklə də, daha çox kütləyə mal təklif edə və xidmət göstərə bilər.
3. Yaranacaq risklərin çox ağır şəkildə yalnız şirkətin bir bölməsinin üstünə düşməsin deyə onların "komandalar" arasında və vaxta görə bölüşdürülməsi vacibdir.

Son olaraq, artıq baş vermiş riskləri kompensasiya etmək üçün sahibkar ilk öncə məhz belə hallar üçün ehtiyat kapitalına sahib olmalıdır. Fəaliyyətini düzgün şəkildə planlaşdırmalıdır ki, itirdiklərini qısa zamanda geri qazana bilsin. Riskə uğradığı halda bu həm də müəssisənin imicinin zədələnməsi ilə də nəticələnə bilər. Bu məqamda marketinqin önəmi ortaya çıxır. Yəni şirkət marketinq strategiyasını dəqiq və aktiv şəkildə qurmalıdır ki, yaranmış imic və etibar zərərini ortadan qaldıra bilsin.

Bundan başqa, riskləri azaltmağın və ya aradan qaldırmağın digər bir yolu kimi sahibkarlar öz müəssisələrində "hedging" strategiyasından istifadə edə bilərlər. Hərfi mənası ingilis dilindən tərcümədə "çəpərləmə" olan "hedging"-in əsas funksiyası gəlirləri artırmaq deyil, riskləri azaltmaqdır. Bu prosesi yerinə yetirən mütəxəssislər isə "hedger" adlanır. Hedgerlər şirkətin risklərini və əslində həm şirkətin, həm də qarşı tərəfin ( bu müştəri də ola bilər ) risklərini azaltmağa yönəldilmiş bir strategiya qururlar. Sahibkarlar belə mütəxəssislərə müraciət edərək, hətta gələcək gəlirlərini proqnozlaşdıra, bazardakı hazırki vəziyyətdə nə etməli olduqlarını, hətta yarana biləcək riskləri əvvəldən təyin edərək, onlara qarşı tədbir görə bilərlər. Ümumiyyətlə, dünyanın bir çox inkişaf etmiş ölkələrində və böyük sahibkarlıq müəssisələrində hedging strategiyasından geniş istifadə olunur.

Beləliklə, risklərin idarə edilməsi prosesi qərarların qəbul edilməsini, planlaşdırma və prioritetləşdirilməsini yaxşılaşdırır, kapital və resurs bölgüsünü daha effektiv yerinə yetirməyə yardımçı olur, gələcəkdə yanlış ola biləcək halların, hərəkətlərin qarşısını almağa və ən pis halda belə ciddi maliyyə itkisinə yol verməməyə səbəb olur. Həmçinin sahibkarın qurduğu biznes-planı vaxtında və müəyyən etdiyi büdcəni aşmayaraq yerinə yetirməsinə şərait yaradır. Firma yeni bir məhsul istehsalını reallaşdırmaq istəyən zaman və ya onun daha geniş miqyaslı, yeni bazarlara çıxmaq üçün cəhd etməsi zamanı risklərin idarə edilməsi daha mühüm əhəmiyyət daşımağa başlayır. Çünki yeni əmtəə satışına cəhd etmək özü real bir riskdir. Müştərinin bu malı qəbul edib-etməyəcəyi, onun keyfiyyətinin, qiymətinin alıcını razı salıb-salmayacağı sual altında olur. Bu, həmçinin yeni bazarlara çıxmaq cəhdinə də aiddir. Ona görə ki, yeni bazar dedikdə, yeni rəqiblər, yeni rəqabət mühiti nəzərdə tutulur. Burada əsas məsələ sahibkarın bu rəqabət şəraitinə tab gətirib-gətirməyəcəyidir. Məhz bu suallara cavab tapmaq üçün firma risklərini düzgün idarə etməli və baş verə biləcək potensial təhlükələri əvvəlcədən proqnozlaşdıra bilməlidir.

**Nəticə**

Sahibkarlıq fəaliyyəti ümumilikdə iqtisadiyyatın qeyri-neft sektorunda əhəmiyyətli yer tutması isə xarakterizə olunur. Bu, tək bizim ölkəmizin iqtisadı fəaliyyətində deyil, bütün dünya üzərində - həm inkişaf etmiş, həm də inkişafının genişlənmə mərhələsində olan ölkələr üçün xarakterikdir. Xüsusilə də, hazırki internet dövründə insanların sahibkarlıqla məşğul olmağı, bu iş üzərindən gəlir əldə etməyə çalışmağı daha az vaxt tələb edən və xeyli dərəcədə sürətlidir.

Araşdırmaların sonunda bir sıra nəticələr əldə edilmişdir. Həmin nəticələrə əsaslanaraq isə müəyyən təkliflər önə sürülmüşdür. Bunlar aşağıdakılardır:

1. İlk olaraq, əldə olunan nəticələr sırasına kiçik və orta biznes fəaliyyəti ilə məşğul olan müəssisələrin inkişafının ölkə iqtisadiyyatına müsbət təsir etdiyi faktı aiddir.

2. Azərbaycan bazarında yerli istehsal olan malların həcmi ilə bağlıdır. Belə ki, əgər ölkədə KOS-ların sayı artarsa, bu zaman bazarda öz istehsalımız olan malların həcmi də artar. Əlavə olaraq, əgər bu müəssisələrin maliyyə təminatı yüksək olarsa, o zaman, istfadə olunan xammal və materiallar da keyfiyyət cəhətdən yüksək olar. Nəticədə, yekun olaraq hazır məhsul keyfiyyət baxımından xarici mallardan geri qalmaz və əhali də artıq yerli istehsala aid olan əmtəələrə daha çox üstünlük verər.

3. Françayzinq dünyanın bir çox iri şirkətlərində və inkişaf etmiş ölkələrində istifadə olunur. Lakin ölkəmizdə fəaliyyət göstərən kişik və orta ölçülü firmalarda maliyyələşmə mənbəyi kimi bu metod demək olar ki, işlədilmir. Bunun üçün ilk növbədə iri biznes müəssisələrinin təcrübəsindən istifadə etmək lazımdır.

4. Sahibkarlığın ilkin maliyyə təminatı məqsədilə vençur kapitalını təmin edən bir fond yaradılmasıdır. Düzdür, dövlətimiz sahibkarlara Sahibkarlığın Inkişafı fondu çərçivəsində müəyyən qədər yardımlar edir, lakin bəzən startaplar üçün vençur kapıtalı qaçılmaz olur. Beləliklə, belə bir fondun yaradılması, məhz yeni layihələr üçün yardım və biznesə qoşulmaq istəyən şəxslər üçün isə yeni bir ilham qaynağı sayıla bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əliyev T.N., Əhmədli A.M., Məmmədov R.M. (2001) "Müştərək müəssisə və sahibkarlıq." Bakı,. s.68
2. Manafov Q.N. (2002) "Sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafının elmi-praktiki problemləri" iqt. e. d-ru a. dər. al. üçün təq. ol. dis.: 08.00.01 /Q. N. Manafov ; Azərb. Dövlət İqtisad Un-ti.Bakı, s.324
3. Manafovun Q.N. (2011) "Sahibkarlıq nəzəriyyəsi". Bakı, 118 s.
4. Niftullayev V. (2012) "Sahibkarlığın əsasları". Bakı: Zaman, 618 s.

**проф.Магеррам Джалал оглы ГУСЕЙНОВ**

**Анара Анар кызы ГУРБАТЗАДЕ**

**Фарид Арзу оглы САФАРЛИ**
Азербайджанский Технологический Университет

# НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ ФИНАНСИРОВАНИЯ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА

**Резюме**

В период перехода к рыночной экономике правительство Азербайджана осуществило определенные реформы, различные государственные программы и проекты в целях развития предпринимательства, создания малого и среднего бизнеса, увеличения их возможностей для дальнейшего развития. Существует несколько методов финансирования малого и среднего бизнеса. Среди этих способов, безусловно, большое значение имеет финансирование из государственного счета. Однако главный вопрос здесь в том, какие методы могут оказать существенное влияние, кроме внебюджетных и напрямую финансируемых государством. Судя по мировому опыту, среди этих способов особое значение придается финансированию за счет лизинга, франчайзинга и венчурного капитала.

**Ключевые слова:** *предпринимательство, финансы, бизнес, лизинг, налог, франчайзинг, инвестиции, риск.*

**prof.Maharram Jalal HUSEYNOV**

**Anara Anar GURBATZADE**
Azerbaijan Technological University

**Farid Arzu SAFARLİ**
Azerbaijan Technological University

# DİRECTİONS FOR İMPROVİNG THE FİNANCİNG OF SMALL AND MEDİUM-SİZED BUSİNESSES

**Summary**

During the period of transition to a market economy, the Azerbaijani government carried out certain reforms, various government programs and projects to develop entrepreneurship, create small and medium-sized businesses, and increase their opportunities for further development. There are several methods of financing small and medium businesses. Among these methods, of course, financing from the state account is of great importance. However, the main question here is what methods can have a significant impact, other than extrabudgetary and directly funded by the state. Judging by world experience, among these methods, particular importance is attached to financing through leasing, franchising and venture capital.

**Keywords:** *entrepreneurship, finance, business, leasing, tax, franchising, investment, risk.*

**Nüsrət Qənbər oğlu HÜSEYNOV, PhD, Dos.**

**Müşgünaz Fazil qızı ZAMANLI**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: mushgunaz.1995@mail.ru

# BİZNESİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ

**Xülasə**

Məqalədə Azərbaycanda kiçik və orta biznesin inkişafı üçün dövlət dəstəyi mexanizmlərindən istifadə və bazar iqtisadiyyatının mövcud mərhələsində onun rəqabət üstünlüklərindən sonrakı istifadənin aktual problemlərindən bəhs edilir. Kiçik və orta sahibkarlığın inkişafının hazırkı vəziyyətinə (Azərbaycanın uzunmüddətli sosial-iqtisadi inkişafı Konsepsiyasına, regionların inkişaf proqramına əsaslanan dövlət dəstəyi vasitələrindən istifadə) böyük diqqət yetirilir. Yaxın gələcəkdə kiçik və orta biznes ölkənin və onun regionlarının sosial-iqtisadi inkişafının ən mühüm sabitləşdirici amili hesab olunur. Məqalədə biznesin inkişafı xidmətləri, sahibkarlara biznes ehtiyaclarının müxtəlif mərhələlərində təklif olunan qeyri-maliyyə xidmətləri və məhsullar kimi dəstək barəsində məlumatlar əks olunur.

**Açar sözlər:** kiçik biznes, orta biznes, biznesin inkişafı, dövlət dəstəyi, sosial- iqtisadi inkişaf.

**UOT: 334**
**JEL: 64**

## Giriş

Beynəlxalq miqyasda KOB-in inkişafı prosesi ilə yanaşı biznesə dəstək sahəsi də böyüyür. Bir sıra biznesə dəstək variantları hazırlanmışdır və kiçik biznesin inkişafı üçün tətbiq oluna bilər. Bununla belə, bu cür dəstəyin effektiv olması üçün əsas meyarlar tətbiq edilməlidir. Biznesin inkişafı xidmətləri ona görə vacibdir ki, onlar sahibkarlara öz bizneslərini daha effektiv idarə etməyə kömək edə bilər və müvafiq şəkildə tətbiq olunarsa, maddi girovun maneə törədə biləcəyi hallarda maliyyəyə çıxışın gücləndiricisi və alternativ "girov" kimi çıxış edə bilər. Dövlət zaman-zaman KOBİ-lərin inkişafı baxımından strateji istiqamətlər təklif etsə də, hələ ki, bütün ölkə üzrə bu cür dəstəyin ardıcıl və məqsədyönlü şəkildə çatdırılması mövcud deyil.

Ölkəmizdə bəzi proqramlar dövlət tərəfindən dəstəklənir və yerli ehtiyaclar baxımından bir sıra xidmətlər təklif etmək üzərində işləyir. Bununla belə, ümumilikdə, dəstəyə ehtiyacı olan sahibkarların qarşısında duran bir sıra maneələr mövcuddur. Məsələn, kənd yerləri resurslardan və xidmətdən çox zəifdir. Tədqiqatın bu hissəsinin əsas tapıntıları arasında biz müəyyən etdik ki, proqramlar kifayət qədər gender yönümlü deyil, qadınların üzləşdiyi məhdudiyyətlər haqqında az məlumatlıdır. Digər kritik məsələ müxtəlif səviyyələrdə qadın müəssisələrinin ehtiyaclarına kifayət qədər diqqət yetirilməməsidir.

Beləliklə, yoxsulluğun azaldılması, davamlı inkişaf və ya iş yerlərinin yaradılması ilə bağlı məqsədləri baxımından proqramların daha yaxşı fərqləndirilməsinə ehtiyac var. Nəhayət, bu proqramlar qadınlar üçün maliyyə strategiyalarına çıxış imkanı ilə inteqrasiya edilməlidir.

Kiçik və orta biznes (KOB) müasir mərhələdə iqtisadiyyatın əsas sahələrindən biridir. Böhran nəticələrinin aradan qaldırılmasında və Azərbaycan iqtisadiyyatının keyfiyyətcə daha da yüksəlməsində mühüm rol ona verilir. Kiçik biznes potensial imkanlara malikdir, onlara bazar iqtisadiyyatının dinamik mühitində müəssisələrə daha mobil olmaq və rəqabət üstünlüklərinə malik olmaq imkanı verilir. Kiçik müəssisələrin yaradılması və gələcək inkişafı prosesində yeni iş yerləri yaradılır, ədalətli rəqabət formalaşır, bazarın zəruri mal və xidmətlərlə sürətli doyması baş verir. Vurğulamaq lazımdır ki, kiçik və orta biznesin inkişafı hesabına yeniliklər daha fəal şəkildə tətbiq edilir. Ona görə də, iqtisadiyyatın bu sektoru dövlət strukturlarının, eləcə də sahibkarların istiqamətləndiyi gələcək inkişafın özül alətidir.

Kiçik müəssisələr təbiətcə qeyri-sabit sahibkarlıq strukturlarıdır; onlar bazarın

dəyişməsindən daha çox asılıdırlar və müxtəlif formalarda dövlət dəstəyinə ehtiyac duyurlar. Buna görə də, sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi və dəstəklənməsi iqtisadi sistemin transformasiyası şəraitində onun bazar formalarının inkişafı və institusional infrastrukturun qurulması şəraitində kiçik və orta sahibkarlıq strukturlarının sabit və səmərəli fəaliyyətinin şərtidir. Azərbaycan həmçinin kiçik və orta biznesin effektiv dövlət tənzimləmə və dəstək sisteminin yaradılmasını qurur.

Bu problem öz təbiətinə görə uzanır, lakin araşdırmanın məqsədləri üçün hələ də aktualdır. "Bazar idarəetmə sistemi olan ölkələrdə dövlət siyasəti kiçik müəssisələri iri firmanın inkişafının kiçik modeli və ya aralıq mərhələsi kimi deyil, spesifik xüsusiyyətlərə və inkişaf qanunlarına malik olan və xüsusi yanaşma tələb edən xüsusi model hesab edir. Kiçik biznesin taleyini müəyyən edən dövlətdir. Əksər inkişaf etmiş ölkələrdə dövlət kiçik biznesə bir növ üstünlüklər verir ki, bu da son nəticədə kiçik müəssisələrin həyat qabiliyyətini artırmağa imkan verir. Belə ölkələrdə kiçik sahibkarlığın fəaliyyətinin sabitləşdirilməsi qanunla təmin edilir» [1, s.45].

Bu gün KOS-un dövlət tənzimlənməsi və dəstəyi sistemi (hüquqi, maliyyə, konsaltinq dəstəyi, kiçik və orta sahibkarlıq subyektlərinin infrastrukturunun inkişafına dəstək, həyat təminatı, innovasiya fəaliyyətinə dəstək, fərdi təlim və yenidənhazırlanma sahəsində dəstək, kiçik və orta biznesdə beynəlxalq əməkdaşlıq istisna olmaqla) innovasiyaya əsaslanan iqtisadiyyata malik ölkələr üçün xarakterik olan strateji əhəmiyyətli artım istiqamətlərini nəzərə almağa imkan verən səmərəli alətlərin işlənib hazırlanmasını tələb edir. Sahibkarlıq fəaliyyətinin inkişafının səmərəli mexanizmlərinin axtarışı aşağıdakı istiqamətlərdə aparılır: maliyyə və əmlakla bağlı, infrastruktur, informasiya, institusional, struktur və funksional əlaqələr [2, s.3].

Azərbaycanda kiçik və orta sahibkarlığın dövlət tənzimlənməsi və dəstəyi sistemində "artım nöqtələri" adlanan strateji əhəmiyyətli iqtisadi sektorların dəstəklənməsi alətləri zəif inkişaf etmişdir. Tədqiqatımızda bu "böyümə nöqtələri"nə reklam, HR konsaltinq, mühəndislik, maliyyə vasitəçiliyi, hüquqi xidmətlər, inkişaf və rieltor xidmətləri, Veb və Rəqəmsal xidmətlər sahəsində biznes xidməti sektorunda SMB daxildir. Ətraf mühitə uyğunlaşdırılmış bizneslə yanaşı, texnoloji biznes də strateji inkişaf nöqtələri kimi götürülməlidir.

Artım nöqtələrinin dəstəkləyici alətlərinin strukturunda profilli müəssisələr nəzərə alına bilər, onlar həmçinin modernləşdirmə, mikromaliyyələşdirmə, sahibkarlıq arzusunda olan şəxslər üçün qrantlar, investisiya kreditləri, nizamnamə kapitalında pay almaqla investisiyalar üçün verilə bilər. Azərbaycan Respublikasının subyektləri, kiçik və orta biznes daha çox ticarət və insanlara xidmət sahələrində cəmləşmişdir. Hökumətin 25 illik inkişafının hesablamalarına görə, sahibkarlıq iqtisadiyyatı ümumi daxili məhsulun 1/3 və daha çox hissəsi ilə ümumi regional məhsulun 1/5 hissəsi təmsil olunur. Lakin kiçik və orta sahibkarlığın dövlət tənzimlənməsi və dəstəklənməsi istiqamətləri siyahısında biz iqtisadiyyatın daha çox innovativ inkişafına keçidi təsdiq edə biləcək sahələrdə və istiqamətlərdə sahibkarlığın inkişaf istiqamətlərini aşkar etməmişik.

Bu sahələrə biznes xidməti sektoru, ətraf mühitə uyğunlaşdırılmış biznes v.s daxildir. Qlobal Rəqabət Qabiliyyətlilik Hesabatında təklif olunan iqtisadiyyat növlərinə görə sahibkarlıq fəaliyyəti dünya ölkələrinin üç qrupu üzrə müəyyən edilir:

I. Faktorla idarə olunan iqtisadiyyatlar.
II. Səmərəliliyə əsaslanan iqtisadiyyatlar.
III.
İnnovasiyaya əsaslanan iqtisadiyyatlar [2].

Azərbaycan ilə birlikdə səmərəliliyə əsaslanan iqtisadiyyata malik ölkələr qrupuna Argentina, Bosniya, Braziliya, Çin, Kolumbiya, Xorvatiya, Çili, Ekvador, Estoniya, Qvatemala, Macarıstan, İndoneziya, Yamayka, Latviya, Litva, Makedoniya, Malayziya, Meksika, Panama, Peru, Polşa, Cənubi Afrika Respublikası, Rumıniya, Slovakiya, Surinam, Tayland, Uruqvay daxil edilməlidir.

Dünya iqtisadiyyatlarının 3 qrupuna Belçika, Kanada, Çexiya, Finlandiya, Fransa, Böyük Britaniya, Almaniya, Yunanıstan, Hollandiya, İsrail, İrlandiya, İtaliya, Yaponiya, Koreya, Lüksemburq, Norveç, Portuqaliya, Puerto Riko, İspaniya, Sinqapur, Sloveniya daxildir.

Bu ölkələr biznes üçün xidmət sektorunda yüksək fəallıq nümayiş etdirirlər. Bu vəziyyətdə davamlı rəqabət üstünlükləri yeniliklərlə müəyyən edilir. Kiçik və orta sahibkarlığa dövlət dəstəyi

strategiyasının reallaşdırılmasının əsas yanaşmaları kimi aşağıdakı məqamlar müəyyən edilir:

- müxtəlif səviyyələrdə dəstək: kiçik və orta sahibkarlığın inkişafına federal, regional və bələdiyyə dəstəyi;

-KOBİ-nin qeydiyyatdan başlayaraq köklü sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə, habelə profilin dəyişdirilməsi və ya fəaliyyətə xitam verilməsi barədə qərar qəbul edilməsinə qədər onun həyat dövrünün inkişaf təcrübəsi;

-KOBİ-lərin inkişafının konkret mərhələlərini nəzərə alaraq ya ilkin mərhələdə inzibati maneələrin azaldılması, ya da onların fəaliyyətinin dövlət tənzimlənməsi və dəstəklənməsi mexanizmlərinin təkmilləşdirilməsi;

-sahibkarlıq fəaliyyətinin risk və qeyri-müəyyənliyi baxımından KOBİ-lərin inkişafını stabilləşdirən amillərin reallaşdırılmasının təmin edilməsi ilə bağlı yanaşmalar;

-KOBİ-lərin fəaliyyətinin hüquqi təminatı, o cümlədən, audit xərcləri, xüsusi vergi rejimlərini seçmək imkanı, vergi amnistiyası və s.;

-dövlət tənzimləmə və dəstək institutlarının inkişafı ilə bağlı kiçik və orta sahibkarlığın inkişafına institusional dəstək.

Sənayeləşmiş ölkələrdə kiçik və orta sahibkarlığın dövlət dəstəyinin reallaşdırılması strategiyasının əsas yanaşmalarına aşağıdakı aspektlər də daxildir [1, s.27]:

-menecerlərin bacarıq səviyyəsinin yüksəldilməsi;

-regional problemlərin həlli, xüsusilə depressiyaya uğramış regionların inkişafı;

-vençur maliyyələşdirməsinə çıxış problemini nəzərə alaraq texnoloji biznesin inkişafı;

Sahibkarlığa dövlət dəstəyi məqsədyönlü şəkildə iqtisadi-hüquqi şəraitin yaradılması, sahibkarlığın inkişafı üçün stimulların yaradılması, habelə ona güzəştli şərtlərlə maddi və maliyyə vəsaitlərinin qoyulmasıdır. Dövlət ictimai şüurda dəyişiklikləri stimullaşdırsa, onu orta təbəqənin həyati maraqlarına və dəyərlərinə yönəltsə, əhalinin müxtəlif təbəqələrində və qruplarında sahibkarlıq fəaliyyətinə müsbət münasibət formalaşdırsa, bu məqsədlərə nail olunur. Məhsul və xidmətlərə olan ehtiyacı ödəmək, həm də mümkün həyat yolu kimi vətəndaşlara şüurlu seçim etməkdə kömək etmək lazımdır (sahibkar olmaq və ya işçi kimi qalmaq, istehsala investisiya qoymaq və ya onlardan şəxsi istehlak üçün istifadə etmək).

Sosial məsuliyyət və biznes etikası prinsipləri əsasında sahibkarların müsbət özünüdərkinin inkişafı böyük əhəmiyyət kəsb edir. Görünür, yalnız bu halda sahibkarlar dövlətin sütununa və vətəndaş cəmiyyətinin ayrılmaz elementinə çevrilməyə qadir, ümumi maraqlara malik müstəqil sosial fəal qrupa çevrilə bilərlər [6, s.78].

Sahibkarın nöqteyi-nəzərindən onun məqsədlərinə səmərəli şəkildə nail ola biləcəyi şəraiti (mənfəətin maksimumlaşdırılması, investisiyanın səmərəliliyi, risklərin minimuma endirilməsi, əmlakın və şəxsi müdafiə və s.) yaradan dövlətdir.

Dövlət nöqteyi-nəzərindən sahibkar daha yüksək səviyyəli məqsəd və maraqların (sosial rifahın yüksəldilməsi, məşğulluğun təmin edilməsi, milli təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi yardım və s.) həyata keçirilməsini təmin etməyə çağırılır.

Dövlətin və biznesin məqsəd və maraqlarının kəsişdiyi sahədə səmərəli dövlət siyasəti həyata keçirilə bilər. Bu, dövlətin sahibkarlıqla bağlı strategiya və taktikasını nəzərdə tutur [6, s.84].

İqtisadi islahatların əsl məqsədi əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yüksək olmasını təmin edən səmərəli iqtisadiyyat yaratmaqdan ibarətdir. Azərbaycanın dünya iqtisadi birliyində layiqli iştirakı, inkişaf etmiş kiçik biznes bu məqsədlərə nail olmaq üçün unikal və effektiv vasitədir. Kiçik biznes müasir bazar iqtisadiyyatı sisteminin ayrılmaz elementidir, onsuz iqtisadiyyat və bütövlükdə cəmiyyət normal mövcud ola və inkişaf edə bilməz.

Dövlət siyasətinin həyata keçirilməsinin əsas aləti kiçik biznesin inkişafı və dəstəklənməsi üçün federal, regional (regionlararası), sektoral (sahələrarası) və bələdiyyə proqramlarıdır.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin əsas məqsədləri:

1) Azərbaycanın iqtisadiyyatında rəqabət mühiti yaratmaq üçün kiçik və orta biznesin inkişafı;

2) kiçik və orta biznesin inkişafı üçün əlverişli şəraitin təmin edilməsi;

3) kiçik və orta biznesin rəqabət qabiliyyətinin təmin edilməsi;

4) kiçik və orta sahibkarlıq subyektlərinə mallarının, (işlərinin, xidmətlərinin), intellektual fəaliyyətin nəticələrinin Rusiya Federasiyasının bazarında və xarici dövlətlərin bazarlarında təşviqində kömək;

5) kiçik və orta sahibkarlıq subyektlərinin sayının artması;

6) əhalinin məşğulluğunun təmin edilməsi və özünüməşğulluğun inkişafı;

7) kiçik və orta sahibkarlıq subyektlərinin istehsal etdikləri malların (işlərin, xidmətlərin) ümumi daxili məhsulun həcmində xüsusi çəkisinin artması;

8) büdcənin vergi gəlirlərində, Azərbaycanın təsis qurumlarının büdcələrində və yerli büdcələrdə kiçik və orta sahibkarlıq subyektlərinin ödədiyi vergilərin payının artması [8].

Hazırda kiçik sahibkarlıq subyektlərinə effektiv dəstəyin göstərilməsinin qarşısında duran maneələrdən biri də kiçik biznesin fəaliyyətini dəstəkləyən səmərəli infrastruktur obyektlərinin olmamasıdır [8].

İri müəssisələr öz infrastrukturunu yaradırlar: tədris mərkəzləri, marketinq və hüquq şöbələri, kommunikasiya infrastrukturu (giriş yolları, mühəndis şəbəkələri və s.), nümayəndəlik və mağazalar açır, öz işçiləri üçün öz banklarını və sosial obyektlərini yaradırlar.

Kiçik biznes bunu edə bilməz. Amma bazarda qaydalar hamı üçün eynidir. Odur ki, kiçik biznesin rəhbəri şirkətin məhsulları ilə uğurla rəqabət aparmaq üçün təcrübəli hüquqşünasla məsləhətləşməli, marketinq araşdırmaları aparmalı, paylama şəbəkəsi vasitəsilə mal sata bilməlidir [8].

Kiçik biznesi dəstəkləmək üçün infrastruktur sərfəli şərtlərlə belə imkanı təmin etməlidir. Son illərdə onlarla kiçik sahibkarlığa dəstək infrastrukturu obyektlərinin meydana çıxmasına və fəaliyyət göstərməsinə baxmayaraq, dövlət və yerli hakimiyyət orqanlarının dəstəyi olmadan hərtərəfli və səmərəli dəstək infrastrukturunun yarana və mövcud ola bilməyəcəyi göz qabağındadır.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb. Prezidentin 26 iyun 2018-ci il tarixli sərəncamı ilə Agentliyin adı dəyişdirilərək Kiçik və Orta Biznesin İnkişafı Agentliyi adlandırılıb. Azərbaycan Respublikası Prezidentinin bu fərmanı ilə Agentliyin Nizamnaməsi və strukturu da qəbul edilib [3].

"Sahibkarlığa dəstək olunması barəsində xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən proqramların (layihələrin) razılaşdırılması haqqında" cənab İlham Əliyevin 2 iyul 2019-cu il tarixli Fərmanına əsasən, xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən kreditlər, texniki köməklər formasında maliyyələşdirilən proqramlar (layihələr) yaxud ölkəmizdə mikro, kiçik və orta sahibkarlığa dəstək göstərilməsi üçün qrantlar Agentliklə razılaşdırılmaqla reallaşdırılır.

Agentlik "Mikro, KOS-luq subyektləri arasında rəqabətqabiliyyətli istehsalın stimullaşdırılması məqsədilə daxili bazarın tədqiqinə dövlət dəstəyi Qaydaları"nın təsdiq olunması barəsində Prezidentin 29 may 2019-cu il tarixli Fərmanına uyğun olaraq dəstək tədbirləri həyata keçirilir və sahibkarlara dəstək üçün müavinətlər ödəyir [4, s.23]

ARNK-nin 30 sentyabr 2020-ci il tarixli qərarına əsasən "Mikro, KOS-un təkmilləşməsi ilə əlaqəli təhsil, elmi, elmi-tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi qaydası"na uyğun olaraq mikro, KOS-un təkmilləşməsi ilə əlaqəli təhsil, elmi, tədqiqat və dəstək layihələri, eyni zamanda maliyyələşdirmənin reallaşdırılması üçün müsabiqələrin təşkili AR-nın KOB-un İnkişafı Agentliyi tərəfindən təmin olunur [5, s.15]

## ƏDƏBİYYAT SİYAHISI:

1. İmanov Ə.Ş. "Kiçik sahibkarlıq". Dərs vəsaiti. Bakı, «Elm», 2009. -368 səh.

2. Luis L.Allen. "Kiçik biznesdə necə uğur qazanmaq olar?". Bakı, Azərnəşr 1

3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Sahibkarlıga Kömək Milli Fondu "Kiçik və orta sahibkarlıq subyektləri üçün əyani vəsait"

4. Qafarov Ş.S. "Müasir iqtisadi sistem və qloballaşma" (monoqrafiya). Bakı, 2005. -632 səh.

5. http://economy.gov.az - Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi

6. http://www.taxes.gov.az - Vergilər Nazirliyi

7. http://azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

file:///C:/Users/HP/Downloads/gosudarstvennaya-podderzhka-malogo-i-srednego-predprinimatelstva.pdf

8. https://www.uschamber.com/co/run/business-financing/small-business grants-and-programs

**Нусрат Ганбар Гусейнов, PhD, Доц.**

**Мушгуназ Фазил Заманлы**
Азербайджанский Технологический Университет
E-mail: мушгуназ.1995@mail.ru

## ГОСУДАРСТВЕННАЯ ПОДДЕРЖКА РАЗВИТИЯ БИЗНЕСА

**Резюме**

В статье рассматриваются актуальные проблемы использования механизмов государственной поддержки для развития малого и среднего бизнеса в Азербайджане и дальнейшего использования его конкурентных преимуществ на современном этапе рыночной экономики. Большое внимание уделяется текущему состоянию развития малого и среднего предпринимательства (использование инструментов государственной поддержки на основе Концепции долгосрочного социально-экономического развития Азербайджана, программы развития регионов). В ближайшей перспективе малый и средний бизнес рассматривается как важнейший стабилизирующий фактор социально-экономического развития страны и ее регионов. В статье представлена информация о такой поддержке, как услуги по развитию бизнеса, нефинансовые услуги и продукты, предлагаемые предпринимателям на различных этапах их потребностей в бизнесе.

**Ключевые слова:** малый бизнес, средний бизнес, развитие бизнеса, государственная поддержка, социально-экономическое развитие.

**Nusrat Qanbar Huseynov, PhD, Assoc.prof.**

**Mushgunaz Fazil Zamanli**
Azerbaijan Technological University
E-mail: mushgunaz.1995@mail.ru

## STATE SUPPORT FOR BUSİNESS DEVELOPMENT

**Summary**

The article discusses the actual problems of using state support mechanisms for the development of small and medium-sized businesses in Azerbaijan and further use of its competitive advantages at the current stage of the market economy. Great attention is paid to the current state of the development of small and medium enterprises (the use of state support tools based on the Concept of long-term socio-economic development of Azerbaijan, the development program of the regions). In the near future, small and medium business is considered the most important stabilizing factor of the socio-economic development of the country and its regions. The article provides information on support such as business development services, non-financial services and products offered to entrepreneurs at various stages of their business needs.

**Keywords:** small business, medium business, business development, state support, socio-economic development.

**Səkinə Yaqub qızı HÜSEYNOVA, i.f.d. b.m.**

**Ələsgər İlqar oğlu HƏSƏNLİ**
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) magistrantı

# TİCARƏTDƏ İNNOVASİYA TEXNOLOGİYALARI

**Xülasə**

Məqalədə pərakəndə ticarət sferasında tətbiq edilən innovasiyalara baxılır. Müasir zamanda pərakəndə şəbəkədə kordinal dəyişikliklər baş verir. Bu dəyişikliklərin əsas səbəbi innovasiya texnologiyalarıdır. İnnovasiya texnologiyaları bu sahəyə geniş imkanlar yaradır. Məqalədə Azərbaycanda ticarətin əsas göstəriciləri dinamik inkişafda verilir. Burada əsas göstəricilər Bakı şəhəri və ümumi Azərbaycan Respublikası üzrə müqayisədə verilmişdir. Ticarətdə rəqəmsal iqtisadiyyat elementlərinin tətbiqinin arqumentləşməsi aparılır.

Ticarətdə məlumatlandırma sferasında əsas trendlər təqdim olunur. Bundan əlavə ticarətdə innovasiyaların tətbiqinin innovasiyalaşdırılması üzrə kompleks tədbirlər təklif olunur. Eləcə də, bu məqalədə informasiya texnologiyalarının təhlükəsizliyinin təminatı kimi çox vacib bir problemə də toxunulur.

**Açar sözlər:** ticarət, innovasiya, informasiya texnologiyaları, regional bazar.

**UOT:338**
**JEL: O31**

## Giriş

Ticarət Azərbaycan iqtisadiyyatının ən əsas seqmenti sayılır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2021-ci ildə ticarətin ümumi cəmi (44,2 mlrd AZN) ÜDM-in (92,8 mlrd AZN) 47%-ni təşkil etmişdir. Ticarətdə bütün çalışanların 14%-i fəaliyyət göstərir.

Ticarət 1990-cı ildən sonra, yəni – müstəqillik əldə edidikdən sonra sürətlə inkişaf etməyə başladı. Təkcə ticarət deyil, əsas makroiqtisadi göstəricilər  2 saylı cədvəldə göstərilən digər sahələr də respublikada çox sürətlə inkişaf etməyə başladı. Bütün sahələr üzrə artım müşahidə edilmişdir. Ticarət üzrə artım 1995-ci il üzrə 10 dəfə, innovasiyalar, telekommunikasiyalar üzrə isə 5 dəfədən çoxdur (cədvəl  1).

**Azərbaycan Respublikasında ticarətin hazırkı inkişafının tədqiqi**

2014-cü ildən başlayan iqtisadi böhran bütün Azərbaycan iqtisadiyyatına, eləcə də ticarət sektoruna təsirsiz ötüşmədi (cədvəl 1). Pərakəndə ticarət dövriyyəsi kəskin azaldı. Əsas səbəb alıcı tələbinin kəskin azalması idi. Bu ərəfədə əhalinin real gəlirləri də azalmışdı. Eləcə də, bütün bunların nəticəsində sahələrin inkişafı da ləngiyirdi. Bu vəziyyətdə bir çox makroiqtisadi faktorlar da təsir göstərirdi, məsələn investisiyaların azalması, manatın devalvasiyası, kreditlərin verilməsinin azalması və s. belə faktorlardandır. Bu vəziyyət bütün respublikada hökm sürürdü

**Cədvəl 1**

**Pərakəndə ticarətin inkişaf dinamikası**

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2021 |
|---|---|---|---|---|---|
| ÜDM | 59,0 | 54,3 | 60,4 | 70,3 | 92,8 |
| Ticarət | 22,0 | 25,7 | 30,1 | 35,2 | 44,2 |
| Topdan ticarət | 25,1 | 26,3 | 27,5 | 31,0 | 31,9 |
| İnvestisiyalar | 21,8 | 20,0 | 22,7 | 24,4 | 25,3 |

Mənbə - Az.Stat.org  2022 məlumatları əsasında hazırlanmışdır

Cədvəldən görünür ki, 2021-ci ildə əhalinin alım aktivliyi yüksəlir. Nəticədə pərakəndə ticarət dövriyyəsi 35 mlrd. manatdan 44 mlrd. manatadək yüksəlmişdir. 2021-ci ildə isə pərakəndə ticarət 41 mlrd. manat təşkil etmişdir. Əhalinin nominal gəlirlərinin 3% artımı  2021-ci ildə qiymət artımının qarşısını ala bilmədi.

İstehlak kreditləşməsi insanların şəxsi pul ehtiyatlarından istifadə etmələri hesabına yüksəldi. Bu situasiyanın dəyişməsi üçün iqtisadiyyatda və sosial sferada kəskin çevriliş lazımdı. Məşğul əhalinin sayında ticarətdə işləyənlərin sayı cədvəldə göstərilmişdir.

**Cədvəl 2**

**Ölkəmizdə məşğul əhali məlumatlar, min nəfər**

| Göstəricilər | 2002 | 2010 | 2015 | 2021 |
|---|---|---|---|---|
| Ölkə üzrə cəmi | 3726,5 | 4329,1 | 4671,6 | 4988 |
| Ticarət | 611,9 | 626,7 | 693,7 | 712,0 |
| Xüsusi çəki | 11,3 | 14,5 | 14,9 | 14,1 |

Mənbə - Az.Stat.org göstəriciləri əsasında tərtib edilmişdir.

Cədvəldə görünür ki, ölkə əhalisinin 4,988 mln. nəfəri məşğul əhali hesab olunur. 2021-ci ildə ticarət sahəsində 712 min nəfəri ticarətdə çalışır, bu 14% təşkil edir. Ölkəmizdə iqtisadi fəaliyyət növləri üzrə internetdə bağlantısı olan firmaların sayı 2005-ci ildə 760 ədəd idi, 2021-ci ildə bu göstərici 13 minə çatmışdır. Bu göstəricidə ticarət müəssisələrinin sayı 2005-ci ildə 75, 2021-ci ildə isə 2,452-yə çatmışdır. İqtisadi fəaliyyət növləri üzrə internetə qoşulan kompütərlərin sayı 2005-ci ildə 9,505 ədəd, 2021-ci ildə bu göstərici 195,851 ədəd olmuşdur. İnternetdən istifadə edən işçilərin sayı 2005-ci ildə 11,059 nəfər, 2021-ci ildə isə 243,028 min nəfər olmuşdur. Ticarətdə isə 377 işçi, 2021-ci ildə 15,038 nəfər olmuşdur. Ticarətin əsas göstəriciləri, yəni ÜDM-in faizlə kompüterləşməsi faizi arasında müəyyən bir təzad var. Amma, diqqət etsək, digər sahələrlə müqayisəyə bu göstərici yüksəkdir.

Qeyd edək ki, iqtisadiyyatın, o cümlədən, ticarət sferasının inkişaf proqramı hazırkı dövrdə mövcud deyil. Belə proqram hazırlanması üçün xarici təcrübə öyrənmək vacibdir. Xüsusilə Çinin təcrübəsinin öyrənilməsini daha uyğun hesab edirəm. Bu təcrübədə iqtisadi artım və xalq təsərrüfatı fəaiyyətinin səmərəliliyinin artırılması ilə nümayiş etdirilir. Belə ki, əsasən həmin kiçik müəssisələr innovasiyanın əsas payını təmin edir. Onların çoxu texnoparklarda yerləşdirilir. Bu texnoparklar isə hökümət tərəfindən vacib infrastruktur elementi kimi yaradılmışdır.

Hörmətli Prezidentimiz öz çıxışlarında dəfələrlə ÜDM-də kiçik və orta biznesin payının artırılması və 30%-ə çatdırılmasını tələb kimi qoyurdu. İndi bu göstərici çox aşağıdır (10%). Bunun da əsasən 90%-ni pərakəndə ticarət təşkil edir.

Kiçik orta sahibkarlıq subyektləri Azərbaycanda pərakəndə ticarət dövriyyəsinin yarısını təşkil edir. Buna görə də, pərakəndə ticarət ölkənin sosial-iqtisadi həyatında vacib rol oynayır. Pərakəndə ticarət iqtisadiyyatın inkişafında yeni texnologiyaların tətbiqində və istehsalın daxili stimullaşmasında, büdcənin müxtəlif səviyyələrində pul vəsaitlərinin daxil olma mənbəyi kimi çox mühümdür.




Mənbə - Az.Stat.org göstəriciləri əsasında tərtib edilmişdir.

**Şəkil 2.1. Azərbaycan Respublikasının pərakəndə ticarətin quruluşunun formalaşması**

Kiçik və orta biznesin inkişafı üzrə qeyri-səmərəli olan strategiyalar bütün iqtisadiyyatın inkişafını dəstəkləyir və sferanın uğurlu inkişafının çatışmazlığına təsir edir. [Qretçenko, Carnov 2016] Pərakəndə ticarət şəbəkəsi pərakəndə bazarda inkişafını artırır (Cədvəl 3).

**Cədvəl 3**

**Faktiki qiymət göstəricilərində pərakəndə ticarət dövriyyəsində pərakəndə şəbəkələrin payı**

| | 2014 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası (mlrd) | 22,0 | 37,7 | 39,3 | 40,1 | 44,2 |
| Gəncə (mln) | 977 | 1,110 | 1,303 | 1,659 | 1,821 |
| Sumqayıt (mln) | 609 | 1,000 | 1,101 | 1,139 | 1,961 |
| Mingəçevir (mln) | 215 | 244,2 | 333 | 360 | 384 |

Mənbə - Az.Stat.org. göstəriciləri əsasında tərtib edilmişdir.

Bununla bərabər Azərbaycan bazarında ticarət şəbəkələri çox da sadə olmayan digər çağırışlarla qarşılaşırlar: ticarətin onlayn sisteminə keçidi, beynəlxalq ticarət meydanlarının ortaya çıxması, mobil servislərin inkişafı, internet – ticarət, kiçik ticarət biznes sayəsində inkişaf edir. Bundan əlavə bütün Azərbaycan səviyyəsində müqayisə üçün qeyd edək ki, elektron ticarət 12% təşkil edir ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə çox aşağı göstəricidir.

**Cədvəl 4**

**Kömpütetlərdən istifadə edən ticarət müəssisələrinin sayı haqqında məlumat, vahid**

| Göstəricilər | 2005 | 2014 | 2015 | 2020 | 2021 | 2005-ci il ilə müayisə |
|---|---|---|---|---|---|---|
| Ölkə üzrə cəmi | 4,160 | 18,999 | 12,100 | 15,429 | 15,749 | 3.78 dəfə |
| Ticarət | 482 | 977 | 958 | 2,645 | 2,695 | 6.23 dəfə |

Mənbə - Az.Stat.org. göstəriciləri əsasında tərtib edilmişdir.

Bütün respublikada kompüterlərdən istifadə edən ticarət müəssisələri ümumi ölkə üzrə bütün kompüterlərdən istifadə edən müəssisələrin 20%-ni təşkil edir. Kompüterləşmə bu sahədə daha sürətlə inkişaf edir. Belə ki, ölkə üzrə bu göstərici 2005-ci ilə görə 2021-ci ildə artım 3.78 dəfə çox olmuşdur. Ticarətdə üsə bu göstəricinin artımı 6 dəfədən çox olmuşdur.

Dünya və yerli təcrübə göstərir ki, bu sahəyə rəqəmsal iqtisadiyyat elementlərinin mövcud seqmentə tətbiqi hesabına ticarətdə proseslərin səmərəliliyi və keyfiyyəti kəskin yüksəlir. Dünya tendensiyaları, hansı ki, bu sferanın gələcəyini müəyyən edir, onlar informasiya texnologiyaları ilə sıx əlaqəlidir, çünki bunların inkişaf etdirilməsi üçün geniş imkanlara malikdir (şəkil 1).

Ticarət iri informasiya texnologiyalarının iri istehlakçısıdır, çünki onlar ticarət müəssisələrinin çox əhəmiyyətli olan mərhələlərinin həllinə imkan verir.

Bundan başqa ticarət bu gün Azərbaycan iqtisadiyyatının İT sferasında yeni işləmlərin istifadəsində, investisiyalaşmasında mühüm bir sahədir. Ratinanın fikrinə əsasən ticarət müəssisələrinin göstəricilərinin emalında, proqramlaşmasında bu texnologiyalar çox əhəmiyyətlidir [Ratina, 2017].

Müasir informasiya sistemləri daxili və xarici biznes proseslərini optimallaşdırmağa imkan verir. Yəni mal çeşidinin və mal ehtiyatlarının optimallaşmasına xidmət edir, qiymətin çevik mexanizmini, müştərilər ilə qarşılıqlı münasibətləri avtomatlaşdırmaq və s. yaradır [Kafiatulova, 2010].

Bütün iri pərakəndə ticarət şəbəkəsi artıq çoxdan öz biznes proseslərini avtomatlaşdırmışlar [Rueva, 2012]. Deloitte konsaltinq kompaniyasının proqramına əsasən pərakəndə ticarət sektorunda radikal dəyişiklər zamanı başladı.

Innovasiya texnologiyaları sayəsində alıcı davranışında yeni tendensiyalar formalaşır. Azərbaycanda ticarətin informasiyası sferasında əsas tendensiyalar aşağıdakılardır:

- Göstəricilərin idarə edilməsi
- Loyallıq proqramı
- Ticarət-maliyyə planlaşması sistemi
- Omnichannel texnologiyaları
- Avtomatlaşmış nəqliyyat texnologiyaları
- Fırıldaqçılarla mübarizə
- Sosial şəbəkədə marketinq

- Onlayn inkassasiya
- Virtual və əlavə reallıq sistemi

Alıcılara xidmət keyfiyyətinin yüksəldilməsi və optimallaşması prosesi "ağıllı" arabalar, özünə xidmət kassa sistemi, "ağıllı" tərəzilər və digər müasir avadanlıqların istifadəsi hesabına mümkündür.




Qeyd: Tədqiqatçı tərəfindən tərtib edilib.

**Şəkil 1. Ticarət sferasının gələcək inkişafını müəyyən edən dünya tendensiyaları**

Bir çox ticarət müəssisələri, xüsusilə Bakı şəhərindəki böyük riteyllər hələ də dünyadakı bu ticarət innovasiyalarından istənilən səviyyədə istifadə etmirlər. Bunun da əsas səbəbi hələlik ölkəmizdə bu vərdişlərin formalaşmamasıdır. Çox vaxt bu yeniliklərin, innovasiyaların tətbiqi müəssisə rəhbərləri üçün prioritet hesab olunmur, çünki müasir texnologiyaların tətbiqi üçün biliklər kifayət deyil. Bundan başqa bu innovasiyaların buraxılması üzrə praktiki vərdişlər kifayət etmir.

Bu problemin həlli bir neçə istiqamətdə həyata keçirilməlidir. Birincisi, öz professional fəaliyyətində innovasiya texnologiyalarından istifadə edəcək mütəxəssislərin hazırlanması, ikincisi isə infrastrukturun hazırlanmasıdır. İndi Azərbaycanda hesablama güclərinin əlaqə kanalları, bulud hesablamalar üzrə xidmətlərin defisiti hökm sürür. Bu infrastruktur olmadan rəqəmsal texnologiyanı tətbiq etmək mümkün deyil. Rəqəmsal bərabərliyin təminatı, regionlarda internetin genişmiqyaslı əlçatanlığının inkişafı üçün böyük işlərin görülməsi vacibdir.

Müasir texnologiyalar üstünlükləri ilə yanaşı təhlükələr də yaradır. Ticarət müəssisələri üçün vacib vəzifə infrastrukturun və məlumatların qorunmasıdır. İnvestorların qlobal sorğusuna görə intestorların 41%-i kiberhücumları kiçik biznes üçün ən ciddi təhlükə hesab edirlər. Nəticədə 2021-ci ildə Azərbaycan müəssisələrinin məlumatlarının təhlükəsizliyi üzrə xərclərinin payı 2%-dən 10%-ə qədər artmışdır, bunu "Kasperski laboratoriyasının" tətqiqatlarında "Biznesin informasiya təhlükəsizliyi" adı altında təsdiq edir.

Ümumilikdə respublika üzrə xərclər 4 saylı cədvəldən görünür ki, 2019-cu ildən 128 mln. manatdan 216 mln. manatadək artmışdır. Proqram təminatı xərclərinin ÜDM-də xüsusi çəkisi 0.09%-dir. Ölkə üzrə kompüterdən istifadə edən müəssisələr 65% təşkil edir. Veb səhifəsi olan müəssisələrin xüsusi çəkisi 28%-dir.

Müəssisələr ən çox lokal şəbəkədən (LAN 66%), daxili şəbəkə (intranet 25%), xarici şəbəkə (ekstranet 7%) istifadə edilir.

Hazırkı dövrdə bir çox ticarət müəssisələrinin hələ də kiber təhlükəsizliyə sərf olunan xərcləri lazımsız hesab edirlər. Bu, onu deməyə əsas verir ki, bizim ölkəmizdə biznes strukturlarının kiber təhlükənin nə qədər ciddi oduğunu çatdırmaq üçün informasiya, maarifləndirmə vacibdir. Rəqəmsal bazarın infrastrukturunun etibarlı və qorunmasını təmin etmək üçün ən asas zamin gərək dövlət olsun. Məlumat təhlükəsizliyi sistemi məlumat ter-

rorizmi, cinayət, təhlükə, kibersilah təsirindən müharibə "vətəndaşların" personal göstəricilərinin sazlanmasını təmin etməkdir.

**Cədvəl 5**

**Ölkə üzrə proqram təminatı və İKT avadanlıqdan istifadə üzrə xərclər, mln. manatla**

| Göstəricilər | 2019 | 2020 | 2021 | 2020-ci ildən müqayisə |
|---|---|---|---|---|
| Proqram təminatı xərclər | 38 | 49 | 84 | 2.2 dəfə |
| Leguzeya xərclər | 29 | 32 | 64 | 2.2 dəfə |
| Texniki dəstək xərcləri | 34 | 44 | 62 | 1.8 dəfə |
| İnternetə qoşulaq xərcləri | 19 | 23 | 28 | 1.4 dəfə |
| Cəmi | 128 | 157,7 | 216 | 1.68 dəfə |

Mənbə - Az.Stat.org. göstəriciləri əsasında tərtib edilmişdir.

Amma dövlətin rolu təkcə qadağalarla olmamalıdır. O, rəqəmsal texnologiyaya keçid üçün stimul yaratmalıdır və dəstək göstərməlidir. Dövlətin iştirakı olmadan rəqəmsal texnologiyanın tətbiqi effektivdir. İnternet üzərindən mal satışı həyata keçirən ticarət müəssisələri üçün elektron ticarətinin inkişafının stimullaşması üçün müəssisələr vergi və digər güzəştlər təklif edirlər.

Bundan başqa pərakəndə ticarət təşkilatının informasiya dəstəyi elementinin formalaşması vacibdir. Buna parlaq misal Çin Dövlət Məlumat Xidmətini göstərə bilərik. Bu saytda sahibkarlar qanunda baş verən son dəyişikliklərlə işgüzar iqlimin vəziyyəti haqqında məlumat ala bilərlər.

**Nəticə**

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlirik ki, ticarət sahəsində biznesin effektivliyinə tələbatın yüksəlməsi əhalinin gəlirlərinin azalması ilə əlaqədardır. Eyni zamanda, kiçik və orta biznesin inkişafı ilə ilk növbədə əlaqəli olan ticarət sahələrinin inkişafı və gələcək artımı üçün əhəmiyyətli imkanlar mövcuddur. Bu imkanların effektiv olaraq həyata keçirilməsi uğurlu institusional mühitin təşkili sahəsində dövlətin siyasətindən birbaşa asılıdır. Ayrı-ayrı ölkələr , əsasən Çin belə bir mühitin yaradılmasının ağlabatan metodlarını nümayiş etdirir.

Ticarət sferası ciddi dəyişikliklər astanasındadır. Bu dəyişikliklər rəqəmsallaşmadan asılıdır. Rəqəmsallaşma istehlakçılar və digər ticarət müəssisələri üçün çoxlu üstünlüklər ortaya çıxarır.

Bu tədbirlər milli iqtisadiyyatın bütünlükdə inkişafı və ticarətin səmərəliliyinin yüksəldilməsinə imkan verir. Müasir texnologiyalar həm təhlükə və həm də üstünlük verir. Ona görə də, ticarət müəssisələri informasiya və infrastukturun mübadiləsidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Statistika Komitəsinin göstəriciləri

2. Гретченко А.И. Гарнов А.П. Тенденции развития малого бизнеса в России // Перспективы развития регионального потребительского рынка: Сборник матери- алов научно-практической конференции. Москва, 2016.

3. Зуева Е.М. Тенденции применения информационных технологий на российских предприятиях розничной торговли // Современные наукоемкие технологии, 2013.
– № 10-1.

4. Кафиатулова Э.М. Растущая роль использования информационных технологий в розничной торговле // Альманах современной науки и образования, 2010. – № 9.

5. Мировой бизнес: главная угроза // Эксперт, 2018. – № 10(1066).

6. Мировой сектор розничной торговли в 2018 году. Deloitte.
URL:https://www2.deloitte.com/ru/ru/pages/consumer-business/articles/global-powers-of-retailing.html#.

7. Макаренко В.И. Использование инновационных технологий в сфере торговли

8. Образование и наука без границ: социально-гуманитарные науки, 2016. – № 3.

9. Ратина И. С аналитики всё только начинается // Retail Week, 2017. – № 6.

10.Россия в цифрах. 2017: Краткий статистический сборник. – М.: Росстат, 2017.

11.Трофимова Л.И., Царегородцева С.Р. Применение инновационных технологий в торговле // Управленец, 2015. – № 1(53).

**Сакина Ягуб кызы ГУСЕЙНОВА, д. ф. э.**

**Алескер Ильгар ГАСАНЛЫ**
Азербайджанский Государственный Экономический Университет (UNEC)

## ИННОВАЦИОННЫЕ ТЕХНОЛОГИИ В ТОРГОВЛЕ

**Резюме**

В статье рассматриваются инновации, применяемые в сфере розничной торговли.

В современное время в розничной сети происходят радикальные изменения. Основной причиной этих изменений являются инновационные технологии. Инновационные технологии открывают широкие возможности в этой области. В статье приведены основные показатели торговли Азербайджана в динамичном развитии. Здесь сравниваются основные показатели по городу Баку и всей Азербайджанской Республике. Проведена аргументация применения элементов цифровой экономики в торговле, представлены основные тенденции в сфере информации в торговле.

Кроме того, предлагаются комплексные меры по инновационному применению инноваций в торговле. Также в данной статье затрагивается такая очень важная проблема, как обеспечение безопасности информационных технологий.

**Ключевые слова: торговля, инновации, информационные технологии, региональный рынок.**

**Sakina Yagub gizi HUSEYNOVA, PhD**

**Alasgar Ilgar HASANLİ**
Azerbaijan State University of Economics (UNEC)

## INNOVATİON TECHNOLOGİES İN TRADE

**Summary**

The article examines the innovations applied in the sphere of retail trade. In modern times, there are radical changes in the retail network. The main reason for these changes is innovative technologies. Innovative technologies create wide opportunities in this field. In the article, the main indicators of trade in Azerbaijan are presented with dynamic development. The main indicators are compared for the city of Baku and the entire Republic of Azerbaijan. Argumentation of the application of digital economy elements in trade is being done.

The main trends in the sphere of information in trade are presented. In addition, comprehensive measures for innovation of the application of innovations in trade are proposed. Also, this article touches on a very important problem such as ensuring the security of information technologies.

**Keywords: trade, innovation, information technologies, regional market**

**Gülşən Qalib qızı HÜSEYNZADƏ**
Sumqayıt Dövlət Universitetinin doktorantı
AZ 5008, Azərbaycan Respublikası, Sumqayıt şəh., 43-cü məhəllə.
E-mail: gulsen396@mail.ru

# YENİ ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ SƏNAYE MÜƏSSİSƏLƏRİNİN DAYANIQLI İNKİŞAFININ TƏMİN EDİLMƏSİ YOLLARI

**Xülasə**

*Tədqiqatın məqsədi* yeni çağırışlar şəraitində sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin edilməsi yollarının müəyyənləşdirilməsindən ibarətdir. Bu məqsədlə sənaye sahəsində fəaliyyət göstərən müəssisələrin inkişaf problemləri açıqlanmışdır. Sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin edilməsi mexanizmlərinin hazırlanması və tətbiq edilməsinin vacibliyi əsaslandırılmışdır. Bazar iqtisadiyyatı şəraitində müəssisələrin fəaliyyətinin dayanıqlı olması üçün tələb olunan şərtlər və amillər təhlil edilmiş, ümumiləşdirilmişdir. Sənaye müəssisəsinin gəlirlik prinsiplərinin qorunması, müəssisənin sabitliyinin təmin edilməsi və fəaliyyət strategiyasının təkmilləşdirilməsi məsələləri baxılmışdır. Müasir şəraitdə sənaye müəssisələrinin dayanıqlı inkişafının təşkili üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

*Tədqiqatın metodu* kimi daha çox istifadə edilən iqtisadi metodlardan olan analiz, sintez, və ümumiləşdirmə metodlardan istifadə olunmuşdur. Bunlarla bərabər, sənaye müəssisələrinin idarə edilməsi proseslərini araşdıran alim və tədqiqatçıların elmi əsərlərinə də yer verilmişdir.

*Tədqiqatın nəticələri* müasir dövrdə sənaye müəssisələrinin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi proseslərində əldə olunmuş elmi-praktiki nəticələrdən səmərəli istifadə edilməsi ilə əlaqəlidir.

*Açar sözlər:* sənaye, sənaye müəssisələri, dayanıqlı inkişaf, dayanıqlı inkişaf problemləri, sənaye müəssisələrinin dayanıqlılıq problemləri, müəssisənin sabitliyi problemləri.

**UOT: 336: 330.34**
**JEL: L52; L53; O14**

## Giriş

Qlobal çağırışlar şəraitində sənaye müəssisələri xarici və daxili mühitin dəyişən şərtlərinə uyğunlaşmaq problemi ilə üzləşirlər. Sənaye müəssisələrinin dayanıqlı inkişafı onun daxili mühitinin dəyişdirilməsi, habelə qarşıya qoyulmuş məqsədə doğru irəliləyişin, maksimum nəticələrin əldə edildiyi və keyfiyyət xüsusiyyətlərinin müasirləşdirilməsi ilə xarakterizə olunan xarici mühitlə qarşılıqlı əlaqənin uyğunlaşdırılması prosesidir. Hazırda sənayenin dayanıqlı inkişafı və onun iqtisadiyyatda baş verən bazar dəyişikliklərinə adekvat reaksiya vermək imkanları məsələlərinə xüsusi diqqət yetirilir. Ümumi yanaşmaya görə, "dayanıqlı inkişaf" anlayışının şərhi inkişafın sosial və bioloji əsaslarının nəzərə alınmasına əsaslanır və "gələcək nəsillərin inkişaf etmək qabiliyyətinə təhlükə yaratmadan indiki nəslin ehtiyaclarının ödənilməsi" kimi müəyyənləşdirilir. Sənayenin dayanıqlı inkişafı üç əsas komponentin balanslaşdırılmış müsbət dinamikasına əsaslanır: 1) iqtisadi (mülk sahiblərinin sərvətinin artması, aktivlərin və gəlirliliyin artması və s.); 2) sosial (insan kapitalının inkişafı, əmək haqqının və əmək məhsuldarlığının artması və s.) və 3) ekoloji (ətraf mühitə təsirin minimuma endirilməsi və s.) [1, s.12]. Məlumdur ki, dayanıqlı inkişaf bir çox sahələri əhatə edir və onun təmin edilməsinə yönəlmiş tədbirlərə əsasən iqtisadi inkişafın, sosial şəraitin və ekoloji vəziyyətin yaxşılaşdırılması daxildir. Hər üç sahə dayanıqlı inkişafın təmin edilməsində eyni dərəcədə önəmlidir [2, s.4]. Dayanıqlılıq vəziyyəti müəssisənin səmərəliliyinin qiymətləndirilməsində mühüm yer tutur. Müəssisənin dayanıqlılığı nə qədər yüksək olarsa, o, xarici mühitdəki dəyişikliklərdən və bazar şərtlərindən bir o qədər az asılı olacaqdır. Bazar şəraitində dayanıqlılıq yalnız müəssisənin sabit mövqeyinin təminatı deyil, həm də onun yaşamasının təminatıdır [3, s.122].

COVID-19 pandemiyasından sonra sənaye müəssisələri qarşısında yeni tələblər qoyulur ki, bunlar istehsalın genişləndirilməsi, iş proseslərinə qabaqcıl texnologiyaların tətbiqi, bazarlarda

mövqelərinin möhkəmləndirilməsi və orada mövcudluğun yeni seqmentlərini inkişaf etdirmək istiqamətində fəaliyyətlərini yenidən qurmaqla potensial istehlakçıların çeşidinin artırması, dinamik mürəkkəb mühitdə yeni daha səmərəli rəqabət üstünlüyünün yaradılmasıdır. Bu hallar müasir sənaye müəssisələri üçün yeni tələbləri diktə edir və çeşidi artırmağa və əlavə mənfəət əldə etməyə, maliyyə sabitliyini və ödəmə qabiliyyətini artırmağa, eləcə də uzunmüddətli perspektivdə modernləşməyə və innovativ inkişafa kömək edən effektiv strategiyaların formalaşdırılmasına obyektiv ehtiyac yaradır.

**Müasir dövrdə sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin edilməsi proseslərinin təhlili və qiymətləndirilməsi**

Qeyd edək ki, sənaye müəssisələrinin inkişafının davamlılığının təmin edilməsi üçün diversifikasiya prosesi reallaşdırılmalıdır. Bu, ölkə iqtisadiyyatının inkişaf strategiyasına uyğun olaraq reallaşdırılmalı, innovasiyaların yaradılması, yüksək texnologiyalı sahələrin sürətli inkişafı yolu ilə neft sektorundan asılılığını aradan qaldırmaq və bununla da sənaye müəssisələrinin rəqabətqabiliyyətli və davamlı iqtisadi artımına nail olmaq lazımdır [4, s.24]. Sənaye müəssisələrinin inkişafının dayanıqlılığı üçün alternativ variant şaxələndirmə prosesidir ki, bu da müəssisələrə məhsul çeşidini genişləndirməyə, resurs bazasını optimallaşdırmağa, yeni satış bazarlarını inkişaf etdirməyə imkan verir ki, son nəticədə onlara bazarın və maliyyə vəziyyətinin sabitliyini artırmağa imkan verəcək. Odur ki, sənaye müəssisələrinin şaxələndirilməsi və rəqabət qabiliyyətinin səviyyəsinin artırılması vasitəsi kimi diversifikasiya strategiyasının formalaşdırılmasına kompleks yanaşmanın əsaslandırılmasına ehtiyac var. Fəaliyyətin diversifikasiyası strategiyasının hazırlanmasında və müəssisənin iqtisadi inkişafının əsas yolunun seçilməsində mühüm məqam uzunmüddətli planlaşdırma, yəni onun uzunmüddətli inkişafı üçün düzgün istiqamətlərin müəyyənləşdirilməsi və aşağıdakı əsas vəzifələrin həll edilməsidir: 1. İdarəetmə iyerarxiyasının bütün səviyyələrində strateji problemlərin həllinə yönəlmiş müəssisənin təşkilati strukturunun təkmilləşdirilməsi. 2. Yeni fəaliyyət növlərini inkişaf etdirmək və yeni bazarları fəth etmək məqsədilə istehsalın diversifikasiyasının reallaşdırılması və 3. Mövcud sənaye məhsulları bazarında biznes və iqtisadi mövqeləri gücləndirmək üçün yeni məhsulların istehsalı.

Diversifikasiya strategiyasının reallaşdırılmasının gözlənilən son nəticələri bunlardır: 1) avadanlıq parkının təkmilləşdirilməsi, tam istehsal dövrünün təmin edilməsi və əmək potensialının artırılması; 2) istehsal imkanlarının artırılması, rəqabətqabiliyyətli məhsullarının istehsalı və əlavə xərclərin azaldılması; 3) müştərilər arasında müəssisənin müsbət imicinin formalaşdırılması və istehlakçı loyallığının artırılması; 4) potensial müştərilərin ehtiyaclarının və alıcıların maraqlarının ən tam şəkildə ödənilməsi; 5) sənaye müəssisələrinin bazarda mövqenin gücləndirilməsi və genişləndirilməsi, yeni satış bazarlarına daxil olması; 6) potensial müştərilər üçün məlumat açıqlığının və bazar intizamının artırılması və 7) risklərin azaldılması və sığortalanması [5, s.105].

Diversifikasiya mexanizmi diversifikasiya strategiyasının formalaşdırılması və tətbiqi üçün əsas bazadır, onun əsas komponentləri ən uyğun strateji məqsədlərin və istiqamətlərin müəyyənləşdirilməsi və seçilməsidir. Bu, sənaye müəssisəsinə öz inkişaf istiqamətlərini daha rasional və dəqiq müəyyənləşdirməyə, məqsədyönlü strateji siyasət aparmağa və ümumi məqsədlərə nail olunmasını və diversifikasiya yolu ilə gələcək inkişafın faydalarını təmin edən konkret strateji planlar qurmağa imkan verəcəkdir. Sənayesi müəssisələrinin müasir iqtisadi inkişafının əsas vəzifəsi innovativ trayektoriyaya daxil olmaq, əsaslı şəkildə yeni artım amillərindən maksimum istifadə etməkdir. Bu yanaşma müəssisələri bilik tutumlu istehsal əsasında yenidən təşkil etməyə imkan verəcəkdir. Müəssisənin innovasiya fəaliyyətini idarə etmək və onun potensialını qiymətləndirmək məqsədilə ən təsirli vasitələri seçmək üçün innovativ fəallığın artırılması yollarını hazırlamaq lazımdır [6, s.45]. Sənaye müəssisələrinin dayanıqlı inkişafı innovasiyaların tətbiqi səviyyəsindən asılıdır. Odur ki, həmin müəssisələrdə innovasiyaların tətbiqi və onların stimullaşdırılması zəruridir. Müəssisələrin innovativ inkişafının stimullaşdırılması istiqamətində təkmilləşdirilməsi elmi-tədqiqat işlə

rinə çəkilən xərclərin artmasına, yeni məhsulların buraxılmasına, texnoloji proseslərin və avadanlıqların yenilənməsinə və nəticədə satışın, mənfəətin və investisiya resurslarının artmasına gətirib çıxara bilir. Odur ki, bu sahədə dövlət siyasətinin təkmilləşdirilməsinə zərurət artır.

Bazar şəraitində innovasiya proseslərinin idarə edilməsində dövlətin iştirakı müxtəlif formalarda,

çoxşaxəli vəzifələrin həllində özünü göstərə bilər. Nümunə olaraq onlardan bəzilərini sadalayaq:

– innovasiya proseslərinin intensivləşdirilməsinə imkan yaradan qanunvericilik və tənzimləyici bazanın yaradılması (müəssisələrin innovativ inkişafının stimullaşdırılması istiqamətində rəqabətin təşviqi, vergi və bank qanunvericiliyində dəyişikliklər yolu ilə);

– innovativ inkişafın prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və dəstəklənməsi;

– innovasiya proseslərinin iştirakçılarının iqtisadi maraqlarını dövlətin inkişafının strateji istiqamətlərinə yönəltməklə (rəqabətin inkişafı, maliyyə subsidiyalarının, vergi, sığorta güzəştlərinin verilməsi və sanksiyaların tətbiqi yolu ilə) onların hərəkətlərin əlaqələndirilməsi və stimullaşdırılması;

– müəssisələrin innovativ inkişafı üçün müxtəlif ehtiyat fondlarından vəsaitlərin cəlb edilməsi imkanlarının və onlardan istifadə mexanizmlərinin müəyyənləşdirilməsi;

– dövlət şəbəkəsinin inkişafı və qeyri-dövlət təhsil müəssisələrinin yaradılmasının stimullaşdırılması yolu ilə innovasiya fəaliyyətinə kadr dəstəyi;

– informasiya, hüquq, konsaltinq və innovasiyaların yayılması ilə məşğul olan digər firmalar şəbəkəsi ilə təmsil olunan innovasiya infrastrukturunun formalaşmasına köməklik göstərilməsi;

– innovasiya fəaliyyətinin sosial və ekoloji problemlərin həllinə yönəldilməsi;

– innovasiya fəaliyyətinin sosial statusunun yüksəldilməsi və onun iştirakçılarına sosial dəstəyin göstərilməsi;

– regionların innovasiya resurslarından daha dolğun istifadə etmək məqsədilə innovativ proseslərin regional tənzimlənməsi;

– innovasiya fəaliyyətinin beynəlxalq aspektlərinin tənzimlənməsi və s.

Bu kimi tədbirlərin siyahısını daha da genişləndirmək olar. Deyilənlər onu göstərir ki, bazar şəraitində dövlətin innovativ proseslərin aktivləşdirilməsində iştirakı üçün geniş imkanlar mövcuddur. Hazırda zəruri şərt sənayenin innovativ inkişafı üçün dövlət səviyyəsində uzunmüddətli proqramın qəbul edilməsi və reallaşdırılması zəruridir. Belə proqramın hazırlanması sənayesinin ölkə iqtisadiyyatında, onun təhlükəsizliyinin təmin edilməsində, əhalinin yaşayışının yaxşılaşdırılmasında son dərəcə mühüm rolu diktə edir. Bununla belə, sənayenin innovativ inkişafı proqramının ən mühüm komponentlərinə aşağıdakılar daxil edilməlidir:

– sənaye müəssisələrində yaradılmış elmi-texniki potensialın saxlanılması və daha da sürətləndirilməsi üçün qanunvericilik, tənzimləyici və maliyyə şərtlərinin formalaşdırılması;

– sənaye müəssisələrinin innovativ fəaliyyətə həssaslığının artırılması və stimullaşdırılması;

– maddi, maliyyə və intellektual resursların ən mühüm innovasiya sahələrində cəmləşdirilməsi, dərin emal dərəcəsi olan rəqabətqabiliyyətli məhsulların istehsalının artırılması və onların müxtəlif bazarlarda yerləşdirilməsi;

– istehsal olunan məhsulların istehlak xassələrinin yaxşılaşdırılması, onların prinsipcə yeni növlərinin inkişafı və bununla əlaqədar olaraq sənaye istehsalının ümumi strukturunun təkmilləşdirilməsi;

– texnoloji proseslərə, avadanlıqlara və ümumilikdə müəssisələrə nəzarət sistemlərinin optimallaşdırılması;

– müəssisələrin innovativ inkişafına iri inteqrasiya olunmuş şirkətlərin cəlb edilməsinin stimullaşdırılması;

– sənaye müəssisələrinin, habelə onunla bağlı digər sahələrin və ərazilərin inkişafında sosial problemlərin həlli.

Azərbaycanda innovativ proseslərin əhəmiyyətli dərəcədə genişləndirilməsinə, xüsusilə sənaye müəssisələrimizin müasirləşdirilməsinə və innovativ məhsulların çeşidinin artırılmasına ehtiyac var. Fikrimizcə, bu proseslərdə AİZ-lər önəmli rollardan birini oynaya bilər. Son illərdə dünya iqtisadiyyatının qloballaşması proseslərinin əhəmiyyətli dərəcədə genişlənməsi, maliyyə-iqtisadi böhranların kəskin nəticələri, dünya iqtisadiyyatının müasir inkişaf tendensiyaları yaxın gələcəkdə sənaye müəssisələrinin innovativ fəaliyyətinin sürətləndirilməsini mühüm zərurətə çevirir. Odur ki, sənaye müəssisələrimizin dünya iqtisadiyyatında gedən proseslərdə önəmli yer tutmasında və onların rəqabət qabiliyyətinin artırılmasında innovativ və ixracyönümlü sahələrin mühüm rolu diqqəti cəlb edir [7, s.309].

Ümumiyyətlə, sənaye müəssisələrinin inkişafının həm dinamik, həm də statik davamlılığına innovasiya vasitəsilə nail olmaq olar. İnnovasiya sahəsində strateji planlaşdırma müasir şəraitdə

müəssisənin rəqabət qabiliyyətini və səmərəliliyini artıran dayanıqlı inkişafın fundamental elementidir [8, s.79]. Sənaye müəssisələr innovasiya amilini nəzərə almaqla öz inkişafının strateji planlaşdırılmasına ciddi diqqət yetirməlidirlər. İnnovasiya fəaliyyət, müəssisənin inkişafı üçün innovativ strategiyanın hazırlanması prosesində risk və qeyri-müəyyənliklə müşayiət olunan transformasiya və dəyişikliklərə yönəldilmişdir. Odur ki, müəssisənin strateji planlaşdırması yaşamaq və dayanıqlılığa nail olmaq üçün nəzərdə tutulmuşdur. Dayanıqlılıq sənaye müəssisələrinin inkişafının strateji məqsədlərinə uğurla nail olmaq üçün ilkin şərtdir və məhz belə şəraitdə resurslardan qənaətlə istifadə, fəaliyyətin yenilənməsi və səmərəliliyi təmin edilir.

Sənaye müəssisələrinin inkişafı üçün innovativ strategiyanın hazırlanması prosesinin ən vacib elementləri onların dayanıqlılığını poza biləcək amillərin nəzərə alınması və təhlilidir. Bütövlükdə, müasir iqtisadi inkişaf şəraitində müəssisənin dayanıqlı inkişafına təsir göstərən aşağıdakı üç qrup amili ayırmaq olar: I. Birinci qrupa meqa amillər daxildir, yəni müasir dünya iqtisadiyyatının inkişafı ilə müəyyən edilən xarici amillər: dünya iqtisadiyyatının subyektlərinin inkişaf dinamikası; dünya maliyyə və bank sisteminin vəziyyəti; ölkənin tədiyə balansının vəziyyəti; dünya əmtəə bazarlarının və xammal bazarlarının konyunkturası; dünya və milli fond bazarının vəziyyəti; siyasi, sosial, ekoloji amillər. II. İkinci qrup amillərə ölkənin makroiqtisadi inkişafının amilləri daxildir: bazar münasibətlərinin və sahibkarlığın inkişaf səviyyəsi; dövlət büdcəsinin vəziyyəti və elm, təhsil və innovasiyaya xərclərin səviyyəsi; ölkənin pul və fiskal siyasəti; dövlətin innovasiya siyasəti; inflyasiyanın səviyyəsi və III. Üçüncü qrup amillər təsərrüfat subyektlərinin fəaliyyətində sabitliyi poza bilən əsas amillərdir. Bu amillərə müəssisənin mikroiqtisadi inkişafının daxili amilləri daxildir: istehsalın texniki səviyyəsi; əmək məhsuldarlığı; məhsulların rəqabət qabiliyyəti; qiymət və maliyyə sabitliyi göstəriciləri; digər amillər [9, s.87].

**Sənaye müəssisələrinin dayanıqlı inkişafının təmin edilməsi perspektivləri və istiqamətləri**

Sənaye müəssisələrinin inkişafının dayanıqlılığının və rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə strateji tələblərin müəyyənləşdirilməsi innovasiyaların geniş tətbiqinə böyük sərmayələrin qoyulmasını, intellektual potensialın geniş istifadəsini və investisiyaların artırılmasını tələb edir. Bunun üçün dövlət tərəfindən hazırlanmış innovasiya siyasətinin daha səmərəli reallaşdırılması tələb olunur [10, s.25]. Rəqabət üstünlüklərini möhkəmləndirmək üçün sənaye müəssisələri daim ən gəlirli fəaliyyət sahələrini axtarmalıdır. Sənaye müəssisələrinin fəaliyyətinin uğuru seçilmiş strategiyanın düzgün və əsaslı olması ilə qəti şəkildə müəyyən edilir. Bunun üçün idarəetmə qərarları düzgün və vaxtında qəbul edilməlidir. İdarəetmə qərarlarının qəbulu mexanizmində mühüm yer investisiyaların effektivliyinin və sənaye müəssisələrinin investisiya cəlbediciliyinin təhlilinə aiddir. Sənaye müəssisələrinin inkişafının dayanıqlılığının zəruri şərti fəaliyyətin diversifikasiyasına investisiyaların həcminin və səmərəliliyinin artırılmasıdır. İnvestisiya proseslərinin idarə edilməsinin təkmilləşdirilməsi müəssisənin mənfəətini artırmaqla yanaşı, bazardakı mövqeyini möhkəmləndirəcək [11, s.39].




**Şəkil 1. Sənayedə əsas kapitala investisiyalar, mln. manat (mənbə: ARDSK məlumatları əsasında tərtib edilib)**

Azərbaycanda sənaye müəssisələrinin dayanıqlı inkişafında investisiyaların mövcud vəziyyəti şəkil 1-də verilmişdir.

Şəkil 1-dən görünür ki, sənaye müəssisələrinə yönəldilən investisiyalar 2010-cu ildə 2018-ci ilin əvvəlinədək davamlı olaraq artmışdır. Lakin həmin ildən başlayaraq azalma müşahidə olunmuşdur. Belə ki, 2021-ci ildə sənayeyə yönəldilən investisiyaların həcmi 2017-ci ilə görə 41,3%, 2020-ci ildə 17,0%, 2019-cu ildə 14,6%, 2018-ci ildə isə 24,9% azalmışdır [12]. Azalma əsasən investisiyalarda müşahidə olunub. Məsələn, 2021-ci ildə sənayeyə yönəldilən xarici investisiyalar 3169,1 milyon manat olub ki, bu da 2017-ci ilə görə 2,2 dəfə azalmışdır. Daxili investisiyalara gəlincə isə, bu investisiyalar 4338,2 milyon manat olub ki, bu da 2017-ci ilə görə 19,8% artmışdır.

Yeni çağırışlar şəraitində sənaye müəssisələrinin modernləşdirilməsi elmi-tədqiqat işlərinin ən son nailiyyətlərindən istifadə etməklə istehsalın təşkilati və texnoloji cəhətdən yenilənməsinə yönəlmiş investisiyalar olmadan mümkün deyil. Sənaye müəssisələrinin texnoloji modernləşdirilməsini istehsalın təkmilləşdirilməsinə yönəldilmiş transformasiya dəyişiklikləri hesab etsək, o, istehsalın texnoloji səviyyəsinin yüksəldilməsinə yönəlmiş innovasiyaların tətbiqi yolu ilə maddi-texnoloji bazada keyfiyyətcə qarşılıqlı əlaqəli dəyişikliklər kimi çıxış edir. Ancaq əslində sənaye müəssisələrində istehsalın modernləşdirilməsi zamanı istehsalın yüksək texnoloji səviyyəsinə həmişə nail olunmur, əksər hallarda bu, istehsal proseslərindən birinin qismən modernləşdirilməsidir. Sənaye müəssisələrinin texnoloji modernləşdirilməsinin məqsədlərinə bunları aid etmişik: əmək məhsuldarlığının yüksəldilməsi; maddi və qeyri-maddi resurslara çıxış imkanlarının genişləndirilməsi; istehsalın texnoloji mobilliyinin artması; məhsulların rəqabət qabiliyyətinin artırılması; bazar mövqelərinin yaxşılaşdırılması; iş şəraitinin yaxşılaşdırılması; istehsalın ekoloji mühitinin yaxşılaşdırılması; ətraf mühitə zərərli maddələrin buraxılmasının azaldılması; istehsal və marketinqdə İKT-dən istifadə səviyyəsinin artırılması; müəssisənin informasiya məkanının rasionallaşdırılması; innovativ fəallığın artması; innovasiya prosesinin səmərəliliyinin artırılması və daxili mühitin risklərinin minimuma endirilməsi.

Bizə görə, inkişafın dayanıqlılığına nail olmaq məqsədilə sənaye müəssisələri potensialını maksimum dərəcədə artırmaq, bir çox amillərin təsirini nəzərə almaqla inkişaf tempini optimallaşdırmaq, istehsalın intensivliyinin artırmaq, xərcləri azaltmaq, sığorta vəsaitləri, kadrların həvəsləndirilməsi fondları, gələcək xərclər üçün vəsait və s. hesabına istehsalı stimullaşdırmaq, keyfiyyət meyarlarını müəyyənləşdirmək və onlara riayət etmək kimi tələblərə əsaslanmalıdır. Ümumiyyətlə, sənaye müəssisələri dayanıqlı inkişafa aşağıdakı komponentlər əsasında nail olurlar:

– iqtisadi artımın davamlılığının təmin edilməsi, məhsulların rəqabət qabiliyyətinin artırılması və məhsuldar məşğulluğun təmin edilməsi;

– dəyişən rəqabət şəraitinə, müştəri ehtiyaclarına və s. uyğunlaşma, bu şərtlərə uyğun optimal vəziyyətin tapılması;

– ekoloji nöqteyi-nəzərdən qeyri-rasional istehsalın payının azaldılmasına, ətraf mühitə minimal təsir göstərən yüksək texnologiyalı, bilik tutumlu sahələrin payının artırılmasına yönəlmiş sənayedə struktur dəyişikliklərinin həyata keçirilməsi;

– resurslara qənaət prinsiplərinə riayət edilməsi;

– sənaye istehsalının artım tempinin təbii ehtiyatların istehlakının artım tempinə nisbətən artırılması;

– sənaye kompleksinin bütün struktur elementlərinin (innovasiyalar, investisiyalar, kadrlar, maliyyə və s.) tarazlı inkişafının təmin edilməsi;

– sənaye müəssisələrinin, yerli özünüidarəetmə orqanlarının, dövlət hakimiyyəti orqanlarının, əhalinin, maliyyə strukturlarının və s. maraqlarının tarazlığına nail olunması.

Aparılan tyədqiatlar nəticəsində ümumiləşdirmə aparsaq, sənayenin inkişafının dayanıqlılığının təmin edilməsi yollarını şəkil 2-ki kimi əks etdirə bilərik.

Qeyd edək ki, sənaye müəssisələrinin fəaliyyətinin əsas məqsədlərindən biri istehsal olunan məhsulların rəqabət üstünlüklərinin artırılması və istehsalın texnoloji səviyyəsinin yüksəldilməsi ilə müşayiət olunan dayanıqlı inkişaf mərhələsinə keçiddir. Sənaye müəssisələrinin dayanıqlı inkişafında texnoloji dayanıqlılıq mühüm rol oynayır ki, bu da ən son texnoloji yeniliklərin istehsalata səmərəli tətbiqi, istehsal prosesinin təkmilləşdirilməsi və sənaye müəssisəsinin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi prosesidir. Müasir dövrdə bu amillərin ciddi şəkildə nəzərə alınmasını vacib hesab edirik.




**Şəkil 2. Sənayenin inkişafının dayanıqlılığının təmin edilməsi istiqamətləri (mənbə: müəllif tərəfindən tərtib edilib)**

**Nəticə**

Yeni çağırışlar şəraitində sənayenin inkişafını dayanıqlılığını təmin etmək məqsədilə onların inkişafı üzrə yeni dövlət proqramı hazırlanmalı və mövcud olanlar təkmilləşdirilməlidir: - müəssisənin fəaliyyət göstərdiyi bazarın daimi monitorinqi, rəqiblərin təhlili və elmi-texnoloji işlərin əsas nəticələri;

- aşağıdakı məqsədlər üçün istehsal texnologiyasının və istehsal olunan malların inkişafına töhfə verən innovasiyaların istehsal prosesinə tətbiqi: a) müəssisənin rəqabət qabiliyyətinin artırılması; b) resurslardan istifadənin səmərəliliyini artırılması və istehsal xərclərinin azaldılması; c) ətraf mühitə atılan emissiyaların həcminin azaldılması;

– kommersiya və inzibati xərcləri idarə etməklə qoyulmuş kapitalın rentabelliyinin, əsas kapitala investisiyaların gəlirliliyinin artırılması, dövriyyə kapitalının və onun strukturunun optimallaşdırılması;

– müəssisədə insan kapitalının və peşəkar işçilərin idarə edilməsi, iş şəraitinin yaxşılaşdırılması; sosial təminatlar sisteminə daxil olan tədbirlər siyahısının genişləndirilməsi;

– müəssisənin korporativ mədəniyyətinin inkişafı, şirkətin işçiləri və cəmiyyət qarşısında sosial və ekoloji məsuliyyətin artırılması;

– istehsal prosesində ətraf mühitə çirkləndirici təsirin azaldılması, tullantıların təkrar emalı əsasında müəssisənin ekoloji siyasətinin formalaşdırılması;

– sənaye təhlükəsizliyinin (istehsalatda bədbəxt hadisələrin azaldılması və s.) və kibertəhlükəsizliyin (məlumat bazalarının və proqram təminatının mühafizəsi) təmin edilməsi üzrə proqramların hazırlanması və reallaşdırılması;

– müasir informasiya texnologiyalarına əsaslanan müəssisə idarəetməsinin ən son metodlarından istifadə və s.

Sənayenin dayanıqlı inkişafı proqramının səmərəli şəkildə reallaşdırılması məqsədilə dövlət orqanlarının dəstəyi zəruridir ki, həmin dəstək tədbirlərinə aid edə bilərik:

– cəmiyyətin, müəssisələrin, elmin inkişafı və onların səmərəli inteqrasiyası üçün əlverişli şəraitin yaradılması;

– milli inkişaf proqramlarının hazırlanması üçün əsas kimi dayanıqlı inkişafın əsas müddəalarından istifadə edilməsi;

– elektron hökumətin inkişafı;

– səmərəli sənaye siyasətinin hazırlanması və onun reallaşdırılması mexanizmlərinin hazırlanması, sənaye siyasəti çərçivəsində müəssisələrin dəstəklənməsi üçün iqtisadi və təşkilati vasitələrdən istifadə edilməsi və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Щеглов, Е.В. Особенности устойчивого развития промышленных предприятий в условиях цифровой экономики / Е.В.Щеглов

// . – 2018. № 4, – с. 11-15.

2. İbrahimov, E. Dayanıqlı iqtisadi inkişafın təmin edilməsində dövlət büdcəsindən səmərəli istifadə yolları/ Statistika xəbərləri, Cild 3, – 2119. İyul-sentyabr, – s. 4-11.

3. Толстых, Т.О. Принципы и цели устойчивого развития в стратегиях развития промышленных предприятий / Т.О.Толстых, О.А.Кондратьева // Регион: системы, экономика, управление. – 2021. № 3(54), – с. 120-127.

4. Qarayev R.H. Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı inkişaf strategiyasının yaradılması mexanizmləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. – Gəncə, – 2022, – 31 s.

5. Семенихина, А.В. Стратегия диверсификации деятельности промышленного предприятия: комплексный подход к формированию и реализации / А.В.Семенихина, И.А.Тронина // Известия Юго-Западного государственного университета. Серия: Экономика. Социология. Менеджмент. – 2019. – Т. 9, № 4(33), – с. 96-107.

6. Шаталова, А.Н. Инновации как ключевой фактор устойчивого развития предприятий пищевой промышленности / А.Н.Шаталова, И.Г.Сергеева // Экономика. Право. Инновации. – 2020. № 1, – с. 43-47.

7. Əliyev Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Monoqrafiya. Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, – 2022, – 422 s.

8. Денисов, К.А. Показатели оценки уровня устойчивого инновационного развития предприятия / К.А.Денисов // . – 2014. № 1, – с. 79-81.

9. Рахматова, М.У. Роль инноваций в стратегическом планировании деятельности предприятия / М.У.Рахматова, А.О. усакеева // Известия Иссык-Кульского форума бухгалтеров и аудиторов стран Центральной Азии. – 2019. № 4(27), – с. 86-90.

10. Mahmudova, L.F. Azərbaycanda strateji innovasiya fəaliyyətinin investisiya-maliyyə təminatının aktual məsələləri. Audit № 4, Cild 26, 2019, – s.24-36.

11. Кондрашова, А.В. Стратегия диверсификации как направление улучшения экономической эффективности деятельности фирмы / А.В.Кондрашова, И.И.Мацулевич // Colloquium-Journal. – 2019. № 5-5(29), – с. 38-40.

12. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. – Bakı, – 2022, – 748 s.

**Гюльшан Галиб гызы ГУСЕЙНЗАДЕ,**
Докторант Сумгаитского Государственного Университета, AZ5008, 43 квартал, Сумгаит, Азербайджанская Республика
E-mail: gulsen396@mail.ru

# ПУТИ ОБЕСПЕЧЕНИЯ УСТОЙЧИВОГО РАЗВИТИЯ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЙ В УСЛОВИЯХ НОВЫХ ВЫЗОВОВ

## Резюме

*Целью исследования* является определение путей устойчивого развития промышленных предприятий в условиях новых вызовов. Для этого раскрыты проблемы развития предприятий, функционирующих в сфере промышленности. Обоснована важность и разработка новых механизмов в обеспечении устойчивого развития промышленных предприятий. Обобщены важнейшие условия и факторы, обуславливающие обеспечение устойчивой деятельности промышленных предприятия в условиях рыночных отношений. Рассмотрены ключевые вопросы совершенствования стратегической деятельности обеспечения стабильности предприятий и соблюдения основных принципов рентабельности промышленных предприятий. Подготовлена группа рекомендаций и предложений по устойчивой организации промышленных предприятий в нынешнем периоде.

*Методы исследования* состоят из традиционных общеизвестных экономических методов, в том числе - анализа, синтеза и обобщения. Более того рассмотрены научные взгляды ряда

исследователей, изучающих проблемы устойчивого обеспечения развития промышленных предприятий в условиях новых вызовов.

*Результаты исследования* отражены в подготовке и реализации более эффективных механизмов и использовании научно-практических результатов в совершенствовании деятельности промышленных предприятий в современном периоде.

**Ключевые слова:** промышленность, промышленные предприятия, устойчивое развитие, проблемы устойчивого развития, проблемы устойчивости промышленных предприятий, проблемы стабильности предприятий.

**Gulshan Ghalib HUSEYNZADE,**
Doctoral student of Sumgait State University, AZ5008,
43rd quarter, Sumgait, Republic of Azerbaijan
E-mail: gulsen396@mail.ru

## WAYS TO ENSURE SUSTAINABLE DEVELOPMENT OF INDUSTRIAL ENTERPRISES IN THE NEW CHALLENGES

### Summary

**The purpose of the research** is to determine ways of sustainable development of industrial enterprises in the new challenges. For this, the problems of the development of enterprises operating in the field of industry are disclosed. The importance and development of new mechanisms in ensuring the sustainable development of industrial enterprises is justified. The most important conditions and factors leading to the sustainable operation of the industrial enterprise in the conditions of market relations are summarized. The key issues of improving strategic activities to ensure the stability of enterprises and compliance with the basic principles of profitability of industrial enterprises are considered. A group of recommendations and proposals on the sustainable organization of industrial enterprises in the current period are given in the end.

**Research methods** consist of traditional well-known economic methods, including analysis, synthesis and generalization. Moreover, the scientific views of a number of researchers studying the problems of sustainable development of industrial enterprises in the new challenges are considered.

**The results of the research** are reflected in the preparation and implementation of more effective mechanisms and the use of scientific and practical results in improving the activities of industrial enterprises in the modern period.

**Key words:** industry, industrial enterprises, sustainable development, problems of sustainable development, problems of sustainability of industrial enterprises, problems of stability of enterprises.

**Şahin Nadir oğlu Xurşudov, PhD, dos.**

**Səfurə Mübariz qızı Hüseynova**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: Sefurehuseynova1995@gmail.com

# REGİONAL TURIZMIN STRATEJI PLANLAŞDIRILMASI

**Xülasə**

Məqalədə region anlayışından, turizmin hüquqi əsaslarından, Azərbaycanda turizmin inkişaf tarixindən, turizmin inkişafının əsas xüsusiyyətlərindən, Azərbaycanda regional turizmin mövcud vəziyyətindən, turizmin iqtisadiyyatda rolundan, turizmin inkişafına təsir edən amillərdən və Azərbaycanda turizmin təkmilləşdirilməsi yollarından bəhs edilir. Regionların xüsusiyyətlərindən söz açılır, onların malik olduğu coğrafi, təbii, mədəni, tibbi, turistik, iqtisadi tərəfləri aydınlaşdırılır. Turizm anlayışının dövlət tərəfindən qəbul edilmiş hüquqlara uyğunluğu müəyyənləşdirilir. Turizm siyasətinin dövlətin apardığı siyasətlə üst-üstə düşməsi qeyd olunur.

Azərbaycanda turizmin inkişaf mərhələlərindən bəhs edilir. Ayrı-ayrı regionların turizm cəhətdən mövcud vəziyyəti araşdırılır. Turizm iqtisadi sahə olduğu üçün, onun, iqtisadiyyatda rolunun hansı dərəcədə olduğu izah edilir. .

Azərbaycan bir çox təbii ehtiyatlarla zəngin olduğu üçün onların içərisində turizmin inkişafına təsir edən amillər müəyyənləşdirilir. Gələcəkdə respublikamızda turizmin təkmilləşdirilməsi mexanizmləri araşdırılır.

**Açar sözlər:** turizmin inkişafı, regionların xüsusiyyətləri, iqtisadiyyat, perspektiv, inkişaf.

**Tədqiqatın nəticələri** – Azərbaycan regionlarının bir çox təbii ehtiyatlara və perspektivlərə malik olduğunu nəzərə alaraq, bu regionlar haqqında məlumatın verilməsi və regionlarda turizmin inkişafının gələcək üçün strateji cəhətdən planlaşdırılması.

**UOT:332**
**JEL: R00**

## Giriş

Turizm sektorunda və turizm məhsullarının bazara çıxarılmasında hər zaman çətinliklər və problemlər olduğunu bilirik. Bu isə başqa mövqedən baxdıqda turizm məhsulunun növbənöv olmasından irəli gəlir. Bu məhsul mənəvi, tez sıradançıxabilən və ümumilikdə müəyyən bölgələrdə yaradılan bir özəlliyi özündə cəmləyir. Qeyd etmək lazımdır ki, hər bir turizm məhsulu özündən az fərqlənən bir alt sənaye qolu ilə əlaqəlidir. Məsələn, tur operatorları və səyahət agentlikləri, otel və qida sənayesi, transfer şirkətləri və s. Belə olan halda turizm məhsulunun satışa çıxarılması xüsusi önəm daşıyır.

Dolayısıyla reklam və satış bir-biri ilə sıx bağlıdır. Zaman keçdikcə tələb-istehsal-reklam üçbucağında bir sıralama deyil, lakin bir əlaqənin qurulması və irəlidəki mərhələdə isə reklamın tələbi yönləndirməsi sistemə uyğun bir irəliləyiş olacaqdır.

Reklam və satış bütünlükdə bir metod və bu metoda bağlı strateji yolların proqramıdır. Satış araşdırması və reklam bu metodun həlqələridir. Turizm həvəsi və tələbi həm beynəlxalq arenada, həm də ölkədə və bölgədə bir yerdə qarşılaşırlar. Bu yerə simvolik bazar deyilir. Turizm məhsulunun satışı bir hərəkət fəlsəfəsi, texniki bir davranış və eyni zamanda da praktik bir üsuldur. Satış həm də bu sənayeni idarə etmək üçün gerçək bir məqsəd olaraq qəbul edilir. Mövcud olan turizm məhsulunun istehlakçılara tanıdılması yolları reklam olaraq bilinir.

Turizm sektorunda reklam və satışın ilk mərhələsində mövcud tələbə görə turizm məhsulunun növləşdirilməsi, ikinci mərhələdə isə onun gedə biləcəyi bazarın xüsusiyyətlərinin araşdırılması məcburidir. Turizmdə bazar seqmentasiyası deyilən və istehsal edilən turizm məhsulunun bazara çıxarılacağı bölgədə istehlakçıların müxtəlif seçimlər baxımından

nəzərdən keçirməyə başlanılması da seqmentasiyaya aid edilir. Bu seçimlər ümumilikdə cəmiyyətin psixoloji, coğrafi və sosial-ekonomik hərəkətlərinə yönəldilmiş ölçülərdir.

**Mövzunun aktuallığı.** Turizm sənayesi də dünya ticarətində yer tutduğu üçün onun təkmilləşdirilməsi və dünya təsərrüfat sistemində səmərəli inteqrasiyasını təmin etmək dünyada və Azərbaycanda həyata keçirilən islahatların esas istiqamətlərindəndir. Buna görə də, işlənib hazırlanmış xarici və daxili siyasət nəzəri cəhətdən əsaslandırılmalı, prinsip və qanuna-uyğunluqları araşdırılmalıdır.

**Tədqiqatın məqsədi.** Tədqiqat işinin məqsədi xarici və yerli turizm ticarətinin inkişafının strateji yollarının araşdırılması, Azərbaycanda regional turizmin mövcud vəziyyətinin öyrənilməsi, dünyada və Azərbaycanda regional turizm sektorunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi çərçivəsində təklif və rəylərin hazırlanmasından ibarətdir.

Tədqiqatın məqsədi aşağıda məntiqi ardıcıllıqla göstərilmişdir:

-Dünyada turizmə nəzəri yanaşma;

-Regional turizmin sosial-iqtisadi mahiyyəyi;

-Dünyada regional turizmin inkişaf yolları və ona təsir edən amillər;

-Azərbaycanda regional turizmin vəziyyəti və onun inkişaf istiqamətləri;

-Regional turizmin Azərbaycan iqtisadiyyatında rolu;

-Regional turizmin təkmilləşdirilməsi mexanizmləri.

**Tədqiqatın obyekti.** Tədqiqatın predmetini xarici və yerli turizm siyasətinin strateji cəhətdən səmərəli yollarla planlaşdırılması məsələlərinin tədqiqi təşkil edir. Tədqiqatın obyekti dünyada və Azərbaycanda regional turizmdir.

**Tədqiqatın metodları.** Stat.gov.az saytı, Azərbaycanda Turizm haqqında Qanun, dövlət proqramları və fərmanlar təşkil edir. Həmçinin, turizm haqqında ali məktəblərin dərsliklərinə də müraciət olunub.

**Materiallar və müzakirələr**

Region dedikdə, müəyyən bir xüsusiyyətə malik ərazi başa düşülür. Regional turizm isə müəyyən bir xüsusiyyətə malik ərazidə inkişaf etdirilən turizmdir. Bu turizmin növü yalnız həmin əraziyə xasdır. Bildiyimiz kimi, hər bir region ölkənin iqtisadi sisteminin ayrılmaz bir hissəsidir və regional turizmdə yaranan hər bir irəliləyiş regionların iqtisadi inkişafına güclü təsir edir. Buna görə də, ümumiyyətlə, regionlarda məhsuldar qüvvələrin yerləşdirilməsinə xüsusi diqqət yetirmək lazımdır. Çünki, hər bir regionun öz xüsusiyyətləri vardır. Məs: təbii şərait, coğrafi mövqe, regionun malik olduğu təbii ehtiyyatlar nəzərə alınmalıdır. Azərbaycanda neft və qaz yataqlarının bol olduğu ərazilərdə neft-qaz sənayesi istismarının yerləşdirilməsi daha məqsədəuyğundur.

Bəzi regionlar isə kurort-rekreasiya cəhətdən çox əlverişli xüsusiyyətlərə malikdir. Ona görə də, həmin regionlarda sanatoriya mərkəzləri, istirahət guşələri daha çoxdur. Abşeron iqtisadi regionunun dənizkənarı qəsəbələri, Xəzərin qumlu çimərlikləri əcnəbi turistlərin, müalicə məqsədilə gələnlərin istirahəti üçün əlverişlidir. Dünyaca məşhur müalicəvi əhəmiyyət daşıyan Naftalan neftinin istifadə olunduğu Naftalan şəhərində tikilən və gələcəkdə tikilməsi nəzərdə tutulan sanatoriyalar da bu məqsədlə inşa edilmişdir. Azərbaycan regionlarında çox sayda dini əhəmiyyətli ziyarətgahlar vardır ki, öz möcüzəvi xüsusiyyətləri ilə yerli və əcnəbi turistlərin diqqətini cəlb edir. Sakit istirahəti sevən insanlar daha çox dəniz kənarında dincəlməyə üstünlük verirlər. Xəzərin qumlu çimərlikləri belə turistlərin ən çox gəldiyi yerlərdir. Günəşin şüalarından, dənizin sərinliyindən faydalanmaq istəyənlər Bakı, Abşeron, Lənkəran bölgələrinə daha çox üz tutur.

**Azərbaycanda turizmin inkişaf mərhələləri.**

Azərbaycan hələ qədim zamanlardan öz təbii sərvətləri, özünəməxsus iqlimi, flora və faunası, əlverişli coğrafi mövqeyi ilə səyyahların və gəzib-görmək istəyənlərin diqqətini özünə çəkmişdir. Azərbaycanın ayrı-ayrı regionları, tarixi abidələri, şəhərləri, kəndləri və təbii sərvətləri haqqında müxtəlif xalqların nümayəndələri tərəfindən kitablar yazılmışdır [1,s 9]. Dünya miqyasında tanınan və seçilən ölkə olmasına baxmayaraq, Q.Məmmədov və M.Xəlilova görə Azərbaycanda turizmin tarixi 1920-ci illərdən, C.Məmmədov və S.Rəhimova görə isə 1932-ci ildən başlayır.1934-cü ildə Bakıda "İnturist" mehmanxanası fəaliyyətə başladı və buna görə də, Ümumittifaq səhmdar cəmiyyətinin Bakı şöbəsi işə başladı. Onun mənfi cəhəti isə o idi ki, yalnız xarici qonaqlara xidmət göstərirdi [1, s.10].

1936-cı ildə Ümumittifaq könüllü proletar turizm və ekskursiyalar cəmiyyəti ləğv edildi və Ümumittifaq Həmkarlar İttifaqının Mərkəzi Şurası tabeliyində turist –ekskursiya idarəsi fəaliyyətə başladı. 1937-ci ildə onun yerinə ÜHİMŞ-nın Azərbaycan üzrə səlahiyyətli nümayəndəliyi yarandı və Bakıdakı turist bazası, Hacıkənddəki Turist evi və Göy-Gölün sahilindəki turist düşərgəsi onun tabeliyinə verildi [1, s.10].

Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının 23 dekabr 1957-ci il tarixli qərarına əsasən, 1958-ci ildə Azərbaycan Turizm – Ekskursiyalar idarəsi yarandı. Bu idarənin əsas işi turizm avadanlıqları kirayə məntəqələrinin çoxaldılması, səyahətlərin təşkili, turist bazalarının yaradılması, avtomobil bazalarının işinə nəzarət, turist bazalarının tikintisi, turizm haqqında ədəbiyyatların nəşri, yeni kadrların hazırlanması və idarə turizmini təbliğ etmək idi. Bu idarə 1962-ci ildən Turizm üzrə Azərbaycan Respublika Şurası, 1969-cu ildən isə Turizm və Ekskursiyalar üzrə Azərbaycan Respublika Şurası adlandı [1, s.11].

Regionların xarici turizmlə əlaqəsini genişləndirmək məqsədilə 1973-cü ildə Bakıda Azərbaycanın ən böyük mehmanxana kompleksi hesab edilən 1042 yerli "Azərbaycan" mehmanxanası istifadəyə verildi [1,s.12].

Respublikada turizm 1980-ci ildən başlayaraq çiçəklənməyə başladı. Naxçıvan Xankəndi Sumqayıt və Mingəçevir şəhərlərində idman klubları yaradıldı. Azərbaycan turizminin inkişafında ən yadda qalan il 1983-cü il oldu. Çünki Heydər Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi ilə "Xəzərin Azərbaycan Sahillərində Ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması" barədə qərar qəbul edildi [1, s.12, 13].

Turizm mütəxəssislərinin fikrincə Azərbaycan turizmi 1987-ci ildə özünün ən yüksək inkişaf səviyyəsinə çatdı. Buna səbəb isə həmin il ölkəyə və onun regionlarına pik həddə turistlərin gəlməsi idi[1, s.13].1988-ci ildə Qarabağda və onun ətrafında baş verən hadisələr səbəbilə Xankəndi, Şuşa, Sumqayıt, sonra isə Bakıda tətbiq edilən fövqəladə vəziyyət yerli və xarici turistlərin sayının nəzərə çarpacaq dərəcədə azalmasına, regionlarda fəaliyyət göstərən turizm təşkilatlarının öz fəaliyyətlərini dayandırmasına səbəb olmuşdur [1, s.14]. Qovulan azərbaycanlılar məcburi olaraq turist bazalarında yerləşdirilmişdir. 1990-cı ildə Ümumittifaq və Beynəlxalq turist marşrutları ləğv olunmuşdur [1,s.15]. 1991-ci ildə Turizm üzrə baş idarə ləğv olunmuş və onun yerinə Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Xarici Turizm Şurası yaradılmışdır [1, s.15,16]. Həmin şura 2001-ci ildə ləğv edilmiş, Azərbaycan Gənclər və İdman Nazirliyi Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi ilə əvəz edilmişdir. Hal-hazırda bu nazirlik 2 nazirliyə- Azərbaycan Gənclər və İdman Nazirliyi, habelə Azərbaycan Turizm və Mədəniyyət Nazirliklərinə bölünmüşdür [1, s.16].

Turizm Azərbaycanda müasir həyatın və beynəlxalq əlaqələrin bir formasıdır. Bu əsasla 1999-cu il 4 iyun tarixində ölkəmizdə "Turizm haqqında" Qanun qəbul edilmişdir [1,s.16].

2011-ci il Azərbaycan Respublikası Prezidenti tərəfindən "Turizm ili" elan edilmişdir. Bu isə turizmin inkişafına dövlət dəstəyinin bariz nümunəsidir. Bakıda və regionlarda müasir standartlara cavab verən mehmanxanaların tikilməsi, 2012-ci ildə Eurovision musiqi müsabiqəsinin Azərbaycanda məhz turistik məqsədlə inşa edilən və möhtəşəm memarlıq incisi sayılan "Kristall holl" sarayında keçirilməsi dövlətimizin turizmin inkişafına olan diqqət və qayğısının göstəricisidir [1,s.16,17].

**Regional turizmin hüquqi əsasları və turizmin Azərbaycan iqtisadiyyatında rolu.**

Turizm fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsində bir sıra məqsədlər vardır:

-vətəndaşların istirahəti, sərbəst hərəkət hüquqları və səyahətlər müddətində başqa hüquqlarının təmin edilməsi;

-ətraf mühitin mühafizəsi;

-səyahət edənlərin təhsili və sağlamlığının qorunmasına yönəlmiş şəraitin yaradılması;

-gəzinti dövründə səyahət edənlərin tələbatlarını ödəyən turizm sənayesinin inkişaf etdirilməsi;

-yeni iş yerlərinin açılması nəticəsində Azərbaycan Respublikası vətəndaşlarının gəlirlərinin artırılması, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi, turizm obyektlərinin mühafizə olunması və təbii-mədəni irsin qorunaraq istifadəsi.

Turizm dövlət tənzimlənməsinin formalarından biri olan turizm fəaliyyətinin həyata keçirilməsinə xüsusi razılığın verilməsini nəzərdə tutan lisenziyalaşma əsas işlərdən biridir.

Lisenziyalaşmanın əsas məqsədi dövlət və turizm məhsulu istehlakçılarının qarşılıqlı hüquq və maraqlarının təmin edilməsi, turizm xidmətlərinin səviyyəsinin yüksəldilməsi və bütün bunların beynəlxalq tələblərə cavab verməsindən ibarətdir.

Lisenziyalaşma – lisenziya verilməsi, rəsmiləşdirmə, lisenziyanın həqiqiliyinin təsdiq edilməsi, lisenziyanın mövcudluğunun bərpa və ləğv edilməsi, lisenziyalaşdıran və lisenziya alanların fəaliyyətlərinin qarşılıqlı uyğunlaşması şəraitində turizm fəaliyyətinə nəzarət edilməsindən ibarətdir. Lisenziyalaşdıran orqan – lisenziyalaşdırılmanı həyata keçirən icraedici hakimiyyət orqanıdır. Həmin orqanlar aşağıdakı səlahiyyətlərə malikdir:

-lisenziyanın verilməsi;

-lisenziyanın mövcud olmasını təsdiq edən sənədlərin rəsmiləşdirilməsi;

-lisenziyanın fəaliyyətinin dayandırılması, bərpa və ləğv edilməsi;

-lisenziya alanların lisenziyanın tələb və şərtlərinə uyğun şəkildə fəaliyyətinə nəzarət edilməsi.

Turizm sahəsində lisenziyalaşmanı Azərbaycan Respublikası Gənclər İdman və Turizm Nazirliyi həyata keçirir.Turizm fəaliyyətinin lisenziyalaşdırılması hüquqi və fiziki şəxslərin şərtlərə uyğun çalışmasını, yüksək səviyyəli xidmət göstərilməsinə və istehlakçıların hüquq və maraqlarının qorunmasına səbəb olur [www.-qanun.az].

Turizm fəaliyyətinin dövlət tənzimlənməsi və istehlakçıların hüquqlarının mühafizəsinin əsasını standartlaşma təşkil edir. Standartlaşma – istehlakçıların münasib qiymətə və keyfiyyətə malik xidmətlərdən istifadə etmək, onların rahatlığını və hüquqlarını təmin edən norma və qaydaların hazırlanması və tətbiq edilməsinə yönəlmiş fəaliyyət sahəsidir. Əsas məqsədi isə mövcud tələb və normalardan istifadə edərək hazırda mövcud olan, planlaşdırılmış və potensial məsələlərin həllini nəzarət qaydasında icra etməkdən ibarətdir [https://e-qanun.az]

**Azərbaycanda regional turizmin mövcud vəziyyətinin təhlili.**

Məlumdur ki, turizm ehtiyatları zona və regionlara ayrılaraq öyrənilir. Buna səbəb isə turizm ehtiyatlarının əsasən mənzərəli yerlərdə yerləşməsidir. Burada coğrafi mövqe mühüm əhəmiyyət kəsb edir. Məsələn, qış və xizək turizmini daim qar örtüyünün olduğu dağlıq ərazilərdə yatarmaq daha məqsədəuyğundur. Belə olduqda ətraf mühitə edilən yüklənmə azalır, çünki, regionlarda rekreasiya tətbiqi aparılır, turizm mərkəzləri düzgün yerləşdirilir, təbii ehtiyyatlardan səmərəli şəkildə istifadə olunur. Ölkəmizin bir çox regionları təbiətin toxunulmamış cənnət guşələridir. Lakin iqlim dəyişikliyinin bizim regionlara da təsiri nəzərə alınmalıdır. Hal-hazırda yerli hakimiyyət orqanları yüksək müstəqilliyə daha meyilli olduğu üçün onlar regionların turizm üzrə rəhbəri ilə birlikdə turizm inkişaf proqramını tərtib etməlidirlər. Bu yolda turizmin regional-ərazi prinsipi üzrə təşkili, regionların turizmə marağı, turizmdən gələn gəlirin regionda qalaraq turizmin iqtisadi yüksəlişinə səbəb olaraq yeni iş yerlərinin yaranmasına yol açması və regionlardan paytaxta insan axınının azalmasına daha çox əhəmiyyət verilir [1, s.44].

Ölkəmizdə həm yerli, həm də xarici turistlərin diqqətini cəlb edən Bakı-Abşeron turizm bölgəsi respublikanın şərqində yerləşir [1,s.46]. Özündə tarixi, memarlıq abidələrini qoruyub saxlayır. Qubaya gələn turistlər istirahət üçün ən çox Yalama-Nabran istirahət zonasına baş çəkir [1,s.67]. Babazanlı palçıq vulkanının müalicəvi xassəsi hələ də yerli turistlərin diqqətinin çəkir. Masallı rayonunun əsas xüsusiyyəti İrana gedən magistral yolun üzərində yerləşməsidir [1,s.83]. Regionun ən baxımlı yeri təbiət mənzərəli Xanbulançaydır. Burada süni göl də yaradılmışdır [1,s.90]. Şəki-Zaqatala turizm bölgəsi Azərbaycanın şimal-qərbində, Böyük Qafqazın cənub ətəklərində yerləşir. Tərkibində Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonları vardır [1,s.96]. Gəncə-Qazax turizm bölgəsi çox zaman Gəncəbasar da adlanır. Bölgədə Gəncə, Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Daşkəsən, Şəmkir, Samux, Göygöl, Yevlax, Goranboy ( Naftalan şəhəri ilə), Mingəçevir şəhər və rayonları vardır [1,s.123]. Göygöl rayonu 19-cu əsrdə almanlar tərəfindən salınmışdır. Gədəbəy rayonu Kiçik Qafqaz dağlarında, yüksək və orta yüksəklikdə yerləşir [1,s.137]. Rayonda Haçaqaya adlanan ziyarətgah yerli əhalinin və turistlərin marağını cəlb edir. Gələn qonaqlar şəhərin mərkəzindəki mehmanxanada qala bilərlər. Naxçıvanda unikal rekreasiya-turizm ehtiyyatları vardır [1,s.161]. Qarabağ turizm bölgəsi Azərbaycanın 2020-ci ilə qədər yaralı yeri, sözlərlə ifadə edilməyəcək qədər qanlı qan

yaddaşımız, tariximiz, mənəviyyatımız hesab olunur. Buraya Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Kəlbəcər rayon və şəhərləri daxildir [1,s.176]. Müxtəlif müalicəvi amillərin mövcud olması burada ürək-damar sistemi xəstəliklərinin müalicəsi üçün kompleks yaratmağa imkan verir. Beləliklə, sanatoriya-kurort, turizm və istirahət mərkəzi sayılır.

**Azərbaycanda regional turizmin inkişafına təsir edən amillər və regional turizmin təkmilləşdirilməsi mexanizmləri.**

Turizmin başqa sahələrə təsiri olduğu kimi, turizmin inkişafına da təsir edən bir çox amillər vardır:

~Təbii-coğrafi amillər dedikdə turistlik regionun yerləşdiyi ərazinin coğrafi mövqeyi, məxsus olduğu iqlimi, relyefi, heyvanat aləmi, daxili suları, bitki örtüyü və s. nəzərdə tutulur.

~Mədəni-tarixi amillər dedikdə, ərazidəki tarixi qalalar, saraylar, qədim yaşayış məskənləri, türbələr, dini ziyarətgahlar, hamamlar və s.tikililər başa düşülür.

~Demoqrafik amillər dedikdə, region əhalisinin sayı, hansı yaş qrupunun üstünlük təşkil etməsi, şəhər və kənd əhalisinin sayı və s. nəzərdə tutulur.

~Sosial amillərə əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, dünyagörüş və mədəniyyətinin inkişaf etdirilməsi aid edilir [13, s.205].

~İqtisadi amillər-iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə daha yüksək olur, buna görə də, insanların yaşayış səviyyəsi yüksəlir.

~Ekoloji amilər də öz növbəsində turizmə təsir göstərir. Əlbəttə ki, heç kim ekoloji cəhətdən təmiz olmayan yerə səyahət etmək istəməz.

~Siyasi amillər dedikdə regiondakı siyasi amillər nəzərə alınır. Əgər bölgədə sosial münaqişələr və müharibə varsa, ora səyahət edən turist sayı hətta sıfıra enir. Texnoloji amillər texnologiyanın inkişafına əsaslanır. Texnoloji inkişafın sürətlənməsi virtual turizm kimi yeni sahələrin yaranmasına səbəb olmuşdur. Beləliklə, insanlar gedəcəkləri yeri əvvəlcədən vitual-internet vasitəsilə səyahət edərək tanımaq imkanı qazanırlar [13, s. 208,209].

**Nəticə**

Ölkədə turizmin bir iqtisadi sahə kimi inkişaf etməsi üçün onun regionlarında ayrı-ayrılıqda turizm inkişaf etməlidir. Turizmi regionlarda inkişaf etdirmək üçün həmin regionun xüsusiyyətlərini bilmək lazımdır. Bu zaman regionun yerləşdiyi coğrafi mövqe, malik olduğu iqlim xüsusiyyətləri, dağlıq və ya düzənlik sahənin tutduğu ərazi, region əhalisinin məşğuliyyəti, regionda inkişaf etmiş iqtisadi və sosial sahələr nəzərə alınmalıdır. Regionda turizm müəssisəsi yaradılarkən yaxınlıqda yerləşən sənaye müəssisələri ilə əlaqələndirilməli, nəqliyyat xidmətlərinin olmasına da önəm verilməlidir. . Turizm müəssisəsinin yaradılması zamanı bütün işləri dövlət standartları çərçivəsində görmək lazımdır. Mövcud standartlaşma, lisenziyalaşma qaydaları gözlənilməlidir. Bütün bunlarla yanaşı, milli-mənəvi dəyərlərin də gözlənilməsi vacibdir. Milli dəyərlərin saxlanılması ilə bərabər, turistlərin rahat istirahəti üçün təklif olunan xidmətlər müasir tələblərə cavab verməli, gələn qonaqların istəkləri gözlənilməlidir. Bütün bu işlərə dövlət nəzarət edir.

Müasir Azərbaycan turizmi bu dövrə gəlib çatana qədər xeyli yol qət etmiş, bir zamanlar münaqişələrlə əlaqədar geriləmələr yaşamış, sonralar bir qədər dirçəlmiş, 2020-ci ildə qazandığımız böyük Zəfərdən sonra isə daha da irəliləyişlər əldə etməsi gözləniləndir.

## ƏDƏBIYYAT SİYAHISI:

1. Abadov M.K. “Azərbaycan turizmi və onun inkişaf problemləri”. Bakı, 2014.
2. Budaqov B.A. “Azərbayanın təbiəti”. Bakı, 1989.
3. Budaqov B.A. “Azərbaycanın təbii abidələri”. Bakı, 1990.
4. Qazıyeva M.A. “Bakı tarixi və diqqətəlayiq yerlər”. Bakı, 1959.
5. Müseyibov M.A. “Azərbaycanın fiziki coğrafiyası”. “Maarif”, Bakı, 1998.
6. “Şəki” Bələdçi kitabı, Şəki turizm informasiya mərkəzi, Bakı, 2010.
7. Haqverdiyev T.X. “Abidələr tarixin sirdaşıdır”. Bakı, 1982.
8. Əlirzayev Ə.Q., Aslanova S.M. “Turizmin inkişafının sosial-iqtisadi problemləri”. Bakı, 2006.
9. Abadov M.K. “Turizm məhsulunun tərtibi texnologiyası”. Bakı, Elm. 2011.
10. Hümbətov Y.Ə. “Məhsuldar qüvvələrin yerləşdirilməsi”. Bakı, 2013.

11. Məmmədov Z. "Regional iqtisadi imkişaf problemləri".Bakı, 1997.
12. Hümbətov Y.Ə. "Sənayenin təşkili və idarə edilməsi". Bakı, 2018.
13. Hümbətov Y.Ə., Xurşudov Ş.N., Kərimov F.C. "Qeyri-neft sənayesinin iqtisadiyyatı". Bakı, 2019.
14. İnternet resursları: stt.gov.az saytına istinad edilmişdir.

**Шахин Надир оглу Хуршудов, PhD, доц.**
**Сафура Мубариз кызы Гусейнова**
**Азербайджанский Технологический Университет**

## СТРАТИГЕЧИСКОЕ РЛАНИРОВАНИЕ РЕГИОНАЛНОГО ТУРИЗМА

### Резюме

В статье конкретно говорится о понятие региона, правовая основа туризма, история развития туризма в Азербайджане, основные характеристики развития туризма,текущем современное состояние регионального туризма в Азербайджане, роли туризма в экономике, факторы влияющие на развитие туризма и пути улучшения туризма в Азербайджане, Быяснены географические, природные,културние, лечебные, туристические, хозяйственные особенности регионов.

Обсуждаются этапы развития туризма в Азербайджане. Исследования существующее положение отдельных регионов. Поскольку туризм является економические сферой, выясняется,в какой мере его роль економике.

Поскольку Азербайджан богат многими природными ресурсами,в них определяются факторы, влияющие на развитие умзи. В дальнейшем изучаются механизмы улучшения туризма в вашей республике.

**Ключевые слова:** развитие туризма, характеристика регионов, економика, перспективное развитие.

**Sahin Nadir oghlu Khurshudov, PhD, Assoc.prof.**

**Safura Mubariz gizi Huseynova**
Azerbaijan Technological University

## STRATEGIC PLANNING OF REGIONAL TOURISM

### Summary

The article discusses the concept of region the legal basis of tourism., the history of tourism development in Azerbaijan, the main features of tourism development,the current state of regional tourism in Azerbaijan, the role of tourism in the economy,factors affecting the development of tourism and ways to improve tourism in Azerbaijan. Geographical, taboo, cultural, medical, touristic, economic characteristics of my region are clarified. The compatibility of the concept of tourism policy with the right accepted by the state is determined. The coincidence of the tourism policy with the state's policy is noted. The characteristics of each region that will help the development of tourism are clarified.

The development of tourism in Azerbaijan is discussed. Tourism of individual regions clarify the extend of his role. The current situation is being investigated from the point of view, because tourism is an economic sector in its economy.

Since Azerbaijan is reach in many natural resources, the factors influencing the development of tourism are indentifend in them. Mechanisms for improving tourism in our republic are being investigated in the future.

**Keywords:** development of tourism, characteristics of regions, economy, perspective, development.

**Fazil KƏRİMOV i.f.d., dosent**
**CƏFƏROVA Xalidə Rəşid qızı**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**BAGIROV Ərturqut Şikar oğlu**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# HEYƏTİN İDARƏ EDİLMƏSİ SİSTEMİNDƏ TƏŞKİLATİ SƏMƏRƏLİ KADR SİYASƏTİ

**Xülasə**

İşçi heyəti üzrə menecerlik gənc peşədir. Menecerlik fəaliyyətnin bir növü kimi o, ötən əsrin əvvəllərində meydana gəlmişdir. İşçi heyəti ilə iş üzrə sənaye sosiologiyası və psixologiyası sahəsində hazırlığa malik mütəxəssislərin meydana çıxması ənənəvi kadr işində əsl inqilabın təzahürü idi. Əgər ona kimi kadr işi müxtəlif səviyyə və ranqdan olan xətti rəhbərlərin, həmçinin uçot, nəzarət və təşkilati (inzibati) fəaliyyətlə məşğul olan kadr xidməti işçilərinin (və rəhbərlərin) funksiyasına aid idisə, təşkilatın kadr potensialının lazımi səviyyəsinin təmin edilməsi ilə əlaqədar idarəetmə (ştat) funksiyası məsələlərin diapazonunu nəzərə çarpan səviyyədə genişləndirdi və menecmentin bu istiqamətinin əhəmiyyətini yüksəltmiş oldu. Təşəkkül tapmış kadr işini tədricən inteqrasiya və transformasiya edən kadr menecmentliyi məhz müasir menecmentlik sistemində işçi heyətinin ixtisaslaşmış ştab fəaliyyəti kimi idarə edilməsi ilə əlaqədardır. Bu prosesin vacib mərhələsi sistemli yanaşma ideyalarının assimilyasiyası, müxtəlif modellərin sistem şəklində təşkili (tək funksional yox, həm də inkişaf edən) olmuşdur ki, kadr menecmentliyində yeni yanaşma-insan resurslarının idarə edilməsi təşəkkül tapmışdır

**Açar sözlər:** *heyətin idarə edilməsi, strategiyası, mükafatlandırma, əməkdaşlar.*

**UOT: 331**
**JEL: J45**

**Giriş**

Heyətin idarə edilməsi fəaliyyəti təşkilatın insan tərkibinə elə bir məqsədyönlü təsiri əks etdirir ki, bu təsir heyətin imkanları və təşkilatın inkişafının məqsədinə, strategiyasına, eləcə də, şəraitinə uyğunlaşdırılmasına yönəldilmişdir.

Heyətin idarə olunması konsepsiyasına mədəni aspektin təsiri tamamilə aydındır. Məsələn, Yaponiyada təşkilata ayrı-ayrı əməkdaşları birləşdirən iş yeri kimi deyil, kollektiv olaraq baxılır. Belə təşkilat üçün əməkdaşlıq ruhu, qarşılıqlı asılılıq səciyyəvidir. İşdə ömürlük saxlanma təşkilatı ailə həyatının davamına çevirməklə, tabeçilikdəkilərlə rəhbər şəxslər arasında himayədarlıq münasibətləri yaradır.

İnsan yönümlü yanaşmaya görə mədəniyyətə hadisələri, hərəkətləri, situasiyaları müəyyən bir qaydada dərk etmək, öz davranışını mənalı və əhəmiyyətli etmək imkanı verən reallığın yaradılması prosesi kimi baxmaq olar. İnsanın bütün həyatının yazılmış və yazılmamış qaydalarla idarə olunduğu görüntüsü ortaya çıxır. Lakin əslində qaydalar sadəcə vasitə rolunu oynayır, əsas fəaliyyət isə yaranmış vəziyyətdə tətbiq ediləcək qaydanın seçilməsi zamanı baş verir. Bizim situasiya anlayışımız hansı qaydalar toplusundan yararlanmamızı şərtləndirir.

Heyətin strateji menecmenti – müəssisənin məqsəd və imkanları ilə müəssisədə çalışan işçilərin maraqlarının razılaşdırılmasını təmin edən təfəkkür və idarəetmənin proqram üsuludur. Strateji idarəetmə təkcə müəssisənin fəaliyyətinin başlıca istiqamətinin müəyyən edilməsini deyil, həm də sözügedən menecmentin reallaşdırılmasında bütün əməkdaşların maraqlı olmasını və motivasiyasının yüksəldilməsini nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, hazırda heyətin strateji idarəetməsi də daxil olmaqla firmada strategiyanın işlənib hazırlanmasına yanaşmalar dəyişmişdir. Əgər əvvəlki dövrlərdə strategiyanın yalnız dar çevrədə ali rəhbərlik nümayəndələrinə məlum olmalı və geniş auditoriyaya açıqlanmamalı olduğu hesab edilirdisə, bu günkü gündə açıq şəkildə formalaşdırılan siyasətə üstünlük verilir. Strategiyanın real və səmərəli olması üçün təşkilatın bütün idarəçilik səviyyələri onun

hazırlanmasında iştirak etməlidir. Bununla əlaqədar, heyətin azaldılmalı məsrəflər kimi nəzərdən keçirildiyi yanaşma öz yerini elə bir yanaşmaya vermişdir ki, burada heyətin savadlı idarə edilməsi, inkişafı üçün vəsait yatırmaq, şərait yaratmaq hər şeydən vacibdir.

Hazırda ölkəmizdə fəaliyyət göstərən SOCAR, AzPetrol kimi bir sıra şirkətlərin timsalında heyətin idarə edilməsinə daha bir strateji yanaşmanı müşahidə etmək olar. Təşkilatın idarə olunmasının marketinq strategiyası adlandırılan bu strategiyanın tətbiqi zamanı müəssisədə heyət iki seqmentə ayrılır. Belə ki, heyətin ixtisasartırmaya ehtiyac duyan bir qisminə şirkət müəyyən vəsait yatırmalıdır, daha yüksək peşəkarlıq səviyyəsinə malik digər qisim işçilər hesabına isə vəsaitlərə qənaət etmək mümkündür. Belə olan halda, müəssisə büdcəsindən vəsaitlərin 80%-i "istedadlı" işçilərə, 20%-i isə qalan əməkdaşlara yönəldilir. Məhz həmin "istedadlı"lardan daha yüksək nəticələr gözlənilir. Həmçinin, heyətin idarə edilməsi strategiyasının işçilərdən tələb olunan səriştəliliklə müəyyənləşdirildiyi daha bir strategiya mövcuddur. Bu strategiya səriştəlilik üzərində qurulur.

Beləliklə, təşkilatda heyət, pul vəsaitləri yatırıldıqdan sonra mənfəətə və ya azaldılmalı məsrəflərə gətirib çıxaran ehtiyatdır. Müəssisənin ümumi biznes strategiyası məsrəflərə qənaət strategiyası olaraq seçildiyi təqdirdə, heyət üzvlərinə çəkilən xərclərdə qənaətə nail olunur. Diferensiallaşdırma strategiyası kimi digər bir ümumi biznes strategiyası seçildikdə isə, vəsaitlər heyət üzvlərinə peşəkarlıq səviyyəsinin yüksəldilməsi və biznesdə inkişafa təkan verməsi məqsədilə ayrılır.

Heyətin idarə edilməsi təşkilatın ətraf mühitinin hazırkı və gələcək dəyişkənliklərini nəzərə almaqla, müəssisədə rəqabət qabiliyyətli əmək kollektivinin yaradılması proseslərini özündə əks etdirir. Məhz bu amil təşkilatın sağ qalmaq bacarığı, inkişafı və uzunmüddətli hədəflərə nail olmasını şərtləndirir. Heyətin idarə edilməsi strategiyasının reallaşdırılması strateji idarəetmə prosesinin vacib mərhələsidir. Bu strategiyanın uğurla həyata keçirilməsi üçün təşkilat rəhbərliyi bəzi qaydalara əməl etməlidir.

Strategiyaların differensiallaşdırılmasına çox sayda yanaşmalar mövcuddur. Belə ki, innovasiyalı müəssisələrin strategiyası, diversifikasiya strategiyası, maksimal mənfəətin əldə edilməsinə yönəldilmiş strategiya, istehlakçılara yönəlik strategiya, təşkilati inkişaf strategiyası və s. kimi növlər ayırd edilir.

Müəssisədə heyətin idarə edilməsi strategiyası ilə müəssisənin ümumi strategiyası arasında birbaşa qarşılıqlı əlaqə mövcuddur. Heyətin idarə olunması strategiyası ümumi strategiyaya tabe olur və ya onun məntiqi davamı kimi çıxış edir. İstənilən halda, müəssisədə insan resurslarının idarə edilməsi strategiyası müəssisənin biznes strategiyası tipinə istiqamətlənir. Hər bir biznes strategiyası növünə konkret heyəti idarəetmə tipi uyğun gəlir.

Müasir dövrdə təşkilatlarda işçilərin əməyə münasibətlərinin bir sıra cəhətləri və tələbləri vardır. Bu kimi tələbatların ödənilməsi heyətin fəaliyyətinə təsirsiz ötüşmür. Bununla əlaqədar olaraq, stimullaşdırmanın bir xarici təsiredici vasitə kimi öz müxtəlifliyi və xüsusiyyətləri vardır. Bu baxımdan maddi maraqları aşağıdakı pillə formasında göstərmək olar:

Əmək haqqı
Bonuslar
Mənfəətdə iştirak
Əlavə ödəmələr planı
Möhlətli ödəmələr
Səhmdar kapitalda iştirak

İşçi heyətinin fəaliyyət nəticələrinin effektivliyinin qiymətləndirilməsi heyətlə aparılan iş sisteminin mühüm tərkib hissəsidir. Heyətin qiymətləndirilməsi ən çətin və mübahisəyə səbəb olan bir məsələdir. Firma və şirkətlər heyətin qiymətləndirilməsində müvafiq standart və normalardan, qiymətləndirmə metodlarından istifadə edirlər. Burada ən başlıca vəzifə həm seçilmiş qiymətləndirmə meyarlarının özünün keyfiyyətli olması, həm də əməkdaşların qiymətləndirilməsinin obyektiv aparılmasıdır. Kadrların düzgün qiymətləndirilməsi firma və şirkətlərin səmərəli fəaliyyətinin ilkin şərtlərindən biridir.

Heyətin idarə edilməsi strategiyasının işlənib hazırlanması və reallaşdırılması üçün təşkilatın heyətlə təmin edilməsi, əmək potensialının gücləndirilməsi və reallaşdırılması kimi funksional istiqamətlər üzrə işçi qruplar yaratmaq tövsiyə olunur. Qruplara təkcə kadr şöbəsinin deyil, həm də hər hansı məsələnin həlli üçün cəlb edilən digər şöbələrin heyəti daxil ola bilər. Bir və ya bir neçə qrupun işi layihə idarəetməsi prinsiplərinə əsasən təşkil edilir.

İşçi qrupların heyətindən seçilən qrup rəhbərlərinə heyətin idarə edilməsi sistemində strateji planlaşdırma ilə məşğul olan struktur yarımşöbələrin müdir müavini statusu verilir. Qrupların vəzifələrinə heyətin idarə edilməsi sisteminin fəaliyyət istiqamətlərilə bağlı cari vəziyyətin təhlili, verilənlərin informasiya bazasının formalaşdırılması, yarımşöbələrin strateji planlarının tərtib edilməsi, strategiyanın həyata keçirilməsinə nəzarət daxildir Heyətin idarə edilməsi sisteminin struktur yarımşöbəsinin rəhbəri starteji planlaşdırma vəzifələrinin yerinə yetirilməsinə görə heyətin idarə edilməsi sisteminin rəhbərliyi qarşısında bilavasitə məsuliyyət daşıyır. Heyətin strateji idarə edilməsi xidmətini idarəetmə mərkəzi şöbə formasında yaradılmaqla, əlaqələndirmə və strateji nəzarət bürolarından təşkil olunur.

Heyətin strateji idarə edilməsi istənilən müvəffəqiyyətli firmanın fəaliyyətinin ayrılmaz ünsürüdür. İnsan resursları strategiyasının işlənib hazırlanmasına və heyətin idarə edilməsi strategiyasının formalaşdırılmasına məsuliyyətlə yanaşmaq lazımdır, çünki bu strategiya müəssisənin ümumi uzunmüddətli planının davamıdır. Təkcə konkret vaxt hüdudlarında deyil, həm də uzunmüddətli perspektivdə heyətin fəaliyyətindən düzgün istifadə və bölgüsünün aparılması zəruridir.

Heyətin idarə olunması strategiyasının həyata keçirilməsinə rəhbərlik təşkilat rəhbərinin heyətlə iş üzrə müavininin öhdəsinə düşür. Lakin rəhbərin müavinini, heyətin idarə edilməsi sistemlərinin müvafiq yarımşöbələrinə rəhbərlik edən orta səviyyə rəhbərləri fəal şəkildə dəstəkləməli, əməkdaşlıq etməlidir. Burada məqsəd, sözügedən orta pillə rəhbərləri tərəfindən yerinə yetirilən funksiyalarda strateji dəyişiklikləri təmin etməkdən ibarətdir.

Bir qayda olaraq, heyətin idarə edilməsi strategiyasının reallaşdırılması prosesi təşkilatın iri istehsal yarımşöbələrindən tutmuş kiçik işçi, xidmətçi qruplarına, briqadalara qədər çox sayda struktur yarımşöbələrində çalışan işçiləri əhatə edir. Bu mənada bütün səviyyə rəhbərləri tabeçilikdəkilərlə bağlı səlahiyyət və məsuliyyət hədlərində strategiyanın icraçıları, heyətin idarə edilməsi şöbəsinin əməkdaşları isə bu prosesin iştirakçıları qismində çıxış edir.

Müasir menecment anlayışlarına əsasən, təşkilatda heyətin strateji idarəetməsi şirkətin rəqabət qabiliyyətli kadr ehtiyatının formalaşdırılmasının tənzimlənməsində təzahür edir. Bu zaman təşkilatın daxili və xarici mühit şəraitindəki mövcud və proqnozlaşdırılan dəyişkənliklər nəzərə alınır. Belə resursun mövcudluğu şirkətin sağ qalmaq bacarığının güclənməsinə, inkişafına və uzunmüddətli dövr üçün müəyyən edilmiş məqsədlərə müvəffəqiyyətlə nail olunmasına şərait yaradır.

Müasir təşkilatın strateji idarə edilməsi məsələsini nəzərdən keçirərkən şirkətin strateji idarə olunması termininin ümumi tərifini vermək lazım gəlir.

“Strateji idarəetmə” termini elmi ədəbiyyata ötən əsrin 2-ci yarısında daxil olmuşdur. Bu termin, şöbə, filial və xidmətlər səviyyəsində əməli menecmentlə yüksək səviyyəli menecment arasındakı fərqləri bildirmək məqsədilə işlədilmişdir.

20-ci əsrin sonunda idarəetmə praktiki işin bir növü olaraq yeni mərhələyə qədəm qoymuş, belə ki, yuxarı səviyyə rəhbərləri ətraf mühit amillərinə böyük diqqət yetirməyə başlamışlar. Belə yanaşma ətraf mühit dəyişkənliklərinə vaxtında reaksiya vermək və müvafiq tədbirlər görmək imkanı verir ki, bu da şirkət üçün rəqabət üstünlüklərinin yaradılmasına zəmin hazırlayır.

Strategiyanın mövcudluğu biznesdə rəhbərlərin qərarlarının uzunmüddətli maraqlarına uyğunluğunu təmin edir. Kadrların strateji idarə edilməsi özündə ətraf mühit dəyişikliklərinə çevik və operativ surətdə cavab verən və şirkətdə müvafiq tədbirlər tərtib edən kadr potensialına əsaslanan menecment sistemini ehtiva edir. Bu idarəetmə təşkilatın rəqabət qabiliyyətliliyini yüksəldir, müştərilərin tələbatlarına daha çox istiqamətlənməyə imkan verir və artan kəskin rəqabət şəraitində şirkətin sağ qalmaq bacarığına təkan verir.

Kadrların inkişaf strategiyasının məqsədi gələcəkdə əməkdaşlardan istifadə perspektivlərinin genişləndirilməsi istiqamətində şirkətin ümumi strategiyasının transformasiyasından ibarətdir. Sözügedən strategiya şirkətin daxili vəziyyətilə xarici mühitinin əlaqələndirilməsi, həmçinin kadr potensialının uzunmüddətli inkişafı məqsədilə işlənib hazırlanır. Müasir dövrdə təşkilatların kadr siyasətinin yönəldildiyi bir sıra məqsədləri ayırd edirlər.

Ən geniş mənada idarəetmə sabitləşmə və ya onun vəziyyətinin dəyişilməsi məqsədi qarşıya

qoyulan hədəfə nail olmaq üçün məqsədyönlü təsiri- təşkil edir. İdarəetməyə ehtiyac onun miqyasının artırılması, istehsalın ixtisaslaşma inkişafı ilə yaranır. O, istehsalatda çalışan bir çox insanların fəaliyyətini tənzimləmək və razılaşdırmağa imkan verir.

İdarəetmə – bu təşkilatın məhsul istehsal prosesində əmək kollektivlərinin və ayrı-ayrı işçilərin fəaliyyətinin təşkili və əlaqələndirilməsinə yönəldilmiş insanların xidməti əməyinin göstərilməsidir. O hər şeydən əvvəl insanların birgə fəaliyyətinin təşkili ilə bağlıdır. Həmçinin bu, insanların şəxsiyyət və müəssisə arasında münasibətlərin qurulması ilə razılaşdırılmış fəaliyyətin tənzimlənməsi ilə əlaqədardır.

İdarəetmənin hədəfi istehsalın arzu olunan və mümkün vəziyyətinin nailiyyəti üçün iş qüvvəsinin və məhdudlaşdırılmış resursların effektiv istifadəsi ilə nəticələnir.

İdarəetmə istehsal vəziyyəti haqqında biliklərin və məlumatların mövcudluğunu güman edir. O müəssisənin heyətinin davranışının informasiya proseslərinin və təsirlərin məcmusunu təşkil edir, hansı ki, icrasının nizamı müəyyən qaydalarla və təlimatlarla tənzimlənir. İnformasiyanın analizi əsasında qabaqcadan müəyyən vəziyyətə istehsalın köçürməsi haqqında idarəetmə qərarları müəyyən edilir.

Son vaxtlara qədər “heyətin idarəetməsi” anlayışı bizim idarəetmə təcrübəmizdə iştirak etmirdi. Müəssisənin işçi heyəti muzdla işləyən, keyfiyyət xarakteristikalarına və işə götürən əmək münasibətlərinə malik olan şəxsi heyətdir. Bildiyimiz kimi hər təşkilatın idarəetmə sistemləri kadrların idarə edilməsi funksional alt sisteminə malikdir və kollektivin sosial inkişafı üzrə iş həcminin çox hissəsini kadrların idarə edilməsi üzrə bölmənin xətti rəhbərləri yerinə yetirirlər. Kadr şöbəsi təşkilatda kadrların idarəetməsi üzrə əsas struktur bölmədir, hansı ki, işə qəbul və kadrların çıxardılması üzrə, həmçinin təlimin (təhsilin) təşkili üzrə funksiyaların yerinə yetirilməsi, ixtisasın artırılmaları və kadrların yenidən hazırlanması üzrə fəaliyyəti həyata keçirir.

Kadrlar şöbəsi struktur əməyin və əmək haqqının təşkilinin şöbələrindən, əməyin qorunmasının və texniki təhlükəsizliyi, hüquq şöbələrindən və başqa bölmələrdən ayırılmışdır, hansılar ki, kadrların idarəetməsi funksiyalarını yerinə yetirirlər. Təşkilatlarda sosial problemlərin həlli üçün sosial tədqiqatın və xidmətin aparılması mərkəzləri yaradılır. Heyətin idarə edilməsinin xidmətləri bir qayda olaraq, aşağı təşkilat statusuna malikdirlər, peşəkar yanaşmada zəifdirlər. Buna əsasən, onlar heyətin idarəetmə və onun işinin normal şəraitinin təminatı üzrə bir sıra məsələlər yerinə yetirmirlər[1].

Əgər bu məsələlər inzibati sistem şəklində komandadırsa, ikinci dərəcə kimi baxılır, lakin onlar bazara keçərkən ön planda olur və hər bir təşkilat onların həllində maraqlıdır.

Hal-hazırda işçinin şəxsiyyətinin artan rolu təşkilatda heyətin idarə edilməsi konsepsiyasının əsasını təşkil edir. İşçinin bacarığını, biliyini artan motivasiya ilə formalaşdırmaq və təşkilat qarşısında duran məsələlərə uyğun olaraq yönəltmək bu konsepsiyanın məzmununu təşkil edir.

Bizim ölkəmizdə iqtisadi və siyasi sistemlərdə dəyişikliklər, eyni zamanda böyük imkanlara gətirir, həm də hər bir şəxsiyyət üçün ciddi təhlükələr, onun mövcudluğunun sabitliyi, praktik olaraq hər insanın həyatına qeyri-müəyyənliyini əhəmiyyətli dərəcədə artırır. Belə vəziyyətdə heyətin idarəetməsi xüsusi əhəmiyyət kəsb edir, bir halda ki, təşkilatın personalı ilə idarəetmə sisteminin qurulmasında şəxsi amilin hesabı onu reallaşdırmağa, xarici şəraitə individin uyğunlaşması məsələlərinin tam spektrini ümumiləşdirməyə icazə verir. Təşkilatda insanlara təsir edən üç amili ayırmaq olar.

Birinci, təşkilatın iyerarxiya strukturudur ki, bu da hakimiyyətin münasibətidir — tabe etməyə, yuxarıdan təzyiq, məcburiyyətin köməyi ilə maddi nemətlərin bölgüsü üzərində nəzarət edir.

İkinci mədəniyyət, yəni cəmiyyətdə təşkilatdaxili bir qrupla birgə yaradılan dəyərləri, sosial normaları qaydaya salan şəxsiyyətin hərəkətlərini, davranışını, özünü başqa cür deyil, məcburiyyət olmadan olduğu kimi aparmağa məcbur edir.

Üçüncü - bazar - məhsulun və xidmətlərin alqı-satışına əsaslanan bərabər hüquqlu münasibətlərin şəbəkəsidir. Bu halqə özündə mülkiyyətin münasibətlərini, satıcının və alıcının maraqlarının tarazlığını birləşdirir.

Təsirin bu amilləri çox mürəkkəb anlayışlardır və təcrübədə nadir hallarda ayrılıqda reallaşırlar. Onlar prioritet kimi təşkilatda iqtisadi situasiyanın simasıdır.

Bazar iqtisadiyyatında iyerarxiya idarəetməsindən yavaş çəkilmə baş verir, inzibati təsirin

sərt sistemi, bazarlara praktik olaraq qeyri-məhdud icra hakimiyyətinə münasibət, iqtisadi metodlara əsaslanan mülkiyyət münasibətlərinə deformasiya edir. Buna görə də, hazırlanan dəyərlərin prioritetinə prinsipial olaraq yeni yanaşmalar lazımdır. Təşkilatın daxilində- işçilər və xaricində - məhsulun istehlakçıları əsas fiqurlardır. İstehlakçıya işləyən şüuru çevirmək lazımdır və bu o deməkdir ki, müdirə, gəlirə və bədxərcliyə, təşəbbüskara və qayğısız icraçıya münasibət əsas diqqət mərkəzindən kənarlaşmalıdır. Əxlaqı unutmadan ağıllı iqtisadi mənafeyə əsaslanan sosial normalara keçmək əsas hədəflərdən sayılmalıdır. Belə olan halda iyerarxiya mədəniyyətə və bazara yer verərək ikinci plana çəkiləcəkdir.

Müasir dövrdə təşkilatlarda heyətin idarə edilməsinin yeni xidmətləri yaradılır. Bunlar bir qayda olaraq, ənənəvi xidmətlər əsasında: kadr şöbəsi, mühasibatlıq, əməyin ölçülməsi, əməyin qorunması, texniki təhlükəsizliyin təşkili şöbələri və başqaları sayılır.Yeni xidmət məsələləri kadr siyasətinin reallaşdırılması ilə və təşkilatda əmək resurslarının idarəetməsi üzrə fəaliyyətin koordinasiyası ilə nəticələnir. Bununla əlaqədar olaraq onlar öz funksiyalarının dairəsini genişləndirməyə başlayırlar və təmiz kadr məsələlərindən əmək fəaliyyətinin stimullaşdırılması sistemlərinin hazırlanmasına keçirlər, həmçinin peşəkar irəliləyişi idarə etməyə, münaqişələrin qarşısının alınmasına, əmək resursları bazarının öyrənilməsinə və s. istiqamətlərə yönəlmiş fəaliyyətlərini həyata keçirirlər [5].

Heyətin idarə edilməsi konsepsiyası dedikdə heyətin idarə edilməsinin mahiyyətini, məzmununu, məqsədini, vəzifələrini, meyarlarını, prinsip və metodlarını dərk etməyə və müəyyənləşdirməyə, həmçinin konkret şəraitdə təşkilatın fəaliyyət göstərməsi mexanizminin formalaşmasına təşkilati-təcrübi yanaşmaya yönəlmiş nəzəri - metodoloji baxışlar sistemi nəzərdə tutulur. O, özündə heyətin idarə edilməsinin metodologiyasının işlənib hazırlanmasını, heyətin idarə edilməsi sisteminin formalaşdırılması və heyətin idarə edilməsi texnologiyasının işlənib hazırlanmasını birləşdirir.

İdarəetməyə iqtisadi yanaşma əmək resurslarından istifadənin konsepsiyasının başlanğıcını verir. Bu yanaşma çərçivəsində aparıcı yeri texnika və müəssisədə insanların idarəçilik hazırlığı tutur. Əslində təşkilat mexanizmi kimi insan və heyət bu mexanizmin müəyyən vinti kimi çıxış edir, hansı ki, işləməyə çox məcburdur.

İstənilən elmi nəzəriyyə öz inkişafını bir neçə mərhələdə göstərir. Şübhəsiz formalaşmanın sonrakı mərhələlərində formalaşmanın ilk mərhələsindən nəzəriyyə dolğun şəkildə dəyişir. Müasir idarəetmə nəzəriyyələri müəssisənin təşkilati inkişafı ilə baxsaq görərik ki, sonun rəsmiləşdirilməsinin prosesi aşkar bilinir. Elmi yanaşmaların müxtəlifliyi, məktəblər, istiqamətlər öz predmetiylə və alətlər dəstiylə təşkilati inkişafın idarəetməsi haqqında elmi biliklər sistemi üçün əsas yaradır, buna görə də, biz təşkilatı və onun inkişafını idarəetmə problemlərinin tədqiqatına kompleks yanaşmada nəzərə çarpdırmalıyıq.

Heyətin idarəetmə konsepsiyası nisbi müstəqilliyin olduğu şəraitdə "intizamın təşkil edilməsi" və öz aralarında qarşılıqlı təsir edən müxtəlif bilik sahələri daxilində inkişaf etdirilir.

Heyətin idarə edilməsinin metodologiyasında heyətinin mahiyyəti, təşkilatın fərdlərinin davranışı, idarəetmə obyekti kimi formalaşması üçün təşkilatın məqsəd və vəzifələrinə, metod və prinsipləri məsələlərinə uyğun olan individlərin davranışının formalaşmasının proseslərini öyrənir.

Heyətin idarə edilməsinin iki səviyyəsi arasında sıx qarşılıqlı əlaqə mövcuddur: bir tərəfdən, nəzəriyyə konkret analizin və planlaşdırmanın metodologiyası ilə çıxış edir, digəri - tətbiqi tədqiqatların məlumatları, fərziyyələrin qurulması və nəzəriyyənin inkişafı üçün sınaqları təşkil edir.

Heyətin idarəetməsinin kompleks, inteqrativlik xarakterini onun nüvəsini əks etdirən şəxsi, spesifik biliklər təşkil edir, onların müəssisəyə təsirini, seçməsini və işçilərin xarakteristikalarını təhlil edir, təşkilati vasitələrin iqtisadi və sosial effektivliyinin artırılması məqsədi ilə qurulmuş qarşılıqlı əlaqələrin praktik istifadəsini həyata keçirir.

Beləliklə, heyətin idarəetməsi müəssisədə bütün proseslərə təsir edən təzahürlərinin birliyində insanı öyrənir, onun potensialının effektiv istifadəsinə cəlb etməsi yollarını təhlil edir.

Hər bir insanın individual fərqləri əksər hallarda koqnitiv proseslərin xüsusiyyətlərinin nəticəsidir. Belə hesab edirlər ki, mövcud koqnitiv proseslərin sırasında (təxəyyül, qavrama, hətta təfəkkür) qavrama prosesi ən mühüm həlqələrdən biridir.

O, vəziyyətin anlaşılmasını və fərdin davranışını formalaşdırır. Ona görə də,qavrama bilavasitə təşkilati davranışın öyrənilməsi ilə əlaqədardır[2].

-Heyətin idarə edilməsində qavrama prosesinin anlaşılması üçün bilmək lazımdır ki, anlamada əsas məsələ - vəziyyətin unikal təsviridir, lakin dəqiq əksi deyil. Başqa sözlə desək, anlama kifayət qədər mürəkkəb proses olaraq, dünyanın unikal mənzərəsini formalaşdırır, lakin bu mənzərə reallıqdan xeyli uzaq ola bilər. Anlama prosesini - seçim, sistemləşdirmə və təfsir proseslərinin mürəkkəb qarşılıqlı əlaqəsi-kimi xarakterizə etmək mümkündür. Anlama əksər halda «çiy» məlumatların alınması mənbəyi olan hissiyyat orqanlarından asılı olsa da, idrak prosesi onları filtrləmək, modifikasiya etmək, hətta ilkin məlumatları tamamilə dəyişdirmək iqtidarındadır.

Heyətin idarə edilməsi metodları - kollektivə və ayrıca işçilərə onların təşkilatdakı fəaliyyətlərinin koordinasiyasının həyata keçirilməsi məqsədi ilə təsir üsullarıdır.

İdarəetmənin iqtisadi metodları istehsal münasibətlərinin, obyektiv iqtisadi qanunların , kateqoriyaların dərindən başa düşülməsi, onlardan geniş istifadə olunması və ümumxalq, kollektiv və şəxsi marağın vahid sisteminin təmin edilməsinə əsasən həyata keçirilir. Bu metodun köməyi ilə planlaşdırma, təsərrüfat hesabı, əmək haqqı, qiymət, kredit, mənfəət, maddi həvəsləndirmə və başqa mexanizmlər məqsədyönlü təsirə çevrilir.

Təsərrüfatın iqtisadi mexanizmi olan əmək haqqı, qiymət, kredit, mənfəət, maliyyələşmə, mükafatlandırma, iqtisadi metodun mexanizminə daxildir. Bu sistemə daxil olan iqtisadi vasitələrlə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində kollektiv və onun ayrı-ayrı üzvləri arasında maddi həvəs yaratmaq, istehsalın səmərəliliyini artırmaq imkanı əldə edilir. İqtisadi proseslərin planlaşdırılması təşkilatda iqtisadi idarəetmə metodlarının daxilində yer alır.

Real iqtisadiyyatın formalaşmasının ən başlıca struktur komponentlərindən sayılan xüsusi təşkilatların fəaliyyəti ilk növbədə sivilizasiyalı iqtisadiyyatın real sarsılmaz bazasıdır.

İqtisadiyyatın inkişafı dinamikdir, yəni o, daim hərəkətdədir. O, daxili və xarici amillərin təsiri nəticəsində daim dəyişikliyə məruz qalır. Öz vaxtında bu dəyişiklikləri məqsədəuyğun yoluna salmaq, dəyişən şəraitə uyğun olaraq sistemin strukturunda yenidənqurmanı həyata keçirmək işini təmin etmək, qaydaya salmaq heyətin idarəetməsinin vəzifəsidir. Bu isə, iqtisadi sistemi onun özünə xas olan obyektiv qanunauyğunluqlara və meyillərə uyğun hala gətirmək deməkdir [1].

İdarəetmə insanın fəaliyyət növü kimi çoxdan mövcuddur. Lakin cəmiyyətin inkişafının əvvəlki mərhələlərində idarəetmə prosesi sadə xarakter daşımışdır. Bu, təbii idi. Çünki natural təsərrüfatın iqtisadiyyatda hakim olduğu dövrdə elmi idarəetməyə o qədər ehtiyac yox idi. O mərhələlərdə idarəetmə aparatı sadə və primitiv idi.

Əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar olaraq çoxlu yeni sahələr, yarımsəhralar yarandı, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda əmək bölgüsü dərinləşdi. Əlaqələr son dərəcə mürəkkəbləşdi. Buna görə də, çoxlu və mürəkkəb əlaqələri nizamlamaq, sistemli idarə etmək zərurəti yarandı.

Müasir idarəetmə iqtisadi münasibətlərin məqsədəuyğun təşkil edilməsini istiqamətləndirir və elmi idarə etməyə əsaslanır. O, tamın ayrı-ayrı hissələri arasındakı əlaqəni təmin edən bir proses, milli və şəxsi mənafelərin əlaqələndirilməsini həyata keçirən mexanizmdir.

Müasir dövrdə ölkəmizdə idarəetmə yüksək şüurlu münasibətə əsaslanır. Bu isə elmə söykənir. Buna görə də, elmlik idarəetmənin prinsiplərindən biridir. Bunların hər ikisi bir- biri ilə əlaqədardır. Biri digəri olmadan mümkün deyil. Şüurlu idarəetmə təbiət və cəmiyyətin obyektiv qanunlarının tələblərini və reallığı nəzərə almağı tələb edir. Bu, istehsalda insanın fəallığının azad iqtisadi təşəbbüsünü təmin etməlidir, maddi və əmək ehtiyatlarını istehsalın inkişafına istiqamətləndirməlidir. Bazar iqtisadiyyatı istiqamətində inkişaf edən ölkələrdə buna əsasən əməl olunsa da, inzibati-amirlik sistemində mümkün olmur [6].

İctimai münasibətlərdə insanın fəallığını artırmadan, heç yerdə sosial qayda və tənzimetməni həyata keçirmək mümkün deyildir. Elmi idarəetmənin qarşısında duran bir vəzifə də ictimai inkişafda baş verən və baş verə biləcək ziddiyyətləri üzə çıxarmaq və vaxtında aradan qaldırmaqdır. Çünki iqtisadi inkişafın gedişinə mane olan obyektiv və subyektiv amilləri vaxtında aşkara çıxarıb aradan qaldırmadan elmi idarəetməni həyata keçirmək mümkün deyil.

İqtisadi siyasətdə realizm və elmlilik başlıca şərtdir. Burada realizm o deməkdir ki, məhsuldar qüvvələrin fasiləsiz, dinamik inkişafını iqtisadi

sistem təmin edə bilsin, o, işləyən və işlədən sistem kimi həyatda özünü doğrultsun.

Elmilik obyektiv imkanları nəzərə almağı tələb edir. Ona görə də, elmi idarəetmə cəmiyyətin qanunlarından, insan və maddi-texniki amillərdən səmərəli şəkildə istifadə etməyi tələb edir.

İdarəetmədə ən başlıca məqsəd və vəzifə cəmiyyətin obyektiv imkanlarından istifadə olunmasını təmin etməkdir, cəmiyyətin potensialından istifadə etmənin mühüm amilidir. İdarəetmə həm də insanların əmək fəaliyyətinin təşkil edilməsi və səfərbərliyə alınmasının başlıca formasıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Heyətin idarə edilməsi”. T. Y.Bazarov, B.L. Yereminin redaktorluğu ilə yenilənmiş II nəşr, (tərcümə). Bakı, 2012.
2. “İnsan resurslarının idarə edilməsi” (dərslik), M.Əliyev, H.Həmidov, Bakı, 2013
3. Məhəmməd Əliyev, Həmid Həmidov. “Biznesdə İnsan Resurslarinin İdarə Edilməsi”. Dərslik, Bakı, 2015.
4. A.H.Tağıyev, S.A.Fərzəliyev. “Biznesin təşkili və idarə edilməsi”. Sumqayıt, 2007.
5. Biznes və menecmentin əsasları, ANAR Bayramov, Bakı 2011
6. M.Axundov. “Strateji idarəetmə”., 2001
7. M.C. Atakişiyev, H.M. Abbasov, N.H. Abbasova. “Mikro və makroiqtisadiyyat” (dərslik), Bakı, 2010.

**Фазиль Каримов, к. э.н., досент**
**Джафарова Халида Рашид кызы**
Азербайджанский Технологический Университет

**Багиров Артургут Шикар оглу**
Азербайджанский Технологический Университет

# ОРГАНИЗАЦИОННО ЭФФЕКТИВНАЯ КАДРОВАЯ ПОЛИТИКА В СИСТЕМЕ УПРАВЛЕНИЯ ПЕРСОНАЛОМ

**Резюме**

Управление персоналом – молодая профессия. Как вид управленческой деятельности она появилась в начале прошлого века. Появление в работе с кадрами специалистов с подготовкой в области промышленной социологии и психологии явилось проявлением настоящей революции в традиционной кадровой работе. Если такая кадровая работа была связана с функцией линейных руководителей различных уровней и рангов, а также работников кадровой службы (и руководителей), занимающихся учетно-контрольной и организационной (управленческой) деятельностью, то управленческая (штатная) функция связана с обеспечением необходимой уровень кадрового потенциала организации значительно расширил круг вопросов и повысил значимость этого направления управления. Управление персоналом, которое постепенно интегрирует и трансформирует налаженную кадровую работу, связано с управлением персоналом как специализированной кадровой деятельностью в современной системе управления. Важным этапом этого процесса стало усвоение идей системного подхода, организации различных моделей в виде системы (не только функциональной, но и развивающей), благодаря чему появился новый подход в управлении персоналом - управление человеческими ресурсами.

**Ключевые слова:** управление персоналом, стратегия, вознаграждение, сотрудники.

**Fazil Karimov, PhD in Economics**
**Jafarova Khalida Rashid**
Azerbaijan Technological University

**Bagirov Arturgut Shikar**
Azerbaijan Technological University

# ORGANIZATIONAL EFFECTIVE PERSONNEL POLICY IN PERSONNEL MANAGEMENT SYSTEM

**Summary**

Personnel management is a young profession. As a type of managerial activity, it appeared at the beginning of the last century. The appearance of specialists with training in the field of industrial sociology and psychology in work with the staff was a manifestation of a real revolution in traditional personnel work. If such personnel work was related to the function of line managers of various levels and ranks, as well as personnel service employees (and managers) engaged in accounting, control and organizational (administrative) activities, management (staffing) function related to ensuring the necessary level of personnel potential of the organization significantly expanded the range of issues and increased the importance of this direction of management. Personnel management, which gradually integrates and transforms the established personnel work, is related to the management of personnel as a specialized staff activity in the modern management system. An important stage of this process was the assimilation of the ideas of a systematic approach, the organization of various models in the form of a system (not only functional, but also developing), so that a new approach in personnel management - human resources management - was formed.

**Keywords:** personnel management, strategy, remuneration, employees

**Minurə Hacı qızı KƏRİMOVA, i.f.d.**

**Xalidə Rəşid qızı CƏFƏROVA**
**Azərbaycan Texnologiya Universitetinin magistrantı**

**Xəyalə Aytəkin qızı ƏLİYEVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: mina34mk@mail.ru

# REGİONLARDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFININ MƏŞĞULLUQ SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNDƏ ROLU

**Xülasə**

Digər postsosialist ölkələri kimi Azərbaycan Respublikası da iqtisadi islahatlar həyata keçirərək müasir bazar iqtisadiyyatı sisteminə daxil olmuşdur. Bununla əlaqədar olaraq iqtisadiyyatın liberallaşdırılması, mülkiyyətin özəlləşdirilməsi, kiçik və orta biznesin inkişafı, bazar infrastrukturunun formalaşdırılması, rəqabətin dəstəklənməsi və inkişafı, daxili və xarici bazarın tələbatına müvafiq məhsul istehsalının inkişafı istiqamətində, iqtisadiyyatın strukturunun qurulması sahəsində xeyli işlər görülmüş və görülməkdədir.

Azərbaycan Respublikasında səmərəli milli iqtisadiyyatın yaradılması ölkədə sahibkarlıq sektorunun inkişafını tələb edir. Bu sektor daxili bazarı keyfiyyətli məhsul və xidmətlərlə təmin edir, respublikanın ixracat potensialını artırır, əhalinin məşğulluq səviyyəsini yüksəldir, dövlət büdcəsinin formalaşmasında mühüm yer tutur, milli iqtisadiyyatda rəqabəti gücləndirməklə onun səmərəliliyinə təsir göstərir.

**Açar sözlər:** kiçik, orta sahibkarlıq, maliyyə, kapital, region, mənfəət.

**UOT: 332**
**JEL: R00**

**Giriş**

Cəmiyyətin iqtisadi fəallığı onun inkişaf istiqamətini müəyyən edən ən vacib amillərdən biridir. Buna görə də, hər bir cəmiyyət iqtisadi sistemin səmərəliliyi, iqtisadi fəallığa nail olmaq üçün müxtəlif xarakterli qərarlar qəbul etmiş, çoxsahəli və bir -birindən fərqli fəaliyyətlərlə məşğul olmuşlar. Cəmiyyətin inkişafına iqtisadi tərəfdən müsbət təsir göstərən fəaliyyət sahələrindən biri və ən əsası sahibkarlıq fəaliyyətidir.

Sahibkarlıq fəaliyyətinin hüquqi anlayışı 1992-ci il 15 dekabr tarixli "Sahibkarlıq fəaliyyəti haqqında Qanunda" göstərilmişdir. Həmin qanunda qeyd edilmişdir ki, "Sahibkarlıq-fiziki şəxslərin, onların birliklərinin, hüquqi şəxslərin şəxsi gəlir və ya mənfəət əldə olunması məqsədilə, yaxud da başqa fiziki və ya hüquqi şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən xidmətlər göstərilməsi, məhsul satışı və istehsalı formasında həyata keçirdikləri sərbəst təşəbbüskarlıq fəaliyyətidir".

Sahibkarlıq insan fəaliyyətinin formalarından biridir, onun aktivliyinin təzahürüdür, müəyyən bir davranışıdır. Hər hansı bir sahibkarlıq fəaliyyəti iqtisadi fəaliyyətdir və istehsal, bölgü, mübadilə və istehlak da daxil olmaqla maddi və mənəvi nemətlər yaradılması prosesidir. Bu prosesdə mübadilə mərhələsinin rolu xüsusi əhəmiyyət kəsb edir və bazar iqtisadiyyatında onun rolu əhəmiyyətli dərəcədə artmışdır. Mübadilənin məqsədi istehsalçıların və istehlakçıların fəaliyyətini həm əlaqələndirmək, həm də stimullaşdırmaqdır.

**Əsas mətn**

Sahibkarlıq fəaliyyəti iqtisadi təsərrüfat fəaliyyəti olaraq sahibkarlıq riskləri, idarəetməyə yeni yanaşmalar, innovativlik, elmi nailiyyətlərin istifadəsi, dinamik qeyri-müəyyənlik ilə bağlı olan və həmişə sistemli mənfəət əldə etməyə yönəldilir.

Sahibkarlıq iqtisadi fəaliyyətin istiqamətlərindən biridir və onun xüsusiyyətlərindən biri mənfəətdir, lakin on minlərlə təsərrüfat subyekti mənfəət üçün deyil, sosial problemləri həll etmək üçün yaradılır və fəaliyyət göstərir.

Sahibkarlıq obyekti kimi əmtəələr istehsalı, onların satışı və ya göstərilən xidmətlər formasında həyata keçirilən iqtisadi fəaliyyət başa düşülür.

Sahibkarlıq fəaliyyətinin mühitini qeyd etdikdə onun iqtisadi sərbəstlik dərəcəsi, sahibkarlar ordusunun mövcudluğu, iqtisadi əlaqələrin bazar tiplərinin çoxluğu, sahibkarlıq kapitalının formalaşmasının və zəruri ehtiyatların istifadəsininin mümkünlüyünü birləşdirən ictimai-iqtisadi şəraitdir.

Azərbaycan Respublikasının "Sahibkarlıq fəaliyyəti haqqında qanun"unda göstərilmişdir: "Sahibkarlıq fəaliyyətinin və mülkiyyətçi ilə münasibətlərin xarakterindən asılı olaraq sahibkarlıq fəaliyyəti ilə həm mülkiyyətçinin özü, həm də onun müəyyən etdiyi səlahiyyətlər daxilində təsərrüfatın başçısı hüququ əsasında mülkiyyətçinin əmlakını idarə edən subyekt məşğul ola bilər" [2].

Dövlət müəssisələri xüsusi bölmənin öz kapitalını yönəltmək istəmədiyi və ya yönəldə bilmədiyi sahələrdə sahibkarlıq fəaliyyəti həyata keçirirlər.

Fərdi (ailə) müəssisə vətəndaş mülkiyyətində və ya onun ailə üzvlərinin ümumi pay mülkiyyətində olan müəssisədir. Mülkiyyətçi müəssisənin öhdəliklərinə öz əmlakı ilə qanunvericilikdə nəzərdə tutulan qaydada məsuliyyət daşıyır. Fərdi müəssisənin bir neçə üstünlükləri vardır. Məsələn , işə başlamaq və onun fəaliyyətinə son qoymaq asandır. Burada sahibkar heç kəslə məsləhətləşmək, heç kəsdən icazə almaq ( dövlətdən başqa) məcburiyyətində deyil. Ancaq dövlətdən lisenziya ( icazə) alıb işə başlayır, gəlirlərini heç kəslə bölüşmür, buna görə də, sahibkar işin nəticəsinə son dərəcə maraqlıdır. Öz müəssisəsini öz gələcək nəslinə miras kimi saxlaya bilər, iş vaxtını sərbəst təyin edə bilər və s.

Sahibkarlıq fəaliyyəti öz miqyasına görə kiçik, orta və iri sahibkarlığa bölünür. Hər bir bazar iqtisadiyyatı ölkəsində dövlət müxtəlif imtiyazlar və güzəştlər sistemi tətbiq edir. Bu imtiyazlar və güzəştlər sistemi əhalini xüsusilə də maddi imkanları məhdud olan hissəsinin sahibkarlıq fəaliyyətinə cəlb olunmasına stimul yaratmaq məqsədi daşıyır. İşsizliyin və yoxsuluğun aradan qaldırılması, özünəməşğulluq fəalliyyətinin təşkili üçün əsas konsepsiyalardan biri kimi dəyərləndirilir.

Regionda və dünyada iqtisadi sahədə gedən proseslər kiçik və orta sahibkarlıq subyektlərinin sahibkarlıq subyektləri ilə kooperasiyasının dərinləşdirilməsini və dövlət dəstəyinin artırılmasını bir daha önə çəkir. Belə ki, iqtisadiyyatın şaxələndirilməsi məqsədilə kiçik və orta sahibkarlıq subyektlərinin potensialının tam gerçəkləşdirilməsi üçün bu sahədə bir sıra dəyişikliklərin edilməsi zərurəti vardır. Qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində müəyyən qədər irəliləyişlər olsa da, hələ də bəzi təkmilləşdirmələr edilməlidir. Belə ki, özəl kredit bürosu, daşınar əmlakın yüklülüyü reyestri və təminatlı əqdlərin tənzimlənməsi kimi məsələlər üzrə qanunvericilik bazası təkmilləşdirilməlidir. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı kifayət qədər ciddi məsələdir. Bunun üçün makroiqtisadi siyasətdən başlayaraq, Azərbaycan vətəndaşlarının, xüsusilə də sahibkarların və əlaqəli dövlət məmurlarının məsələyə baxış tərzinə qədər bir çox işləri özündə ehtiva edən və aydın hədəflərə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi tələb olunur. Buna görə də, kiçik və orta sahibkarlığın inkişafına dəstək verən institusional dəyişikliklərin həyata keçirilməsi və onların inkişafı üçün əlverişli şəraitin yaradılması strateji əhəmiyyət kəsb edir.

İqtisadiyyatda rəqabət mühitinin daha da gücləndirilməsi iqtisadi effektivliyin əsas amilə çevrilməsinə şərait yaradacaqdır ki, bu da bəzi iş və xidmətlərin iri sahibkarlardan kiçik və orta sahibkarlıq subyektlərinə ötürülməsini labüd edəcəkdir.

Kiçik və orta müəssisələrdə mütəmadi olaraq, sahibkarlar ilk bazara addım atdığı zaman biznesin kiçik fomasının tərəqqisinə öz töhfəsini vermiş olur. Nəticədə belə müəssisələrin bazar mühitində var olması ən azından müəssisələrarası rəqabətin daha da inkişaf etməyinə gətirib çıxarır və yaxud tərsinə kiçik biznesdə rəqabət yoxdursa, sahibkarların bazara daxil olması mürəkkəb olur. Dünyanın qloballaşan iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin tərəqqisi əhalinin yaşayış səviyyəsinin yüksəlməsinin, onun maddi rifahının yaxşılaşmasının mühüm amillərindən biri sayılır.

Kiçik və orta sahibkarlığın təşkilati-idarəetmə sistemi iri sahibkarlar ilə müqayisədə xeyli fərqlənir. Beləliklə, kiçik və orta sahibkarlığın təşkili prinsiplərinə daxil edilir: azad seçim, səmərəlilik, iqtisadi müstəqillik, qanunauyğunluq, öz xərcini ödəmək, özünənəzarət, özünüidarəetmə, rəqabətədavamlığın təmin edilməsi, ixtisaslaşma, kooperasiya və inteqrasiya olunma [3].

Sahibkarlığın inkişaf problemlərinin həlli yollarının araşdırılması aktual olduğu qədər də çoxcəhətli elmi baxımdan yeni təfəkkür və dünya təcrübəsinin dərindən öyrənilməsini tələb edən

kompleks bir işdir. Sahibkarlıq fəaliyyətinin əmələ gəlməsi və inkişafı, bu istiqamətdə xidmət göstərmək istəyən hər bir şəxsin, yaxud sahibkarın bu fəaliyyət növü ilə bağlı biznes ideasının, başlanğıc kapitalının, göstərilən sahibkarlıq fəaliyyətinin hansı formada olmağına uyğun olaraq istehsal avadanlığının və texnologiyasının, istifadə olunan xammal və materialının, eləcə də, buna uyğun kadr ehtiyyatının mövcud olmasını tələb edir. Sahibkarlıq düşüncəsinin yaranması və inkişaf etdirilməsinə ölkədə fəaliyyətini davam etdirən maləmtəə bazarlarının quruluşu, həcmi, əlavə olaraq, istehsal olunan əmtəə və göstərilən xidmətlərə olan tələbin və həmin tələblərin effetiv qarşılanabilmə səviyyəsi, bazarlarda mövcud olan potensial müştərilərin alıcılıq qabiliyyəti, habelə, elmi yeniliklərin və texnologiyanın yeni nailiyyətləri müsbət mənada təsir göstərir. Sahibkar həmin amilləri diqqətə alır, bir sıra təhlillər aparandan sonra mümkün sayılan maliyyə resurslarını analiz edir və nəticə olaraq, öz sahibkarlıq fəaliyyəti üçün konkret növü seçir.

Kiçik və orta müəssisə sahibkarları fəaliyyətə başlarkən bəzi problemlərlə üzləşirlər. Bu problemlər arasında təcrübənin azlığı, inzibati idarəetmə prosesində çətinlik, daxilində olduqları bazar haqqında tam dolğun məlumata malik olmamaq məsələləri ilə bərabər ən önəmlisi, onların maliyyə ehtiyatlarına asanlıqla yetişə bilməməsidir. Sahibkarlığın maliyyə çətinliklərini bir neçə amil təsnifatlaşdırır:

Kiçik və orta müəssisələrdə mütəmadi olaraq, sahibkarlar ilk bazara addım atdığı zaman biznesin kiçik fomasının tərəqqisinə öz töhfəsini vermiş olur. Nəticədə belə müəssisələrin bazar mühitində var olması ən azından müəssisələrarası rəqabətin daha da inkişaf etməyinə gətirib çıxarır və yaxud tərsinə kiçik biznesdə rəqabət yoxdursa, sahibkarların bazara daxil olması mürəkkəb olur. Dünyanın qloballaşan iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin tərəqqisi əhalinin yaşayış səviyyəsinin yüksəlməsinin, onun maddi rifahının yaxşılaşmasının mühüm amillərindən biri sayılır.

Özəl sektorun bir sahəsi kimi sahibkarlığın inkişafının stimullaşdırılmasının müxtəlif vasitələri var. Bunların sırasında əlverişli vergi siyasətinin yürüdülməsini, bank-kredit siyasətini, maliyyə mənbələrinin formalaşdırılmasını, dövlət yardımı sisteminin təşəkkülünü, qanunvericilik bazasının təkmilləşdirilməsini, özəlləşdirilmənin səmərəli aparılmasını, infrastruktur problemlərinin həllini və s. göstərmək olar. Dövlət sahibkarlığın inkişafı üçün hər şeydən əvvəl əlverişli investisiya mühiti formalaşdırmalıdır. Müsbət haldır ki, dövlət büdcəsinin hesabına maliyyələşdirilən İqtisadiyyat Nazirliyi nəzdində yaradılan Sahibkarlığın İnkişaf Fondu vasitəsi ilə hər il sahibkarların layihələrinə güzəştli şərtlərlə kredit ayrılır ki, bu da sahibkarlığa dövlət dəstəyinin ən səmərəli formalarından biridir.

Banklar kredit verərkən əsas tələblərdən biri, kredit alan şəxsin maliyyə durumudur. Borcalanın dəyişməz maliyyə durumunun olması və yaxud alınmış kredit ödənişini təmin emək üçün müəyyən qədər likvid aktivlərə sahib olması əsas meyarlardan biridir. Sevris sahəsində işləyən sahibkarlar bu məsələ ilə bağlı tez-tez bir sıra çətinliklərə rast gəlirlər ki, bunun nəticəsində onların maliyyə mənbələrinə çatmalarında problem yaranır. Banklar tərəfindən borc məbləğlərinin təmin edilməsi kredit verilməsinin vacib şərtləri əsasında təşkil edilir. Bu şərtlərə aşağıdakılar aiddir: müddətlilik, qeyri bərabərlilik, təminat, haqqın geri ödənilməsi şərtləri. Tələb edilən bu şərtlər banka kredit əldə etmək məqsədilə müraciət edən şəxslərə maddi vəziyyətindən, sosial mövqeyindən, yaşından, ailə durumundan və s. asılı olaraq aid edilir. Servis sahəsində işləyən sahibkarların kredit alması anında, həmin insanların maddi durumunun problem yaşatması ilə bərabər, eyni zamanda, biznesdə, təcrübə qıtlığının olmaları da onlara kreditin təmin edilməsinə təsir edən meyarlardandır. Bundan başqa servis sahəsində işləyən sahibkarlarda müəyyən problemlərin olması kredit ödəniş şərtlərinə təsir edir ki, bu kreditin riskliliyini çoxaldır. Bu vaxt banklar tərəfindən kreditləşmə şərtlərində və faiz tariflərində belə borc alanlara qarşı daha ciddi tələblər qoyulur[5].

Maliyyə resurslarının dövlət tərəfindən təmin olunması zamanı xüsusilə, dövlətə aid banklar və təşkilatlar tərəfindən aşağı faizlə uzunmüddətli dövr üçün pul vəsaitlərinin verilməsi nəzərdə tutulur. Sahibkarların gəlir qazanarkən bu və yaxud başqa səviyyədə əldə etdiyi gəlirin rəsmiləşdirilməsinin olmaması, dövlətə vergidən yayınma halı kimi də əks oluna bilər ki, belə vəziyyət də sahibkarlıq işləri ilə biznes qurmaq istəyənlərin maliyyələşdirilməsi məsələsində problem yaradan situasiyalardan biri kimi qiymətləndirilir. Maliyyə təminatının dövlət tərəfindən təqdim olunması xüsusilə, rəsmi sənədlərin doğruluğundan müraciətlərin və onlarla bağlı durumların ölkə və

cəmiyyət üçün səmərəsi ilə sıx əlaqədardır. Maliyyə ehtiyatlarının banklar və o biri kredit qurumları tərəfindən təmin olunması özü əsas prosesdir. Nəticədə, kredit qurumları onu təmin edərək əsasən bir sıra amilləri vacib hesab edirlər. Bu ünsürlər arasında maliyyələşdirilən obyektiv fəaliyyət vaxtı obyekti işlədən şəxsin yaşı, iş praktikası, o cümlədən müəssisənin mənfəət gətirmə qabiliyyətinin olması və digər ünsürlər təməl şərtlərdən biri hesab edilir [8] .

Bu meyarlardan müəyyən biri bankın və başqa kredit qurumunun prinsiplərinə uyğun gəlməzsə, onlar daha güclü zəmanətlər və zaminlər tələb edir. Kredit təşkilatı üçün birinci halda müştərilərin mötəbərliyi, ikinci halda isə ona etibarlı zamin duran şəxsin olması şərtdir.

Kiçik və orta sahibkarlığın təşkilati-idarəetmə sistemi iri sahibkarlar ilə müqayisədə xeyli fərqlənir. Beləliklə, kiçik və orta sahibkarlığın təşkili prinsiplərinə daxil edilir: azad seçim, səmərəlilik, iqtisadi müstəqillik, qanunauyğunluq, öz xərcini ödəmək, özünənəzarət, özünüidarəetmə, rəqabətədavamlığın təmin edilməsi, ixtisaslaşma, kooperasiya və inteqrasiya olunma.

Sahibkarlıq müəssisələrində maliyyə resurslarına tələbatların ödənilməsi və fondların formalaşmasının mənbəyi qismində çıxış edən ehtiyatlar, pul vəsaitləri, qiymətlilər, daxilolmalar və s. kimi baxılır.

Maliyyə resursları mürəkkəb iqtisadi kateqoriyadır, maliyyə pul vasitəsi ilə ifadə edildiyinə görə maliyyə resursları da maddi, əmək, təbii və başqa resurslardan fərqli olaraq yalnız pul formasında olan resurslar başa düşülür.

İqtisadi kateqoriya kimi maliyyə ÜDM (ümumi daxili məhsul) ilə milli gəlirin bölgüsü və təzədən bölgüsü prosesində pul fondlarının yaradılması və istifadəsi ilə bağlı yaranan iqtisadi münasibətləri ifadə edir. Maliyyə kateqoriyası bir sıra xarakterik əlamətlərə malikdir. Bu əlamətlərin ilkin və əsası maliyyə münasibətlərinin pul formasında olmasıdır. Yəni maliyyə münasibətləri cəmiyyətdə yaranan pul münasibətlərinin tərkib hissəsi kimi özünü pul vəsaitlərinin hərəkəti vasitəsilə büruzə verir.

Maliyyə münasibətlərinin digər xarakterik əlaməti onun bölgü kateqoriyasına aid olmasıdır. Bu xüsusiyyət özünü milli gəlirin bölgüsü prosesində təzahür etdirir. Belə ki, milli gəlir və yaxud da yeni yaradılan dəyərin bölgüsü maliyyə vasitəsilə həyata keçirilir və bu proses yeni tərkib hissələrinə ayrılır. Nəticədə, bu yeni dəyərin yaradılmasında iştirak edən ayrı-ayrı vətəndaşların, müəssisə ilə təşkilatların pul gəlirləri, yığımları yaradılır. Bu da öz ifadəsini maliyyə resursları anlayışında tapır. Maliyyə resursları maliyyə münasibətlərinin mühüm xüsusiyyətlərinin konkret ifadəsi forması kimi çıxış edir. Ümumiyyətlə, maliyyə resursları ÜDM-in, milli gəlirin bölgüsü, yenidən bölgüsü prosesində yaranan və təsərrüfat subyektlərinin, ayrı-ayrı vətəndaşların, dövlətin sərəncamında olan pul gəlirləri və yığımlarının və ya başqa cür deyilsə, pul vəsaitləri fondlarının məcmusudur.

ÜDM dövlət və bələdiyyə maliyyə resurslarının əsas mənbəyidir. Lakin, iqtisadi böhran və ya fövqəladə hallar baş verdikdə dövlət və bələdiyyə maliyyə resusrları mənbəyi kimi əvvəllərdə yığılmış milli sərvət çıxış edə bilər.

Müəssisənin maliyyə resursları əmələ gəlmə mənbəyi ilə mənşəyinə əsasən xüsusi və cəlb olunmuş (borc) vəsaitlərə bölünürlər. Müəssisələr ayrı-ayrı mülkiyyət ilə təşkilati-hüquqi formalarda olduqlarından onların xüsusi vəsaitlərinin əmələ gəlmə mənbələri də yüksək şəkildə fərqlənir.

Müəssisə yaradılan vaxt onun Nizamnamə kapitalına qoyulmuş pul vəsaitləri maddi və qeyri-maddi aktivlər şəklində ola bilər. Aktivlər pay formasında nizamnamə kapitalına verilərkən, onların üzərindəki əmlak hüququ təsərrüfat subyektinə keçir, bu payı verən investorlar onların üzərindəki əmlak hüquqlarını itirir. Firma ləğv olunduqda və ya iştirakçı ortaqlığın ya da cəmiyyətin tərkibindən çıxarkən, o, müəssisənin qalıq əmlakının təkcə onun payına uyğun hissəsinə iddia etməsi mümkündür. Nizamnamə kapitalı hüquqi cəhətdən müəssisənin inverstorlar qarşısında məsuliyyət həddini əks etdirir.

Nizamnamə kapitalının böyüklüyü (məbləği) müəssisə dövlət qeydiyyatına alındıqda elan edilir. Onun həcminin artırılmağı (azaldılmağı) təkcə qanunvericiliklə aşkar edilmiş və təsis sənədlərində göstərilən qaydalarda gerçəkləşdirilir[1].

İstehsala investisiya olunmuş ilkin kapital istifadə edildikcə reallaşdırılan məhsulun dəyərində öz əksini tapan dəyər yaradır. Məhsul reallaşdırıldıqdan sonra o, pul formasını alır. Satışdan sonra əldə edilən məbləğ məhsul istehsalına çəkilən xərclərin ödənilməsi ilə, müəssisədə pul fondları ilə maliyyə ehtiyyatlarının yaradılması üçün mənbə sayılsa da, gəlir sayılmır. Belə ki, mədaxil istifadə mərhələsində keyfiyyət yönümündən ayrı-

ayrı tərkib hissələrinə bölünür. Mədaxilin istifadə istiqamətlərindən biri amortizasiya fondunun formalaşdırılmasıdır.

Müəssisənin mənfəəti inkişaf edən müəssisənin əsas vəsait mənbəyi hesab edilir. Büdcəyə vergilər ilə başqa ödənişlər həyata keçirdikdən sonra xalis mənfəət təşkilatın sərəncamında qalmaqdadır. Mənfəətin ayrılması və ondan istifadə yollarının müəyyən olunması zamanı əsasən rəqabət şəraitinin vəziyyəti nəzərə alınmalıdır. Buna müvafiq olaraq, mənfəətdən istehsalın inkişaf fondlarına ayırmaların miqyası aşkar olunur. Həmin fondun vəsaitlərindən kapital qoyuluşlarının maliyyələşməsinə dövriyyə vəsaitlərinin artırılması, elmi-tədqiqat fəaliyyətinin təmin olunması, yəni texnologiyaların tətbiq edilməsi əməyin mütərəqqi üsullarına keçilməsi və s. məqsədlə istifadə olunur.

İstehlak fondu-işçilərin sosial ehtiyaclarının ödənilməyinin və maddi həvəsləndirmənin maliyyələşdirilməsi üçün sərf edilir. Buraya istehsal göstəriciləri ilə bağlı olmayan mükafatların verilməsi (yubiley, çoxillik əmək və s.), maddi yardımın edilməsi  və s. daxildir.

Firmaların hər biri üçün təşkilati-hüquqi formasına görə onun sərəncamında qalan mənfəətin bölüşdürülməsinin qanuna uyğun mexanizmi müəyyən olunmuşdur. Hər bir firmada bölüşdürmə obyekti müəssisənin balans mənfəəti sayılır. Mənfəətin bölüşdürülməsi dedikdə, onun büdcəyə istiqamətləndirilməsi ilə müəssisədə istifadənin maddələr üzrə paylaşdırılması başa düşülür. Mənfəətin vergilər şəklində ayrı-ayrı büdcələrə daxil olmuş və başqa məcburi tədiyələrin ödənilməsinə istiqamətlənən hissəsinin bölüşdürülməsi qanunla tənzimlənir.

Amortizasiya ayrılmaları mənfəət müəssəsinin xüsusi maliyyə resursları hesab edilir.

Formalaşma mənbəyinə görə maliyyə resursları xüsusi (daxili) və müxtəlif şərtlərlə (xarici) cəlb edilmiş resurslara bölünür. Xüsusi maliyyə resurslarının vacib hissəsini təşkilatın sərəncamında qalan və idarəetmə orqanı tərəfindən bölünən mənfəət təşkil edir. Ölkə iqtisadiyyatı inkişaf etdikcə, müəssisə və təşkilatların mənfəəti də durmadan artır.

Əhəmiyyətinə görə xüsusi maliyyə resurslarının tərkibində amortizasiya ayırmaları mühüm əhəmiyyət kəsb edir. Amortizasiya ayırmaları əsas istehsal fondları ilə qeyri material aktivlərinin köhnəlməyinin pul ilə ifadə edilməsidir. Onlar ikili xarakter daşıyır, bir tərəfdən məhsulun maya dəyərinə daxil edilir, digər tərəfdən isə məhsul satışından daxilolmalara aid edilir və müəssisənin hesablaşma hesabına daxil olur. Bununla da həm sadə təkrar istehsalın, həm də geniş təkrar istehsalın maliyyələşdirilməsinin daxili mənbəyi yaranır. Toplanmış amortizasiya ayırmaları amortizasiya fondunu əmələ gətirir və bu da köhnəlmiş fondların təkrar istehsalı məqsədilə istifadə edilir.

Maliyyə resurslarının cəlb olunmuş və yaxud xarici mənbəyini iki yerə - xüsusi və cəlb edilmiş resurslara bölmək olar ki, bu da yenidən bölgü qaydasında büdcə təsisatı formasında daxil olar. Bu bölgü kapitalın qoyuluçu forması ilə şərtlənməkdədir.

Sahibkar kapital-mənfəət götürmək və ya təşkilatın idarə olunmasında iştirak etmək məqsədilə digər təşkilatın nizamnamə kapitalına qoyulmuş kapital deməkdir.

Ssuda kapitalı təşkilata haqqı ödənilmək və qaytarılmaq şərti ilə bank krediti müvəqqəti istifadə üçün veksel, istiqraz vərəqəsi şəklində digər təşkilatların vəsaiti şəklində verilir.

Maliyyə bazarında toplanmış vəsaitlərə xüsusi səhm və istiqrazların, digər qiymətli kağızların satılmasından əldə olunan vəsaitlər aid edilir.

Yenidən bölgü qaydasında daxil olan vəsaitlərə risklərin başlanması üzrə sığorta ödənişləri konsernlərdən, assosiasiyalardan, baş şirkətlərdən daxil olan maliyyə resusrları, digər emitentlərin qiymətli kağızları üzrə dividenlər və faizlər, büdcə subsidiyaları  aiddir.

Büdcə təsisatı- həm qaytarılmaq, həm də qaytarılmamaq şərti ilə verilə bilər və bir qayda olaraq dövlət sifarişlərinin müxtəlif investisiya proqramlarının maliyyələşdirilməsinə və ya məhsulları ümumdövlət əhəmiyyəti kəsb edən təşkilatlara qısamüddətli dövlət yardımı şəklində ayrılır.

Maliyyə resursları daim hərəkətdə olur və yalnız kommersiya banklarının hesablaşma hesabında və təşkilatların kassalarına pul vəsaitlərinin qalığı kimi olur.

Kiçik və orta müəssisələrin bir çoxu məhdud məsuliyyətli cəmiyyətin təşkilati və hüquqi formalarını qapalı səhmdar cəmiyyətin təşkilati və hüquqi formalarından az istifadə edirlər. Hər iki halda məhdud sayda iştirakçı və müvafiq olaraq pay və ya hissə şəklində investisiya yatırımı təmin edilir. Beləliklə, hələ kiçik və orta müəssisənin formalaşması mərhələsində, başlanğıc kapitalın

aşağı olması səbəbindən, əsas və dövriyyə kapitalının formalaşması üçün özünün maliyyə resursları ilə problem yaranır.

Kiçik və orta müəssisələrin öz vəsaitlərinin olmaması özünümaliyyələşdirmə imkanlarını azaldır və maliyyə resurslarının bu mənbəyi kiçik və orta müəssisə üçün ən az risklidir. Özünü maliyyələşdirmə təsərrüfat fəaliyyətinin gedişində yaranan müəssisələrin daxili maliyyə vəsaiti hesabına həyata keçirilir. Daxili mənbələrin strukturunda əsas yeristehlakın yığılması və istifadəsi məqsədilə paylanan firmanın sərəncamında qalan mənfəətə aiddir.

Lakin xarakterik xüsusiyyət və eyni zamanda, problem odur ki, kiçik və orta müəssisələr cari mənfəətə yönəlmişdir, bir qayda olaraq mənfəətin yığılmasına yönəldilməmişdir. Bundan əlavə zərərlə işləyən müəssisələrin payı çox yüksəkdir. Bir çox müəssisələrdə, o cümlədən kiçik və orta müəssisələrdə, hazırkı mərhələdə əsas vəsaitlərin əhəmiyyətli dərəcədə pisləşməsi müşahidə olunur.

Onların yenilənməsi investisiyalar hesabına mümkündür. Kiçik və orta müəssisələr öz investisiya proqramlarının əksəriyyətini maliyyələşdirmək üçün öz vəsaitlərinin kifayət qədər olmasına nail olmalıdırlar. Bu məqsədə çatmağa sürətləndirilmiş amortizasiya mexanizmi xidmət edə bilər.

Fəaliyyət miqyasının kifayət qədər olmaması, kiçik biznesə belə səhmlərin buraxılması kimi özünü maliyyələşdirmə mənbəyindən istifadə etməyə mane olur. Fond bazarı əksər kiçik və orta müəssisələrə görə əlçatmazdır. Bunun səbəbləri müəssisəni dəyişdirmək zərurəti ilə bağlı yüksək xərclərdir (təşkilati və hüquqi formanın dəyişdirilməsi). Həm mövcud, həm də yeni formalaşmış kiçik və orta müəssisələrin korporasiyalaşması zamanı müəssisənin əmlakı qiymətləndirilməlidir, aralıq hesabatların hazırlanması üçün audit xidmətlərinin xərcləri çox vacibdir. Müəssisə nə qədər kiçik olsa, çox sayda səhmlərə yerləşdirilə bilməyəcəkləri üçün səhmlərin emissiya edilməsi ilə bağlı məlumatların və xərclərin yığılması xərcləri çox olur. Kiçik və orta müəssisələrin nümayəndələri də maliyyə hesabatlarından qaçırlar, çünki onların fəaliyyətinin spesifkliyinə kifayət qədər yönəlmirlər.

Nəticədə, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyət göstərdikləri sahələrin əhatə dairəsi və həcmi genişləndiriləcəkdir. Şaxələndirmə məqsədlərinə müvafiq olaraq, bütün sektorlar üzrə kiçik və orta sahibkarlıq subyektlərində qadınların daha çox iştirakının təmin edilməsinə əlavə imkanlar yaradılacaqdır. Buraya, hər region daxilində ən yaxşı nümunə kimi, qadınların rəhbərlik etdiyi şirkətlərin bilavasitə stimullaşdırılması daxildir. Uğurlu qadın sahibkarlarla görüşlər və müsahibələr nəticəsində bununla bağlı məlumatlılıq səviyyəsi daha da artırılacaqdır. Bu yolla Azərbaycanın əsas işçi qüvvəsində qadınların iştirak səviyyəsinin artırılması hədəflənir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan sovet Ensiklopediyası. Bakı, I-X cild, 1976-1987.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, “Qanun”, 2004.
3. Azərbaycan Respublikasının Statistik Toplusu. Bakı, 2005.
4. AMEA-nın 2002-ci ildəki fəaliyyəti haqqında hesabat. Bakı, “Elm”, 2003 səh.135.
5. Quliyev M. Həmidov N. “İnsan resurslarının idarə edilməsi”. Bakı, “Nurlan”, 2002.
6. Quliyev T.Y. “Əməyin sosiologiyası”. Bakı.
7. “Əmək bazarı və kadr hazırlığı problemləri” elmi-praktiki konfransının materialları. Bakı, 2002.

**Каримова Минура Хаджи кызы, PhD.**

**Джафарова Халида Рашид кызы**

**Алиева Хаяла Айтекин кызы**
Азербайджанский Технологический Университет
E-mail: mina34mk@mail.ru

## РОЛЬ РАЗВИТИЯ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В РЕГИОНАХ В ПОВЫШЕНИИ УРОВНЯ ЗАНЯТОСТИ.

**Резюме**

Как и другие постсоциалистические страны, Азербайджанская Республика также провела экономические реформы и перешла на современную систему рыночной экономики. В связи с этим была проделана и проводится большая работа в направлении либерализации экономики, приватизации собственности, развития малого и среднего бизнеса, формирования рыночной инфраструктуры, поддержки и развития конкуренции, развития товарного производства. отвечающие потребностям внутреннего и внешнего рынков, и построение структуры экономики.

Создание эффективной национальной экономики в Азербайджанской Республике требует развития сектора предпринимательства в стране. Этот сектор обеспечивает внутренний рынок качественной продукцией и услугами, увеличивает экспортный потенциал республики, повышает уровень занятости населения, занимает важное место в формировании государственного бюджета, влияет на его эффективность, усиливая конкуренцию на национальном рынке. экономика.

**Ключевые слова:** малый, средний бизнес, финансы, столица, регион, прибыль.

**Minura Haji gizi Karimova, PhD**

**Khalida Rashid gizi Jafarova**

**Khayala Aytekin gizi Aliyeva**
Azerbaijan Technological University
E-mail: mina34mk@mail.ru

## THE ROLE OF THE DEVELOPMENT OF SMALL AND MEDIUM ENTREPRENE-URSHIP IN THE REGIONS TO INCREASE OF THE LEVEL OF EMPLOYMENT

**Summary**

Like other post-socialist countries, the Republic of Azerbaijan also implemented economic reforms and switched to a modern market economy system. In this regard, a lot of work has been done and is being done in the direction of economic liberalization, privatization of property, development of small and medium-sized businesses, formation of market infrastructure, support and development of competition, development of product production corresponding to the needs of the domestic and foreign markets, and construction of the structure of the economy.

Creating an effective national economy in the Republic of Azerbaijan requires the development of the entrepreneurship sector in the country. This sector provides the domestic market with quality products and services, increases the export potential of the republic, raises the employment level of the population, takes an important place in the formation of the state budget, and affects its efficiency by strengthening competition in the national economy.

**Keywords:** small, medium business, finance, capital, region, profit.

**Vüqar Faiq oğlu QAPAQOV, t.f.d.**
Azərbaycan Texnologiya Universitetinin dosent əvəzi
E-mail: vugargapagov@gmail.com

# ÖLKƏMİZDƏ MÜALİCƏ – SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Xülasə**

Ölkəmizdə son illərdə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramları bir çox xidmət sahələrinin inkişafına zəmin yaratmışdır. Belə sahələrdən biri də turizm sektorudur. Hesab edirik ki, bu sahədə həyata keçirilən müxtəlif tədbirlərlə yanaşı, müalicə-sağlamıəq xidmətinin və turistlərə göstərilən digər xidmətlərin səviyyəsinin müasir tələblərə uyğunlaşdırılmasına ehtiyac vardır.

Müalicə - sağlamlıq turizmində xidmət göstərənlərin texniki, fiziki, təsisat və hüquqi infrastrukturunun inkişaf etdirilməsi, bu sahədə çalışan kadrların keyfiyyət səviyyəsinin artırılması, xidmət-obyekt standartlarının yüksəldilməsi, xidmət keyfiyyətinin artırılması və saxlanılması mühüm əhəmiyyət kəsb edir. Səhiyyədə keyfiyyət idarəetmə sisteminin bir hissəsi kimi qəbul edilən xəstə təhlükəsizliyi xəstələrə, onların yaxınlarına və işçilərinə mənfi təsir edəcək fiziki və psixoloji təsirləri aradan qaldırmağı hədəfləyir.

**Açar sözlər:** sağlamlıq turizmi, müalicə xərcləri, xəstəliklərin müalicəsi, kompleks turizm müəssisələri, keyfiyyətli tibbi xidmət

**UOT: 338**
**JEL: К32**

**Giriş**

Ölkəmizdə son illərdə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramları ayrı-ayrı bölgələrdə kurortların bərpa edilməsi və yenilərinin yaradılmasına şərait yaratmışdır. Hesab edirik ki, həyata keçirilən tədbirlərlə yanaşı, müalicə-sağlamlıq xidmətinin və turistlərə göstərilən digər xidmətlərin səviyyəsinin müasir tələblərə uyğunlaşdırılmasına ehtiyac vardır.

Həmçinin yaradılmış sanatoriya-kurortlarda insanların müalicəsinin təşkili və sağlamlığının qorunması olduqca vacib olmaqla yanaşı, həm də dövlətimizin sosial-iqtisadi funksiyalarını da yerinə yetirir. Odur ki, məhz bu baxımdan Respublikamızda kurortların inkişafı üzrə Dövlət Proqramı hazırlanmış və uğurla həyata keçirilməkdədir [1].

Əmtəə və xidmətlərin sərbəst hərəkəti prinsipi əsasən “xidmət sənayesi” olan səhiyyə xidmətlərinin daha asan alınıb satılmasına şərait yaradıb. Nəticədə “sağlamlıq turizmi” beynəlxalq kommersiya fəaliyyətləri arasında mühüm hadisəyə çevrilmişdir.

Yüksək müalicə xərcləri, uzun gözləmə müddətləri və daxil olmaqda çətinlik, xəstələrin keyfiyyətli tibbi xidmət almaq istəyi və turist motivləri bir çox xəstənin öz ölkələrindən kənarda xidmət almasına ehtiyac olduğunu ortaya çıxarmışdır.

Azərbaycanda səhiyyə sisteminə Səhiyyə Nazirliyi cavabdehdir. Uşaqlar və böyüklər üçün xəstəxana və dispanserləri olan əksər sağlamlıq mərkəzləri ictimaiyyət üçün açıqdır və xidmət pulsuzdur. Poliklinikalar yalnız ambulator, xəstəxanalar və ixtisaslaşmış klinikalar isə ambulator və stasionar xidmət göstərir. Kənd yerlərində ilkin tibbi yardım adətən kənd həkimi (feldşer) tərəfindən həyata keçirilir. Bununla belə, Azərbaycanın hər yerində müasir avadanlıq və xəstəxanalara malik özəl klinikalarda ilkin və ikinci dərəcəli peşəkar yardım göstərilir. Onkoloji kimi bəzi tibbi prosedurlar yalnız dövlət xəstəxanalarında aparıla bilər. Qadın məsləhət mərkəzlərində reproduktiv sağlamlıq və mamalıq xidmətləri göstərilir.

Zəngin təbii sərvətlərə malik olan Azərbaycan sağlamlıq turizmi sahəsində inkişaf edib. Ənənəvi səhiyyə xidmətləri, həmçinin sağlamlıq təbliğatları (məsələn, istilik müalicəsi, sağlamlıq və s.), xam neft, isti bulaqlar, duz

mədənləri, sağlam lil təkcə yerli əhalinin deyil, həm də xarici turistlərin diqqətini cəlb edir.

Azərbaycan termal və mineral bulaqlar, kükürd-hidrogen bulaqları və müalicəvi məqsədlər üçün istifadə edilən hər cür palçıq vulkanları ilə zəngin ölkədir. Dünyada 800 palçıq vulkanı var ki, onların xeyli hissəsi Azərbaycanda vardır. Palçıq vulkanları radikulit, dəri, ürək-damar, ginekoloji və uroloji xəstəliklərin, mədə-bağırsaq xəstəliklərinin müalicəsi ilə yanaşı kosmetologiyada da geniş istifadə olunur.

Sağlamlıq baxımından xarici turistlər tərəfindən qəbul edilən Naftalanın sərvətləri Rusiya, Qazaxıstan və digər MDB ölkələrindən gələn turistlərə misilsiz sağlamlıq xidmətləri təklif edən turizm bölgəsidir. Son illərdə ölkəmizdə sağlamlıq turizmi sahəsində müalicə sanatoriyalarının, o cümlədən təbii marşrutların inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. 2010-cu ildə Naftalanda və 2013-cü ildə Şabranda kurort və tibb mərkəzləri kimi bir çox sanatoriyaları reabilitasiya nümunələri kimi göstərmək olar.

Azərbaycanın digər xüsusi məhsulu isə bir çox xəstəliklərin müalicəsi hesab edilən Naftalan neftidir. Bu xam neftin mənbəyi olan Naftalan neft vannaları ilə məşhur olan sağlamlıq ocağıdır. Burada ilk şəxsi obyektlər kompleksi 1926-cı ildə yaradılmışdır. Eyni zamanda, Naftalan nefti Azərbaycanın ən mühüm ehtiyatlarından biridir. Metabolik pozğunluqların, ginekoloji və dəri xəstəliklərinin, həmçinin külək, xəstəliklər və hərəkət nəticəsində yaranan naftalan orqan pozğunluqlarının müalicəsində istifadə olunur [5 s.208-212].

Bununla belə, kurortun sakinləri, masaj infrastrukturu və su idman növləri hələ Naftalandakı bütün mövcud sağlamlıq obyektlərinin bütün lüks xüsusiyyətləri ilə tam təmizlənməmişdir. Bu məhsullar turistlərin cəlbediciliyini artırmaq üçün beynəlxalq səviyyədə hazırlanmışdır. Müvafiq sənədi əldə etmək və Beynəlxalq SPA Assosiasiyaları ilə əməkdaşlıq etmək lazımdır. Bununla belə, Naftalan nefti və digər mühüm dərman ehtiyatları Azərbaycanda sağlamlıq turizmi imkanlarından istifadə etmək üçün mühüm təbii sərvətlərdir. Bu kontekstdə 2020-ci ilə qədər Naftalanın rekreasiya turizmi yağlarından və Duzdağın təbii ehtiyatlarından istifadəyə üstünlük verilməsi nəzərdə tutulmuş və əsasən həyata keçirilmişdir [8].

Azərbaycan astmanın müalicəsində istifadə edilən duz mədənləri ilə də tanınır. Ən məşhuru Naxçıvandakı “Duzdağ mağarası”dır. Bu müalicə ocağın astma, ot qızdırması və digər tənəffüs yolları xəstəliklərinin müalicəsində istifadə olunan natrium xlorid ionları ilə zəngin bir mağaradır [2, s.56-62].

Müalicə - sağlamlıq turizmi 3 başlıq altında qiymətləndirilir:

- qocalar və əlillər turizmi;
- termal turizm;
- SPA Sağlamlıq, müalicə (tibbi) turizmi.

Azərbaycanda termal turizm baxımından zəngin ərazilər mövcuddur. Azərbaycanda mövcud olan möcüzələrdən biri də Naftalan neftidir. Bu neftdən Naftalandakı termal bulaqlarda istifadə olunur. Neftdə qalmaq insanları daha yaxşı hiss etdirir. Bu yağ nadir odadavamlı yağlardan biridir. Bir çox xəstəlikləri - dəri problemləri, bel ağrıları, revmatizm, artrit və s. bu məlhəmlə müalicə oluna bilər. Naftalanın müalicəvi sərvətləri xaricdə tanınır. Dünyanın ən qədim kurortlarından biri olan Naftalan bu gün dünyadan insanları özünə cəlb edir. Eyni zamanda, Naftalana gələn xarici turistlərin sayı da sürətlə artır. Almaniya, Türkiyə, Kanada, Polşa, Fransa, İtaliya, Yaponiya, Çin, İspaniya, Rusiya, Özbəkistan, Qazaxıstan, Ukrayna və digər ölkələr də daxil olmaqla 42 ölkədən xarici turist müalicə almaq üçün Naftalana gəlir.

Naftalandakı otellərin sayı zaman keçdikcə artır. Bu vaxta qədər Naftalanda “Çinar”, “Qasaltı” otelləri işə salınmışdır. Hazırda onun adı “Rixos”dur. Naftalanın böyük tarixi və şöhrəti var. Buraya sovet dövründə 80 minə yaxın turist gəlirdi. Naftalandakı tanınmış səhiyyə ocaqları arasında “Naftalan” müalicə-profilaktika mərkəzi, “Chinar Hotel & Spa”, “Qasaltı”, “Garabag Resort & Spa”, “Gözəl Naftalan”, “Şəfa” sanatoriyası, “Kəpəz” sanatoriyası, “Möcüzəli Naftalan” sanatoriyası və s. vardır.

Naftalan sanatoriyası bioloji xüsusiyyətlərinə görə unikal Naftalan nefti əsasında kompleks terapiya təklif edən iri özəl tibb müəssisəsidir. Naftalan vannalarının köməyi ilə Naftalan

sanatoriyası 70-dən çox xəstəliyin təkmilləşdirilmiş üsullarla maksimum rahatlıq şəraitində müalicəsini təmin edir. İxtisaslı, təcrübəli və güləruz personal əsas məqsədə çatmaq üçün bütün səylərini əsirgəmir.

Naftalan sanatoriyasında funksional diaqnostika, klinik diaqnostika və biokimyəvi laboratoriya kimi müasir kabinet fəaliyyət göstərir. Bütün ziyarətçilər ətraflı müayinədən keçirlər, bundan sonra həkim fərdi olaraq bir sıra prosedurlar seçir. Naftalan nefti ilə müalicə dayaq-hərəkət, nevroloji, dəri, ginekoloji və uroloji xəstəliklərin müalicəsində effektiv üsuldur.

Sovet dövründən "Çinar kurortu" kimi tanınan Çinar Hotel & Spa Naftalan, şam və çinar ağaclarından ibarət geniş parkda yerləşir. Gölün kölgəli küçələrində istirahət və müalicə üçün mükəmməl rahat atmosfer yaradılır. Hazırda "Çinar" lüks, müasir 5 ulduzlu mehmanxana və eyni zamanda ən yüksək texnologiya ilə təchiz edilmiş və Naftalan neftindən istifadə etməklə müxtəlif xəstəliklərin müalicəsində geniş spektri təmsil edən tibbi profilaktika mərkəzidir. Çinar Hotel & Spa Naftalanda - qonaqpərvərlik, istirahət və tibb sahəsində təcrübəli peşəkarlar komandası tərəfindən təklif olunan lüks yaşayış, isti atmosfer mövcuddur. Qonaq otaqları rahat mebel, unikal dekorasiya və təsviri incəsənət kolleksiyası ilə təchiz olunub.

Qonaqları yerləşdirmək üçün oteldə ekonom sinifdən tutmuş kral suitlərinə qədər 170 nömrə, 353 nəfərə qədər qonaq qəbul edə bilən iki yataq otağı var. 6 liftli bina 4 lift ilə təhciz olunub. Otaqlar çox müasir üslubda, isti palitradan və rahat mebeldən istifadə etməklə bəzədilmişdir. Sauna kompleksi, sauna və hamam (türk hamamı), qapalı hovuz və həmçinin fitness mərkəzi pulsuzdur. Çinar Mərkəzi yalnız xəstəlik tarixçəsi və MRT müayinələrinin nəticələrinə əsaslanan çıxarışla müalicəni qəbul edir. Uşaqlarda sanatoriya kartı və epidemiya şəhadətnaməsi olmalıdır. 7 gündən çox yerləşdirərkən, yaşayış dəyərinə həkim məsləhəti və spa müalicəsi üçün uyğun diaqnostik üsullar da daxildir. Oteldə yerləşən mehmanxana "açıq bufet" prinsipinə əsasən gündə üç dəfə yemək təklif edir, əgər istirahət edənlər burada 7 gündən az qalarsa, 7 gün gecələmə və yalnız səhər yeməyi, bundan əlavə, oteldə əylənmək istəyənlər üçün restoran və barlar təklif olunur: Firuza, Sapphire, Paradise, Vitamin Bar. Minibar və otaq xidməti sifariş etmək imkanı da var. Xoş bir tətilin xatirələrini daha yaxşı saxlamaq üçün ərazidə bir hədiyyə mağazası da fəaliyyət göstərir. .

"Qaşaltı" sanatoriyası öz qonaqlarına yüksək keyfiyyətli xidmət və Avropa xidməti təklif etməklə yanaşı, unikal Naftalan nefti üzrə kompleks proqram təklif edir. Kompleks özəl sanatoriya ərazisində, Azərbaycanın Naftalan şəhərinin ecazkar təbiətinin qoynunda yerləşir. O, öz mövcudluğunu Azərbaycanda turizmin və sanatoriyanın inkişafı üzrə Dövlət Proqramı qarşısında öhdəlik qoyur. "Qaşaltı" sanatoriyasında siz xoş və faydalı istirahət üçün lazım olan hər şeyi tapa bilərsiniz. Avropa xidmət keyfiyyəti milli qonaqpərvərlik ilə birləşir. Rahat otaqları olan otel, idman kompleksi və poliklinika var. "Qaşaltı" sanatoriyasında yalnız yüksək ixtisaslı mütəxəssislər çalışır, yalnız müasir cihaz və texnologiyalardan istifadə olunur. 5 nəfərlik qruplar üçün həm standart kateqoriyalı, həm də "Lüks" bağ evlərinin yerləşdirilməsi tövsiyə olunur. Təklif olunan yaşayış variantlarının hər birində minibar, kabel TV, beynəlxalq telefon şəbəkəsi, internet, kondisioner var. Bütün otaqlar 5 ulduzlu mehmanxanaların yerləşdirmə kateqoriyası üçün beynəlxalq tələblərə cavab verir.

"Qasaltı" sanatoriyası üç mərkəzdən ibarətdir:

- mehmanxana və sağlamlıq mərkəzi;
- sağlamlıq binası və idman-əyləncə kompleksi;
- Sanatoriyada bromo-yod hamamı, sualtı idman növləri üçün hovuz.

Fizioterapiya şöbəsində ən müasir müalicə üsullarından istifadə olunur. Yüksək keyfiyyətli tibbin bütün müasir tələblərinə cavab verən klinikalar və laboratoriyalar var. Oteldə 83 otaq və 9 standart otaq olmaqla 92 nömrə var. "Qaşaltı" sanatoriyasında böyük əyləncə mərkəzi, teatr, boulinq, bilyard və video zalı var. Simulyatorun dayaq-hərəkət aparatında sağlamlıq problemləri müasir avadanlıqla aradan qaldırılır. Obyektdə mini futbol, tennis kortu və basketbol meydançası üçün açıq stadion var.

Garabag Resort & Spa 600 ildən artıqdır ki, müalicəvi xüsusiyyətləri ilə tanınan nadir Naftalan neft yatağı sayəsində dünya

miqyasında şöhrət qazanmış Naftalanda gözəl və baxımlı ərazidə yerləşir. Garabag Resort & Spa geniş parkın kölgəsində yerləşən lüks oteldən başqa bir şey deyil - bu, sağlam həyat tərzi, istirahət və yüksək qastronomik mətbəxin birləşməsidir. Burada hər zaman isti atmosfer və personalın mehriban və diqqətli münasibəti hökm sürür. Ənənəvi və xüsusi SPA proqramları, eləcə də əfsanəvi Naftalan neftinə əsaslanan müxtəlif tibbi və sağlamlıq proqramları ilə rahat və keyfiyyətli istirahətə və sağlamlığın bərpasına kömək edir. İnkişaf etmiş infrastruktura və müasir şəraitə malik otel öz qonaqlarına rahat otaqlar, ləzzətli yeməklər, uşaqlar və böyüklər üçün çoxlu əyləncələr təklif edir [9].

Naftalanda müstəsna əhəmiyyətə malik olan muzey var. Bu muzeyin eksponatları atılmış təməllərdir. Unutmayın ki, bu muzey dünyada yeganə muzey sayıla bilər. Muzeyin eksponatları boğulmuş ağaclar, qəribə də olsa müxtəlif ölçülü taxta ağaclardır. Çünki müalicədən əvvəl bu müalicə mərkəzinə gələn xəstələr sanatoriyada müalicə prosedurlarını başa vurduqdan sonra bu ağaclara ehtiyac duymurlar və orada qoyub gedirlər Muzey 1978-ci ildən fəaliyyət göstərir [10]

"Gözəl Naftalan" sanatoriyası 2011-ci ildə yaradılıb və 2016-cı ilin əvvəlində fəaliyyətə başlayıb. Sanatoriyaya yerli əhali ilə yanaşı, Avropa ölkələrindən, o cümlədən Türkiyə, İran, Rusiyadan da müalicə məqsədilə qonaqlar gəlir. Sanatoriyada sinir, dayaq-hərəkət, ginekoloji xəstəliklər, prostatit, kişi və qadın ultrasəs müayinəsi, fizioterapevtik müalicələr aparılır. Buraya sanatoriyada peşəkar yemək aşpazları tərəfindən keyfiyyətli qida məhsulları ilə hazırlanan müalicə paketi üçün gündə üç dəfə yemək daxildir. Sanatoriyanın bağçasında çay, kofe, şirniyyat və müxtəlif növ qazan və manqal hazırladığımız açıq kafe var.

Səhiyyə işçilərinin və tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması beynəlxalq xəstələrin və səhiyyə kapitalı fondlarının sayının nəzərə çarpacaq dərəcədə artmasına səbəb olmuşdur. Səhiyyə xidmətlərinin tələb və təklifindəki dəyişikliklər ölkələrin milli siyasətlərinin yenidən nəzərdən keçirilməsinə və səhiyyə xidmətlərində mobilliyi artıran yeni qaydaların tətbiqinə səbəb olmuşdur.

Dünyada sağlamlıq turizminə tələbat zaman keçdikcə artır. Bu turizm obyektləri xüsusi qayğı və digər əlaqəli məhsul növləri ilə yanaşı əlavə xidmətlər təklif edir. Ümumiyyətlə, getdikcə daha çox sağlamlıq səbəbi ilə səyahət edən turistlər həftə sonları və digər günlərdə özəl sağlamlıq kurslarına, ölkədə və ya xaricdə müxtəlif müalicə növlərinə üstünlük verirlər.

Sosial fəaliyyət olan turizm sağlamlıqlarını bərpa etmək və ya onu qorumaq üçün müalicə xidməti almaq istəyənlərin fəaliyyətinə uyğun olaraq sağlamlıq turizmini doğurmuşdur. "Sağlamlıq turizmi" hər hansı səbəbdən sağlamlıq xidməti almaq üçün yaşayış yerindən başqa yerə planlı səyahət kimi müəyyən edilir . Başqa bir tərifə görə, sağlamlıq turizmi "fərdlərin stresslə mübarizəyə və istirahətə yönəlmiş turizm fəaliyyətidir".

Xəstələrin mədəni norma və dəyərləri və yaşadıqları ölkələrdə müalicə xidmətlərinə sadiqliyi sağlamlıq turizminin iqtisadi cəhətdən istənilən səviyyədə inkişafına mane olur. Bu fenomenə baxmayaraq, başqa yerlərdə yaşayan xəstələrin mədəni bağlılıqlarına görə müalicə xidmətləri və turistik fəaliyyətlər üçün vətənlərindən qayıtması (diaspora turizmi) sağlamlıq turizminin beynəlxalq turizm sənayesində çox mühüm rol oynadığını göstərir.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6fevral tarixli 125 nömrəli sərəncamı.

2. Bilalov B. Ç. G.Gülalıyevin redaktəsi ilə. "Turizmin əsasları". Bakı, "QHT Nəşriyyatı", 2015.

3. Bilalov.B. "Azərbacanda müalicə-sağlamlıq turizmi: problemləri və perspektivləri". "Turizm və Qonaqpərvərlik Tətqiqatları"jurnalı, №3, Bakı, "Aypara 3", 2013.

4. Qapaqov V.F. "Azərbaycanın sanatoriya kurort ehtiyatları". Bakı, "Avropa" nəşriyyatı 2022, 120 səh.

5. Hümbətov Y.Ə. Kərimov F.C. Qapaqov V.F. Cavadzadə X.N. "Turizm sənayesinin təşkili". Bakı, "Avropa" nəşriyyatı, 2021, 333 səh.

6..http://www.azerbaijans.com/content_892_az.html
7.https://www.google.com/search
8.https://afn.az/xeber/38494-azerbaycanda-saglamliq-turizminin-mirvarisi-qalaalt-kurortu.html
9.. http://www.naftalan-booking.com/Garabag_naftalan.aspx
10. http://www.gozelnaftalan.az/otaqlar/12-sutkalq-qiymtlr.html

**Вугара Фаиг оглы ГАПАГОВ**
доц. Азербайджанского Технологического Университета
E-mail: vugargapagov@gmail.com

## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ЛЕЧЕБНО-ОЗДОРОВИТЕЛЬНОГО ТУРИЗМА В НАШЕЙ СТРАНЕ

**Резюме**

Государственные программы социально-экономического развития регионов, реализуемые в нашей стране в последние годы, создали основу для развития многих сфер обслуживания. Одной из таких сфер является сфера туризма. Считаем, что помимо различных мер, реализуемых в этой сфере, необходимо привести уровень медицинского обслуживания и других услуг, предоставляемых туристам, в соответствие с современными требованиями.

Важно развивать техническую, физическую, институциональную и юридическую инфраструктуру поставщиков услуг оздоровительного туризма, повышать уровень качества персонала, работающего в этой сфере, повышать стандарты объекта услуги, повышать и поддерживать качество обслуживания. Безопасность пациентов, рассматриваемая как часть системы менеджмента качества в здравоохранении, направлена на устранение физических и психологических последствий, которые негативно скажутся на пациентах, их родственниках и персонале.

**Ключевые слова**: оздоровительный туризм, медицинские расходы, лечение заболеваний, комплексные туристские учреждения, качественное медицинское обслуживание.

**Vugar Faig GAPAGOV**
Ass prof. Of Azerbaijan Technological University
E-mail: vugargapagov@gmail.com

## DEVELOPMENT DİRECTİONS OF TREATMENT - HEALTH TOURİSM İN OUR COUNTRY

**Summary**

The State Programs of socio-economic development of the regions implemented in our country in recent years have created a foundation for the development of many service areas. One of such areas is the tourism sector. We believe that in addition to the various measures implemented in this field, there is a need to adjust the level of medical care and other services provided to tourists to modern requirements.

It is important to develop the technical, physical, institutional and legal infrastructure of health tourism service providers, increase the quality level of personnel working in this field, raise service-object standards, increase and maintain service quality. Patient safety, considered as part of the quality management system in healthcare, aims to eliminate the physical and psychological effects that will negatively affect patients, their relatives and staff.

**Key words:** health tourism, medical expenses, treatment of diseases, complex tourism establishments, quality medical service.

**Ələddin İsmayıl oğlu QURBANƏLİYEV, i.f.d. dos.**

**Türkan Mehdi qızı HÜSEYNOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# AQRAR SAHƏDƏ KOOPERASİYANIN İSTEHASALIN İQTİSADİ SƏMƏRƏLİLİYİNƏ TƏSİRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Xülasə**

Aqrar-sənaye kompleksinin səmərəli fəaliyyəti üçün aqrar siyasətin istiqaməti ilə bilavasitə bağlı olan inteqrasiya və kooperasiyanın inkişafı prosesləri zəruridir. Aqrar-sənaye kompleksinin iqtisadiyyatını sabitləşdirmək üçün inteqrasiya və kooperasiyaya təkan verəcək, kənd təsərrüfatı və emal müəssisələrinin maliyyə dayanıqlığını artıracaq, ərzaq təhlükəsizliyi problemlərini həll edəcək aqrar siyasət işlənib hazırlanmalıdır.

Tədqiqat əsasında aqrar siyasətin istiqamətlərinin formalaşması ilə inteqrasiya və kooperasiyanın inkişaf proseslərinin formalaşması mərhələləri arasında əlaqə qurulmuş, müəyyən mərhələdə formalaşmış kənd təsərrüfatı formasiyalarının növləri sonrakı dövrlərdə də mövcud olmaqda davam edir.

**Açar sözlər:** Aqrar siyasət,  kooperasiyanın inkişafı, səmərəli fəaliyyəti, təkmilləşdirilmə prosesləri

**UOT:338**
**JEL: Q00**

## Giriş

Məqalənin məqsədi aqrar-sənaye sektorunda müxtəlif kateqoriyalı təsərrüfatlarda təşkilati-təsərrüfat mexanizminin təkmilləşdirilməsi, istehsalın səmərəliliyinin artırılması üzrə təkliflər, tövsiyələr hazırlamaqdan ibarətdir.

Aqrar-sənaye kompleksində inteqrasiya və kooperasiya proseslərinin inkişafı obyektiv şəkildə kənd təsərrüfatı məhsullarının istehsalı, hazırlanması, saxlanması, daşınması və emalının texniki, texnoloji, təşkilati, hüquqi, iqtisadi vəhdətinin və bir-biri ilə əlaqəli mərhələlərinin davamlılığının təmin edilməsi zərurəti ilə müəyyən edilir.

Bazar şəraiti və şiddətli rəqabət şəraitində inteqrasiya olunmuş və kooperativ qurumların daha yaxşı uyğunlaşması və sağ qalması faktı şübhəsiz qəbul edilirdi.

Keçən illərin təcrübəsinə əsasən qeyd etmək olar ki, şaquli inteqrasiyanın təsiri  əsasən aşağıdakılarla bağlıdır:

- ✓ əməliyyat xərclərinin azalması; təşkilatın "ikiqat müavinət" problemini həll etməklə mənfəəti artırmaq istəyi;
- ✓ müəssisələrin dövlət tənzimlənməsinin təzyiqini azaltmaq istəyi, məsələn, vergi ayırmalarının məbləğini azaltmaq;
- ✓ qiymət diskriminasiyasının effektiv sistemindən istifadə;
- ✓ üçüncü tərəf təşkilatının inhisar gücündən itkiləri azaltmaq istəyi;
- ✓ təşkilatın əsas resurslarının fasiləsiz təchizatını təmin etmək ehtiyacı;
- ✓ şaxələndirilmiş istehsal;
- ✓ istehsalçıya mənəvi ziyan dəyməsi problemini həll etməklə [1].

Aqrosənaye inteqrasiyası kənd təsərrüfatına xidmət edən, onu resurslarla təmin edən və məhsullarını istehlakçıya çatdıran kənd təsərrüfatının və onunla əlaqəli sahələrin qarşılıqlı əlaqəsinin və üzvi əlaqəsinin təkmilləşdirilməsidir.

Statistik məlumatların təhlili nəticəsində inteqrasiya proseslərinin ayrı-ayrı sahələrin fəaliyyətinə müsbət təsiri aşkar edilmişdir.

Qarşılıqlı faydalı iqtisadi münasibətlər mexanizminin işlənib hazırlanması və həyata keçirilməsi, əməyin maddi həvəsləndirilməsi problemlərinin həlli, işçilərin həyat səviyyəsinin yüksəldilməsi inteqrasiya və kooperasiyanın uğurlu inkişafının ən mühüm şərtlərindəndir.

Yerli və xarici təcrübədən məlum olduğu kimi, kənd təsərrüfatı və emal müəssisələri arasında iqtisadi münasibətlər kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində inteqrasiya və kooperasiya yolu ilə səmərəli şəkildə tənzimlənir [1].

İnteqrasiya və əməkdaşlıq istehsal və iqtisadi əlaqələrin möhkəmlənməsinə, vahid istehsal tsiklinin iştirakçılarının maraqlarının daha yaxşı əlaqələndirilməsi zərurətinə gətirib çıxarır, eyni zamanda xidmət və məhsulların qiymətlərindəki uyğunsuzluğun aradan qaldırılması və iqtisadi bərabərliyin təmin edilməsi aqrar-sənaye kompleksi daxilində mübadilənin qeyri-ekvivalentliyinin mənfi nəticələrini neytrallaşdırmaqla aqrar-sənaye istehsalının bütün sahələrinin problemlərini həll etməyə imkan verir.

Müxtəlif mərhələlərdə inteqrasiya və əməkdaşlıq proseslərinin inkişafı müxtəlif formalarda həyata keçirilib.

Mərkəzləşdirilmiş planlaşdırma forması altında aqrokombinatların geniş yayıldığı vaxtlarda hər bir iştirakçının yekun nəticəyə töhfəsindən asılı olaraq əlaqələr qurulurdu. Bazar münasibətlərinin inkişafı ilə kooperasiya və inteqrasiya proseslərinin iştirakçıları arasında artıq formalaşmış iqtisadi münasibətlər sistemi məhv edildi [2].

Hazırda inteqrasiyanın ən geniş yayılmış forması holdinq tipli birliklərdir.

Holdinq tipli birliklərin üstünlükləri aşağıdakılarla ifadə olunur:

1. İstifadə olunan resursların miqyasının həyata keçirilməsi (maddi-texniki imkanların və əmək fondlarının daim artırılması);
2. Bazarda rəqabət mühitindən itkilərin minimuma endirilməsi;
3. Qapalı dövrəli istehsalı təşkil etmək bacarığı - xammalın istehsalından hazır məhsulun son istehlakçıya satışına qədər;
4. Holdinq tipli assosiasiyaya daxil olan təşkilatlar arasında kapitalın bölüşdürülməsi imkanı;
5. İstehsalın bölüşdürülməsi, onun diversifikasiyası imkanı;
6. Riskin bölüşdürülməsi imkanı.

Bu sistem klasterləşmə adlanır. Klasterin əsas xüsusiyyəti dinamik mühitə daimi uyğunlaşmadır. Bir təşkilat olaraq klaster dəyişiklikləri asanlıqla qəbul edir. Eyni zamanda, təşkilatın kiçik elementləri deyil, onun əsas nüvəsi - strukturlar, proseslər, üsullar dəyişikliklərə məruz qalır.

Əməkdaşlığın gücü onun əməkdaşlarının bilik və təcrübəsinə əsaslanan daxili rəqabətqabiliyyətliliyindədir. Kooperasiyaya əsaslanan təşkilat bütün potensialını səfərbər edir, onun rasional təşkilini, müştərilərin və bazarın tələblərinə uyğun istifadəsini təmin edir [3].

Bazar münasibətləri şəraitində rayonun kənd təsərrüfatının inkişafının və səmərəliliyinin yüksəldilməsinin iqtisadi mahiyyəti tələb olunan tempdə təkrar istehsalın genişləndirilməsinə imkan verən kifayət qədər rentabellik səviyyəsini və mənfəət kütləsini təmin etməkdən ibarətdir.

Rayonda və müxtəlif kateqoriyalı təsərrüfatlarda kənd təsərrüfatı istehsalının səmərəliliyinin müəyyən edilməsinin metodoloji əsasını təşkilati-təsərrüfat mexanizminin yekun nəticələrə təsirini nəzərə alan sistemli yanaşma təşkil edir. Bu məqsədlə istehsal səviyyəsini və maliyyə-təsərrüfat nəticələrini xarakterizə edən əsas və əlavə göstəricilər sistemindən istifadə edilmişdir.

İslahatların sosial-iqtisadi nəticələrinin hərtərəfli təhlili göstərir ki, həyata keçirilən tədbirlər neqativ nəticələrə gətirib çıxarıb və respublikanın kənd təsərrüfatına çox ciddi ziyan vurub.

Əksər kənd təsərrüfatı müəssisələrinin istehsalı və maliyyə sabitliyini itirməsi, nəticədə rayonun təbii resurs potensialından geniş istifadə edilməsi, kreditor borclarının artması, təsərrüfatların maddi-texniki bazasının məhv edilməsi və əhalinin həyat keyfiyyətinin pisləşməsi ilə nəticələnir.

Bu vəziyyətin əsas səbəblərindən biri dövlətin aqrar-sənaye kompleksində iqtisadi proseslərin tənzimlənməsindən öz-özünə kənarlaşdırılmasıdır ki, bu da kənd təsərrüfatı məhsulları ilə iqtisadiyyatın digər sahələri arasında qiymət fərqinin yaranmasına səbəb olur; federal və regional büdcələrin maliyyə vəsaitləri hesabına kənd təsərrüfatına birbaşa büdcə dəstəyinin həcminin azaldılması; aqrar-sənaye istehsalının şəraitinə adekvat kredit mexanizminin olmaması və s.

Sistemli böhrandan çıxmaq və istehsalın daha da davamlı inkişafı üçün respublikanın aqrar-sənaye kompleksində sosial-iqtisadi vəziyyəti dəyişmək lazımdır [4].

Aqrar sahədə kooperasiyanın istehsalının iqtisadi səmərəliliyinə təsirinin təkmilləşdirilməsi üçün məqsədə uyğun olaraq aşağıdakı vəzifələr həll edilməlidir:

- rayonda və müxtəlif kateqoriyalı təsərrüfatlarda kənd təsərrüfatı istehsalının vəziyyətinin iqtisadi qiymətləndirilməsinə əsaslandırılmış metodoloji yanaşmalar, onun səmərəliliyinin meyarları və amilləri, o cümlədən fəaliyyət göstəriciləri sistemi;
- respublikanın kənd təsərrüfatının və ərzaq bazarının vəziyyəti öyrənilmiş, istehsalın azalması-

nın və təsərrüfat subyektlərinin maliyyə müflisləşməsinin səbəbləri müəyyən edilmiş sənayedə istehsalın və təkrar istehsal prosesinin davamlı artımı üçün ehtiyatlar müəyyən edilməli;

- kənd təsərrüfatı müəssisələrində, K (F) X və təsərrüfatlarda əmək, torpaq və maddi-texniki ehtiyatlardan səmərəli istifadə etməklə istehsalın səmərəliliyinin artırılması, kənd təsərrüfatında kooperasiya və inteqrasiya proseslərinin geniş inkişafı üçün təşkilati-iqtisadi amillərin məcmusu; sektor əsaslandırılır; respublikanın kənd təsərrüfatı istehsalının strukturunda gözlənilən dəyişikliklər müəyyən edilmişdir; bazar konyukturasının nəzərə alınmasını və məhsulların alınması sisteminin təkmilləşdirilməsini, maliyyə sağlamlaşdırılmasını və kənd əhalisinin həyat keyfiyyətinin yaxşılaşdırılmasını nəzərdə tutan kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin artırılmasının əsas istiqamətləri hazırlanmalıdır.

Kənd təsərrüfatı kooperasiyası ölkənin istehlak kooperasiyası ilə birlikdə iqtisadiyyatın aqrar sektorunun kooperativ sisteminin bir hissəsidir. . Eyni zamanda, o, istehsal və istehlak kənd təsərrüfatı kooperativlərini birləşdirir ki, onlar da öz növbəsində sonrakı səviyyəli sistemlərdir. Sistemin strukturu onun elementlərinin tərkibi və onlar arasında əlaqə qaydası ilə xarakterizə olunur. Bütövlük onun elementlərinin tamlığı və onlar arasındakı aydın əlaqələrlə müəyyən edilir.

Bazar münasibətləri şəraitində rayonun kənd təsərrüfatının inkişafının və səmərəliliyinin artırılmasının iqtisadi mahiyyəti tələb olunan tempdə təkrar istehsalın genişləndirilməsinə imkan verən kifayət qədər rentabellik səviyyəsini və mənfəət kütləsini təmin etməkdən ibarətdir. Rayonda və müxtəlif kateqoriyalı təsərrüfatlarda kənd təsərrüfatı istehsalının səmərəliliyinin müəyyən edilməsinin metodoloji əsasını təşkilati-təsərrüfat mexanizminin yekun nəticələrə təsirini nəzərə alan sistemli yanaşma təşkil edir. Bu məqsədlə istehsal səviyyəsini və maliyyə-təsərrüfat nəticələrini xarakterizə edən əsas və əlavə göstəricilər sistemindən istifadə edilmişdir.

İslahatların sosial-iqtisadi nəticələrinin hərtərəfli təhlili göstərir ki, həyata keçirilən tədbirlər neqativ nəticələrə gətirib çıxarıb və respublikanın kənd təsərrüfatına çox ciddi ziyan vurur: sənaye sistemli böhrandadır, istehsal həcminin dərin azalması ilə əksər kənd təsərrüfatı müəssisələrinin maliyyə dayanıqlığının itirilməsi, nəticədə rayonun təbii resurs potensialından geniş istifadə olunması, kreditor borclarının artması, təsərrüfatların maddi-texniki bazasının məhv edilməsi və əhalinin həyat keyfiyyətinin pisləşməsi təzahür edir [4].

Bu vəziyyətin əsas səbəblərindən biri dövlətin aqrar-sənaye kompleksində iqtisadi proseslərin tənzimlənməsindən öz-özünə kənarlaşdırılmasıdır ki, bu da kənd təsərrüfatı məhsulları ilə iqtisadiyyatın digər sahələri arasında qiymətlərin uyğunsuzluğuna səbəb olur; federal və regional büdcələrin maliyyə vəsaitləri hesabına kənd təsərrüfatına birbaşa büdcə dəstəyinin həcminin azaldılması; aqrar-sənaye istehsalının şəraitinə adekvat kredit mexanizminin olmaması və s. Sistemli böhrandan çıxmaq və istehsalın daha da davamlı inkişafı üçün respublikanın aqrar-sənaye kompleksində sosial-iqtisadi vəziyyəti dəyişmək lazımdır.

Kooperasiya və inteqrasiya proseslərinin inkişafının səmərəliliyi aqrar siyasətdən asılıdır. Son zamanlar dövlətin bu proseslərə getdikcə daha çox cəlb olunması tendensiyası müşahidə olunur. “Dövlət-özəl sektor tərəfdaşlığı haqqında” qanun layihəsində qeyd olunur ki, dövlət-özəl tərəfdaşlıq dövlət və özəl sektorun sosial-iqtisadi inkişafı məqsədlərinə nail olmaq üçün dövlət-özəl tərəfdaşlıq layihələrinin həyata keçirilməsinə yönəlmiş dövlət və özəl tərəfdaşlar arasında uzunmüddətli qarşılıqlı faydalı əməkdaşlıqdır[5].

İqtisadiyyatın aqrar sektorunun kooperativ sisteminin strukturunun mürəkkəbliyi onun çoxsaylı iştirakçılarının - müxtəlif növ kooperativlərin və kooperativ birləşmələrinin, başqa təşkilati-hüquqi formada olan kənd təsərrüfatı təşkilatlarının, digər sahələrə aid müəssisə və təşkilatların və aqrar-sənaye kompleksinin fəaliyyət sahələri, aqrar-sənaye kompleksinə aid olmayan hüquqi şəxslər, ayrı-ayrı fiziki şəxslər, habelə onlar arasında çoxşaxəli münasibətlərin və əlaqələrin olması kooperativlərin tərkibi ilə təsdiqlənir.

Kooperativ sisteminin sosial tipə aid olması iki qrup fakt və şəraitlə inandırıcı şəkildə təsdiqlənir. Birincisi, onun təşkili və fəaliyyət prinsipləri, ikincisi, aqrar-sənaye kompleksində idarəetmənin digər təşkilati-hüquqi formaları ilə müqayisədə kooperativlərin və kooperativ birləşmələrinin təşkilati-iqtisadi, eləcə də sosial-iqtisadi fərqləndirici xüsusiyyətlərini və üstünlüklərini təşkil edir.

Kənd təsərrüfatı kooperasiyası sisteminin əsas komponenti onun kooperativləridir. Onların kənd yaşayış məntəqələri səviyyəsində mövcudluğu,

habelə sonrakı səviyyələrdə kooperativlərin və onların birliklərinin mövcudluğu: bələdiyyə (rayon), regional və federal - bu sistemi çoxsəviyyəli sistem kimi xarakterizə edir.

İqtisadiyyatın aqrar sektorunun, onun çoxsaylı iştirakçılarının və təsərrüfat subyektlərinin kənd təsərrüfatı istehsalına və istehlak kooperativlərinə əsaslanan kooperativ sistemi müasir aqrar-sənaye kompleksində özünəməxsus yolunu formalaşdırır.

Həyat tərzinin mülkiyyət münasibətləri, əmək münasibətləri, formalaşma prosesindəki münasibətlər kimi bir sıra xüsusiyyətlərə görə bir növ istehsal (təşkilati-iqtisadi və sosial-iqtisadi) münasibətləri sistemi kimi müəyyən edilməsinə əsaslanaraq gəlirin bölgüsü, idarəetmə münasibətləri, dövlətlə münasibətlər, əsas hədəf funksiyası və əmtəəlik səviyyəsi kənd təsərrüfatında iki sosial-iqtisadi struktur - irimiqyaslı, müxtəlif təşkilati-hüquqi formada kənd təsərrüfatı təşkilatları ilə təmsil olunan və kəndli (fermer), şəxsi yardımçı təsərrüfat və digər təsərrüfatlarla təmsil olunan kiçik miqyaslı fərqləndirilməlidir.

Sosial-iqtisadi strukturlar çərçivəsində yuxarıda qeyd olunan əlamətlərin daha da diferensiallaşdırılması əsasında beş iqtisadi strukturu - iri əmtəəlikdə - kooperativ (o, kənd təsərrüfatı istehsalı və istehlak kooperativləri tərəfindən təşkil olunur), özəl, təsərrüfat (təsərrüfat cəmiyyətləri və ortaqlıqları), dövlət (unitar dövlət və bələdiyyə kənd təsərrüfatı müəssisələri ilə təmsil olunur); kiçik miqyasda - fermerin həyat tərzi və əhalinin şəxsi yardımçı və digər təsərrüfatları - ayırmaq məntiqlidir.

Genişmiqyaslı sosial-iqtisadi strukturu təşkil edən təsərrüfat strukturları arasında aparıcı mövqe kooperativə məxsusdur.

Kənd təsərrüfatı kooperasiyası sisteminə müəyyən iqtisadi struktur kimi baxılması onun ölkənin ümumi çoxstrukturlu iqtisadiyyatında mövqeyini möhkəmləndirir.

Kooperativlərə xas olan əlamət və xüsusiyyətlər aqrar-sənaye kompleksində iqtisadi artımı təmin edir, kənd əhalisinin sosial vəziyyətini yaxşılaşdırır, yaşayış məntəqələrinin qorunub saxlanmasına və kənd yerlərinin inkişafına kömək edir ki, bu da kooperativ sisteminin mühüm yeri və əhəmiyyətini müəyyən edir.

Aqrar-sənaye kompleksinin çox strukturlu iqtisadiyyatında kooperasiya rejimi aparıcı mövqe tutmalıdır ( kənd təsərrüfatı məhsullarının istehsalında - onun ümumi həcminin 50% -dən çoxunu, müxtəlif növ xidmətlərin göstərilməsində 60% -dən 90%-ə qədər). Kənd təsərrüfatının yüksək səviyyədə inkişaf etdiyi Qərb ölkələrinin hazırkı təcrübəsi də bizi xidmətlərin göstərilməsində kooperativlərin xüsusi çəkisinin belə göstəricilərinə istiqamətləndirir. Bu şəraitdə kooperasiya kənddə digər idarəetmə formaları ilə rəqabət apara bilən aparıcı iqtisadi struktur olacaq və özəl sahibkarlığa alternativə çevriləcək.

Şəxsi yardımçı təsərrüfatların, kəndli (fermer) təsərrüfatlarının və digər kiçik idarəetmə formalarının kooperativ sistemi çərçivəsindən kənarda inkişafı səmərəsiz görünür və heç bir perspektivi yoxdur.

Kooperativ sistemin inkişafındakı potensialımız onunla təsdiqlənir ki, kooperativ sisteminin formalaşmasının əsas səviyyələri kənd yaşayış məntəqələri və bələdiyyə rayonlarıdır və kənd kooperativ hərəkatının əsas iştirakçıları məhz bu səviyyələrdə cəmləşirlər.

Kooperativ sisteminin təkmilləşdirilməsi üsulları onların tətbiqi sahəsində iki istiqamətdə nəzərdən keçirilməlidir. Birincisi elmi tədqiqatlarda istifadə olunan üsullar, ikincisi isə onun elementlərinin tərkibini optimallaşdırmaq və onlar arasında qarşılıqlı əlaqələritənzimləmək üçün sistemin müəyyən hissələrinə və aspektlərinə təsir edən konkret tədbirlər kompleksi kimi metodlardır.

Kənd təsərrüfatı kooperasiyası sistemini təkmilləşdirməyə yönəlmiş tədbirlər kompleksi kimi metodların ümumi kompleksini dörd qrupa bölmək məqsədəuyğundur. Bunlar ideoloji, institusional, təşkilati-iqtisadi və sosial-iqtisadi üsullardır.

Kooperativ idarəetmə formaları, onların fərqləndirici xüsusiyyətləri, aqrar-sənaye kompleksində digər idarəetmə formaları ilə müqayisədə təşkilati-iqtisadi və sosial-iqtisadi üstünlükləri haqqında əhali arasında etibarlı və dolğun məlumatların yayılmasında;; institusional - idarəetmənin kooperativ formalarının yaradılmasını və fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının və çoxsaylı normativ sənədlərin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanmasında; iqtisadi - müəyyən sürətlə genişləndirilmiş təkrar istehsal əsasında kənd təsərrüfatı kooperativlərinin fəaliyyətini təmin edən iqtisadi göstəricilər sisteminin və onların normativ qiymətlərinin əsaslandırılmasında; sosial - kooperativlərin gəlirlərinin onların istifadəsinin müxtəlif istiqamətləri

üzrə bölgüsünün, ölçüsünün və proporsiyalarının əsaslandırılmasında, habelə kooperativlərdə mülkiyyət münasibətlərinin təkmilləşdirilməsinə dair təkliflərin işlənib hazırlanmasında ideoloji üsullardan istifadə edilir.

Aqrar sektorun kooperativ sisteminin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi sahibkarlıq subyektləri üçün öz resurs potensialından səmərəli istifadə etməklə istehsalın (xidmətlərin göstərilməsinin) həcminin artımını təmin edən şəraitin (iqtisadi, sosial, hüquqi) kooperativ sisteminin inkişafına töhfə verən fəaliyyətin bütün digər aspektlərinin müəyyən bir tempi və genişləndirilmiş təkrar istehsalın yaradılmasına yönəldilməlidir.

Aqrar-sənaye kompleksində kooperasiyanın inkişafının dövlət tənzimlənməsinin əsas istiqamətləri aqrar-sənaye kompleksində idarəetmənin bütün təşkilati-hüquqi formalarına yönəlmişdir. Amma kooperativlərin fərqləndirici xüsusiyyətləri və kooperasiyanın kənd əhalisi və kənd yerlərinin inkişafı üçün böyük əhəmiyyəti ilə əlaqədar olaraq aqrar sektorun kooperativ sisteminin təsərrüfat subyektlərinə müəyyən üstünlüklər verilməlidir. Bu, xüsusilə, istehsal və istehlak kooperativlərinə geniş təkrar istehsalı, rəqabət qabiliyyətini və dayanıqlı maliyyə vəziyyətini təmin etmək üçün kifayət qədər subsidiya və subvensiyaların, güzəştli kreditlərin, vergi və digər güzəştlərin verilməsinə aiddir.

Nümunəvi sorğular göstərir ki, hazırda DİMlər sahibkarlıq fəaliyyətinin digər təşkilati-hüquqi formaları ilə müqayisədə daha az müxtəlif növ subsidiyalar alırlar. Subsidiyalar təyinatı üzrə və müqavilə əsasında ayrılmalıdır.

Bununla belə, hazırda kənd istehsalçıları arasında məhsulların istehsalı və satışı, logistika və xidmətlərin göstərilməsi sahəsində əməkdaşlığın inkişafına mane olan aşağıdakı amilləri müəyyən etmək olar:

- kənd əhalisinin, kiçik və orta kənd biznesinin aşağı gəliri onlara kooperativlərin yaradılması və fəaliyyəti üçün zəruri başlanğıc kapitalı verməyə imkan vermir;
- bank kreditlərinin olmaması, kiçik və orta kənd biznesinə maliyyə xidmətlərinin göstərilməsi sistemlərinin zəif inkişafı;
- ixtisaslı kadrların və onların axtarışı, hazırlanması və saxlanılması mexanizminin olmaması;
- kənd sakinlərinin əməkdaşlığın faydaları haqqında məlumatlılığının aşağı səviyyədə olması;
- kənd yerlərində hüquq mədəniyyətinin aşağı səviyyəsi, əhalinin qanunvericilik fəaliyyətinin şərtlərindən praktiki olaraq məlumatlı olmaması;
- yaradılan hər hansı strukturlara əhalinin yüksək səviyyədə inamsızlığı, bunun nəticəsində ətalət, qərarsızlıq, hər hansı bir layihəyə investisiya qoymaq istəməməsi.

Bu və digər problemləri yalnız mövcud vasitələrdən istifadə etməklə, ölkə miqyasında hərtərəfli, tez və səmərəli həll etmək mümkün deyil, kənd yerlərində kooperasiyanın inkişafı üçün xüsusi proqramın işlənib hazırlanmasına və qəbuluna ehtiyac var.

Bununla belə, dövlət siyasəti təkcə dəstəkləməməli, həm də kooperativ və inteqrasiya olunmuş birləşmələr daxilində qarşılıqlı əlaqənin tənzimlənməsi mexanizmlərini (modellərini) inkişaf etdirməli, bəzi hallarda inteqrasiya olunmuş və kooperativ tipli müxtəlif birləşmələrin struktur bölməsi kimi çıxış etməlidir [6].

Beləliklə, kooperativlərin digər təsərrüfat subyektlərindən üstünlükləri, kənd təsərrüfatının və aqrar-sənaye kompleksinin digər sahələrinin inkişafında rolu və əhəmiyyəti genişmiqyaslı və dayanıqlı kooperativ sisteminin yaradılmasını zəruri edir.

Aqrar-sənaye kompleksində müasir kooperasiya sistemi formalaşma mərhələsindədir, parçalanma ilə xarakterizə olunur, kənd təsərrüfatı istehsalı və kənd təsərrüfatı istehsalçıları üçün zəruri olan müxtəlif xidmət növlərinin həcmini lazımi səviyyədə əhatə etmir. Bu baxımdan aqrar-sənaye kompleksində kooperativ sistemin formalaşdırılması ilə bağlı təqdim etdiyimiz konseptual müddəalar onun təşkilati strukturunun və fəaliyyət mexanizminin təkmilləşdirilməsi üçün əsasdır. Onlara əməl olunması sənayedə iqtisadi artımı və kənd yerlərinin inkişafını təmin edəcək [6].

**Nəticə**

Əldə etdiyimiz məqalənin nəticələrindən aqrar-sənaye kompleksinin yerli və respublika orqanları tərəfindən bu idarəetmə formalarının səmərəliliyinin artırılması yollarının və inkişaf perspektivlərinin müəyyən edilməsində istifadə oluna bilər ki, bu da sabitləşməyə və gələcək inkişafa kömək etməlidir.

Məqalənin əsas nəticələrinin elmi yeniliyi aşağıdakılardır:

- rayonda və müxtəlif kateqoriyalı təsərrüfatlarda əldə edilmiş istehsal səviyyəsini və maliyyə-təsərrüfat nəticələrini xarakterizə edən kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin meyarları və göstəriciləri dəqiqləşdirilmişdir;

- rayonun aqrar sektorunda aparılan sosial-iqtisadi dəyişikliklərin ziddiyyətli nəticələrinin qiymətləndirilməsi, sistemli böhranın səbəbləri müəyyən edilmiş və sistemləşdirilmiş, dövlətin aqrar sahənin inkişafı üçün şəraitin yaradılmasına təsirinin əsassız olaraq zəifləməsi ilə əlaqədardır; aqrar-sənaye kompleksinin səmərəli fəaliyyəti;

- dövlət və özəl investorların iştirakı ilə iqtisadiyyatın maliyyə cəhətdən sağlamlaşdırılması, aqrar-sənaye kompleksində kooperasiya və inteqrasiya proseslərinin inkişafı əsasında kənd təsərrüfatı müəssisələrinin, kəndli-fermer təsərrüfatlarının və təsərrüfatların səmərəli fəaliyyəti üçün təşkilati-iqtisadi şərait yaradılır;

- rayonun aqrar sektorunun iqtisadiyyatının inkişafının əsaslandırılmış prioritet istiqamətləri, o cümlədən onun strukturunun rasionallaşdırılması və məhsul alışının təşkili, maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi hesabına sahibkarlıq subyektlərinin gəlirlərinin artırılması, qiymət, vergi və sığorta sistemləri, onun sosial bazasının inkişafı üçün şərait yaradılması.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Aqrar münasibətlər. Nəzəriyyə, tarixi təcrübə, inkişaf perspektivləri. (İ.N.Buzdalovun redaktorluğu ilə). M. Nauka, 1993.
2. Alferyev V.P. Aqrar-sənaye kompleksində maddi-texniki ehtiyatlar bazarı // Aqrar bazarın təşkilati-iqtisadi əsasları. M: 1997.
3. Kənddə müxtəlif təsərrüfat formalarının inkişafının təhlili və qiymətləndirilməsi / Yuqay A.M. Saqaydak E.A. M.: VNIESKh, 1991. - s. 82.
4. Andreichuk V.G. Vikhor N.V. Aqrar-sənaye istehsalının səmərəliliyinin yüksəldilməsi. Kiyev: Məhsul, 1990.
5. Boev V.R. Bazar münasibətlərinin təkmilləşdirilməsi və aqrar-sənaye kompleksinin səmərəliliyinin artırılması. APK: iqtisadiyyat, idarəetmə, 1994, №1, s. 3845.
6. Boev V.R. Şutkov A.A. Serkov A.F. və s. Aqrar-sənaye istehsalında iqtisadi tədqiqat metodları RAAS / Ed. Boeva V.R. M.: 1999. - 260 s.

**Аладдин Исмаил оглы ГУРБАНАЛИЕВ, PhD, Doc.**

**Тюркан Мехди кызы ГУСЕЙНОВА**
Азербайджанский Технологический Университет

## ПОВЫШЕНИЕ ВЛИЯНИЯ КООПЕРАЦИИ НА ЭКОНОМИЧЕСКУЮ ЭФФЕКТИВНОСТЬ ПРОИЗВОДСТВА В АГРАРНОЙ СФЕРЕ

### Резюме

Для эффективной работы агропромышленного комплекса необходимо развитие процессов интеграции и кооперации, которые напрямую связаны с направленностью аграрной политики. В целях стабилизации экономики агропромышленного комплекса должна быть разработана аграрная политика, которая будет способствовать интеграции и кооперации, повышению финансовой устойчивости сельскохозяйственных и перерабатывающих предприятий, решению проблем продовольственной безопасности.

На основе исследования установлена связь между формированием направлений аграрной политики и этапами формирования процессов развития интеграции и кооперации, причем типы сельскохозяйственных образований, сформировавшиеся на определенном этапе, продолжают существовать и в дальнейшем периоды.

**Ключевые слова:** аграрная политика, развитие сотрудничества, эффективная работа, процессы совершенствования.

**Aladdin Ismayil oglu GURBANALIYEV, PhD, assoc.prof.**

**Turkan Mehdi gizi HUSEYNOVA**
Azerbaijan Technological University

# IMPROVİNG THE EFFECT OF COOPERATİON ON THE ECONOMİC EFFİCİENCY OF PRODUCTİON İN THE AGRİCULTURAL FİELD

**Summary**

For the efficient operation of the agro-industrial complex, the development processes of integration and cooperation, which are directly related to the direction of the agrarian policy, are necessary. In order to stabilize the economy of the agro-industrial complex, an agrarian policy that will promote integration and cooperation, increase the financial stability of agricultural and processing enterprises, and solve food security problems should be developed.

Based on the research, a connection was established between the formation of the directions of the agrarian policy and the stages of the formation of the development processes of integration and cooperation, and the types of agricultural formations formed at a certain stage continue to exist in later periods.

**Keywords:** Agrarian policy, development of cooperation, efficient operation, improvement processes

**Aygün Səfər qızı ŞÜKÜROVA, i.e.ü.f.d., dosent**
Azərbaycan Dövlət iqtisad Universiteti

**Səbinə Rauf qızı KƏSƏMƏNLİ,**
Azərbaycan Dövlət iqtisad Universitetinin magistrantı

# MÜASİR DÖVRDƏ ELEKTRON TİCARƏTİN İQTİSADİYYATA TƏSİRLƏRİ VƏ ORTAYA ÇIXAN PROBLEMLƏR

**Xülasə**

Müasir dövrdə informasiya cəmiyyəti sosioloji inkişafın əsas mərhələlərindən, intellektual kapitalın ön planda olduğu iqtisadi şəraitdə formalaşan əsas faktorlardan biridir. İnformasiya texnologiyalarının sürətli inkişafı ilə kompüter və internetdən istifadə bu gün həyatın ayrılmaz hissəsinə çevrilib. Qolaballaşma şəraitində informasiya cəmiyyətinə keçid iqtisadi strukturda da müəyyən dəyişikliklərə səbəb olmuşdur. İnvestisiya və kapitaldan intensiv istifadə edən, fəal menecerləri olan təşkilatlarda qabaqcıl texnologiyaya, yeniliklərə nail olmaq, çevik strukturlar yaratmaq, daha sürətli və asandır.

Rəqəmsal platformalardan istifadə etməklə istehlakçılar məhsul və ya xidmət haqqında asanlıqla məlumat əldə etmək imkanlarına malik olurlar. Beləliklə, məhsul və ya xidmət haqqında məlumat əldə etməklə və həmin məhsul və ya xidmətlə bağlı digər variantları nəzərə almaqla, asanlıqla satınalma davranışına nail olmaq olur.

Son dövrlər coğrafi sərhədləri aradan qaldıran internet, istehlakçıların bir çox vərdişləri ilə yanaşı, onların həyatını da dəyişə bilmişdir. İstehlakçıların alış vərdişləri də bu dəyişiklikdən dərin təsirlənib. İstehlakçılar fiziki mağazalara getmək əvəzinə virtual mağazalardan alış-verişə üstünlük verməyə başlayıblar. Virtual mağazaların fiziki mağazalar kimi müəyyən saatlarda bağlanmaması istehlakçılara vaxt məhdudiyyəti olmadan istədikləri zaman alış-veriş imkanı veririr.

Yuxarıda qeyd olunan məqamlar müasir dövrdə informasiya texnologiyaları ilə bağlı mövzuların araşdırılmasını, mövcud problemlərin həllini eyni zamanda təhlükəsizilik məsələlərinin aktuallığını şərtləndirir. Məqalədə elektron resrusların iqtisadiyyata qlobal təsirləri, üstünlükləri, ortaya çıxan problemlər, gələcək perspektivlər və cəmiyyət üçün əhəmiyyət kəsb edən digər məqamlar əksini tapmışdır.

**Açar sözlər:** elektron ticarət, istehlakçı davranışı, satınalma, informasiya cəmiyyəti, internet.

**UOT:338**
**JEL: F19**

**Giriş**

Daim dəyişən həyat şəraiti və əhalinin artması insanlar tərəfindən vaxtın səmərəli idarə edilməsi ehtiyacını ortaya çıxarmışdır. Müasir cəmiyyətdə həm qadınların, həm də kişilərin iş həyatına geniş şəkildə cəlb olunması səbəbindən vaxtın idarə edilməsinin aktuallığı daha da artmışdır. Zamandan səmərəli istifadə ilə bağlı mövcud tələb və ehtiyacları ödəmək üçün bir çox müxtəlif ticarət üsulları yaranmağa başlamışdır. Elektron ticarət və ya internet üzrəndən ticarət son illərdə məhz bu sahədə yaranan əsas innovativ üsullardan biri kimi, istehlakçıların alqı-satqı davranışlarına əsaslı təsir göstərə bilmişdir.

Qlobal şəbəkələrin, biznes logistikası, rəqabət üstünlükləri, informasiya resurslarına çıxışın asanlığı, müştərilərin istəklərinin reallaşdırılması, marketinq və satış imkanlarının artırılması, biznes tərəfdaşlığı və biznesin inkişafının həyata keçirilməsi, alıcı və satıcıların şəbəkəsinin yaradılması və s. bu kimi əməliyyatlar elektron ticarətin ən mühüm və alternativsiz üstünlükləri hesab edilir. Xərclərin azaldılması, bazara daxil olma problemlərinin minimuma endirilməsi və həm müştərilərin, həm də istehsalçıların informasiyaya çıxışının

asanlaşdırılması və insanların davranışlarının dəyişməsi rəqabətin artmasına səbəb olub. Bu vəziyyət müəssisələrin restrukturizasiyasını və bu müəssisələrin bazara daxil olma strategiyalarında dəyişiklikləri zəruri edir. Müəssisələrin informasiya texnologiyalarının tələblərinə uyğun olaraq təkmilləşdirilməsi həm də istehlakçıların rahatlığı, prosesin operativliyi baxımından çox vacibdir.

**Mövcud vəziyyət**. Müasir dövrdə qlobal bazarlara çıxışın səmərəli yollarından biri də elektron ticarətdır. Elektron ticarət müasir dövrdə dünyada ümumi ticarət dövriyyəsinin böyük hissəsini təşkil edir. Elektron ticarətin əsas üstünlükləri aşağıdakılardır:

- Elektron ticarət vasitəsilə həyata keçirilən alqı-satqı əməliyyatları daha qısa müddətdə və asan şəkildə həyata keçirilə bilir;
- Elektron ticarətdə ölkələr arasında sərhədlər tamamilə olmasa da, qismən aradan qaldırılmış olur;
- İqtisadi struktur daha da intensivləşir;
- İstehlakçılar istədikləri yerlərə və istədikləri ehtiyaclara vaxta qənaət edərək vaxt problemini böyük ölçüdə aradan qaldırırlar.

Elektron ticarətin əsas üstünlüklərindən biri də onun texnoloji və intellektual xüsusiyyətidir. İstehlakçılar tərəfindən kommersiya əməliyyatlarında elektron ticarətin daha effektiv istifadəsi ilə kommersiya anlayışları və davranışlarında bəzi dəyişikliklər baş vermişdir. Elektron ticarətlə bağlı dəyişikliklər istehlakçıların gözləntilərini, keyfiyyətli xidmətin səviyyəsini, sərfəli məhsullara tələbi artırmışdır. Bu çərçivədə davranışı dəyişən müştərilərin seçimlərinin artması, bəyənmə problemlərinin yaranması və bu seçimlər arasında praktik və sürətli keçidlər etməsi kimi nüanslar meydana çıxdı (8).

Elektron ticarətin istehlakçılara verdiyi üstünlükləri aşağıdakı kimi qeyd etmək olar:

• Xərclərə qənaət etmək imkanı,
• Vaxta qənaət etmək imkanı,
• Reklam və tanıtımda çevik olmaq bacarığı,
• Müştəri ilə birbaşa əlaqə saxlamaq imkanı,
• Sürətli məlumat toplama imkanı,
• Qlobal bazarlara çıxmaq imkanı,
• Nəticələri və əməliyyatları izləmək imkanı (2).

Elektron ticarət coğrafi sərhədləri aşmaqla biznes sahələrini genişləndirmişdir. Xammala və ya aralıq mallara ehtiyac yarandıqda, istənilən biznes öz coğrafi bölgəsindən kənarda təchizatçılara asanlıqla çata bilər. Şirkətlərin və müştərilərin bir-birləri ilə çox daha sürətli ünsiyyət qurması, almaq və satmaq istədikləri mal və xidmətlərə daha qısa müddətdə minimum xərclə çatma imkanı yaradır. Bu, elektron ticarətin ən mühüm iqtisadi təsirlərindən biridir. Elektron ticarət sayəsində bir çox müəssisələr böyük sərmayələr qoymadan mal və xidmətləri bazara çıxarmaq fürsətinə nail olub və qazanclarını yüksək səviyyələrə çatdırıb.

Elektron ticarətin müəssisələrə faydalarını aşağıdakı kimi sıralamaq olar.

• Xərclərə qənaət, daha çox reklam və tanıtım,
• Vaxta qənaət etmək imkanı,
• Məhsulları alarkən satınalma prosesini idarə edə biləcək üsullarla müştərilərlə görüşmək,
• İnformasiyanın daha zəngin olması və qarşılıqlı əlaqəyə açıq olması,
• İnformasiya əldə etməkdə zaman və məkanın yoxa çıxması,
• Bazara giriş problemlərinin minimuma endirilməsi və hamıya bərabər çıxışın təmin edilməsi.

Yeni inkişaf tendensiyaları iqtisadi, sosial və mədəni sahələrdə də bir sıra dəyişiklikləri ehtiva edir. Bu mənada elektron ticarətin yeni bir inkişaf forması, uyğun olaraq yeni dəyişikliklərin yaranmasını qaçılmaz edir. O, sosial həyata daha çox sirayət etməklə müxtəlif iqtisadi və sosial dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə, müasir dövrdə internetin müxtəlif platformalarda geniş istifadəsi insanların psixoqrafik və hedonik davranışlarında gözə çarpan dəyişikliklərə gətirib çıxarmışdır.

Ticari baxımından internet vasitəsilə elektron marketinq; hər kəs üçün əlçatan olan şəbəkələr üzərində həyata keçirilən kommersiya əməliyyatları kimi ifadə edilir. İnternet vasitəsilə aparılan marketinq əməliyyatları qiymətlərin müəyyən edilməsi baxımından da mühüm prosesdir. Belə ki, internet üzərindən formalaşan qiymətlər daha rəqabət qabiliyyətli olur. Həmçinin elektron ticarət mərkəzləri daha ədalətli qiymət strategiyası irəli sürərək onların əsas məqsədi müştəri məmnuniyyətini qazanmaq olur (5).

Elektron ticarətin marketinq üçün üstünlüklərini aşağıdakı kimi sıralamaq olar.

• Doğru müştərini hədəfləmək,

• Fəaliyyətlərin səmərəliliyinin artırılması,

• İstehlakçı münasibətlərində fərqli yanaşmaların inkişaf etdirilməsi,

• Müştərilərə kömək etmək imkanı vermək,

• Müştərilərə öz əməliyyatlarını həyata keçirmələri üçün lazımi yardımın göstərilməsi,

• Fərdiləşdirilmiş xidmətlərin göstərilməsi,

• Müştəri qruplarının formalaşmasının təmin edilməsi.

Elektron ticarətin iqtisadi struktura əsas təsirlərindən biri bazara giriş maneələrinin daha az olmasıdır ki, bu öz növbəsində biznes sahələrinin genişlənməsində vacib rol oynayır. Bu təsir sürətlə dəyişən informasiya-kommunikasiya texnologiyalarının faydalı nəticəsidir. Elektron ticarətlə yaranan bu təsir iqtisadi həyata müsbət təsir göstərir. Elektron ticarət sayəsində bütün istehsalçılar, təchizatçılar və müştərilər bir araya gətirilərək və bu çərçivədə məhsul və xidmətlərin istehsalının rəqabət səviyyəsini və fürsətlərini artırmışdır.

Elektron ticarət və klassik distribütorluq və pərakəndə satış sahəsində rəqəmsallaşma işçi qüvvəsinə də təsir göstərmişdir. Elektron ticarət nəticəsində yaranan məşğulluq sferası ənənəvi işçi qüvvəsi və fiziki əməkdən daha fərqli, əsasən zehni imkanlar hesabına həyata keçirilir. Əmək münasibətləri işçi qüvvəsinin potensialı virtual bazarın şərtlərinə uyğun olaraq formalaşır. Bu da elektron ticarətin məşğulluğa olan dolayı və birbaşa təsirləridir. (9).

**Elektron ticarət sisteminin problemləri.** Kommersiya münasibətlərinin bütün sahələrində olduğu kimi, elektron ticarətin üstünlükləri ilə yanaşı müəyyən çatışmazlıqları da var. Elektron ticarət sistemində alıcı və satıcılar naməlum “satıcı”larla qarşılaşa bilir. Alqı-satqı zamanı etibarsızlıq, alınacaq məhsulu araşdıra bilməmək kimi narahatlıq və bəzi problemlər ön plana çıxır. Həmçinin, sürətli texnoloji yeniliklər və satıcılar arasında yüksək rəqabət, mövcud texnologiyanın olmaması, sistemə inteqrasiyanın çətinliyi, qlobal problemlər, şirkətə kənardan təsir edən müdaxilələr, qanunvericilik bazasının mükəmməl olmaması halları da bu çatışmazlıqların sırasına daxil edə bilərik. (10).

Digər bir problem hansı ki, müştərilər tərəfindən tez-tez narazılıqlara səbəb olan, faktorlardan biri alınan məhsulun geri qaytara bilməmək çətinliyidir. Eyni zamanda müştərinin məhsulu almaq istədiyi zaman onu yaxından görmək və sınamaq şansının olmamasıdır. Başqa bir əhəmiyyətli çatışmazlıq, bəzi böyük elektron pərakəndə satış şirkətləri istisna olmaqla, müştərilərin elektron pərakəndə satışçılara və elektron alış-veriş mühitinə etibar etməməsidir. Yuxarıda qeyd olunanları ümumiləşdirərək elektron ticarətin aşağıdakı əsas çatışmazlıqlarını qeyd edə bilərik: (7):

- Elektron ticarət zamanı alınan məhsulları görmədən və toxunmadan almaq zərurətinin olması

onların etibarlılıq səviyyəsini aşağı salır,

- Elektron ticarət vasitəsilə alınmış məhsulu gözləmək və çatdırılma prosesində yaranan gecikmə halları, zədələnmə və ya səhv çatdırılma halları,

- Onlayn alış-verişə etibar etməyən istehlakçılar fiziki biznesə üstünlük verməsi,

- Bazarlarda artan rəqabətə uyğunlaşmaqda müəssisələrin çətinlikləri,

- İstehlakçılarla birbaşa əlaqənin olmaması və ya az olması səbəbindən satıcı ilə alıcı arasında ünsiyyətin qurulmasında yaranan çətinliklər,

-Alıcıların onlayn marketlərdən alqı-satqı prosesində tanımadıqları insanlara kredit kartı məlumatlarını vermək istəməməsi.

Bunlarla yanaşı aşağıdakı təhlükəsizlik məsələləri də elektron ticarət sisteminin önəmli problemlərindəndir:

- İnternetdə yarana biləcək xətalar,
- İstifadəçi məxfiliyinin pozulması,
- İnternetdə fırıldaqçılıq və oğurluq,
- Məlumatların bütövlüyündə problemlər,
- Alınan xidmətdən imtina.

Elektron ticarət mühitində mövcud olan və inkişafından irəli gələn bu cür narahatlıqlara baxmayaraq, bu sahə sürətlə inkişaf edir. Lakin gələcəkdə bu problemlərin həll edilməməsi alıcı və satıcılar arasında elektron ticarətin həcminin azalmasına səbəb ola bilər. Bu səbəbdən qlobal səviyyədə bu problemlərin müəyyən edilməsi və həlli elektron ticarətin varlığı üçün olduqca vacibdir (1).

Elektron ticarət iqtisadi baxımdan səmərəli və effektli olsa da də, bu sahəyə tam etibarın

olmaması və ya başqa sözlə desək, etibarın az olması istehlakçıların bu sahədən geniş istifadəsinə mane olur. Elektron ticarətə inam anlayışı internet mühitində sistem təhlükəsizliyi və istifadəçilər arasında etibarlılıq deməkdir. Sistem təhlükəsizliyinin təmin edilməsi elektron ticarətin uğurlu olması üçün ən əsas faktordur. Bu prosesdə baş verə biləcək ən kiçik xəta istifadəçilərin məlumat sistemlərinin məxfiliyinə, təhlükəsizliyinə, bütövlüyünə və əlçatanlığına təhdid hesab olunur. Bu təhdidlər həmçinin müəssisələrin maliyyə məlumatlarını, müştəri məlumatlarını oğurlamaq, sistemə zərərli proqram (virus) yoluxdurmaq, məxfi saxlanmalı olan faylları oğurlamaq, internet bağlantısını kəsmək kimi ifadə edilə bilər (3).

Elektron ticarət sisteminin təhlükəsiz olması üçün üç əsas faktor önəmlidir. Bunlar: məxfilik, bütövlük və əlçatanlıqdır.

Məxfilik – istifadəçilərin elektron ticarət əməliyyatlarını həyata keçirərkən onların vacib məlumatlarının və şəxsi məlumatlarının başqası tərəfindən görülməməsi kimi ifadə edilə bilər.

Əlçatanlıq – sistem provayderlərinin və ya məlumatların əlçatmazlığı kimi ifadə edilə bilər.

Elektron ticarət anlayışı sürətlə dəyişən, inkişaf edən texnoloji cəhətdən təkmilləşən, bir dövrdə bu sahəni tənzimləyən qanunlarda boşluqların zamanla ortaya çıxdığının şahidi oluruq. Bu problemlərin həllində xilaskar kimi yeni hüquqi qaydaların hazırlanması günümüzün aktual problemlərindəndir (4).

Texnologiyanın inkişafı və qloballaşma ilə bağlı yaranan problemlərin ən öndə olanı və elektron ticarət sistemində də mövcud olanı vergi sisteminin tənzimlənməsidir. Ən böyük problem vergilərin yüksək olduğu ölkələrdən vergi dərəcələri daha aşağı olan ölkələrlə elektron ticarətin həyata keçirilməsindədir. Xüsusilə bu ölkələr arasında vergi ilə bağlı qarşılıqlı razılaşma sənədləri olmadıqda ortada mövcud olan problemin həlli daha çətin olur.

Vergilərlə bağlı digər problem müəyyən mənada "elektron qaçaqmalçılıq" hallarının mövcud olmasıdır (6). Elektron bazarın strukturuna görə vergidən yayınma hallarının qarşısının alınması üçün də ayrıca qanunvericilik bazası tələb olunur.

**Nəticə**

Nəticə etibarı ilə, qədim dövrlərdə ənənəvi istehsal, satış və marketinq üsullarından istifadə edildiyi halda, bugünki texnoloji inkişaf cəmiyyətin həm məlumat, həm də məhsul almaq imkanlarını xeyli asanlaşdırmışdır. Elektron ticarət istehsal olunan məhsulların istehlakçıya çatdırılmasında yaranan problemlərin böyük bir hissəsini aradan qaldırmağa kömək etsə də elektron ticarət sisteminin də özünəməxsus problemləri yaranıb. Bu problemlərə uyğun olaraq həll yollarının tapılması gələcəkdə elektron ticarətin inkişafı üçün önəmlidir.

Eleltron ticarətin yaratdığı imkanlar hesabına məhsulların istehlakçıya asan və sürətli çatdırılması istehlakçıların seçim və istəklərində dəyişikliklərə səbəb olmuşdur. Beləliklə, informasiya texnologiyalarının inkişafı ticarətə yeni bir məfhum və format gətirdi.

## ƏDƏBİYYAT SİYAHISI

1. Butler P., Peppard J. "Consumer Purchasing On The Internet: Processes and Prospects" // European Management Journal, 2008, p. 600-610.
2. Crisp C.B., Jarvenpaa S.L., Todd P.A. (2017), "Individual Differences and Internet Shopping Attitudes and Intentions". Texas, "Graduate School of Business Working Paper", p.250 (Crisp, 2017)
3. Duffy D. "Commentary: Internal and external factors which affect customer loyalty" // Journal of Consumer Marketing, 2003, p.480-485.
4. Durmaz Y. (2011), "Consumer Behavior", Ankara, "Detay Publishing House", p.360
5. Evans J., Over D. (2006), "Rationality and Reason-In". London, "Hove", p.150
6. Kocabaş I. "Social media as a public relations tool: A review of the corporate Facebook and Twitter accounts of Arçelik and Bosch brands" // Selcuk University Faculty of Communication Academic Journal, 2016, p.86.
7. Stephen A. "The Role of Digital and Social Media Marketing in Consumer Behavior" // Current Opinion in Psychology, 2006, p.17-21.
8. Stokes R. "E-marketing: The Essential Guide to Marketing in a Digital World" // (5 b.). Quirk Education Pty (Ltd), 2013, s.528

9. Yasmin A., Tasneem S., Fatima K. "Effectiveness of digital marketing in the challenging age: an empirical study" // International Journal of Management Science and Business Administration, 2015, p.71-72.

10. Yavuz A.Ş. "Tüketicilerin E-Ticaret Algılarının İncelenmesi (Gaziantep ve Adıyaman Örnek Olayları)" // Mehmet Akif Ersoy Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2015, 7(13), s.413-433.

**Aygun Safar qızı Shukurova, PhD in economics, associate professor**
Azerbaijan State Economic University (UNEC)

**Sabına Rauf gızı Kasamanlı,**
Graduate student of Azerbaijan State University of Economics (UNEC)

## EFFECTS OF ELECTRONIC COMMERCE ON THE ECONOMY IN THE MODERN PERIOD AND ARISING PROBLEMS

### Summary

In modern times, the information society is one of the main stages of sociological development, one of the main factors formed in the economic conditions where intellectual capital is at the forefront. With the rapid development of information technology, the use of computers and the Internet has become an integral part of life today. In the conditions of globalization, the transition to the information society has also caused certain changes in the economic structure. It is faster and easier to achieve advanced technology, innovations, and create flexible structures in organizations that use investment and capital intensively and have active managers.

By using digital platforms, consumers have the ability to easily get information about a product or service. Thus, by acquiring information about a product or service and considering other options related to that product or service, purchasing behavior is easily achieved.

In recent times, the Internet, which has eliminated geographical boundaries, has been able to change many habits of consumers as well as their lives. Consumer buying habits have also been deeply affected by this change. Consumers have begun to prefer shopping in virtual stores instead of going to physical stores. Virtual stores do not close at certain hours like physical stores, allowing consumers to shop whenever they want without time restrictions.

The above-mentioned points determine the research of topics related to information technologies in the modern era, the solution of existing problems, and the relevance of security issues at the same time. The article reflects the global effects of electronic resources on the economy, advantages, emerging problems, future prospects and other points of importance for society.

**Keywords:** electronic commerce, consumer behavior, purchase, information society, Internet.

**Айгюн Сафар кызы Шукюрова, кандидат экономических наук, доцент**
Азербайджанского государственного экономического университета (UNEC)

**Сабина Рауф кызы Касаманли,**
магистрант Азербайджанского государственного экономического университета (UNEC)

## ВЛИЯНИЕ ЭЛЕКТРОННОЙ КОММЕРЦИИ НА ЭКОНОМИКУ В СОВРЕМЕННЫЙ ПЕРИОД И ВОЗНИКАЮЩИЕ ПРОБЛЕМЫ

### Резюме

В современное время информационное общество является одним из основных этапов социологического развития, одним из основных факторов, формирующихся в экономических условиях, где на первое место выступает интеллектуальный капитал. С быстрым развитием

информационных технологий использование компьютеров и Интернета стало сегодня неотъемлемой частью жизни. В условиях глобализации переход к информационному обществу также вызвал определенные изменения в экономической структуре. Быстрее и проще внедрять передовые технологии, инновации и создавать гибкие структуры в организациях, интенсивно использующих инвестиции и капитал, а также имеющих активных менеджеров.

Используя цифровые платформы, потребители имеют возможность легко получать информацию о продукте или услуге. Таким образом, приобретая информацию о продукте или услуге и рассматривая другие варианты, связанные с этим продуктом или услугой, легко добиться покупательского поведения.

В последнее время Интернет, устранивший географические границы, смог изменить многие привычки потребителей, а также их жизнь. Это изменение также сильно повлияло на покупательские привычки потребителей. Потребители стали отдавать предпочтение покупкам в виртуальных магазинах, а не в обычных магазинах. Виртуальные магазины не закрываются в определенные часы, как обычные магазины, что позволяет потребителям делать покупки в любое время без ограничений по времени.

Вышеуказанные пункты определяют исследование тем, связанных с информационными технологиями в современную эпоху, решение существующих проблем, и в то же время актуальность вопросов безопасности. В статье отражено глобальное влияние электронных ресурсов на экономику, преимущества, возникающие проблемы, перспективы на будущее и другие важные для общества моменты.

**Ключевые слова:** электронная коммерция, потребительское поведение, покупка, информационное общество, Интернет.

**Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV**
Azərbaycan Kooperasiya Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru.
AZ1124, Azərbaycan Respublikası, Bakı şəhəri, N.Nərimanov küç.93,
E-mail: emeherremov79@mail.ru

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

*Tədqiqatın məqsədi* – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf etdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir. Yeni yaradılmış iqtisadi rayonların resurs potensialı araşdırılmış və onlardan səmərəli istifadə edilməsinin vacibliyi əsaslandırılmışdır. Regiona investisiyaların və maliyyə resurslarının cəlb edilməsində alternativ variantlarının olmasına xüsusi diqqət yetirilmişdir. Əsas kapitala yönəldilən investisiyalar və bu iki iqtisadi rayonun son illərdə sənaye məhsulu istehsalı üzrə göstəriciləri verilmişdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişafının prioritetliyi əsaslandırılmışdır. Yüksək texnologiyalar, o cümlədən ağıllı texnologiyalardan istifadəyə üstünlüyün verilməsinin müsbət cəhətləri açıqlanmışdır. Baxılan problemlər üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

*Tədqiqatın metodu* – əsas etibarı ilə təhlil, sintez və ümumiləşdirmə kimi iqtisadi metodlardan istifadə olunmuşdur. Bunlarla bərabər, iqtisadi rayonların inkişaf problemlərinə dair elmi əsərlərdə və araşdırmalarda verilmiş fikir və mülahizələrə diqqət yetirilmişdir.

*Tədqiqatın nəticələri* – müasir şəraitdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf etdirilməsi üzrə daha səmərəli fəaliyyət istiqamətlərinin və prioritetlərinin müəyyənləşdirilməsi, mexanizmlərinin hazırlanması ilə bağlıdır.

**Açar sözləri:** Qarabağ, Şərqi Zəngəzur, iqtisadi rayonlar, iqtisadi rayonların inkişaf prioritetləri, Qarabağ iqtisadi rayonunun inkişaf perspektivləri, Şərqi Zəngəzur iqtisadi rayonunun inkişaf istiqamətləri.

**UOT: 332:338.012**
**JEL: R11; R12; R58**

## Giriş

Qeyd edək ki, Azərbaycanın əlverişli coğrafi mövqeyi onu zaman-zaman böyük dövlətlərin maraq obyektinə çevirib. Zaman yerində dayanmır və dövrlər dəyişir, dünyada yeni situasiyalar yaranır və müxtəlif ölkələrin iqtisadi maraqları çox vaxt üst-üstə düşmür. İqtisadi maraqlar üst-üstə düşmədiyi zamanlarda münaqişələr olmuş və nəticədə güclü iqtisadiyyata malik olan tərəflər qalib gəlmişlər. Azərbaycanın keçmiş tarixinə nəzər yetirdikdə görmək olar ki, bir sıra müharibələrin, işğalın, qətllərin və soyqırımların qarşısını almaq mümkün olmayıb, insanlarımız həyatlarını itirib, ərazilərimizə, sərvətlərimizə xeyli ziyan dəyib. Ötən 32 il ərzində olan hadisələrə nəzər yetirdikdə görmək mümkündür ki, Azərbaycan iqtisadiyyatına torpqlarımızın, yəni, Qarabağın və Şərqi Zəngəzurun Ermənistan tərəfindən işğalı nəticəsində milyonlarla dollar ziyan dəyib və bu ərazilərə səfər edən istənilən hər bir kəs dağıntıların miqyasını, işğal faktının hansı izlər buraxdığını açıq şəkildə görə bilər. Ərazimizin beşdə biri Birinci Qarabağ müharibəsi dövründə işğal olunub. İkinci Qarabağ müharibəsi başlamaqla, rəşadətli ordumuz Ali Baş Komandanın rəhbərliyi altında 44 gün ərzində torpaqlarımızı işğaldan azad edilər. Hazırda bu torpaqların sosial-iqtisadi reabilitasiyası prosesləri sürətlənməkdədir.

## Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf etdirilməsinə konseptual yanaşmaların tədqiqi

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, dağıdılmış infrastrukturun bərpası, Məcburi köçkünlərin doğma yurdlarına qayıdışı proseslərinin sürətləndirilməsi, işğal zamanı ərazilərdə düşmən tərəfindən dağıdılmış tikililərin bərpa edilməsi, müasir layihələrə uyğun yeni infrastrukturun yaradılması və s. çoxlu sayda məsələləri həll etmək lazımdır. Bu gün Qarabağ və Şərqi Zəngəzurun şəhər və kəndlərinin bərpası dövlətimizin qarşısında duran ən mühüm vəzifələrdəndir.

Dünyada innovativ texnologiyalar yaradılır və inkişaf etdirilir, insanlar köhnə kəndləri, şəhərləri yenidən qurmaq, müasir yaşayış massivləri salmaq arzusundadırlar. Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün ilk addımlardan biri yolların tikintisidir. Çünki yol inkişafdır və məhz həmin iqtisadi rayonlarda yeni yol-nəqliyyat infrastrukturunun yaradılması onların dirçəlişinə aparan "Böyük Qayıdış" proqramının ilkin mərhələsidir. Heç bir ərazinin yüksəlişini və inkişafını yollar olmadan təsəvvürə gətirmək belə qeyri-mümkündür. Ölkəmizin inkişafında əsas prioritetlərdən biri məhz Qarabağ və Şərqi Zəngəzurun bərpası və milli iqtisadiyyata inteqrasiyasıdır. Uzun illərin işğalı nəticəsində dağılmış infrastrukturun yenidən qurulması üçün böyük vəsait və zaman tələb olunur. Bərpa və yenidənqurma işlərinin qısa müddətdə, yüksək keyfiyyətlə və minimum investisiya ilə təmin edilməsi, ekoloji təhlükəsizliyin qorunması həllini gözləyən aktual vəzifələrdəndir.

Böyük Vətən Müharibəsindən sonra aparılan yenidənqurma işləri Azərbaycanın ümumi inkişaf strategiyasının tərkib hissələrindən olan Qarabağ və Şərqi Zəngəzurun reinteqrasiyası və dəyər zəncirinə daxil edilməsi yolu ilə reallaşdırılmaqdadır. Eyni zamanda, buraya beynəlxalq ekspertləri cəlb etməklə torpağa, suya, faydalı qazıntılara, meşə ehtiyatlarına, əmlak və mədəni sərvətlərə, ən əsası mülki əhaliyə dəymiş ziyan hesablanır və iddialar irəli sürülür. Qarabağ bölgəsinin inkişafı ilə bağlı strategiya qısa, orta və uzunmüddətli olmaqla müxtəlif səviyyələrdə fəaliyyətləri əhatə edir. Həmin strategiyanın həyata keçirilməsi məqsədilə müxtəlif dövlət siyasəti alətlərindən istifadə edilməsi çox önəmlidir [1, s.105]. Azərbaycanda əvvəllər fəaliyyət göstərən və yeni iqtisadi rayonlar bölgüsünə daxil olan bölgələrdə, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda ərazilərin inkişafı məqsədilə kifayət qədər potensial vardır. Qısa müddət ərzində yeni yaradılan iqtisadi rayonların potensiallarından onların inkişafı üçün istifadə olunması daha yaxşı nəticələrin əldə olunmasına şərait yaradacaqdır. Yeni iqtisadi rayonların inkişafı prosesində prioritetlərin optimal müəyyənləşdirilməsi konseptual şəkildə həll edilməli və bunun üçün iqtisadi, maliyyə, hüquqi və təşkilati mexanizmlər müəyyənləşdirilməli və təxirə salınmadan reallaşdırılmalıdır. Bu sahələrdə daha yaxşı nəticələrin əldə olunması məqsədilə yeni iqtisadi rayonların maksimum resurs potensialının, istehsal güclərinin, maddi-texniki bazasının obyektiv öyrənilməsi və qiymətləndirilməsi, həmin iqtisadi rayonların inkişafının elmi əsaslar və praktiki nəticələr əsasında təmin edilməsi və s. kimi tədbirlərin görülməsini vacib hesab edirik [2, s.46].

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların davamlı inkişafı məqsədilə iqtisadi fəaliyyət sahələrinin modelləşdirilməsi və sahibkarlığın inkişafı dövlət siyasətinin əsas tərkib hissələrindəndir. Məsələn, Sahibkarlığın İnkişaf Fondunun vəsaitlərindən həmin iqtisadi rayonların inkişafı məqsədilə səmərəli istifadə üzrə prioritet istiqamətlər müəyyənləşdirilib və bu sahələrə maraqlı və potensial investorların cəlb edilməsi əsas vəzifələrdəndir. Yaxın gələcəkdə yeni yaradılan bu iqtisadi rayonlarda yüksək texnologiya əsaslı sahələrin inkişafı baxımından daha səmərəli mexanizmlərin hazırlanması mümkün olacaqdır. Belə mexanizmlərə çevik və məhsuldar texnologiyala əsaslanan istehsal və emal sahələrinin yaradılması və səmərəli infrastruktur sahələrinin fəaliyyətinin təşkili daxildir. Bütün bunlar deməyə əsas verir ki, yeni bölgü ilə müəyyənləşdirilən iqtisadi rayonlarda inkişafın daha çevik və məhsuldar olacağını gözləmək olar [3 s.69].

Artıq Qarabağ və Şərqi Zəngəzurun regionun inkişafında və ümumilikdə milli iqtisadiyyatımızın gücləndirilməsində rolunun artırılması üçün həmin iqtisadi rayonlarda fəaliyyət göstərəcək sahibkarların stimullaşdırılması mexanizmləri, biznes mühitinin yaxşılaşdırılmasına daha münbit şərait yaradılması məqsədilə maliyyə, gömrük, vergi və kommunal xidmətlər sahəsində güzəştlər sistemi tətbiq edilir [4, s.53]. Hesab edirik ki, bir qrup fəaliyyət istiqamətləri Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın inkişafını təmin edə, onu həmin iqtisadi rayonların həyatında səmərəli amilə çevirə bilər:

1. İri sənaye müəssislərinin yaradılması. İri sənaye müəssisələri kiçik sənaye müəssisələrini sifarişlər, istehsal gücləri, avadanlıqlar, texnologiyalar, kadrlar və s. ilə təmin etməklə onların fəaliyyətinin təşkilatçısı kimi çıxış edə bilərlər.
2. İnvestisiya fəaliyyətinin gücləndirilməsi. Hazırda bir neçə istiqamətə investisiyalar qoyulur: məqsədli proqramların dövlət maliyyələşdirilməsi, regional və yerli büdcələrdən maliyyələşdirmə, xarici təşkilatların kreditləşməsi, vençur maliyyələşdirməsi və amortizasiya ayırmaları. Bu qədər maliyyə mənbələrinin mövcudluğuna

baxmayaraq, sahibkarlıq subyektləri üçün investisiya mühiti əlverişli olmaya bilər. Bunun səbəbləri müxtəlif ola bilər, məsələn, investisiyaların əldə edilməsindəki çətinlikləri misal çəkə bilərik.

3. Proteksionizm siyasətinin tərkib hissəsi vergi sistemi. Vergilər dövlətlə sahibkarlıq subyektləri arasında münasibətlərin əks etdirir və əsasən istehsalın inkişafına tabe edilməlidir. Sahibkarlıq subyektlərinə iqtisadi rayonların xüsusiyyətlərindən asılı olaraq differensiallaşdırılmış vergitutmanın tətbiqi zəruridir.

Bu qeyd olunanları reallaşdırmaq məqsədilə kompleks və sistemli tədbirlərin görülməsinə ehtiyac vardır və bizə görə konkret olaraq, dövlət tərəfindən Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın inkişafı məqsədilə növbəti addımları atmalıdır: 1) sahibkarlara startap mərhələsində yardım göstərilməsi; 2) sahibkarların xərclərinin subsidiyalaşdırılması; 3) kreditlərin alınmasında köməklik edilməsi və 4) əmlak və informasiya dəstəyinin göstərilməsi. Qeyd olunan vəzifələrin reallaşdırılması məqsədilə Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın yeni inkişaf proqramları hazırlanmalı və tətbiq edilməlidir. Həmin proqramların əsas məqsədləri bu vəzifələrin daxil edilməsini məqsədəuyğun hesab edirik: 1. Ərazinin sosial-iqtisadi inkişaf amillərindən biri kimi sahibkarlığın inkişaf tempinin artırılması. 2. Sahibkarlıq fəaliyyətinin sosial səmərəliliyinin yüksəldilməsi. Bununla bağlı göstəricilər aşağıdakılardır: sahibkarlıq sahəsində işçilərin sayında artım; orta gəlirlərin artımı; sahibkarlığın işçilərinin sosial müdafiəsi səviyyəsinin yüksəldilməsi. 3. Regional ÜDM-in bütün komponentlərinin (xidmətlər, malların istehsalı, xalis vergilər) formalaşmasında sahibkarlığın iştirak payının artırılması və 4. Sahibkarlıq subyektlərinin məhsullarının və xidmətlərinin müxtəlif bazarlarda rəqabət qabiliyyətinin təmin edilməsi, Qarabağ və Şərqi Zəngəzurda dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi üçün vahid sistemin formalaşdırılması. Sahibkarlıq subyektləri üçün maliyyə resurslarının əlçatanlığının artırılması ilə Qarabağ və Şərqi Zəngəzurda onların inkişafına kömək ediləcək. Beləliklə, dövlət qurumları sahibkarlıq üçün faiz dərəcələrinin ölçüsünə daha ciddi nəzarət funksiyalarını öz üzərinə götürməlidir. Bundan əlavə, kredit təşkilatlarının xərclərini azaltmaqla sahibkarlara verilən bank kreditlərinin faiz dərəcələrini aşağı salmaq olar. İnvestisiya layihələrinin səmərəli maliyyə idarə edilməsi üçün sahibkarlığın məqsədləri və onlara nail olmaq vasitələri, əvvəlki dövrlərin nəticələri və cari vəziyyəti nəzərə alınmalıdır.

Qeyd edək ki, müasir inkişaf mərhələsində iqtisadi rayonların davamlı inkişaf problemi ora daxil olan ərazi vahidlərinin iqtisadi qeyri-sabitliyi ilə əlaqədar yaranır. Əraziləri və təsərrüfatları təşviq etmək məqsədilə bir çox marketinq strategiyaları geniş şəkildə tətbiq edilməlidir. Buna əsaslanaraq, davamlı inkişaf müəyyən bir sahənin rəqabət qabiliyyətini təşviq və təmin etməyə imkan verəcəkdir. İstənilən iqtisadi rayon davamlı inkişaf edərsə, bütün sahələrdə dəyişikliklər ahəngdar və bir-biri ilə əlaqəli olarsa, o zaman həmin iqtisadi rayon üstünlük qazanar. Qarabağ və Şərqi Zəngəzurda müasir iqtisadi sistemlərin yaradılması və idarə olunması daim inkişaf tələb edir. Bu sistemlərin yaradılması və idarə olunmasında məqsəd onların davamlılığını qorumaq və bunun üçün effektiv mexanizm formalaşdırmaqdır. Digər tərəfdən, iqtisadi rayonların ekoloji və iqtisadi dayanıqlığın hərtərəfli təmin edilməsinə diqqəti artırmaq lazımdır.

Qarabağ və Şərqi Zəngəzurdakı resurs ehtiyatlarından səmərəli istifadə, onların istehsal prosesinə cəlb edilməsi, eləcə də bu iqtisadi rayonların ərazilərinin bərpası böyük həcmdə investisiyalar tələb edir. Odur ki, bu məqsədlər üçün 2021 və 2022-ci illər ərzində respublikanın dövlət büdcəsindən müvafiq olaraq hər il üçün 2,2 milyard manat dəyində vəsait ayrılmışdır. Fikrimizcə, bu vəsait kifayət deyil, belə ki, ölkənin inkişaf prioritetlərinin uğurla reallaşdırılması, müasir qloballaşma proseslərinin tələblərinin cavab vermək, bunun əsasında Qarabağın və Şərqi Zəngəzurun innovasiya yönümlü davamlı və inklüziv inkişafı gələcək illərdə təmin ediləcəkdir. Hesablamalara görə bunun üçün təqribən 5-8 il vaxt və 60 milyard manata qədər sərmayə tələb olunacaqdır. Bunun da yarıdan çoxu xarici şirkətlərin investisiyaları ola bilər. Fikrimizcə, həmin iqtisadi rayonların dağılmış iqtisadiyyatını tam bərpa etmək, buradakı yataqları istismar etmək, xammal və materialları emal etmək, dəyər zənciri üzrə məqsədyönlü son məhsul istehsal etmək məqsədilə xarici kapitalın birgə müəssisələr şəbəkəsinin yaradılması yolu ilə cəlb edilməsi əsas prioritetlərdəndir. KOBİA-nın məlumatına görə, son iki ildə xarici dövlətlərin 1000-ə yaxın kiçik və orta şirkəti Qarabağ və Şərqi Zəngəzurda işləmək məqsədilə Azərbaycana üz tutub. Onların arasında Türkiyə, İtaliya, İsrail, Pakistan, Macarıstan, Böyük Britaniya, Rusiya,

Qazaxıstan, Yaponiya və digər şirkətlər ən fəaldır. Demək olar ki, bu şirkətlər Qarabağ və Şərqi Zəngəzurun, bütün bölgələrinə tikinti, sənaye, ticarət və xidmət sahələri, kənd təsərrüfatı və digər sahələrə investisiya qoymaqda maraqlıdırlar [5, s.46].

Aşağıdakı şəkildəki məlumatlardan 2021-ci il ərzində Qarabağ və Şərqi Zəngəzurda təkcə tikinti sektoruna yönəldilən investisiyaların həcminin əvvəlki illərə nisbətən kəskin artdığını müşahidə edə bilərik (şəkil 1).




**Şəkil 1. Qarabağ və Şərqi Zəngəzurda tikinti sektoru üzrə əsas kapitala investisiyalar, min AZN (mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib)**

Şəkil 1-dən Qarabağda 2021-ci ildə tikinti sektoru üzrə əsas kapitala 1342032,7 min AZN investisiya yönəldiyini görə bilərik ki, bu da 2015-ci ilə görə 10,9 dəfə, 2020-ci ilə görə 5,1 dəfə çoxdur. Şərqi Zəngəzurda isə tikinti sektorunda əsas kapitala 862228,9 min AZN investisiya yönəldilib ki, bu da 2015-ci ilə görə 432,0 dəfə, 2020-ci ilə görə 40,2 dəfə çoxdur. 2021-ci ildə əvvəlki illərə nisbətən Qarabağ və Şərqi Zəngəzurda sənaye məhsulunun həcmində də artım olmuşdur. Belə ki, Qarabağda həmin il ərzində sənaye məhsulunun dəyəri 194776,3 min AZN olub ki, bu da 2015-ci ilə görə 4,4 dəfə, 2020-ci ilə görə 70,0% çoxdur. Şərqi Zəngəzurda isə 2021-ci ildə sənaye məhsulunun həcmi 7888,2 min AZN olub ki, bu 2015-ci ilə görə 6,5 dəfə, 2020-ci ilə görə 3,1 dəfə çoxdur. Demək olar bütün göstəricilər üzrə Qarabağ və Şərqi Zəngəzurda son 30 ilə yaxın bir müddət ərzində ən çox artım 2021-ci ildə müşahidə olunmuşdur ki, bunun da əsas səbəbi əvvəlki illərdə həmin ərazilərin çox hissəsinin erməni işğalı altında olması ilə bağlıdır.

**Müasir dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf etdirilməsi perspektivləri və yolları**

Qarabağ və Şərqi Zəngəzurun torpaq sahələrinin təkrar istifadəsi həmin iqtisadi rayonlarda yaşayan əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında, bütövlükdə respublikada kənd təsərrüfatının inkişafında önəmli rol oynaya bilər. Odur ki, həmin iqtisadi rayonların inkişafı ilə bağlı xüsusi dövlət proqramı və layihələr aktiv şəkildə reallaşdırılmalıdır. Zəngilan, Qubadlı, Laçın, Kəlbəcərdə heyvandarlığın inkişafı baxımından çox əlverişli imkanların olması buna misal ola bilər. Ağdam, Füzuli, Cəbrayıl rayonlarında əkinçilik imkanları daha genişdir. Ümumilikdə hər iki istiqamətin inkişafı üzrə Qarabağ və Şərqi Zəngəzur böyük potensiala və imkanlara malik iqtisadi rayonlardandır. Odur ki, hər bir rayon üzrə ayrıca qiymətləndirmə aparılmalı və bu sahələrin hansında inkişaf perspektivləri daha yüksək olarsa, o zaman həmin ərazilərin dirçəldilməsi istiqamətində tədbirlərə üstünlük verilməlidir.

Qarabağ Şərqi Zəngəzurda da infrastruktur layihələrinin, o cümlədən nəqliyyat-logistika layihəsinin reallaşdırılması bu iqtisadi rayonun inkişafını xeyli sürətləndirəcək, kənd və qəsəbələrin abadlaşdırılmasına gətirib çıxaracaq. Bu təsir təkcə Qarabağ və Şərqi Zəngəzurun deyil və bütövlükdə ölkənin inkişafında özünü əhəmiyyətli

dərəcədə göstərəcəkdir. Beləliklə, həmin iqtisadi rayonlar güclü resurslara, o cümlədən bir sıra ənənəvi və yeni iqtisadi sahələrin intensiv inkişaf potensialına malikdir. Bölgədə kənd təsərrüfatının üzümçülük, əkinçilik, bitkiçilik, heyvandarlıq və s. kimi ənənəvi sahələri inkişaf etdirmək baxımından böyük potensial da mövcuddur [7, s.157].

Məlumdur ki, ölkəmizin iqtisadi rayonlarında kifayət qədər resurslar vardır və burada kənd təsərrüfatının, xüsusilə onun əsas istiqamətləri olan heyvandarlıq və əkinçiliyin inkişaf imkanları diqqəti daha cəlb edir. Heyvandarlığın inkişafı üçün çox güclü ehtiyatlar var və Laçın və Kəlbəcər rayonlarında zəruri olan çəmənliklərin və otlaqların mövcudluğunu, yem bitki ehtiyatlarının bolluğunu xüsusilə vurğulamaq lazımdır. Bütövlükdə ətlik və südlük istiqaməti üzrə çoxlu sayda heyvandarlıq məhsulları istehsalının təşkili, AİZ-lər vasitəsilə kənd təsərrüfatı məhsulları emalı sənaye müəssisələri şəbəkəsinin yaradılması üçün perspektivləri mövcuddur [8, s.356].

Laçın və Kəlbəcər rayonlarının relyefinin mürəkkəb olmasına baxmayaraq, burada da bərpa və quruculuq işləri sürətləndirilir və intensivləşdirilir. Qısa müddətdə 4 su elektrik stansiyasının istifadəyə verilməsi sayəsində Azərbaycanın enerji gücü və bərpa olunan enerjinin həcmi artır. Füsunkar təbiətə malik Kəlbəcərin baş planı da çox yüksək səviyyədə hazırlanıb və bu planın gerçəkləşdirilməsi həmin rayonu bölgənin ən inkişaf etmiş regiona çevirə biləcəkdir. Laçında tikilməkdə olan yeni beynəlxalq hava limanın da 2024-cü ildə istifadəyə hazır olacağı proqnozlaşdırılır və bu da həmin rayona gediş-gəlişin rahatlılığını təmin edəcəkdir. Ümumiyyətlə Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma və quruculuq işlərinə infrastruktur obyektlərinin, o cümlədən, sosial obyektlərin, muzeylərin, məscidlərin, hava limanlarının, tunellərin dəmir yollarının bərpası və yenilərinin tikintisi daxildir [9].

Sovet hakimiyyəti illərində Qarabağda kənd təsərrüfatı o qədər inkişaf etmişdi ki, Azərbaycan üzrə həmin sahə məhsulları istehsalının, demək olar ki, üçdə birini təşkil edirdi. Burada torpağın ilkin olaraq münbit olması və istənilən növ bitkiçiliklə məşğul olmağa imkan verməsi danılmaz faktdır. Buğda, pambıq, tütün, üzüm, kartof, tərəvəz-tərəvəz - bütün bunlar böyüyüb öz bəhrəsini verir, yerli əhalinin bolluq içində yaşamasına şərait yaradırdı. Üstəlik, Qarabağ torpaqlarında yetişdirilən məhsullar həmişə yüksək keyfiyyətli və məhsuldar olub. Odur ki, bu sahələrin dirçəldilməsi bütün ölkə üzrə aqrar sahənin inkişafına yaxşı kömək olacaq.

Qarabağ iqtisadi rayonunda aqrar sahənin inkişafı istiqamətində layihələr planlaşdırılarkən və reallaşdırılarkən həmin layihələrin bu rayonla əlaqə və reinteqrasiya əlaqələrinin multiplikativ effektini araşdırmaq və qiymətləndirmək lazımdır. Qarabağda aqrar sahə üzrə ənənəvi məşğulluq sahələrinin inkişaf etdirilməsi ilə yanaşı, innovativ və "ağıllı" texnologiyalara əsaslanan müəssisələr şəbəkəsinin, əsasən də emal müəssisələrinin yaradılması prioritet məsələ olmalıdır. Bundan əlavə çevik infrastruktur və ixrac fəaliyyəti mexanizmini inkişaf etdirmək, kənd təsərrüfatı məhsulları istehsalı üçün xüsusi dövlət dəstəyi mexanizmlərini formalaşdırmaq, aqrar ixracı stimullaşdırmaq məqsədilə daha təsirli tədbirlər görmək böyük önəm daşıyır [10, s.91].

Bütövlükdə, aqrar sahənin inkişafı ölkənin bütün rayonlarını, eləcə də Şərqi Zəngəzur iqtisadi rayonunu əhatə etməlidir. Şərqi Zəngəzurda aqrar sahənin problemlərinin, onun inkişaf perspektivlərinin öyrənilməsinin aktuallığı onun ölkə iqtisadiyyatına gələcək töhfəsi ilə bağlıdır. Şərqi Zəngəzurda aqrar sahənin inkişafı ilə bağlı məsələlərin öyrənilməsi aqrar sahibkarlığın səmərəliliyinin yüksəldilməsində böyük önəm daşıyır. Aqrar sahənin inkişafı baxımından Qarabağ və Şərqi Zəngəzurda yüksək potensial olduğu məlumdur. Burada kifayət qədər resurs, o cümlədən heyvandarlığın və bitkiçiliyin inkişafı üçün resurslar var. Belə ki, Laçın və Kəlbəcər rayonları kifayət qədər otlaq və yem ehtiyatlarına malikdir. Bütövlükdə bu iqtisadi rayonların XİZ vasitəsilə heyvandarlıq məhsulları istehsalının təşkili və aqrar sahənin inkişafı baxımından böyük perspektivləri vardır [11, s.356].

Qarabağ və Şərqi Zəngəzurda tez bir vaxtda yenidənqurma işlərinin reallaşdırılması ilə bərabər, "yaşıl enerji" konsepsiyası əsasında işlərin görülməsi də əsas prioritet kimi qarşıya qoyulub. Ölkəmizdə, əsasən də Qarabağ və Şərqi Zəngəzurda "Yaşıl Enerji" zonasının yaradılmasına böyük önəm verilir. Çünki bütün dünyada ənənəvi enerji hal-hazırda elektrik enerjisi istehsalının əsas mənbələrindəndir. Bundan əlavə, bərpa olunan enerji mənbələrindən hesab olunan elekt-

rik enerjisi istehsalı bir çox ölkələrdə artmaqda davam edir. Bu növ enerjinin istehsalı ölkəmizdə də diqqət mərkəzindədir. Prezident İlham Əliyev tərəfəndən bu sahənin prioritetliyini nəzərə alaraq Azərbaycanda 2030-cu ilə qədər elektrik enerjisi istehsalında həmin enerji mənbələrinin payının təxminən 30%-ə çatdırılması ilə bağlı mühüm vəzifə qarşıya qoyulub. Dövlət başçısı tərəfindən imzalanan müvafiq sərəncamlar nəticəsində ölkəmizdə enerji sektorunun başqa sahələrində olduğu kimi, bərpa olunan enerji mənbələri sahəsində də investisiya mühiti üçün əlverişli şərait yaradılır və bu istiqamətdə irimiqyaslı layihələr reallaşdırırlır. Yaxın 10 ildə təxminən 1500 MVt yeni gücün yaradılması və istifadəyə verilməsi və bu vəzifənin özəl investisiyalar hesabına həyata keçirilməsi planlaşdırılır [12].

Şərqi Zəngəzurda bərpa oluna biləcək enerjiyə əsaslanan texnologiyaların tətbiq olunması nəzərdə tutulan “Araz vadisi iqtisadi zonası”nın yaradılması istiqamətində də işlər davam etdirilir [13, s.218]. Bu sənaye parkı, ilk öncə, coğrafi mövqeyi ilə diqqəti cəlb edir. Yəni, həmin sənaye parkı avtomobil, dəmir yollarının üzərində olmaqla həm də Cənub Qapısı - Şərqi Zəngəzurun İrana çıxışında yerləşir. Bu, da qeyd edilən sənaye parkında istehsal olunan məhsulların müxtəlif bazarlara çıxarılmasını təmin etməyə imkan verəcəkdir.

**Nəticə**

– Yaxın perspektivdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf etdirilməsinin prioritet istiqamətləri kimi bunları ümumiləşdirməyi məqsədəmüvafiq hesab etmişik:

– Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında və sonrakı dövrlərdə ekoloji cəhətdən təmiz nəqliyyatdan, “yaşıl enerjidən”, yəni alternativ enerji mənbələrindən istifadə məsələləri əsas prioritetlərdəndir;

– Bu məqsədlə yeni tikilən “Ağıllı şəhər”lərdə daha çox ictimai nəqliyyatdan istifadəyə üstünlük verilməlidir. Bu da özlüyündə yollarda nəqliyyat yükünü azaldacaq, torpaq sahəsinə və yol tikintisinə sərf olunan vəsaitə qənaət edəcəkdir;

– Ölkəmizdə avtomobilləşmənin səviyyəsinin yüksəlməsi şəraitində şəxsi nəqliyyat vasitələrinin sayının azaldılması və ictimai nəqliyyata üstünlük verilməsi üçün həmin nəqliyyat növünün işini səmərəli təşkil etmək lazımdır;

– Bu və ya digər işlərin reallaşdırılmasında əsas məqsəd Qarabağ və Şərqi Zəngəzur əhalisinin yaşayış şəraitinin yüksəldilməsi, bölgənin ekoloji vəziyyətinin qorunması və yaxşılaşdırılması, yeni yaradılmış istirahət mərkəzlərinə turistlərin cəlb edilməsi və birgə tikinti işlərinə əlavə sərmayələrin, o cümlədən xarici sərmayələrin cəlb edilməsinə şərait yaratmaqdır;

– Qarabağ və Şərqi Zəngəzurda beynəlxalq layihələrin reallaşdırılması və investisiyaların cəlb edilməsi regionun təhlükəsizliyinə müsbət istiqamətdə təsir göstərəcəkdir;

– Bu iqtisadi rayonların turizm sektoruna daha çox xarici sərmayənin cəlb edilməsi Azərbaycanın strateji maraqlarına xidmət edəcəkdir;

– Yeni layihələrin reallaşdırılmasında mütəxəssislərin və ümumilikdə yerli əmək bazarının cəlb edilməsi prioritet məsələ kimi nəzərə alınmalıdır. Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması proseslərinə ölkənin insan resurslarını fəal şəkildə cəlb etməklə həmin iqtisadi rayonlarda bu proseslərin daha qısa müddətdə başa çatdırılmasına nail olunacaqdır və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Nəsibova, Z. Müasir dövrdə Qarabağın sosial-iqtisadi inkişaf xüsusiyyətləri. “Geostrategiya” jurnalı, – sentyabr, 2022. №6(72), – s.105-108.
2. Məhərrəmov, E.M. Azərbaycanda iqtisadi rayonlaşdırma proseslərində aqrar sahənin inkişaf etdirilməsi prioritetlərini şərtləndirən amillər. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası – 2022 (yanvar-fevral), – s.42-49
3. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. “Geostrategiya” jurnalı, – sentyabr, 2021. №4(64), – s.67-72
4. Nərimanoğlu, H. Şərqi Zəngəzur. – Bakı: Füyuzat, – 2022, – 220 s.
5. Алиев, Т.Н. Восстановление экономики Карабаха и Восточного Зангезура. Монография. Баку, «Наука и знание», 2022. – 152 с.
6. Azərbaycanın statistik göstəriciləri. statistik məcmuə. – Bakı, 2022, – 748 s.
7. Əliyev, Ş.T. Ağdam və Füzuli rayonlarında postkonflikt ərazilərinin intensiv inkişafının Qarabağın dirçəldilməsində strateji əhəmiyyəti. “Geostrategiya” jurnalı, – sentyabr, 2022. №4(70), – s.89-93.

8. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2022, – 422 s.
9. https://xalqqazeti.com/pdf/29%20iyun%20qazet%202022.pdf. Qarabağ və Şərqi Zəngəzurun bərpası yeni mərhələyə qədəm qoyub.
10. Nəsibova, Z.C. Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsi problemlərinə nəzəri-metodoloji yanaşmalar. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2022 (iyul-avqust), – s.86-94.
11. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Monoqrafiya. Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2022, – 422 s.
12. https://respublika-news.az/news/qarabagda-numune-olacaq-yasil-enerji-zonasi-yaradilir. Qarabağda nümunə olacaq "yaşıl enerji" zonası yaradılır.
13. Vəliyev, O. Şərqi Zəngəzur iqtisadi rayonunun investisiya potensialının qiymətləndirilməsi. "Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafında investisiyaların rolu" mövzusunda IV İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların Beynəlxalq elmi konfransı, İSCEMR, 2022, – s.208-221.

**Эльдениз Мазахир оглы МАГЕРРАМОВ,**
Доктор философии по экономике, доцент Азербайджанского
Университета Кооперации, AZ1124, Н.Нариманов,93, Баку, Азербайджанская Республика
E-mail: emeherremov79@mail.ru

# НАПРАВЛЕНИЯ РАЗВИТИЯ КАРАБАХСКОГО И ВОСТОЧНО-ЗАНГЕЗУРСКОГО ЭКОНОМИЧЕСКИХ РАЙОНОВ

**Резюме**

*Целью исследования* – является определение направлений развития Карабахского и Восточно-Зангезурского экономических районов в нынешних условиях. Обоснована важность эффективного использования ресурсного потенциала вновь созданных экономических районов на освобождённых землях. Обращено особое внимание на альтернативность инвестиционных и финансовых ресурсов для привлечения их в регион. Анализирована динамика инвестиций в основной капитал и объём промышленной продукции за последние годы. Обоснована приоритетность развития аграрной сферы в Карабахском и Восточно-Зангезурском экономических районах. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам.

*Методы исследования* – состоят из общеизвестных научных экономических методов – синтеза, анализа и обобщения. Кроме того, учтены научные взгляды исследователей, которые рассмотрели проблемы эффективности процессов и механизмов развития экономических районов.

*Результаты исследования* - заключаются в разработке и применении приоритетных направлений деятельности и механизмов интенсификации развития Карабахского и Восточно-Зангезурского экономических районов в современных условиях.

**Ключевые слова:** Карабах, Восточный Зангезур, экономические районы, приоритеты развития экономических районов, перспективы развития Карабахского экономического района, направления развития Восточно-Зангезурского экономического района.

**Eldaniz Mazahir MAHARRAMOV**
PhD in economics, Associate professor of Azerbaijan University of Cooperation,
AZ1124, N.Nərimanov, 93, Baku, Azerbaijan Republic
E-mail: emeherremov79@mail.ru

# DIRECTIONS OF DEVELOPMENT OF KARABAKH AND EAST ZANGEZUR ECONOMIC REGIONS

**Summary**

*The purpose of the research* is to determine the directions of development of the Karabakh and East Zangezur economic regions in the current conditions. The importance of effectively using the resource potential of newly created economic regions on liberated lands is justified. Particular attention to the alternative investment and financial resources to attract them to the region is paid. The dynamics of investments in fixed assets and the volume of industrial products over the past years is analyzed. The priority of the development of the agrarian sphere in the Karabakh and East Zangezur economic regions is justified. Recommendations and proposals on the issues under consideration are given in the end of the article.

*Research methods* - consist of well-known scientific economic methods - synthesis, analysis and generalization. In addition, the scientific views of researchers who considered the problems of the effectiveness of processes and mechanisms for the development of economic regions are taken into account.

*The results of the research* consist of the development and application of priority areas of activity and mechanisms for intensifying the development of the Karabakh and East Zangezur economic regions in modern conditions.

**Key words:** Karabakh, East Zangezur, economic regions, development priorities of economic regions, development prospects of Karabakh economic region, development directions of East Zangezur economic region.

**Pərvin Elman qızı MUXTAROVA dos**

**Aytac Natiq qızı TALIBOVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
talibovhidayet2020@gmail.com

# XİDMƏT SAHƏSİNDƏ UÇOT VƏ AUDİTİN TƏŞKİLİ

**Xülasə**

Mühasibat uçotu və audit müəssisələrin olmazsa olmazıdır. Təşkilatların gələcəkdəki fəaliyyətlərinin planlaşdırılması və hal-hazırki maliyyə vəziyyətlərinin müəyyən olunması mühasibat uçotunun verdiyi məlumatlara əsaslanır. Mühasibat uçotu və audit müəssisənin maliyyə fəaliyyəti və qeydləri ilə əlaqəli bir təşkilat üçün 2 vacib xüsusiyyətdir. Mühasibat uçotu və audit hər hansısa biznesin maliyyə fəaliyyətində və uçotun aparılması zamanı vacib rola sahibdir. Bununla yanaşı, onların xüsusiyyətləri və rolu tamamilə fərqlidir. Mühasibat uçotu hər şeyi, həmçinin təşkilatdan müəssisənin rəhbərliyinə pul axınını yoxlayan daha geniş bir sahəyə çevrilsə də, audit daha çox ixtisaslaşmış xidmətdir.

**Açar sözlər:** mühasibat uçotu, audit xidmətləri, xidmət sektoru, maliyyə hesabatları.

**UOT: 338**
**JEL: M40**

## Giriş

Mühasibat uçotu və hesabat verən müəssisənin auditi sənədlərin etibarlılığına, həmçinin onlar tərəfindən əks edilən məlumatlara dəqiq baxış keçirmək üçün nəzərdə tutulub. Qanuna əsasən hüquqi şəxslərin mühasibat uçotunun və maliyyə hesabatlarının aparılması vacibdir ki, müəssisə gərək olduqda onları tərəfdaşlara, auditorlara və tənzimləyici orqanların işçilərinə təqdim edə bilsin[1, s.322].

Dövlət orqanları, o cümlədən vergi müfəttişliyi daha çox mühasibat hesabatları ilə maraqlanır. Bununla belə, şirkətin menecerləri və sahibləri onlara eyni maraq göstərə bilər. Hesabatların etibarlılığı hər hansı bir təşkilatın fəaliyyətinin vacib aspektidir. Auditin məqsədlərinə təşkilatın sistemini başa düşmək də daxil ola bilər. Bu, gələcəkdə maliyyə hesabatlarının etibarlılığına təsir edən risklərin qarşısını almağa kömək edir [1, s.322].

İmtahan keçirilərkən prosedura cavabdeh olan auditor sahibkarlıq fəaliyyətinin uçot sisteminin sənədlərdə düzgün əks etdirilməsinə, qeyri-dəqiqlik və təhriflərə yol verilməməsinə əmin olmalıdır. Bir qayda olaraq, bu vəziyyətdə məlumat mənbələrinin bütün dəsti istifadə olunur. Bununla belə, müayinənin davamlı olması vacib deyil: nəzarət edən mütəxəssisdən bütün mövcud sənədlərə baxmaq tələb olunmur. Ümumiyyətlə, auditorlar seçilmiş sənədlərlə işləyirlər:

– Maliyyə hesabatları;
– Vergi bəyannamələri;
– Təsis sənədləri;
– Lisenziyalar və icazələr;
– İlkin mühasibat sənədləri;
– İşçi heyəti və vəzifə təlimatları;
– Vergi yoxlamalarının nəticələrinə dair aktlar;
– Kadrlar departamenti üçün sifarişlər;
– İş müqavilələri;
– Uzlaşma bəyanatı;
– İnventar siyahıları və daha çox.

Lazım gələrsə, auditor şirkətin işçiləri ilə şifahi müsahibə keçirilə bilər. İmtahan üçün tələb olunan sənədlərin siyahısı adətən əvvəlcədən hazırlanır. Yoxlanılması planlaşdırılan şirkətə göndərilir ki, yoxlamaya hazırlaşsın [2, s.424].

Mühasibat uçotunun və hesabatın auditi mülki və maliyyə qanunvericiliyində nəzərdə tutulmuş qaydalara və tələblərə uyğun aparılır. Hüquqi şəxslərin auditini tənzimləyən əsas hüquqi aktlar var. Əvvəla, bu bir sıra federal qanunlardır:

– "Auditorluq haqqında";
– "Mühasibat uçotu haqqında";
– "Səhmdar cəmiyyətlər haqqında";
– "Məhdud məsuliyyətli cəmiyyətlər haqqında".

Mütəxəssislər həmçinin Maliyyə Nazirliyinin "Şirkətlərin maliyyə-təsərrüfat fəaliyyətinin uçot planının təsdiq edilməsi haqqında" əmrini və audit

üzrə beynəlxalq standartları rəhbər tuturlar. Audit təşkilatlarının və mütəxəssislərin işi Maliyyə Nazirliyinin məktubuna illik mühasibat hesabatlarını yoxlayanlar üçün ətraflı tövsiyələri özündə əks etdirən ayrıca əlavə ilə tənzimlənir.

Bu, auditi tənzimləyən qanun və qaydaların natamam siyahısıdır. Sənədləri yoxlayan mütəxəssis digər hüquqi mənbələri də rəhbər tuta bilər. Siyahıda yalnız əsas qanunvericilik aktları öz əksini tapıb. Auditorun hərəkətləri bu qanun və sərəncamlara zidd olmamalıdır [2, s.424].

Audit metodologiyası maliyyə hesabatlarının etibarlılığı və düzgünlüyünə qərəzsiz baxış formalaşdırmaq üçün sənədlərin tədqiqi və təhlilinin praktiki yollarını nəzərdə tutur.

Bir qayda olaraq, imtahan üsulları audit şirkətlərinin daxili sənədlərində və nizamnamələrində qeyd olunur. Bunlara dövriyyənin və hesab qalıqlarının yoxlanılmasına, əməliyyatların əks olunmasının düzgünlüyünün və hesablardakı vəsaitlərin qalığının qiymətləndirilməsinə yönəlmiş analitik prosedurlar daxildir. Qaydalarda adətən audit proqramı bölməsi və digər audit prosedurları üzrə standart pozuntuların siyahısı göstərilir.

Şirkətin maliyyə hesabatlarını tədqiq edən auditor müəyyən bir işdə zəruri olan yoxlama üsullarını və formalarını seçmək üçün məsuliyyət daşıyır. Sənədlərin təhlili üçün seçilmiş strategiya və taktikaya ekspertizanın təşkili üsulları və ayrıca audit sübutlarının əldə edilməsi üsulları daxil ola bilər. Birinci halda söhbət davamlı və ya seçmə, sənədli və ya analitik, aktual və ya birləşmiş imtahan növlərindən gedir [3, s.45].

Audit zamanı mütəxəssislər adətən bir neçə üsuldan istifadə edirlər. Əsasən, auditorlar sənədləşmə araşdırması üçün aşağıdakı strategiyalardan istifadə edirlər:

Davamlı üsul - Bu metoddan istifadə edərkən analitik uçot registrlərinin məlumatları ilə müqayisədə bütün ilkin maliyyə (mühasibat) sənədləri ətraflı və diqqətlə yoxlanılır. Möhkəm audit metodundan istifadə edərkən növbəti addım registr məlumatlarını sintetik registrlərin növbələri və balansları ilə müqayisə etməkdir. Bu üsul, bir tərəfdən, kifayət qədər dəqiqliyi ilə xarakterizə olunur, lakin digər tərəfdən, çox vaxt aparır: böyük şirkətlərin və bankların auditində onun istifadəsi praktiki deyil [7].

Seçici üsul – bu halda, söhbət tam auditdən deyil, şirkətin sənədlərinin təsadüfi yoxlanılmasından gedir. Bununla belə, bu cür müayinənin effektivliyi seçimin aydınlığından asılı olacaq. Məlumatlar, məsələn, təsadüfi say cədvəllərindən istifadə etməklə və ya birləşdirilmiş şəkildə seçilə bilər.

Birləşdirilmiş (qarışıq) üsul – bu, həm seçmə, həm də davamlı audit mexanizmlərinin istifadəsini nəzərdə tutur: bu halda, davamlı mexanizm ən riskli sahələrin təhlili üçün istifadə olunur və seçici mexanizm şirkət tərəfindən müntəzəm olaraq həyata keçirilən tipik əməliyyatların təhlili üçün istifadə olunur [7].

Auditi aparan mütəxəssis aşkar edilmiş pozuntular və ya səhvlər barədə qərəzsiz sübut təqdim etməlidir. Bunun üçün o, aşağıdakı prosedurlardan istifadə edə bilər [8]:

– Yoxlama – bu üsul auditorun şirkətin sənədlərini, aktlarını, qeydlərini və maddi aktivlərini təhlil edib yoxlamasını nəzərdə tutur. Eyni zamanda, o, inventar sənədlərinin etibarlılığı ilə xüsusi olaraq maraqlanır. Sənədlərdə göstərilən maddi əmlakın faktiki mövcud olmasına, sənədlərdə əks olunan maliyyə öhdəliklərinin real olmasına əmin olur. Mütəxəssislər inventar siyahılarının formalara uyğun olub-olmadığını da yoxlayırlar.

– İstək - Metod əlavə məlumatların axtarışını nəzərdə tutur. Auditor üçüncü şəxslərə sorğular verir. Adətən bunlar banklar, borclular və kreditorlar, kirayəçilər, ev sahibləri və şirkətin digər podratçılarıdır.

– Yenidən hesablama. Mühasibat uçotu və ilkin sənədlərdə hesablamaların düzgünlüyünün yoxlanılmasından ibarətdir. Yenidən hesablamanın başqa bir versiyası auditorun hesabatlardakı bütün əsas vəzifələri müstəqil şəkildə yenidən hesablamasını nəzərdə tutur.

Yoxlama üçün tez-tez başqa üsullardan istifadə olunur. Lakin, auditin yekun mərhələsi dəyişməz olaraq qalır. O, yoxlama zamanı aşkar edilmiş səhvlərin təhlilini, hesablanması və onların hesabata təsirinin təhlilini əhatə edir [8].

Mühasibat uçotunun və hesabatın vəziyyətinin auditi mərhələlərə ayrılır. Şirkətin maliyyə uçotu və hesabatının audit proseduru bir neçə mərhələdə həyata keçirilir:

– İlkin mərhələ
– Planlaşdırma
– Auditin aparılması

– Nəticə tərtib etmək

İlkin mərhələ - Prosedur hazırlıqla başlayır. Yoxlanılan şirkət auditorlara fəaliyyəti və işlərinin vəziyyəti haqqında ətraflı, dolğun məlumat verir. Audit başlamazdan əvvəl niyə lazımdır? Əldə edilmiş məlumatlara əsasən, mütəxəssislər işin həcmini, potensial riskləri, həmçinin şirkət üçün ən vacib məsələlərdən birini: xidmətlərin dəyərini müəyyən etməlidirlər. Buna görə də, ilkin mərhələdə bir sıra amillər nəzərə alınır və müəyyən edilir [8].

– təşkilati xüsusiyyətlər;
– daxili nəzarət sistemi;
– fəaliyyətin avtomatlaşdırılması səviyyəsi, o cümlədən mühasibatlıq;
– öhdəliklər və şirkətin maliyyə vəziyyəti, ödəmə qabiliyyəti haqqında məlumat;
– işin coğrafi və peşəkar xüsusiyyətləri, o cümlədən vergi qanunvericiliyi və region şəraiti;
– şirkətə qarşı məhkəmə iddialarının olması.

Məlumatların toplanması nəticəsində auditor şirkətə yoxlama məktubu göndərir. Bu, beynəlxalq standartlarda nəzərdə tutulmuş məcburi mərhələdir. Məktubun məzmunu və forması auditin xüsusiyyətlərindən asılı olaraq dəyişə bilər. Şirkət və auditorlar auditin şərtləri, qiyməti və digər aspektləri barədə razılığa gəldikdə, onlardan müqavilə bağlamaq tələb olunur. Yalnız bundan sonra ilkin mərhələ kamerası tam hesab olunur və növbəti mərhələyə keçmək mümkündür.

Planlaşdırma – bu mərhələ keyfiyyət imtahanı üçün lazımdır. Auditin planlaşdırılması ümumi audit vaxtının təqribən 20%-ni təşkil edə bilər və ilkin planlaşdırmaya audit planının və audit proqramının hazırlanması daxildir.

Planlaşdırma mərhələsində audit olunan şirkətin fəaliyyətinin xüsusiyyətləri, mühasibat uçotu sistemi, daxili nəzarət, yerinə yetirilən əməliyyatların həcmindən və mühasibat uçotu sistemlərinin avtomatlaşdırılması dərəcəsindən asılı olaraq vaxt xərcləri və s.

Yoxlanılan şirkətlə razılaşdırılaraq audit cədvəli tərtib edilir və audit qrupuna daxil olan ekspertlər təyin edilir. Sonra qarşıdan gələn audit üçün proqram yaradılır. O, maliyyə hesabatlarının audit edilmiş məqsədlərini və prosedurun həyata keçirilməli olduğu vaxtı daxil etməlidir.

Auditin aparılması – üçüncü mərhələ əsasdır və birbaşa şirkətin mühasibat uçotu və hesabatından ibarətdir. O, yoxlanılan şirkətlə bağlı audit sübutlarının toplanması, qiymətləndirilməsi, sistemləşdirilməsi və təhlilindən ibarətdir.

Audit federal standartlara və auditi həyata keçirən audit şirkətinin qaydalarına əsasən həyata keçirilir. Bu mərhələdə inventar yoxlaması, ümumi yoxlama, sənədlərin müayinəsi və digər analitik prosedurlar həyata keçirilir. Bununla belə, analitik prosedurlardan istifadənin məqsədi daha diqqətli təhlil tələb edən yanlış bildirilmiş faktları aşkar etməkdir.

Nəticə tərtib etmək – auditin son mərhələsi audit hesabatının hazırlanmasıdır. Bu, şirkətin sənədlərini ətraflı araşdırdıqdan sonra aldığı əsas sənəddir. Bu, həm də auditin aparıldığını göstərir və onsuz tənzimləyici orqanlar auditin nəticələrini nəzərə almayacaqlar. Buna görə də, auditin nəticələrinə əsasən, auditor şirkətin maliyyə hesabatlarının etibarlılığına dair rəyi ehtiva edən məlumatların yazılı xülasəsini hazırlayır.

Qanun bir neçə növ audit hesabatını nəzərdə tutur. Məsələn, bu sənəd dəyişdirilməmiş ola bilər. Bu o deməkdir ki, şirkətin bütün hesabat registrləri maliyyə vəziyyətini və əməliyyat nəticələrini dəqiq əks etdirir. Dəyişdirilmiş bir nəticə də var. Auditorlara təsir edən əhəmiyyətli amillər olduqda və ya yoxlama mütəxəssisi şirkətin mühasibat hesabatlarının etibarlılığına dair sübut əldə edə bilmədikdə verilir [4, s.147].

Biz həmçinin rəy bildirməmək şərti ilə auditor hesabatını qeyd etməliyik. Mütəxəssis belə bir sənəd hazırlayıbsa, bu o deməkdir ki, onlar öz fikirlərini əsaslandırmaq üçün sübut əldə etməyiblər.

Auditor təsərrüfat əməliyyatlarının mühasibat uçotu registrlərində qeyd edilməsi prosedurunu təsvir etdikdə, məlumatların ümumiləşdirilməsi üçün istifadə olunan forma və üsulları, maliyyə hesabatlarının tərtib edilməsi qaydasını müəyyən etdikdə audit başa çatır. Auditordan həmçinin mühasibat uçotunun vacib sahələrini müəyyən etmək tələb olunur. Bunlar səhv və təhrif riski yüksək olan sahələrdir. Nəhayət, mütəxəssisdən mühasibat uçotunun konkret sahələri üçün nəzərdə tutulmuş nəzarət vasitələrini gətirmək tələb olunur [4, s.147].

Mühasibat uçotu təşkilatın ölçüsündən asılı olmayaraq müəssisənin bütün maliyyə fəaliyyətini izləməyə kömək edir. O, baş verən maliyyə fəaliyyətinin hər bir aspektini etibarlı şəkildə qeyd

edir ki, bu da şirkətinizin rəhbərliyi üçün vacib məlumatdır.

Müəssisə və ya təşkilatın kitabları ümumi qəbul edilmiş mühasibat uçotu prinsiplərinə uyğun olaraq yeniləndikdə, bu, biznes sahiblərinə biznes fəaliyyətini qiymətləndirməyə və eyni zamanda həmyaşıdlar arasında müqayisələr aparmağa imkan verir. Bu, rəqiblər və satıcılar arasında etibarın yaradılması və saxlanmasının vacib aspektidir [5, s.550].

Mühasibat uçotu zəif fəaliyyət sahələrini və düzəliş tədbirləri tələb edən sahələri müəyyən etməyə kömək edir. Mühasibat uçotundan əldə edilən məlumatlar biznesin uzunmüddətli layihə planlaşdırılmasına da kömək edir. Biznesin maliyyə vəziyyəti nə qədər kreditin veriləcəyini və hansı dərəcələrlə və s. müəyyən etməyə kömək edir. İnvestorlar şirkətin onlara təklif edə biləcəyi risk və imkanlar haqqında aydın təsəvvür əldə edəcəklər. Hesabları yerində saxlamaq, vergilərinizi ödəmək, bəyannamələrinizi təqdim etmək və çıxılmalar tələb etmək vaxtı çatdıqda sizə yaxşı xidmət edəcəkdir [5, s.552].

Audit vacibdir, çünki o, biznesə qərəzsiz baxış verir. Audit tez-tez biznes proseslərində mövcud ola biləcək səhvləri müəyyən edir, bunun vasitəsilə biznes sahibləri onları düzəltmək üçün dəyişiklik edə bilər. O, həm də şəffaflığı təmin edir [6].

Xarici audit biznesin etibarlılığını artırmağa, təchizatçılar müştərilərlə münasibətləri yaxşılaşdırmağa kömək edir və müsbət ictimai imicini təmin edir. Artıq  audit prosesi aparıldığı üçün gələcəkdə biznesi satmaq asanlaşır. O, həmçinin biznesin kredit reytinqini yaxşılaşdıra bilər. Beləliklə, investorların və bankın diqqətini cəlb edir.

**Mövzunun aktuallığı**. Mühasibat uçotu müxtəlif xidmət növlərinə fərdi tələbat və tələbatını ödəmək üçün nəzərdə tutulmuş milli iqtisadiyyatın mühüm sahələrindən biridir. Audit mühasibat uçotu dünyasının bir hissəsidir. Bu, müstəqil şəkildə həyata keçirilən mühasibat və maliyyə sənədlərinin yoxlanılmasıdır.

**Tədqiqatın məqsədi**. Şirkətin və ya biznes müəssisəsinin öz əməliyyatlarının qanunlara və ümumi qəbul edilmiş mühasibat uçotu prinsiplərinə uyğun olub-olmadığını müəyyən edilməsi.

**Tədqiqat obyekti.** Mühasibat uçotu maliyyə əməliyyatlarının izlənməsi və uçotu ilə məşğul olduğu halda, audit hesabların düzgünlüyünü yoxlamaq rolunu yerinə yetirir.

**Tədqiqat metodu.** Mühasibat uçotu təşkilatın maliyyə hesabatlarını, əməliyyatlarını, gəlirliliyini, hesabatlarını və maliyyə vəziyyətini tutmaq, təsnif etmək, ümumiləşdirmək, təhlil etmək və təqdim etmək prosesinə aiddir. Bu, bir müəssisənin maliyyə əməliyyatlarının qeyd edilməsi prosesidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Audit (Qanunvericilik və normativ sənədlər)”. III cild “İqtisadiyyat və audit” jurnalının nəşri, Bakı-2005, 322 s.
2. ABBASOV İ.M. MƏMMƏDOV İ.A. CABBAROV A.S. “Mühasibat uçotu (sahələr üzrə)” – dərslik. Bakı, 2017 – 424 s.
3. Ağamalıyev M. Şükürov T. “Ticarət müəssisəsinin iqtisadiyyatı”. Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin dərsliyi. Bakı, 2010,
4. Kızılgöl Ö. ve İşgüden “Bir işletmenin ekonomik faaliyetinin analizi. Ders Kitabı ”- T: B., 2014, Infra s.147
5. Smith K. (2010). “Profitability versus Liquidity Trade-offs in Working Capital Management”, in Readings on the Management of Working Capital. Ed. K. V. Smith, St. Paul, West Publishing Company, pp. 549-562.
6. Баранов О.В “Аудит информационных систем”. Вестник Финансовой Академии»М, 2009, №1
7. https://otherreferats.allbest.ru/audit/00109920_0.html
8. https://valen-legal.com/news/audit-of-accounting-and-reporting-organization

**Парвин Эльман Мухтарова, доц.**

**Айтадж Натиг Талыбова**
Азербайджанский Технологический Университет

# ОРГАНИЗАЦИЯ БУХГАЛТЕРСКОГО УЧЕТА И АУДИТА В СФЕРЕ УСЛУГ

**Резюме**

Бухгалтерский учет и аудит незаменимы для предприятий. Планирование будущей деятельности организаций и определение текущего финансового положения осуществляется на основе информации, предоставляемой бухгалтерским учетом. Бухгалтерский учет и аудит - это две важные функции для организации, которые имеют дело с финансовой деятельностью и записями предприятия. Бухгалтерский учет и аудит играют важную роль в финансовой деятельности и ведении учета любого бизнеса. Однако их характеристики и роль совершенно разные. В то время как бухгалтерский учет стал более широкой областью, в которой изучается все, включая поток денег от организации к руководству предприятия, аудит является более специализированной услугой.

**Ключевые слова:** бухгалтерский учет, аудиторские услуги, сфера услуг, бухгалтерская отчетность.

**Parvin Elman Mukhtarova, Assoc.prof.**

**Aytaj Natig  Talibova**
Azerbaijan Technological University

# ORGANIZATION OF ACCOUNTING AND AUDIT IN THE SERVICE SECTOR

**Summary**

Accounting and auditing are indispensable for enterprises. Planning the future activities of organizations and determining the current financial situation is based on the information provided by accounting. Accounting and auditing are 2 important features for an organization that deal with the financial activities and records of the enterprise. Accounting and auditing play an important role in the financial performance and record keeping of any business. However, their characteristics and role are completely different. While accounting has become a broader field that examines everything, including the flow of money from the organization to the management of the enterprise, auditing is a more specialized service.

**Keywords**: accounting, audit services, service sector, financial statements.

**Türkan Hamlet qızı NƏBİYEVA**
Bakı Dövlət Universitetinin "Dünya iqtisafiyyatı" kafedrasının doktorantı
AZ1148, Azərbaycan Respublikası, Bakı şəhəri, 23 Akademik Zahid Xəlilov küçəsi,
E-mail: tnabiyeva23@gmail.com

# MÜASİR DÖVRDƏ BEYNƏLXALQ MALİYYƏ BAZARLARININ İQTİSADİ QLOBALLAŞMAYA TƏSİRİ MƏSƏLƏLƏRİ

**Xülasə**

**Tədqiqatın məqsədi** – müasir dövrdə beynəlxalq maliyyə bazarlarının iqtisadi qloballaşmaya təsiri məsələlərinin araşdırılmasıdır. Bunun üçün qloballaşma tendensiyaları, təsir dairələri baxılmış və bu mühitdə beynəlxalq maliyyə bazarlarının inkişaf prosesləri problemləri açıqlanmış, təhlil olunmuşdur. Beynəlxalq maliyyə bazarlarının iştirakçılarının davranışları, bu bazarların əsas seqmentləri baxılmışdır. Beynəlxalq maliyyə bazarlarının ümumiləşdirilmiş strukturu verilmişdir. Qloballaşma proseslərinin beynəlxalq maliyyə bazarlarına təsirləri ümumiləşdirilmişdir. İqtisadiyyatın qloballaşdığı müasir mərhələdə beynəlxalq maliyyə bazarlarının inkişafında daha çox diqqət çəkən xarakterik meyillər müəyyənləşdirilmişdir. Məqalədə baxılan problemlər üzrə bir qrup tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın metodu** – əsasən təhlil, sintez və ümumiləşdirmə kimi iqtisadi metodlardan ibarətdir. Eyni zamanda, müasir dövrdə maliyyə bazarlarının iqtisadi qloballaşmaya təsiri məsələləri üzrə araşdırmalar aparan tədqiqatçıların elmi yanaşmalarına yer verilmişdir.

**Tədqiqatın nəticələri** – hazırkı şəraitdə beynəlxalq maliyyə bazarlarının inkişafı və xarakterik cəhətləri kontekstində, iqtisadi qloballaşmaya təsirin müəyyənləşdirilməsi üzrə əsas fəaliyyət istiqamətlərinin və konseptual yanaşmaların ümumiləşdirilməsi ilə əlaqəlidir.

**Açar sözləri:** beynəlxalq maliyyə bazarları, qlobal təsirlər, qlobal meyillər, iqtisadi qloballaşma, beynəlxalq maliyyə bazarlarının iqtisadi qloballaşmaya təsiri, beynəlxalq maliyyə bazarları iştirakçıları.

**UOT: 336.69: 338.22.01**
**JEL: F3; G15; F36; O11**

## Giriş

Son onilliklərin tendensiyalarından yanaşsaq, müasir beynəlxalq maliyyə bazarlarının (BMB) inkişafının əsas meyili qloballaşma ilə bağlıdır. Qloballaşma dünya iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən yeni hadisə deyil. Bir sıra tədqiqatçılar BMB-lərin qloballaşması prosesini 1980-ci ildə, maliyyə bazarları sisteminin qlobal səviyyədə fəaliyyət göstərməyə başladığı və müxtəlif ölkələrin aparıcı maliyyə mərkəzlərini birləşdirən qlobal maliyyə şəbəkəsinin yarandığı vaxtdan başlayan maliyyə inqilabı adlandırırlar. Hazırda qloballaşma birtərəfli proses deyil, onunla yanaşı, BMB-lərin yaradılması da baş verir. Bu tendensiya ən bariz şəkildə vahid Avropa Mərkəzi Bankı, büdcəsi və valyutası olan Avropa Valyuta İttifaqının yaradılmasında özünü göstərdi. Digər maliyyə mərkəzləri ətrafında da beynəlxalq regionallaşma prosesləri gedir. Maliyyə bazarında regionallaşma prosesinin daha bir bariz təzahürü milli ödəniş sistemlərinin inkişafının stimullaşdırılmasında öz ifadəsini tapmışdır [1, s.23].

XX əsrin ikinci yarısından etibarən qloballaşma prosesləri dünya iqtisadiyyatının inkişafının əsas xüsusiyyətlərindən birinə çevrilmişdir. Qloballaşma prosesləri ictimai həyatın bütün sahələrini əhatə etmiş, lakin dünya birliyinə təsirinin güclənməsinə ən mühüm töhfəni beynəlxalq iqtisadi əlaqələrin inkişafı vermişdir. Qloballaşma çərçivəsində tədqiqatçılar kifayət qədər maraqlı nəzəriyyələr formalaşdırıblar. Qloballaşma fenomenini əksər tədqiqatçılar müsbət hal kimi qiymətləndirir və yalnız müvəqqəti mənfi nəticələr verdiyini qeyd edirlər. Qloballaşma anlayışının mahiyyətinin bütün müxtəlif şərhlərini sistemləşdirərək aşağıdakı xüsusiyyətləri ayırd edə bilərik: 1) qloballaşma dünya inkişafının yeni paradiqmasını formalaşdıran obyektiv və çoxşaxəli prosesdir; 2) qloballaşma təkamül-tarixi

prosesdir; 3) qloballaşma dünya birliyinin həyatının bütün sahələrinə təsir edən mürəkkəb hadisədir; 4) qloballaşma milli iqtisadiyyatların və beynəlxalq münasibətlərin inkişafını sistemləşdirir, onları sintezə və qarşılıqlı asılılığa aparır; 5) qloballaşma şəraitində hələ də ölkələrin inkişaf səviyyələrində fərqliliklər olsa da, inkişaf strategiyasında ümumilik var; 6) istehsalın beynəlmiləlləşməsi və beynəlxalq münasibətlərin liberallaşması ilə səciyyələnən qloballaşma istehsal amillərinin və informasiyanın sərbəst hərəkətini təmin edir; 7) informasiya texnologiyalarının müxtəlif üsullarla yayılmasını stimullaşdırır; 8) qloballaşma dövlətlərin, onların bazarlarının, investisiya layihələrinin və s. qarşılıqlı asılılığını şərtləndirir və 9) qloballaşma dünya birliyinin həyatının bütün sahələrində unifikasiya və standartlaşdırma meyillərini gücləndirir və s [2, s.90].

**Beynəlxalq maliyyə bazarlarının iqtisadi qloballaşmaya təsirinin araşdırılması**

Qeyd edək ki, qloballaşma prosesləri BMB-lərə təsir göstərir və bu bazarlarda səmərəli işləmək üçün onların strukturunu, mahiyyətini, mexanizmini, fəaliyyət xüsusiyyətlərini, ayrı-ayrı bazar subyektlərinin rolunu və yerini aydın başa düşmək lazımdır. Təşkilati tərəfdən BMB maliyyə aktivlərinin yaradılması və qlobal mübadiləsi üçün institusional struktur deməkdir. BMB dünya iqtisadiyyatının müxtəlif sektorlarında kapitalın qlobal səfərbərliyinə, kreditlərin verilməsinə, mübadilə əməliyyatlarının həyata keçirilməsinə və maliyyə resurslarının rasional yerləşdirilməsinə yönəldilmişdir. Geniş mənada BMB-lər ölkələr arasında pul kapitalının yığılmasını və yenidən bölüşdürülməsini təmin edən bazar münasibətləri sferasıdır. Dünya iqtisadi sisteminin mühüm tərkib hissələrindən olan maliyyə bazarlarının inkişafı nəticəsində BMB-lər formalaşıb və müasir dövrdə bu proses genişlənməkdədir. Milli valyutaların başqa ölkələrin milli valyutalarına dəyişdirilməsi zərurəti ildən-ilə artmış, maliyyə əməliyyatları milli hüdudlardan kənara çıxmış, təsərrüfat subyektləri iqtisadi əməliyyatlarını reallaşdırmaq məqsədilə lazım olan maliyyə resurslarını öz ölkələrindən kənarda axtarmağa məcbur olmuşlar və beləliklə, BMB-lər yaranmışdır [3, s.9].

BMB-lərin müasir inkişafında əsas tendensiya onun qloballaşması olmuşdur. BMB-lərin davamlı inkişafı və strukturlaşması sayəsində maliyyə qloballaşması mümkün oldu ki, bu da onların inkişaf prosesini əhəmiyyətli dərəcədə sürətləndirmişdir. Məhz iqtisadiyyatın real sektorunda qloballaşmanı xeyli qabaqlayan maliyyə qloballaşması BMB-lərin bütün sahələrinin fəaliyyətinə yeni tələblər qoyur. Buna əsas maliyyə mərkəzlərini vahid qlobal bazarda birləşdirən yeni informasiya texnologiyalarının, risklərin idarə edilməsi mexanizmlərinə əsaslanan yeni valyuta və kredit-maliyyə alətlərinin yaranması və inkişafı, əməliyyat xərclərinin və maliyyə əməliyyatlarının vaxtının kəskin azalması kimi amillər kömək etmişdir [4, s.56]. Son onilliklər qlobal maliyyə sektorunun həm strukturunda, həm də texnologiyasında böyük dəyişikliklərlə səciyyələnir. BMB-lərdə baş verən proseslər və informasiya sistemlərinin sürətli inkişafı bu dəyişikliklərə ən çox təsir etmişdir. Həmin bazarların müasir fəaliyyətində qloballaşma və regionallaşma kimi meyillər mövcuddur. BMB dar mənada fond bazarıdır və bu bazarı təkcə ticarət edilən maliyyə məhsullarının və xidmətlərinin növləri və formaları əsasında deyil, həm də onun mal və xidmətlərinin alqı-satqısı proseslərinin tənzimlənməsi və nəzarəti imkanları baxımından strukturlaşdırmaq vacibdir. BMB-lərin strukturu əməliyyatların yeri ilə müəyyənləşdirilir [5, s.32]. BMB-lər sahəsində tədqiqatlar kifayət qədər uzun müddətdir ki, davam edir. Həmin bazarların ayrı-ayrı sektorlarının formalaşması və inkişafının təhlili yerli və xarici iqtisadçılar tərəfindən aparılmışdır. BMB-lərin əsas iştirakçılarından biri kimi beynəlxalq maliyyə-kredit təşkilatları çıxış edir. Bu təşkilatlar beynəlxalq hesablaşmaların dayanıqlılığının qorunub saxlanmasında, bank, valyuta, kredit əməliyyatlarının yerinə yetirilməsində dünya ölkələri arasında maliyyə-kredit münasibətlərinin tənzimlənməsində və ümumilikdə iqtisadi münasibətlərə kömək göstərməkdə önəmli rol oynayır. Qlobal iqtisadiyyatda kapitalın hərəkəti sərbəst olduğu üçün beynəlxalq maliyyə-kredit təşkilatları borc alma, borc vermək, investisiya qoymaq və maliyyə xidmətləri göstərmək funksiyalarını yerinə yetirmək məqsədilə aparıcı maliyyə mərkəzlərində öz bölmələrini yaratmaq imkanı əldə edirlər [6, s.440; 7, s.41].

BMB-lərdə əməliyyatlar öz iştirakçılarına investisiyaların şaxələndirilməsi, qabaqcıl texnologiyaların inkişafı üzrə dünya liderləri olan perspektivli müəssisələrə investisiyaların gəlirliliyinin artırılması, habelə törəmə alətlərlə əməliyyatlar

vasitəsilə risklərin sığortalanması üçün geniş imkanlar yaradır. Belə əməliyyatların, onların iştirakçılarının artması BMB-lərin səmərəliliyinin tədricən artmasına səbəb olur. Bu proses maliyyə qloballaşması şəraitində özünü göstərən obyektiv tendensiyadır. Maliyyə qloballaşması BMB-lərdə gedən və getdikcə dinamikləşən proseslərin mürəkkəbləşməsinə gətirib çıxarır. Bundan əlavə, onların milli maliyyə bazarları ilə əlaqələrinin parametrləri dəyişir. Belə şəraitdə qeyri-xətti iqtisadi və riyazi modellər beynəlxalq maliyyə idarəçiliyi sahəsində qərarların qəbulu üçün istifadə olunan göstəricilərin proqnozlaşdırıla bilməsini təkmilləşdirə bilər. BMB-lərin strukturunun dəqiq aydınlaşdırılması kifayət qədər problemlidir. Elmi ədəbiyyatda onların strukturlaşdırılması üçün müxtəlif meyarlardan istifadə olunur ki, bu meyarlara əsasən onlar, ya kapital bazarı, ya fond bazarı ilə eyniləşdirilir, ya da pul bazarı ilə kapital bazarının birləşməsi kimi qəbul edilir. BMB-lərin voyaltiliyinin artması, inkişafının qeyri-bərabərliyi, dünya iqtisadiyyatının real sektoruna dərin təsiri nəzərə alınaraq orada islahatların aparılmasını zəruri edir [8, s.121]. BMB-ləri müxtəlif meyarlara görə təsnif etməyin bir neçə yolu var. Sövdələşmənin obyektindən asılı olaraq onlar maliyyə bazarı bir-biri ilə əlaqəli bir sıra seqmentləri əhatə edir və həmin bazarlar arasında qiymətli kağızlar bazarı, valyuta, kredit kapitalı, fond, sığorta və qızıl bazarları var.

Şəkil 1-də beynəlxalq maliyyə bazarlarının ümumiləşdirilmiş strukturunu vermişik.




**Şəkil 1. Beynəlxalq maliyyə bazarlarının ümumiləşdirilmiş strukturu (Mənbə: müəllif tərəfindən tərtib olunub)**

Müasir beynəlxalq qiymətli kağızlar bazarının təkamülü xüsusi xüsusiyyətlərə malikdir. Kapitalların təmərküzləşməsi və onların daimi mərkəzləşdirilməsi eyni vaxtda gedir. Bu, bir tərəfdən yeni oyunçuların fond bazarına daxil olmasına, ticarəti əsas və ya köməkçi fəaliyyətinə çevirməsinə, digər tərəfdən isə böyük oyunçuların kapitallarının böyüməsinə və ya böyük şirkətlərin birləşməsi yolu ilə ayrılmasına imkan verir. Müasir investorlar artıq öz pullarını aşağı faizlə banklara yerləşdirmirlər, böyük şirkətlərin səhmlərini almağa və onların fəaliyyətindən divident almağa

üstünlük verirlər. Bu təcrübə olduqca risklidir, lakin ondan əldə edilən gəlir daha əhəmiyyətlidir. Aparıcı beynəlxalq şirkətlərə və banklara sahib olan dövlətlərdən qlobal kapital axını nəticəsində transmilli fond bazarları formalaşmışdır. Onların yaradılması aşağıdakı səbəblərin təsiri ilə sürətləndi: xarici investisiya kapitalının cəlb edilməsinə ehtiyac olan layihələrin formalaşmasına səbəb olan sürətli elmi-texniki inqilab; inteqrasiya prosedurlarının işlənib hazırlanması; birjada məzənnənin və kotirovkaların sabitliyi; ümumi çoxmillətli valyutalardan istifadə; bank və mübadilə sektorunun inkişafında nailiyyətlər. Beynəlxalq fond bazarının geosiyasi sərhədlərinin genişlənməsini şərtləndirən amillərə aşağıdakılar daxildir: 1) iqtisadiyyatın milli və xarici sektorları arasında artan əlaqə; 2) birjaların rolunun və əhəmiyyətinin artırılması; 3) ödəniş hesablaşmalarının təkmilləşdirilməsi; 4) banklararası telekommunikasiyanın inkişafı. Beynəlxalq fond bazarının mövcudluğunun əsas iqtisadi əlamətləri aşağıdakılardır: 1) kapitalın qiymətli kağızlar şəklində ölkələr arasında hərəkəti; 2) qiymətli kağızların beynəlxalq ticarəti üçün mərkəzlərin olması və 3) hər hansı konkret ölkənin yurisdiksiyasına aid olmayan beynəlxalq qiymətli kağızların buraxılması [9, s.59].

Hazırda dünya iqtisadiyyatında ən mühüm və təsirli maliyyə alətlərindən biri beynəlxalq kreditdir. Bu, istənilən ölkə üçün önəmli rol oynayır və onun bütün mövcudluğu ərzində ən azı bir dəfə müxtəlif beynəlxalq maliyyə təşkilatlarından maliyyə yardımı və ya dəstəyi cəlb etməsi ilə bağlıdır. Beynəlxalq kredit borc vermə formasıdır, bir dövlətin kreditorunun digər dövlətin borcalanına nağd pul şəklində və ya əmtəə formasında ödəniş, təxirəsalınmazlıq, geri ödəmə şərtləri ilə kredit verməsidir. Belə kreditin verilməsinin əsas səbəbi yerli istehsalın milli sərhəddən kənarda genişlənməsidir. Belə ki, ölkə borc götürdüyü vəsait hesabına digər ölkələrlə münasibətləri yaxşılaşdırır və öz məhsullarını dövlətlərə təklif edir. Beynəlxalq kredit hər bir dövlətin həyatında müsbət və mənfi rol oynayır. Beləliklə, genişlənmə həm yeni iş yerlərinin açılmasına, həm də müəssisənin özünün mənfəətinin artmasına kömək edir. Sənaye və istehsalın beynəlmiləlləşməsində böyük önəm daşıyır. Beynəlxalq kredit bazarının inkişafı nəticəsində maliyyələşdirmə proseslərinin dərinləşməsi müşahidə olunur ki, bu da dövlətin iqtisadiyyatına müsbət təsir göstərir. Beynəlxalq kreditin formaları müxtəlif meyarlara görə təsnif edilir, lakin onun mahiyyətini müəyyən edən funksiyalar azdır. Bunlara aşağıdakılar daxildir: kredit kapitalının dövlətlər arasında yenidən bölüşdürülməsi; beynəlxalq ödənişlər sahəsində paylama xərclərinə qənaət; konsentrasiyanın artırılması və kapitalın mərkəzləşdirilməsinin sürətləndirilməsi.

**Qlobal maliyyə silkələnmələri şəraitində beynəlxalq maliyyə bazarlarının müxtəlif seqmentlərinin xüsusiyyətləri və iqtisadi qloballaşmaya təsiri**

Qeyd edək ki, beynəlxalq kreditin mühüm funksiyası borc kapitalının müxtəlif ölkələr arasında yenidən bölüşdürülməsidir, çünki bu, istehsalın genişlənməsinə kömək edir. Dövlətlərin iqtisadiyyatının inkişafı ilə beynəlxalq kreditin inkişafı və təkmilləşməsi baş verir. Bu, dövlətlər arasında iqtisadi əməkdaşlığın müxtəlif formalarının genişləndirilməsi prosesində baş verir. Belə bir kreditin köməyi ilə dövlətin istehsalı fasiləsiz işləyir, bunun nəticəsində onun daim genişlənmək imkanı yaranır.

Beynəlxalq kredit beynəlxalq kredit bazarının əsas obyektidir. Beynəlxalq kredit bazarı BMB-nin bir seqmentidir ki, burada kredit kapitalı borc alan ölkələrlə kreditor ölkələr arasında ödəniş, geri ödəmə və təcililik prinsipləri əsasında hərəkət edir. Beynəlxalq kredit bazarı (və ya kredit kapitalı bazarı) ölkələr arasında kredit kapitalının hərəkətinin qaytarılma, təcililik, təminat, faizlərin ödənilməsi, tələb və təklif şərtləri əsasında həyata keçirildiyi bazar münasibətləri sahəsidir. Beynəlxalq kredit bazarının köməyi ilə kredit resursları yığılır və ölkələr arasında yenidən bölüşdürülür. Bu bazarda dünyanın aparıcı ölkələrinin valyutalarından və beynəlxalq valyuta vahidlərindən (ABŞ dolları, avro) istifadə olunur. Bu bazarın xarakterik xüsusiyyəti onun çoxşaxəliliyidir ki, həmin bazarda müxtəlif əməliyyatlardan (kredit, hesablaşma, valyuta, konsaltinq və s.) istifadə olunur. Əməliyyatların aparılması prosesi maksimum standartlaşdırılıb və ən son kompüter texnologiyalarının köməyi ilə reallaşdırılır [10, s.186]. Bu günə qədər beynəlxalq kredit bazarı borcalanlara məhdud çıxışla xarakterizə olunur və dünyanın aparıcı ölkələrinin valyutalarından və beynəlxalq valyuta vahidlərindən - ABŞ dolları, avro və digərlərindən istifadə edir. Beynəlxalq kredit bazarı dünya iqtisadiyyatının və beynəlxalq

iqtisadi münasibətlərin mövcud şəraitində bir sıra inkişaf meyillərinə malikdir. Birincisi, iri bankların çoxlu sayda birləşməsi və satın alınması və kredit bazarının yeni tənzimlənməsi sisteminin formalaşması nəticəsində beynəlxalq kredit bazarının dörd qatlı strukturu yaranmışdır. Strukturun birinci səviyyəsini aparıcı dövlətlərüstü və maliyyə institutlarının kiçik bir qrupu - BVF, Dünya Bankı Qrupu və s. tutur. İkinci səviyyə mərkəzi banklar tərəfindən milli və regional (Avropa Mərkəzi Bankı) kimi təmsil olunur. Üçüncü səviyyəni törəmə və filiallar sistemi olan transmilli banklar tutur. Dördüncü səviyyə isə bütün bankların 90%-ni tutan adi kommersiya banklarıdır. Bundan əlavə¸ avrokreditlər və avrobondları əhatə edən avrovalyuta uzunmüddətli kreditləşmənin payı artır. Kreditorlar əsasən sırf banklardan yaradılmış sindikatlardır. Son illərdə digər tendensiya Amerika, Avropa və Cənub-Şərqi Asiyada banklar arasında artan rəqabətdir. Ümumi aktivlərə görə Avropa bankları birinci yerdədir, lakin əməliyyatların səmərəliliyinə görə Amerika bankları birinci yerdədir, Asiya banklarına gəldikdə isə onlar kredit bazarının Avropa və Amerika sektorlarına fəal şəkildə müdaxilə edir. Bundan başqa, BVF beynəlxalq kredit bazarında dünya ölkələri arasında qarşılıqlı əməkdaşlığın davam etdirilməsinə nəzarətçi, tənzimləyici, məsləhətverici və təminat kimi daha böyük təsir və əhəmiyyətə malikdir.

Qızıl bazarları sənaye və daxili istehlak, şəxsi yığım, investisiya, risk sığortası, spekulyasiya və beynəlxalq hesablaşmalar üçün zəruri valyutanın əldə edilməsi üçün müntəzəm olaraq bazar qiymətinə alınıb satılan qızılın ticarəti üçün xüsusi mərkəzlərdir.

Yuxarıda qeyd etdiyimiz bütün BMB-lərə qloballaşma prosesləri önəmli dərəcədə təsir edir. Bu təsir müsbət və ya mənfi ola bilər. Həmin təsirləri şəkil 2 vasitəsilə əks etdirə bilərik.

**Qloballaşma proseslərinin beynəlxalq maliyyə bazarlarına təsirləri**

**Müsbət təsirlər:**
- ucuz maliyyə-valyuta və maliyyə-kredit resurslarının cəlb olunmasına çıxışın olması;
- yeni maliyyə bank texnologiyalarının yaranması və tədbiqi;
- maliyyə-iqtisadi kadrların müvafiq xarici təcrübəni mənimsəməsi və tətbiq etmək imkanının olması və s.

**Mənfi təsirlər:**
- valyuta-maliyyə sferasında böhran hadisələrinin dünya bazarlarından milli bazarlara ötürülməsi;
- iqtisadi tədbirlər və pul uğrunda dünya maliyyə bazarının ölkəyə siyasi təsirinin güclənməsinin baş verməsi;
- xarici maliyyə bazarlarında iş təcrübəsi alan kadrların, adətən xaricilərlə şəriklik qaydasında yaradılan birgə müəssisələrdə işləməsi və s.

**Şəkil 2. Qloballaşma proseslərinin beynəlxalq maliyyə bazarlarına təsirləri (mənbə: müəllif tərəfindən tərtib olunub).**

BMB sahəsində qloballaşma özünü bu bazarın universallaşması, yəni maliyyə alətlərinin dövriyyəsi üçün vahid prosedurların yaradılması və maliyyə institutlarının standartlaşdırılması kimi göstərir. İqtisadiyyatın qloballaşdığı indiki dövrdə BMB-lərin rolunun artması aydın nəzərə çarpır ki, bu da investisiya prosesi sistemində kapitalın yenidən bölüşdürülməsi və toplanması mexanizmi kimi çıxış edir. Əmtəə istehsalına olan tələbat BMB-lərin yaranmasına və onun inkişafına təkan vermişdir. BMB-lərin üstünlükləri arasında xüsusi kapital qoyuluşu hesabına əldə edilmiş yeni texnologiyalar vasitəsilə əmək məhsuldarlığının yüksəldilməsini, qabaqcıl sənaye sahələrinin sürətli inkişafını və ETT-ni qeyd etmək olar.

## Nəticə

Beləliklə, iqtisadiyyatın qloballaşdığı müasir mərhələdə BMB-lərininkişafında ən xarakterik meyilləri ayırmaq olar.

– Birincisi, bu, müxtəlif ölkələrin rezidentləri tərəfindən kreditləşmə və borclanma əməliyyatları baxımından beynəlxalq bazarların rolunun gücləndirilməsini özündə ehtiva edən bazarların qloballaşmasıdır.

– İkinci tendensiya bazarların beynəlmiləlləşməsidir. Bu, beynəlxalq maliyyə institutları və korporasiyalar şəbəkəsini genişləndirir, xarici ölkələrdə biznesin payını artırır, həmçinin bu maliyyə institutlarının və korporasiyalarının təşkilati sistemlərinə təsir göstərir. Beynəlmiləlləşmə ilə qloballaşma arasında ciddi fərqlər var. Beynəlmiləlləşmə ölkələr arasında davamlı iqtisadi əlaqələrin inkişafıdır. Beynəlmiləlləşmə əsasən xarici bazarlarda əməliyyatların artdığı bir vəziyyətə aiddir, qloballaşma isə milli iqtisadiyyatların, o cümlədən maliyyə bazarlarının artan inteqrasiyası deməkdir ki, bu da son nəticədə vahid bazarın yaradılmasına gətirib çıxarır.

– Üçüncü tendensiya müxtəlif ölkələrin rezidentləri olan bazar subyektləri arasında BMB-lər üzrə beynəlxalq rəqabətin artmasıdır ki, bu da onların səmərəli inkişafına kömək edir. Beləliklə, maneələr aradan qalxır və bazar tarazlığı yaranır. Bununla belə, rəqabət maliyyə institutları və korporasiyaların iqtisadi səmərəliliyinin, hökumətlər üçün isə milli iqtisadiyyatların siyasi və iqtisadi sabitliyinin təmin edilməsi baxımından tələbləri əhəmiyyətli dərəcədə artırır.

– Dördüncüsü, onlar beynəlxalq bazarların inteqrasiyasını nəzərdə tutur. Xarici maliyyə institutları, kreditorlar və borcalanlar aktiv olduqları milli borc bazarlarına daha fəal şəkildə daxil olurlar.

– Beşinci tendensiya BMB-lərin yaxınlaşması prosesidir. Qlobal borc maliyyələşdirmə bazarlarının sektorları və seqmentləri arasında maneələr, həmçinin bəzi qanunvericilik qadağaları aradan qalxır və həm borcalanlar, həm də kreditorlar arasında beynəlxalq əməliyyatların sayı artır. Eyni dərəcədə mühüm tendensiya dünya kredit bazarlarının konsentrasiyasıdır. Bu proses investisiya, kommersiya və universal banklar, sığorta şirkətləri və pensiya fondları üçün xarakterikdir. Beynəlxalq bazar maliyyə institutlarını və borcalan korporasiyaları özünə cəlb etməklə, onların kredit kapitalını təmərküzləşməyə və birləşməyə aparır.

BMB-lərin inkişafında nəzərə çarpan altıncı tendensiya vasitəçiliyin aradan qaldırılması, yəni maliyyə vasitəçilərinin (brokerlərin, bankların) müxtəlif əməliyyatlardan kənarlaşdırılmasıdır ki, bu da əməliyyatın hər iki tərəfinə komissiya haqlarını və digər ödənişlərin dəyərini azaltmağa imkan verir və s.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Струк, Т.Г. Новые явления в мировом финансовом секторе и на мировом финансовом рынке / Т. Г. Струк //. – 2019. № 1. – с. 22-26.
2. Дорофеева, К.М. Основные параметры глобализации экономического и социального развития / К.М. Дорофеева, С.О. С. Гхаит // Економіка. Управління. Інновації. – 2016. № 2(17), – с. 82-93.
3. Hacıyeva, A.M. Qloballaşma şəraitində maliyyə bazarlarının müasir vəziyyəti və inkişaf istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, – Bakı, 2018, –26 s.
4. Лихтарова, О.В. Проблемы и перспективы развития международного финансового рынка в условиях финансовой глобализации / О.В. Лихтарова // Азимут научных исследований: экономика и управление. – 2015. № 3(12), – с. 55-58.
5. Международный финансовый рынок: Учебник и практикум / Е.А. Звонова, М.А. Эскиндаров, А.В. Навой [и др.]. – 1-е изд. – Москва: Издательство Юрайт, 2018. – 453 с. – (Бакалавр и магистр. Академический курс). – ISBN 978-5-9916-8904-5. – EDN IESOYH.
6. Ataşov, B.X. Maliyyə bazarları. Ali məktəblər üçün dərslik. Bakı: Kooperasiya nəşriyyatı, 2016, – 456 s.
7. Сорокоумов, В.С. Глобализация мировых финансовых рынков / В.С. Сорокоумов, Ю.С. Жаркова // Проблемы науки. – 2018. № 8(32). – с. 38-41.
8. Локтионова, Ю.Н. Особенности современной структуры мирового финансового рынка / Ю.Н. Локтионова, О.О. Толкачева // . – 2017. № 2, – с. 116-123.
9. Коновалова, М.Е. Мировой рынок ценных бумаги тенденции его развития / М. Е. Коновалова, О. Ю. Кузьмина, Л. В. Левченко //. – 2018. № 121. – с. 58-61.

10. Есиева, А.А. Современные тенденции развития мирового кредитного рынка / А.А. Есиева // Актуальные вопросы современной экономики. – 2019. № 1, – с. 186-191.

**Туркан Гамлет гызы НАБИЕВА**
Докторант кафедры «Мировая экономика» Бакинского Государственного Университета
AZ1148, Азербайджанская Республика, Баку, ул. Академик Захид Халилов, 23.
E-mail: tnabiyeva23@gmail.com

## ВОПРОСЫ ВЛИЯНИЯ МЕЖДУНАРОДНЫХ ФИНАНСОВЫХ РЫНКОВ НА ЭКОНОМИЧЕСКУЮ ГЛОБАЛИЗАЦИЮ В СОВРЕМЕННОМ ПЕРИОДЕ

### Резюме

*Целью исследования* – является рассмотрение вопросов влияния международных финансовых рынков на экономическую глобализацию в современном периоде. С этой целью раскрыты и анализированы проблемы развития международных финансовых рынков в контексте нынешних тенденций глобализации. Рассмотрены основные направления развития и поведения участников международных финансовых рынков. Обобщено влияние международных финансовых рынков на экономическую глобализацию в целом. Рассмотрены характерные тенденции развития международных финансовых рынков и определены группы факторов, отражающих влияние на глобализацию экономики в мире.

*Методы исследования* – состоят из ряда экономических методов, в том числе синтеза, анализа и обобщения. Наряду с этим, рассмотрены научные взгляды группы учёных по проблемам экономической глобализации и влияния на нее международных финансовых рынков.

*Результаты исследования* - отражены в обобщённых выводах о влиянии глобальных финансовых рынков на процессы экономической глобализации в современных условиях. Рассматриваются возможности использования полученных научных предположений для формирования концептуальных подходов по исследуемым проблемам.

*Ключевые слова:* международные финансовые рынки, глобальное влияние, глобальные тенденции, экономическая глобализация, влияние международных финансовых рынков на экономическую глобализацию, участники международных финансовых рынков.

**Turkan Hamlet NABİYEVA**
Doctoral student of the Department "World Economy" of Baku State University of AZ1148, Republic of Azerbaijan, Baku, st. Academician Zakhid Khalilov, 23.
E-mail: tnabiyeva23@gmail.com

## ISSUES OF THE İNFLUENCE OF İNTERNATİONAL FİNANCİAL MARKETS ON ECONOMİC GLOBALİZATİON İN THE MODERN PERİOD

### Summary

*The purpose of the research* is to consider the impact of international financial markets on economic globalization in the modern period. To this end, the challenges of the development of international financial markets in the context of the current trends of globalization are analyzed. The main directions of development and behavior of participants in international financial markets are considered. The impact of international financial markets on economic globalization as a whole is summarized. Typical trends in the development of international financial markets are considered and groups of factors reflecting the impact on the globalization of the economy in the world are determined.

*Research methods* - consist of a number of economic methods, including synthesis, analysis and generalization. Along with this, the scientific views of a group of scientists on the problems of economic globalization and the influence of international financial markets on it are considered.

*The results of the research* are reflected in the generalized conclusions on the impact of global financial markets on the processes of economic globalization in modern conditions. The possibilities of using the obtained scientific assumptions to form conceptual approaches to the problems under study are considered.

*Keywords:* international financial markets, global influence, global trends, economic globalization, influence of international financial markets on economic globalization, participants of international financial markets.

**Nicat Adil oğlu NƏRİMANOV, PhD, dos.**

**Lamiyyə İlyası qızı BAYRAMOVA**

**Ayxan Qırımxan oğlu MURADOV,**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

**Samirə Rafiq qızı MİRZƏYEV**
Azərbaycan Texnologiya Universitetinin magistrantı

# MÜƏSSİSƏLƏRİN MALİYYƏ RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSİNİN PERSPEKTİVLƏRİ

**Xülasə**

Bazar iqtisadiyyatına keçid ölkə ərazisinin bütün regionlarında fəaliyyət göstərən müəssisələrin maliyyə-təsərrüfat hüquqlarını artırmağa imkan vermiş, paralel olaraq da onların öz vəsaitlərini inkişaf etdirməklə mənfəət qazanmaq imkanlarını da əsaslı surətdə artırmışdır. Müstəqil maliyyə təsərrüfat fəaliyyəti aparmaq səlahiyyətlərinə malik olan müəssisələr əsas təsərrüfat sahələrində əldə edilmiş pul vəsaitlərini müxtəlif qiymətli kağızlarda yerləşdirmək imkanlarına malikdirlər.

**Açar sözlər:** maliyyə resursları, iqtisadi xərclər, maliyyə əməliyyatlarının effektiv idarə olunması, maliyyə idarəetmə sistemi

**UOT 338.12:338.34:330.36**

## Giriş

Şirkətlərin fəaliyyətinin maliyyə nəticələri bir çox müəlliflərin araşdırmalarının predmetidir. Onların bu anlayışın məğzini anlamaları birmənalı deyildir. Məsələn, “korporativ maliyyə və mühasibat” kitabında maliyyə nəticələri təşkilatın gəlir və xərcləri arasındaki fərq kimi təsvir edilir.

Maliyyə resursları anlayışının mahiyyətinə təkmənalı və əsaslandırılmış şərh vermək – həmçinin onun daxili tərkibini, müəssisənin dövriyyəsində onların rol və funksiyalarını müəyyən etmək daxildir.

Hər bir təşkilat - hüquqi formalı təşkilatın əsas fəaliyyət məqsədi maliyyə və təsərrüfat fəaliyyətindən gəlirin əldə edilməsidir. Gəlir istehsalatın, istehsal olunan məhsulun həcminin və keyfiyyətinin, əmək məhsuldarlığının, öz qiymətinin dərəcəsinin effektivliyinin ən dolğun göstəricisidir. Buna görə də, şirkətin maliyyə vəziyyətinin təhlilinin ən mühüm elementlərindən biri onun fəaliyyətinin maliyyə resurslarının təhlilidir.

Maliyyə göstəricisi- təşkilatın xidmətidir. Gəlir, bu zaman yaxşı işin və yaxud xarici obyektiv və ya subyektiv amillərin nəticəsidir, zərər isə pis işin və yaxud xarici mənfi amillərin nəticəsidir. Bununla yanaşı, istehsal, investisiya və maliyyə fəaliyyətlərinin effektivliyi maliyyə resurslarında öz əksini tapır.

Gəlir, maliyyə resursu kimi müəyyən funksiyaları yerinə yetirir. İlk növbədə, gəlir təşkilatın fəaliyyətinin nəticəsində alınan iqtisadi effekti əks etdirir. O, iqtisadi inkişafın əsasını təşkil edir. Gəlirin artımı özünü maliyyələşdirmə, əmək kollektivinin sosial və maddi problemlərin həll edilməsinin əsasını qoyur. Gəlir büdcə, banklar və digər təşkilatlar qarşısında olan öhdəliklərini həyata keçirir.

Bununla yanaşı, qeyd etmək gərəkdir ki, gəlir yalnız maliyyə resurslarının dövretməsinin nəticəsi deyildir, eyni zamanda, maliyyə vəsaitlərinin əsas elementidir. Bununla müəyyən olur ki, gəlir reproduktiv, stimullaşdırıcı və paylayıcı funksiyaları yerinə yetirir. O, iş aktivliyini və təşkilatın maddi rifahını səciyyələndirir. Gəlir ilə maliyyələşdirilmiş vəsaitlərin - aktivlərə sərmayə qoyuluşundan gəlir geri dönüşünü təyin edirlər.

**Mövzunun aktuallığı:** Azad bir dövlət kimi AR-in müəssisələrində çox güclü maliyyə idarəçiliyi siyasətinin həyata keçirilməsi lazımdır. Bu, eyni zamanda, bazar iqtisadiyyatının da əsas xassələrindən biri hesab edilir. Bu səbəbdən də AR-da inzibati maliyyə idarəçiliyi tamamilə dəyişdirilmiş və bazar iqtisadiyyatının tələblərinə

müvafiq olaraq bir daha qurulmuşdur. Bu cür islahatlar əsasən cəmiyyətin və istehsalın intensiv olaraq tərəqqisində maliyyənin rolunun artımına gətirib çıxarmışdır.

**Tədqiqatın məqsədi:** Tədqiqatın məqsədi ölkəmizdə istehsal müəssisələrində davamlı inkişafın təmin və inkişaf etdirilməsi, maliyyə resurslarının müəssisə idarəedilməsi sisteminə uyğunlaşdırılması yollarının aşkarlanmasıdır.

**Tədqiqat obyekti:** maliyyə resurslarının idarə edilməsi inkişaf perspektivlərinin müəyyən edilməsi prosesidir.

**Tədqiqat metodları:** Tədqiqat işində müxtəlif metodlardan istifadə edilmişdir. Belə ki, bu metodların əsasında sintez və analiz metodları, deduksiya və induksiya metodları, həmçinin də müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

## Materiallar və müzakirələr

Ölkəmizdə müəssisələr, xüsusilə dövlət qaynaqlı dəstəkləmə siyasətinin qüvvəyə minməsindən müsbət təsiri ilə, son illərdə əhəmiyyətli inkişaf və irəliləyişlər qeyd etmişdir. Buna baxmayaraq, bir çox inkişaf etməkdə olan ölkələrdə olduğu kimi müəssisələr də ümumi idarəetmə, tədqiqat və inkişaf, ixtisaslı insan resursları, maliyyələşdirmə və marketinq sahəsində əhəmiyyətli problemlərlə üzləşirlər. Bu problemlər arasında, texniki məlumat üçün ən çox ehtiyac duyulan sahələrdən biri olan maliyyə rəhbərliyi siyahının başındadır [Kaya & Alpkan, 2013]. . Ölkəmizdə müəssisələrin maliyyə idarəetmə problemləri, maliyyə qaynaqlarına daxil olma çətinliyi və maliyyə qaynaqlarının qeyri-kafi olması ilə əlaqədar bu ana qədər bu sahədə məhdud qalmış, edilən akademik işlərin böyük bir qismi az maliyyə qaynaqlarına daxil olan problemlərinə yönəldilib. Nəticədə, müəssisələr üçün böyük əhəmiyyət kəsb edən maliyyə idarəçiliyinin digər aspektləri (pul vəsaitlərinin idarə edilməsi, kapitalın idarə edilməsi, investisiya fəaliyyəti, borc və alacaqların idarə edilməsi, səhmdarların idarə edilməsi, xərclərin idarə edilməsi və s.) üzrə araşdırmalar məhdud qaldı. Ölkəmizdə müəssisələr, xərc yüksəkliyi səbəbiylə, maliyyə idarəetmə başda olmaq üzrə, ixtisas tələb edən mövzularda, professional idarəçiləri cəlb edə bilmədiyi kimi xaricdən məsləhət xidmətləri də ala bilmir. Bundan əlavə, sahibkarların qərar qəbuletmə prosesində öz biliklərini və təcrübələrini görmək və müəssisədə qərar qəbul mexanizmlərini başqa bir şəxsə ötürmək istəməmələri də bu cür təsir edə bilər. Bütün bu səbəblər sağlam və səmərəli maliyyə idarəetmə sisteminin yaranmasına səbəb ola bilər və icra edilə bilməz. Müəssisələrin fəaliyyət göstərdiyi iqtisadi mühit olduqca mürəkkəbdir, yüksək risklər və rəqabət, maliyyə idarəetməsi bu problemləri daha da vacib edir və müəssisələrin tez-tez yaşaya bilməyəcəyi nəticələr verir.

Bütün uğurlu müəssisələr maliyyə resurslarının səmərəli istifadəsini və gündəlik maliyyə əməliyyatlarının effektiv idarə olunmasını təmin edən sağlam maliyyə idarəetmə sisteminə ehtiyac duyurlar. Strateji maliyyə idarəçiliyi konsepsiyası və təcrübəsi müəssisənin idarəetmə strukturunda sahibkar və ya idarəçilər tərəfindən qəbul ediləcək bütün əsas maliyyə qərarları və təcrübələri əhatə edir. Keçmiş araşdırmalar göstərir ki, iqtisadi planlaşdırma, maliyyə qeydlərinin saxlanması, xarici peşəkar məsləhət və maliyyə təminatlı müəssələrdə müvəffəqiyyətli müsbət əlaqələrə malikdir [Kennedy və Tennent, 2016]. Müəssisələrin əsas hədəfləri olan böyümə və karlılıq üzrə effektiv və səmərəli maliyyə idarəçiliyinin əhəmiyyəti, ümumiyyətlə, qəbul olunsa da, müəssisələrdə strateji maliyyə idarəetməsi tətbiqləri üzrə maliyyə idarəetmə ədəbiyyatlarında məhdud sayda tədqiqatlar mövcuddur. Müəssisələrdəki bu təcrübələrin böyüməsi və rəqabət qabiliyyəti ilə bağlı araşdırmaların sayı eyni dərəcədə kiçikdir.

Mövcud vəziyyət nəzərdən keçirildikdə, müəssisələrin maliyyə sahələrində aparılan tədqiqatlar həm dünyada, həm də ölkəmizdə onların maliyyə imkanlarına və bu sahədə qarşılaşdıqları problemlərə yönəldilmişdir. Araşdırmalar göstərir ki, inkişaf etməkdə olan ölkələrdə fəaliyyət göstərən müəssisələr inkişaf etmiş ölkələrlə müqayisədə xarici resurslardan daha böyük problemlər yaradırlar. İşgüzar sahibkarlar və ya menecerlər üçün xüsusilə mikro və kiçik müəssisələrin inkişafını xarici mənbələrdən təmin etmək üçün kifayət qədər vacib olan maliyyə idarəetməsi təcrübələri, qıtlıq problemləri və makroiqtisadi məhdudiyyətlərə görə bu resurslar məhdud maliyyə imkanlarına nisbətən gözə çarpır. Bu vəziyyət akademik araşdırmalarda əks olunur və müəssisələrdə maliyyə idarəetməsi təcrübələrində maliyyələşdirmə problemləri ilə müqayisədə daha az araşdırma aparıldığı görülür.

Aydındır ki, müəssisələr üçün xarici ma-

liyyələşmə imkanlarının artması və şəraitin yaxşılaşdırılması, xüsusilə də ölkəmizdə kapital yığımının qeyri-kafi olması vəziyyətində nəzərə alınır. Lakin müəssisələrdə maliyyə resurslarına nail olmaq üçün bu resursların səmərəli istifadəsi eyni dərəcədə vacibdir. Məsələn, müvəffəqiyyətli istehsal və marketinq fəaliyyətinin nəticəsi olaraq satış həcmini artıra biləcək bir çox müəssisə öz debitor borclarının yığılmasında çətinliklərdən və onların iflas prosesinə gedə biləcəyi üçün borclarını ödəyə bilməməsi riskini yaşıyır. Eyni şəkildə, uzun müddətli investisiyalarını qısa müddətli maliyyə vəsaitləri ilə maliyyələşdirən və ya xərc analizlərini səhv göstərən şirkətlər də böyümə və gəlirlilik hədəflərinə nail olmaqda çətinlik çəkə bilərlər. Kifayət qədər kapitala malik bir sıra müəssisələrdə pul idarəçiliyi və inventar nəzarətinin olmaması müəssisələrin iflasına səbəb ola bilər [“Uluyol”, 2015]. Bu nəticələrə baxmayaraq, ölkəmizdəki müəssisələrin sahiblərinin və ya menecerlərinin davamlı inkişafa nail olmaq və onların rəqabət qabiliyyətini artırmaqda böyük əhəmiyyətə malik olan strateji maliyyə idarəetmə təcrübələrinə kifayət qədər diqqət yetirmədikləri aşkar edilmişdir.

Aparılan araşdırmalarda**,** müəssisələrin uğursuzluğunun ən əhəmiyyətli səbəbləri maliyyə planlaşdırma, planlaşdırılmamış böyümə, aşağı strateji və maliyyə proqnozu, həddindən artıq sabit sərmayə qoyuluşu və səhv kapital idarəçiliyi (Salazar et al., 2015) qazanmışdır.

Strateji maliyyə menecmenti müəssisələrdə maliyyələşdirmənin ən dəqiq şəkildə aparılmasına, sərmayənin ən effektiv qiymətləndirilməsinə və idarə olunmasına və mənfəəti ən uyğun qaydada sərbəst buraxmaq və ya dağıtmağa dair qərarla bağlı maliyyə idarəetmə nəzəriyyələri kimi müəyyən edilir ."Təşkilatın məqsədlərinə nail olmaq üçün maliyyə idarəçiliyini təkmilləşdirmək və optimallaşdırmaq üçün nəzərdə tutulan maliyyə strategiyaları məqsədlərə, üsullara və alternativlərə daxildir [Salazar et al., 2015]. Bu təriflərdən aydın olduğu kimi, strateji maliyyə idarəçiliyində ilk növbədə müəssisənin məqsədlərini müəyyənləşdirmək və sonra bu hədəflərə çatmaq üçün maliyyə idarəetməsi alətləri və proseslərinin planlaşdırılması və təşkili nəzərdə tutulur. Strateji maliyyə menecmenti proseslərində, maliyyə planlaşdırma mərhələsindən sonra müəssisənin əsas məqsədləri üçün nəzərdə tutulan bu planların effektiv və səmərəli icrası ən səmərəli və effektiv şəkildə həyata keçirilir, prosesdə mümkün pozuntular heç bir zaman itirmədən, qiymətləndirmə dövrünün fəaliyyəti Strateji maliyyə menecmentinin əsasını təşkil edir.

Maliyyə idarəçiliyi sahəsində nəzəriyyələr uzun müddət akademiklərin diqqətini cəlb etsə də, son illərdə maliyyə idarəetmə təcrübələri akademik araşdırma mövzusu olmuşdur. McMahon, Hutchinson və Forsaith [McMahon et al., 2013] Avstraliya, Birləşmiş Krallıq və ABŞ, müəssisələrinin maliyyə idarəetmə təcrübələrinin işi, qabaqcıl araşdırmalar arasındadır. Bu tədqiqatdan sonra bir çox tədqiqatçı müəssisələrdə müxtəlif maliyyə idarəetmə təcrübələrini müzakirə etmişdir. Nguyen, McMahon (1998-1993) işinə əsaslanan Vyetnamda müəssisələrin maliyyə idarəçiliyi praktikaları və karlılığı ilə əlaqəsi haqqında tezisində müəssisələrin maliyyə idarəçiliyi praktikasını aşağıdakı kimi xarakterizə edə bilərdi (Nguyen, 2001)

1. Mühasibat informasiya sistemləri,
2. Maliyyə hesabatlılığı və təhlili,
3. Pul idarəçiliyi tətbiqləri,
4. Alacaqların idarə edilməsi tətbiqləri,
5. Inventar (təchizat) idarəetmə proqramları,
6. Sabit aktivlərin idarə edilməsi proqramları,
7. Maliyyə planlaşdırma təcrübələri

Müəssisələrin maliyyə idarəetmə təcrübəsi say və təbiət baxımından müxtəlifdir. Bu praktikalar ölkələrdəki özəl sektorun müxtəlif inkişaf səviyyələrinə görə fərqlənə bilər. Hunjra, Butt və Rehman (“Hunjra və digərləri”, 2010), Pakistanda fəaliyyət göstərən müəssisələr üzrə araşdırmalarında, kapital strukturunun qərarı, dividend siyasəti, investisiya qiymətləndirmə üsulları, işə götürən kapital və maliyyə qiymətləndirmə və onların geniş maliyyə idarəçiliyi praktikası var.

Strateji maliyyə menecmentinin tətbiqlərinin müəssisələrdəki artım və rəqabətə təsiri:

Kiçik və orta müəssisələr üzrə maliyyə idarəçiliyində müxtəlif ölkələrin müəssisələrinin maliyyə idarəetmə təcrübələrini və onların müəssisələrin fəaliyyəti, inkişafı və rəqabət qabiliyyətliliyi ilə əlaqələrini araşdırmaq üçün bir çox tədqiqatlar var. Bu tədqiqatların ən vacibi aşağıdakılardır:

Dumbu və Chabaya (Dumbu və Chabaya, 2012) Zimbabvendəki 120 KOS- lara dair etdikləri araşdırmada onlar biznesin effektiv nağd idarə edilməsi, effektiv borcların idarə edilməsi və səmərəli idarə olunması ilə müsbət əlaqələr olduğunu aşkar etdilər.

Okafor Nigeriyada fəaliyyət göstərən altı kiçik müəssisəni araşdırmış və araşdırma nəticələri, beş müstəqil dəyişən olan mühasibat sistemləri, maliyyə idarəetmə məlumatı, müəssisə sərmayəsi rəhbərliyi, büdcə tətbiqləri və idarəetmə planlaşdırma anlayışlarının, müəssisələrin həyatda qalma, böyümə və onların karlılığına əhəmiyyətli dərəcədə təsir göstərir.

Salazar, Soto və Mosquedo, Meksikadakı 202 Müəssisələri əhatə edən və maliyyə qərarların və strategiyaların kiçik müəssisə rəqabətçiliyini araşdırdığı işlərində, qısa müddətli varlıqlarını və borclarını məhsuldar bir şəkildə idarə edən şirkətlərin, sektorda daha uzun müddət fəaliyyət göstərə bildiklərini, bu səbəbdən rəqabət güclərinin daha çox olduğunu ifadə etmişlər.

Niazi, Hunjra, Rashid, Akbar & Akhtar, Pakistandakı 64 müəssisə ilə reallaşdırdıqları işdə, müəssisə sərmayəsi siyasəti və performans dəyərləndirilməsinin, maliyyə nisbətlər və təşkilati performans üzərində müsbət və əhəmiyyətli bir təsiri olduğunu müəyyənləşdirmişlər.

Nyamao, Martin və s. Keniyada fəaliyyət göstərən 159 müəssisə üzərində reallaşdırdıqları işin nəticələrinin, maliyyə performansın nağd rəhbərliyi, alacaq rəhbərliyi və inventar rəhbərliyindəki məhsuldarlıq ilə müsbət korelyasiyaya sahib olduğunu göstərdiyini ifadə etmişlər.

Hettihawa və Wright maliyyə, cinsiyetsel və davamlılıq mövzularında Kanada və Yeni Zelandiyada fəaliyyət göstərən 220 müəssisədə araşdırıb, araşdırma nəticələri, regional müəssisələrin davamlılığının ümumi olaraq gözlənilənin üzərində olduğunu və qadın müəssisə sahibkarların, kişi müəssisə sahibkarlarına görə dövriyyəsi yarım dəfə aşağı idi.

Beck işində, 56 ölkə müəssisə üzərində edilən araşdırmanı mövzu alaraq, kiçik miqyaslı firmalarda, "maliyyə maneələrin" böyümə üzərindəki təsirlərinin, böyük miqyaslı firmaların iki qatı olduğunu ifadə etmişdir.

Okoro Nigeriyadakı 32 ədəd kişi və 5 ədəd qadın şirkət sahibi ilə reallaşdırdığı araşdırmada, qadın şirkət sahiblərinin, müəssisələri üçün fondlaşdırma qaynağı tapmaqda və bəzi maliyyə rəhbərlik strategiyalarını tətbiqi daha çətin hesab etmişdir. Araşdırma nəticələri, təhsil səviyyəsinin, məhsuldar maliyyə rəhbərlik üzərində əhəmiyyətli bir təsiri olduğunu da göstərmişdir.

Voulgaris, Asteriou və Agiomirgianakis Yunanıstandakı 143 dürgar müəssisələri araşdırıb və gəlirlilik, likvidlik, sabit qiymət gəliri və uzun müddətli borc maliyyələşdirilməsi istifadə faktorlarının müəssisənin böyüməsinə müsbət təsir etdiyini təyin etmişlər.

Yuxarıda göstərilən nəticələrdən göründüyü kimi, strateji maliyyə idarəetmə təcrübələri dünyanın müxtəlif bölgələrində fəaliyyət göstərən müəssisələrin ümumi və maliyyə göstəricilərinə, artımına, rentabelliyinə və rəqabətliliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. Ölkəmizdəki müəssisələrlə əlaqədar edilən işlərdə, müəssisələrdə maliyyə idarəetməsi ilə əlaqədar problemlərdə, təsirli və məhsuldar olmayan maliyyə rəhbərlik tətbiqlərinin bu problemlər içində əhəmiyyətli bir yerə sahib olduğunu göstərməkdədir.

Ölkəmizdə, müəssisələrin ən əhəmiyyətli maliyyə problemlərinin başında, qeyri-kafi sərmayə və xarici qaynaq tapmaqda yaşanan problemlər görünməkdədir. İƏİT ölkələri arasında 2010-2017-ci illərdə müəssisələrin kreditlərində ən böyük artım ölkəmizdə yaşanmış olmaqla bərabər (“OECD”, 2018), hələ də gəlinən nisbət, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin çox gerisindədir. 2004-ci ildə müəssisələrin ümumi kreditlər içindəki payı 5% səviyyəsində ikən, bu nisbət 2018-ci ildə 24%-ə yüksəlmişdir. Müəssisələrin maliyyə qaynaqları tapmaq çətinlikləri, ölkəmizdə bu mövzuda edilən araşdırmalardakı ağırlığın bu sahədə cəmləşməsinə səbəb olmuşdur. Az kapital və kreditə çıxış imkanı ilə yanaşı, ölkəmizdəki müəssisələr maliyyə idarəetməsində mühüm problemli sahələrə malikdirlər və pul idarəçiliyində səhvlər var. Zamanla səhv pul axını planlaması biznes sahiblərinin kapital və ya şəxsi vəsaitlərlə biznes maliyyələşməsində çatışmazlıqların qarşısını almaq imkanı verir.

Bu vəziyyətin uzun müddətli olması müəssisənin əriməsinə gətirib çıxarır və çətin vəziyyətdə qalır. Pul vəsaitlərinin idarə edilməsinə əlavə olaraq, alacaqlar və inventar (təchizat) idarə olunması, borc alacaqları ödəmə müddətinin tənzimlənməsi, investisiya büdcəsi kimi bir çox strateji maliyyə idarəetməsi təcrübəsi, ölkəmizdə müəssisələrin böyüməsində və fəaliyyətində əhəmiyyətli rol oynayır.

**Nəticələr**

Tədqiqat işində istehsal müəssisələrində maliyyə resurslarının idarə edilməsi probleminin davamlı inkişafının təmin edilməsinin düzgün

qaydada tədqiqi aşağıda göstərilən müəyyən praktiki-nəzəri nəticələri çıxartmağa və maraqlı təkliflər irəli sürməyə kömək edir.

Ölkəmizdə müəssisələr, xərc yüksəkliyi səbəbiylə, maliyyə idarəetmə başda olmaq üzrə, ixtisas tələb edən mövzularda, professional idarəçiləri cəlb edə bilməyərək və xaricdən məsləhət xidmətləri ala bilmir. Həmçinin sahibkarların qərar qəbuletmə prosesində öz biliklərini və təcrübələrini görmək istəməmələri və müəssisədə qərar qəbul mexanizmlərini başqa bir şəxsə ötürmək istəməmələri də buna təsir edir.

Ölkəmizdə müəssisələrin maliyyə vəziyyəti, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin çox gerisindədir.

AR-in təsərrüfat subyektləri əsasən texniki olaraq silahlanma səviyyəsini yüksəltmək, rəqabət qabiliyyəti olan məhsullar emal etmək, biznes fəaliyyətlərini böyütmək və yüksək mənfəət əldə etmək üçün əlavə borc vəsaitlərinin cəlb olunması, bu vəsaitlərin səmərəli və əhəmiyyətli istifadəsi mövzularına xüsusilə fikir verməlidir.

MM-nin əsas funksiyası olaraq borc vəsaitlərindən istifadə sahibkarlıq subyektlərinin təsərrüfat-istehsal fəaliyyət sahəsini böyüdür, xüsusi kapitaldan daha səmərəli istifadə edilməsini həyata keçirir, ayrı-ayrı məqsədləri olan maliyyə fondlarının yaradılması prosesini intensivləşdirir və son nəticədə müəssisənin bazar dəyərini artırır.

Bazar iqtisadiyyatı şəraitində maliyyə menecmentinin ayrılmaz tərkib hissəsi olan maliyyə təhlilinin əhəmiyyəti xeyli artmışdır. Müasır dövrdə maliyyə təhlilinə dair iki yanaşma mövcuddur. Birinci yanaşmada maliyyə təhlili geniş aspektdə başa düşülür, yəni kapital bazarı da daxil olmaqla ətraf mühit kontekstində təsərrüfat subyektlərinin maliyyəsinin idarə edilməsi ilə əlaqədar analitik işlərin bütün bölmələrini əhatə edir, ikinci yanaşma maliyyə təhlilinin əhatə sferasının mühasibat uçotunun təhlili ilə məhdudlaşdırılmasını nəzərdə tutur.

Maliyyənin təhlil edilməsinin əsas məqsədi müəssisənin maliyyə vəziyyətini obyektiv olaraq səciyyələndirən mühüm parametrləri, başqa sözlə desək, aktiv və passivlərin strukturunda, kreditor və debitor borclarında, xeyirlərdə və dəyən zərərlərdə tətbiq edilən yenilikləri müəyyən etməkdən ibarətdir. Maliyyənin təhlil edilməsi ilə təsərrüfat subyektlərinin maliyyə dayanıqlığını obyektiv şəkildə dəyərləndirmək, maliyyə vəsaitlərindən istifadənin səmərəliliyini müəyyən etmək, mütərəqqi maliyyələşdirmə mənbələrini aşkara çıxarmaq mümkündür.

Müəssisənin maliyyə dayanaqlığını yüksəltmək məqsədilə aşağıdakı tədbirlərin həyala keçirilməsi vacibdir:

– kreditor və debitor borclarının, qısamüddətli və uzunmüddətli maliyyə qoyuluşlarının səmərəli şəkildə idarə olunması;

– müəssisənin maliyyə ehtiyatının nəzərdə tutulmuş müəyyən qisminin sənədlər portfelinə qoyulması. Əsas fəaliyyətə nisbətən mənfəətin minimum səviyyəsində sənədlərə qoyulan investisiya yüksək likvidlik göstərir.

– rəqabət qabiliyyətinin inkişaf etməsi, məhsulun keyfiyyəti və əmtəənin bazarda irəli getməsinin effektiv olaraq təşkili üsulu ilə məhsulun satışından alınan gəlirin (mənfəətin) həcminin artırılması.

**Tədqiqatın elmi yeniliyi:** Müəssisələrin maliyyə resurslarının idarə edilməsi mexanizminin nəzəri-metodoloji əsasları kompleks şəkildə araşdırılmış; müəssisənin maliyyə nəticələrinin idarəedilməsinin mövcud problemləri və həlli yollarına dair təkliflər, tövsiyələr verilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti:** Tədqiqat zamanı müasir iqtisadi şəraitdə istehsal müəssisələrində davamlı inkişafın təmin edilməsində maliyyə resurslarının müasir tətbiq xüsusiyyətləri və tətbiqinin inkişaf etdirilməsi istiqamətləri ilə əlaqədar nəzəri və praktiki tövsiyələr verilmişdir. İşin praktik əhəmiyyəti haqqında onu vurğulamaq olar ki, bu sahədə gələcəkdə araşdırma etmək istəyən şəxslər üçün faydalı məlumat bazası ola bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Ağamalıyev M. Şükürov T. “Ticarət müəssisəsinin iqtisadiyyatı”. Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin dərsliyi, Bakı, 2010,.
2. Məmmədov E.Y. ,“Müasir şəraitdəistehlak malları bazarının formalaşması və inkişafı problemləri”. Bakı, 2014
3. Şəkərəliyev A.Ş. “Azərbaycanda sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti, onun inkişaf problemləri və perspektivləri”. Məqalələr toplusu. 36-39 s.
4. T.Məmmədov. ”Ticarətin təşkili və texnologiyası”. Bakı-2012.

**Ниджат Адиль оглы Нариманов, PhD, доц.**

**Ламия Иляс кызы Байрамова**

**Айхан Гырымхан оглы Мурадов**

**Самира Рафик кызы МИРЗАЕВА**
Азербайджанский Технологический Университет

# ПЕРСПЕКТИВЫ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ ФИНАНСОВЫХ РЕСУРСОВ ПРЕДПРИЯТИЙ

**Резюме**

В статье рассмотрено переход к рыночной экономике который позволил повысить финансово-экономические права предприятий, действующих во всех регионах страны. В то же время это существенно расширило их возможности для получения прибыли за счет развития собственных ресурсов. Предприятия, имеющие полномочия на ведение самостоятельной финансово-хозяйственной деятельности, имеют возможность вкладывать средства, полученные в основных сферах экономики, в различные ценные бумаги.

**Ключевые слова:** финансовые ресурсы, экономические затраты, эффективное управление финансовыми операциями, система финансового менеджмента

**Nijat Adil NARİMANOV, PhD, assoc. Prof.**

**Lamiya Ilyas BAYRAMOVA**

**Aykhan Gyrymkhan MURADOV**

**Samira Rafik MİRZAYEVA**
Azerbaijan Technological University

# PROSPECTS FOR THE EFFİCİENT USE OF FİNANCİAL RESOURCES OF ENTERPRİSES

**Summary**

The article considers the transition to a market economy, which made it possible to increase the financial and economic rights of enterprises operating in all regions of the country. At the same time, this significantly expanded their opportunities for making a profit by developing their own resources. Enterprises that have the authority to conduct independent financial and economic activities have the opportunity to invest funds received in the main sectors of the economy in various securities.

**Keywords:** financial resources, economic costs, effective management of financial operations, financial management system

**Famil Qağamalı oğlu NİFTİYEV**
İqtisadi Elmi Tədqiqat İnstitutu,
İqtisad elmlər doktoru üzrə dissertant
E-mail: f.niftiyev@mail.ru

# CƏMİYYƏTİN MÜASİRLƏŞMƏSİNDƏ ELMİN İNSAN KAPİTALINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Məqalədə insan kapitalının tərkib hissəsi olan elm sektorundan söhbət açılır. Tədqiqat olunan sahənin yaranma tarixi, alimlərin fikirləri, statistik və şəkil üzərində təhlillər aparılmışdır. Azərbaycanda olan elm sektorunun vəziyyəti, tədqiqatçıların sayı, dövlətin elmə ayırdığı vəsaitdən danışılır. Eləcə də, Respublikada insan kapitalının elm sektorunda inkişafı ilə bağlı Azərbaycan Respublikası Prezidentinin fərmanları və onların nəticələri barədə məlumat verilmişdir.

**Açar sözlər:** cəmiyyət, insan kapitalı, elm, tədqiqat, Azərbaycan

**UOT 331**
**JEL: H52**

## Giriş

İnsan kapitalı müasir qloballaşan cəmiyyətin ən aktual və mühüm problemlərindən biridir. Cəmiyyətdə insan kapitalı öz əsasını insan fenomenini araşdıran əsas fundamental ideyalardan alır. Onun iqtisadi, siyasi, milli-mənəvi əsaslarının təkmilləşdirilməsi üçün mühüm fikirlər var.

Son dövrlər dünyada və onun regionlarnda insan kapitalının formalaşmasına, toplanmasına və zənginləşməsinə maraq artmaqdadır. Ümumiyyətlə, fərddə insan kapitalı doğulduğu andan başlayır və ömrü boyu davam edir. İqtisadi elmdə və ictimai həyatda bu proses getdikcə daha çox sosial sahə kimi strateji əhəmiyyət kəsb edir. Sosial tərəqqinin əsas məqsədi hər bir fərdin potensialının reallaşdırılmasını təmin etmək və sağlam, yaradıcı, fəal həyat tərzi sürməkdən ibarətdir. Buradan belə nəticə çıxır ki, şəxsiyyətin keyfiyyətlərinin təkmilləşdirilməsi bütün bəşəriyyətin tərəqqisinin açarı və məzmununa çevrilir. Postindustrial cəmiyyətin ən əhəmiyyətli resursları fabriklər, avadanlıqlar və digər fondlar deyil, insandır. Bu, insana münasibəti həm lokal, həm də qlobal amil kimi deyil, istehsalın təkmilləşdirilməsi və cəmiyyətin inkişafı üçün güclü sosial-psixoloji resurs kimi diktə edir.

Elmdə insan kapitalı və elmi tədqiqatların inkişafı çox sıx və müəyyən mənada ikitərəfli əlaqədədir. İnsan kapitalına qoyulan investisiyalar, onların həcmi və istiqamətləri əsasən fundamental xarakter daşıyır və elmi tədqiqatların istiqamətini və dinamikasını müəyyən edir. Müasir dünyada insan kapitalının inkişafındakı uğurlar iqtisadi inkişaf baxımından da həlledicidir. O, öz növbəsində insan kapitalının gücləndirilməsinə və inkişafına yönəlmiş strategiya və siyasətin həyata keçirilməsi üçün etibarlı əsasdır.

## Yaranma tarixi

"İnsan kapitalı" anlayışı öz-özünə yaranmamış, iqtisadi fikrin inkişafının təbii nəticəsi idi. İnsan kapitalının inkişafı problemi iqtisadi fikir tarixində dərin köklərə malikdir. Qeyd etmək olar ki, insan kapitalı nəzəriyyəsinin müəyyən elementləri 21-ci əsrin əvvəllərində işlənib hazırlanmışdı, lakin tədqiqatçılar "insan kapitalı" anlayışının məzmunu ilə bağlı müxtəlif mövqelər tutmuşlar.

"İnsan kapitalı" termini ilk dəfə 1980-ci illərdə qərbdə meydana çıxmışdır. Nobel mükafatçıları Teodor Şults və Qerri Bekkerin əsərlərində rast gəlinir. Onlar "insan kapitalı"nı insanın qabiliyyətlərinin, o cümlədən onun istedadının, təhsilinin, qazanılmış ixtisaslarının, fitri qabiliyyətlərinin iqtisadi qiymətləndirilməsi kimi müəyyən edirdilər [6].

"İnsan kapitalı" nəzəriyyəsinin baniləri Q.Bekker və T.Şults "insan kapitalı" anlayışını bilavasitə yalnız biliyin daşıyıcısı kimi insanla

əlaqələndirmişlər və onlar cəmiyyətin və iqtisadiyyatın inkişafının əsas amili kimi təhsilə xüsusi önəm verirdilər. Hazırda belə bir tərif artıq daralmış kimi görünür. İnsan kapitalına təkcə savadlı mütəxəssislər deyil, həm də bilik, təhsil, elm, əqli əmək alətləri və onun istehsal funksiyalarının yerinə yetirilməsi baxımından insan kapitalının fəaliyyət göstərməsi üçün mühit daxildir. Həqiqətən də, öz işi üçün proqram təminatı olmayan, lazımi informasiya mənbələri, məlumat bazası, metod və texnologiyaları olmayan mütəxəssis müasir şəraitdə, eləcə də, yüksək həyat keyfiyyəti olmadan öz işini, funksiyalarını yerinə yetirə bilməz. Mütəxəssis bu ölkədə işləməyəcək, ona əmək intellektual fəaliyyəti üçün rahat şərait yaradılacağı ölkəyə gedəcək.

İnsan kapitalının iqtisadi artımın əsas amili olması fikrini inkişaf etdirərək məşhur Qərb iqtisadçısı və menecment mütəxəssisi D.Qreysonu qeyd etmək istərdim. O yazırdı: "İnsan kapitalı ən qiymətli resursdur, təbii ehtiyatlardan və ya yığılmış sərvətdən çox vacibdir. Rəqabət qabiliyyətinin, iqtisadi artımın və səmərəliliyin təməl daşı olan zavodlar, avadanlıq və inventar deyil, insan kapitalıdır" [5, s. 59].

A. İ. Dobrynin və S. A. Dyatlov yazılarında aşağıdakı tərifi verirlər: "insan kapitalı, əmək prosesində məqsədəuyğun şəkildə istifadə olunan məhsuldarlığın və qazancın artmasına kömək edən müəyyən bir sağlamlıq, bilik, bacarıq, qabiliyyət, motivasiya ehtiyatıdır." [3].

Azərbaycanda insan kapitalı ilə məşğul olan alimlər bu sahənin daha perspektivliyindən bəhs edir. U.Ələkbərov, F.Niftiyev, F.Mikayılov və başqalarının əsərlərində insan kapitalı ilə bağlı məlumatlar yer almaqdadır [4].

**Elm sektoru**

Bilik kapitalı insan kapitalının əsasını təşkil edir. Əgər iqtisadi artım 60%-dən çox insan kapitalı hesabına təmin edilirsə, onda insan kapitalının özünün $^2/_3$-nin formalaşması peşə təhsilindən, elmə və təhsilə maliyyə qoyuluşlarından asılıdır. İnsanın təhsili insan kapitalının səviyyəsini müəyyən edir. İnsan biliyə təhsil sistemi vasitəsilə yiyələnir. M.Abişeva yazır ki, "Təhsil bilik və texnologiyaya artan tələbatı ödəyir" [2, s. 46]. Amma burada nəzərə almaq lazımdır ki, təhsil fəaliyyət göstərir və öyrənənlərə əsasən formalaşmış bilikləri təqdim edir. Yeni biliyin yaradıcı inkişafı elmin səlahiyyətindədir. Eyni müəllifin "insan kapitalı yalnız bir insanın bilik, bacarıq və özünü dərk etməsi deyil, yalnız cəmiyyət üzvlərinin praktik bacarıq və intellektual səylərinin məcmusu deyil, ilk növbədə yeni bilik və dəyərlər yaratmaq bacarığıdır" ifadəsi ilə razılaşsaq, yeni biliklərin yaradılması elm tərəfindən asanlaşdırılır. Bu, onun insan kapitalının strukturunda konstruktiv və yaradıcı rolundan ibarətdir. Təhsil və elmin hər zaman bir yerdə fəaliyyət göstərməsi bu sahədə insan kapitalının inkişafına kömək edəcək.

Eyni zamanda, insan kapitalının formalaşmasında doğulduğu andan onun intelektuallığının, savadlılığının artırılmasında valdeyinlərin rolu böyükdür. Valdeyin ilə uşaq arasındakı qarşılıqlı münasibətin müsbət yöndə formalaşmasına gətirib çıxaracaqdır. Bu da gələcəkdə təhsilə, elmə marağın artmasında böyük rol oynayacaqdır.

İnsan kapitalının inkişafında elm sahəsinin rolu böyükdür. Bununla məşğul olan tədqiqatçıların apardığı tədqiqatlar və işləmələr cəmiyyətə böyük töhfə verməklə yanaşı insan kapitalının formalaşmasına kömək edir. Elmi tədqiqat və işləmələrin yerinə yetirilməsinə öncə müəssisə, təşkilat, idarə və s. daxildir. Həmin təşkilatlar müasir tələblər səviyyəsində qurulmalıdır.

**Cədvəl 1**

**Azərbaycanda tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayı**

| Göstəricilər | 2005 | 2010 | 2015 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| Elmi-tədqiqat təşkilatları | 97 | 93 | 91 | 86 | 90 |
| Ali təhsil müəssisələri | 33 | 37 | 39 | 37 | 37 |
| Digər | 16 | 15 | 11 | 4 | 7 |
| Cəm | 146 | 145 | 141 | 127 | 134 |

Mənbə: Azərbaycanda elm, DSK,2022

Cədvəl 1-də təhlil aparılarkən təşkilatların sayında azalma müşahidə etmək olar. Elmi-tədqiqat və digər (sahibkarlıq sektoru) təşkilatlarda 2005-ci ilə nisbətən 2021-ci ildə 15 vahid azalma olmuşdur. Ali təhsil müəssisələrində 4 vahid artaraq 2021-ci ildə 37-yə çatmışdır. Bu sahəyə diqqətin artırılması üçün sahibkarlıq sektorunda bu kimi təşkilatların yaradılmasına ehtiyac vardır.

Tədqiqat və işləmələri yerinə yetirən təşkilatlarda heyətin sayında müxtəlif illərdə artma və azalma qeydə alınmışdır. 2005-ci ildə 18164 nəfər, 2015-ci ildə 23093 nəfər və 2021-ci ildə 19754 nəfər olmuşdur. 2015-ci illə müqayisədə 3339 nəfər azalmışdır [1].

**Şəkil 1.**




Şəkil 1-də tədqiqat və işləmələri yerinə yetirən təşkilatlarda heyətin arasında elmlər doktoru və fəlsəfə doktoru, o cümlədən, qadınların sayı qeyd olunmuşdur. 2005-2021-ci illərdə elmlər doktorunun sayı 2 dəfə artmışdır. Bu müddət ərzində fəlsəfə doktorlarının sayında 1,8 dəfə yüksəlmə müşahidə edilmişdir. 2021-ci il üzrə qadınların sayı elmlər doktoru üzrə 23% və fəlsəfə doktoru üzrə 54% olmuşdur.




**Şəkil 2 2021-ci ilin sonuna tədqiqatçı mütəxəssislərin yaş qrupları**

Şəkil 2-də elmlər doktoru üzrə artım düz mütənasiblik təşkil etdiyi halda, fəlsəfə doktorunda isə tərs mütənasiblik olmuşdur. Ölkədə, əsasən, elmlər doktoru olmaq istəyən tədqiqatçıların sayı 40 yaşdan sonra nəzərə çarpır. 40-70 yaş aralarındakı elmlər doktorlarının sayında 3 dəfə artım olmuşdur. Fəlsəfə doktorlarında isə bu tam tərsinədir. Belə ki, 50 yaşa kimi tədqiqatçıların sayında yüksəlmə getdiyi halda, yuxarı yaşlarda enmə müşahidə edilir.

Dövlət büdcəsindən elmə çəkilən xərclərin miqdarı 2000-ci ildə 9,3 milyon manat, 2005-ci ildə 28,8 milyon manat, 2015-ci ildə 113,2 milyon manat və 2021-ci ildə 151,8 milyon manat olmuşdur [1]. Elmə çəkilən xərclər 21 il ərzində 16 dəfədən çox artmışdır. Elmə çəkilən xərclərin ÜDM payı 2021-ci ildə 0,16% edir. Tədqiqat və işləmələrə çəkilən xərclərin ÜDM-də payı 2000-ci ildə 0,3%, 2015-ci ildə 0,2% və 2021-ci ildə 0,2% olmuşdur. Bu xərclər MDB-yə üzv olan ölkələr arasında fərqli müşahidə edilib. 2020-ci il üzrə Rusiya (1,1%), Belarus (0,5%), Ukrayna (0,4%), Azərbaycan (0,2%), Moldova (0,2%), Ermənistan (0,2%) və digərlərində 0,1% olmuşdur. Bu da gələcəkdə elmdə yeni ixtisasların yaradılmasına, bu sahədə müstəqil tədqiqatların aparılmasına maddi nöqteyi nəzərdən bir stimul verəcəkdir.

21-ci əsrin əsas prioritetinə - bilik iqtisadiyyatının qurulmasına nail olmaqda insan kapitalı və elmin rolu xüsusi əhəmiyyət kəsb edir [7]:

- əsasən elmi-texniki sahələrdə ali və doktorantura təhsili və elmi istedadların, yeni alim və mühəndis nəsillərinin üzə çıxarılması, eləcə də, təşviqi üçün effektiv mexanizmin yaradılması yolu ilə inkişaf, burada ekonometrik iqtisadiyyatının kadr təminatı üçün zəruri olan intellektual kapitalın təkrar istehsalı prosesi üçün;

- iqtisadi artıma nail olmaq amili kimi ölkənin rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması;

- fundamental elmin inkişafı - təbiət və dəqiq elmlərdə keyfiyyət nailiyyətləri, nəzəri kəşflərin praktikaya tətbiqi prosesinin kəskin surətdə sürətləndirilməsi, istehsal amillərinin keyfiyyətində əsaslı dəyişikliklər. Məsələn: istehsal prosesinin kompüterləşdirilməsi, elmin yeni mənbələrindən istifadə edilməsi; enerji, müəyyən xassələrə və funksiyalara malik sintetik materialların işlənməsi və bunun nəticəsində ölkənin elmi-texniki potensialının modernləşdirilməsi aiddir.

İnsan kapitalı ilə bağlı respublikada məyyən addımlar atılmışdır. Bunun bir hissəsi olan elm sahəsində müəyyən dəyişiklik baş vermişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli fərmanı ilə Təhsil Nazirliyinin adı dəyişilərək Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yaradılıb. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərancamı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər" proqramında bu sahənin inkişafı üçün zəruri addımlar atılacaqdır [8]. Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil alma imkanları yaratmaqla, onların Azərbaycan Respublikasının gələcək inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksək ixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir [9].

"Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" nın 4 may 2009-cu ildə təsdiq edilməsi bu sahəyə qoyulan diqqətin artmasıdır. Onun əsas məqsədi aşağdakılardır [10]:

-Azərbaycan elminin strukturunu və tərkibini ölkənin mövcud və perspektiv tələbatları baxımından müəyyən etmək;

- ölkədə elmin dünya elmi, texnikası və texnologiyalarının prioritet istiqamətlərinə uyğun təşkilini təmin etmək;

- elmin ölkənin iqtisadi inkişafında rolunu artırmaq;

- elm sahəsində mövcud kadr potensialını, o cümlədən, elmi tədqiqat problemləri ilə məşğul olan mütəxəssis və eləcə də elmdə peşəkar idarəçilik funksiyalarını həyata keçirməyə qadir olan kadrların hazırlığını təmin etmək;

- Azərbaycan Respublikasında fundamental və tətbiqi tədqiqatların prioritetlərini ölkənin

mühüm sosial-iqtisadi və ictimai-mədəni məsələlərinin həllinə uyğun müəyyənləşdirmək;

- fundamental elmlər üzrə tədqiqatları genişləndirmək;
- elm və texnika sahəsində idarəetmə sistemini təkmilləşdirmək;
-elmi tədqiqat müəssisələrinin və bütövlükdə elmin maliyyələşdirilmə mexanizmlərini təkmilləşdirmək;
- elmi-texniki infrastrukturu modemləşdirmək;
- elmin normativ hüquqi bazasını yaratmaq;
- yüksək ixtisaslı elmi kadrlar hazırlamaq;
- elmi məktəblərin qorunmasına və varisliyin təmin edilməsinə nail olmaq;
- elmin, təhsilin və istehsalın inteqrasiyasını təmin etmək;
- elmi işçilərin sosial vəziyyətini əsaslı şəkildə yaxşılaşdırmaq;
- elmin informasiya təminatını gücləndirmək;
- beynəlxalq elmi əlaqələri dərinləşdirmək;
- Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasını gücləndirmək;
- elmi tədqiqatların və innovasiya siyasətinin səmərəsini artırmaq;
- ölkəni texnoloji cəhətdən modernləşdirmək;
- elmi potensialın ölkənin milli təhlükəsizliyində fəal iştirakına nail olmaq;
- xalqımıza məxsus milli-mənəvi dəyərlərlə bağlı istiqamətlərdə bir çox məsələləri yenidən azərbaycançılıq məfkurəsi mövqeyindən araşdırmaq;
- elmi potensialı ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafına yönəltmək.

**Nəticə**

Cəmiyyətin inkişaf etməsində insan kapitalının elm sektorunun bu sahəyə verdiyi töhfə gələcək nəsillərin dünyaya inteqrasiyasını artıracaq. Bu sahədə çatışmayan müəyyən problemləri var ki, bu da insan kapitalına mənfi təsir edir. Bunlar aşağıdakılardır:

a) biznes sektoru ilə elm sektoru arasında qarşılıqlı əlaqələrin kifayət qədər az olması;

b) tələbələrin praktika vaxtı elmi tədqiqat institutlarında ya az vaxt keçirməsi, ya da keçirməməsi;

c) Elm sektorunda əmək haqlarının aşağı olması bu sahədə çalışanların özəl sektora üz tutması ilə nəticələnir.

Ümumiyyətlə, yüksək keyfiyyətli insan kapitalının formalaşdırılması cəmiyyətin səmərəli modernləşməsinə töhfə verəcək.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycanda təhsil, elm, mədəniyyət. Bakı, 2022, 496 s
2. Абишева М. Человеческий капитал в Республике Казахстан: проблемы образования // Адам әлемі – Мир человека, 2009. – №3 (41). С. 46–56.
3. Добрынин А. И., Дятлов С. А., Цыренов Е. Д. Человеческий капитал в транзитивной экономике: формирование, оценка, эффективность использования. – СПб. : Наука, 1999. 312 с.
4. İsmayılova A., Mikayılov F. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Bakı: “Çap ART” Nəşriyyatı, 2017, 28 s
5. О’Делл К., Грейсон Д. Американский менеджмент на пороге XXI века. – М.: Экономика, 1991. 320 с.
6. Theodore W. S. Human Capital: Policy Issues and Research Opportunities,1972, p. 1 – 84
7. Ederer, P. Innovation at Work: The European Human Capital Index, 2006. Available at: www.lisboncouncil.net
8. https://president.az/az/articles/view/50474
9. https://edu.gov.az/az/2022-2026-ci-iller-uzre-dovlet-proqrami/2022-2026-ci-iller-uzre-dovlet-proqrami
10. https://e-qanun.az/framework/17199

**Famil Qaqamali NİFTİYEV**
Economic Scientific Research Institute

## ASSESSMENT OF THE İMPACT OF SCİENCE ON HUMAN CAPİTAL İN THE MODERNİZATİON OF SOCİETY

**Absract**

The article discusses the science sector, which is a component of human capital. Analyzes were made on the history of the researched area, opinions of scientists, statistics and pictures. The state of the science sector in Azerbaijan, the number of researchers, and the funds allocated by the state to science are discussed. The President's decrees and the results related to the development of human capital in the science sector in the republic have been reported.

**Keywords:** society, human capital, science, research, Azerbaijan

**Фамиль Гагамалы НИФТИЕВ**
Научно-Исследовательский Экономический Институт

## ОЦЕНКА ВЛИЯНИЯ НАУКИ НА ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ В УСЛОВИЯХ МОДЕРНИЗАЦИИ ОБЩЕСТВА

**Резюме**

В статье рассматривается сектор науки, который является составной частью человеческого капитала. Были проанализированы история исследуемой области, мнения ученых, статистические данные и фотографии. Обсуждается состояние сектора науки в Азербайджане, количество исследователей, средства, выделяемые государством на науку. Доложены указы президента и результаты, связанные с развитием человеческого капитала в сфере науки в республике.

**Ключевые слова:** общество, человеческий капитал, наука, исследования, Азербайджан

**Sultan Qurban oğlu NİFTƏLİYEV**
UNEC- Mühasibat uçotu və audit ixtisası üzrə doktorant
E-mail: Sultanniftaliyev95@gmail.com
ORCID: 0000-0002-0887-5210

# KRİPTOVALYUTALARIN UÇOTA ALINARKƏN PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ KİMİ TƏSNİFLƏŞDİRİLMƏSİNƏ YANAŞMALAR

**Xülasə**

Kriptovalyutalar yeni rəqəmsal aktivlər olmaqla müəssisələrə növbəti dövrlərdə iqtisadi fayda gətirən texnolojik vasitədir. Qloballaşan iqtisadi vəziyyəti nəzərə alsaq kriptovalyutaların gündən-günə iqtisadi mahiyyəti artmaqda və daha çox insan tərəfindən istifadə edilməyə başlamaqdadır. Əsası 2009-cu ildə təsis edilən bitcoin kriptovalyutası isə mövcud kriptpvalyutaların atası sayılmaqdadır və ilk yaranmış rəqəmsal aktivdir. Bitcoin yarandığı zamanlar ilkin olaraq dəyərsiz kimi istifadə edilsə də, son dövrlərdə onların market dəyəri həddən artıq dərəcədə artmaqdadır. Bu isə onların uçota olan yanaşmalarının analiz edilərək vahid standartlara tətbiq edilməsini vacib edir. Artıq müəssisə və təşkilatlar onları əldə edərək, uçot standartlarına istinad edərək onların uçotunu təşkil etməkdədir. Dünya üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən isə onların vahid uçotunun təşkil edilməsi üzrə isə vahid standartlar toplusu qəbul edilməmişdir. Nəticə olaraq onların uçotuna olan fərqli yanaşmalar əsasında maliyyə hesabatlarını oxuyanlar, vergi orqanları, investisiya şirkətləri və s. qurum və ya insanlar üçün bir sıra çətinliklər yaranmaqdadır. Bəzi müəssisə və ya təşkilatlar tərəfindən onların pul vəsaitləri və ya pul vəsaitlərinin ekvivalenti kimi uçota alınmasını həyata keçirməkdədirlər. Məqalədə isə onların sözügedən aktivlərin tərkibində uçota alınmasına olan yanaşmalara diqqət yetirilməkdədir. Vahid standartların olmaması fərqli yanaşmalara yol açmağa və nəticə olaraq fərqli uçota alınmaya gətirib çıxaracaqdır. Kriptovalyutaların aktivlərdə uçota alınması və təsnifləşdirilməsi ilə bağlı maliyyə hesabatları standartlarının mövcud olmaması hər keçən gün şirkətlər üçün böyük problemlər yaratmaqdadır. Belə problemlərin aradan qaldırılması isə müəyyən qədər vaxt aparan hadisələrdən hesab edilə bilər.

**Açar sözlər:** Kriptovalyutalar, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, İFRS, Pul vəsaitləri və ya onların ekvivalenti

**UOT: 336**
**JEL: F31**

## Giriş

Kriptovalyutalar, son illərdə ortaya çıxan, həm fərdlər, həm də qurumlar tərəfindən geniş istifadə olunan bir fenomendir. Onların texnoloji xüsusiyyətləri çoxlarını maraqlandırdığı üçün, nəticə olaraq mövcud kriptovalyutaların sayında əhəmiyyətli bir artım baş verdi və istifadə sahələrinin artması halı həyata keçdi. Zamanla daha çox müəssisə və ya təşkilatlar kriptovalyutaları investisiya məqsədləri üçün istifadə etməyə və ya onlardan ödəniş vasitəsi kimi istifadə etməyə başladı. Bu, mühasibat uçotu standartlarını tərtib edənlərin maliyyə hesabatlarında necə davranacağını tənzimləmək üçün təcili rəhbərliyə və istiqamətə ehtiyac duyması ilə nəticələnmişdir. Bu cür rəhbərlik və istiqamət verən təşkilatların və ya standartların olmamasının nəticəsi olaraq maliyyə hesabatları hazırlayanlar üçün əhəmiyyətli çətinliklər yaradan və praktikada istifadə olunan müxtəlif mühasibat uçotu metodlarının istifadəsinə səbəb olmuşdur. Son vaxtlara qədər maliyyə hesabatları hazırlayanlar üçün təlimat böyük mühasibat şirkətləri tərəfindən verilən hesabatlardan və yerli tənzimləyici mühasibat orqanlarının tövsiyələrindən ibarət idi. Ədəbiyyatın olmaması, bazar üçün mümkün nəticələrlə birlikdə, bazarda mühasibat uçotu işlərinin qarşısını almaq üçün təcili rəhbərliyə ehtiyac duydu. Bundan əlavə, bu çətinliklər mənfəət idarəçiliyinin aparılması və ya maraqlı tərəflər və təşkilatlar arasında artan məlumat asimmetriyası ilə nəticələnə bilər. Yəni, yeni rəqəmsal aktiv olan kriptovalyutaların uçotuna olan yanaşmalara diqqət yetirilməli və onların vahid standartlara əsasən təsnifləşdirilməsi məsələləri gündən-günə aktuallaşmaqdadır. Dünya

ölkələrinin müəssisələri tərəfindən kriptovalyutalarla ödəniş və mübadilələrin həyata keçirilməsi daha da populyarlaşmağa başlamışdır. Dünyanın nəhəng və məhşur şirkətləri olan "Burger King", "KFC", "Amazon", "Microsoft", "Dell" və s. müəssisələr artıq onlardan mübadiə vasitəsi kimi istifadə etməkdədir (Ofir Beigel, 2023). Xaricdə fəaliyyət göstərən şirkətlər üçün kriptovalyutalarla olan ödənişlərin həyata keçirilməsi və mübadilələrin təşkil edilməsi mühasibat uçotu üçün standartların olmasını vacib etməkdədir. Hal-hazırda isə əsas qanunverici orqanlar olan "Financial Accounting Standart Board" və "İnternational Accounting Standart Board" tərəfindən vahid uçota alınma ilə bağlı standartlar tətbiq edilməməkdədir (KPMG, 2022). Nəticə olaraq standartların mövcud olmaması hazırkı standartların tətbiqinə və bu standartların tətbiqi zamanı çətinliklərin yaranmasına səbəb olur. Təcrübədə kriptovalyuta ilə ödəniş alan müəssisələrin onları pul vəsaitləri və ya pul vəsaitlərinin ekvivalenti kimi uçota alması prosesi baş tutmaqdadır. Məqalədə isə bu prosesin həyata keçirilməsinin standartlardan kənarlaşma olub-olmaması araşdırılacaqdır.

## ANALİZ

Kriptovalyutaların hər gün artan populyarlığı, insanların daha çox bitcoin və digər kriptovalyutalara investisiyalar etməsi, şirkətlərin mübadilə vasitəsi kimi rəqəmsal valyutalardan istifadə etməsi dünya iqtisadiyyatında onların yerinin möhkəmləndirilməsinə və mövzunun daha da aktual olmasına səbəb olmaqdadır. Artıq 2023-cü ilə nəzər saldıqda kriptovalyutaların bazar dəyərinin 1 trilyon ABŞ Dolları həcmindən çox olduğunu müşahidə etmək mümkün olacaqdır. Bu isə öz növbəsində müəssisə və təşkilatların kriptovalyutalara olan marağını daha da artırmaqdadır. Müəssisə və təşkilatlar ödəniş üsulları arasında artıq kriptovalyutalardan istifadə etməyə başlamış, eyni zamanda satışlardan daxil olan gəlirlərdə kriptovalyuta ilə mədaxillər təşkil edilmişdir. Sözügedən əməliyyatların gündən-günə artması nəticəsində mühasibat uçotu qaydalarının və maliyyə hesabatları standartlarının yenilənməsi və ya kriptovalyutaların aktiv kimi təsnifləşdirilməsi zamanı mövcud standartlara istinad edilməsinə gərək duyulmaqdadır (Thomson Ruders, 2022). Hər gun daha çox şirkətlər kriptovalyutalardan investisiya və başqa məqsədlər üçün istifadə etməkdədir. Nəticə olaraq maliyyə hesabatları hazırlayanlar və ya mühasiblər tərəfindən fərqli yanaşmaların olması isə qaçınılmaz hal olmaqdadır. Vahid qanunvericilik standartlarının olmaması nəticəsində müəssisə və təşkilatların maliyyə hesabatlarını hazırlayanlar tərəfindən müxtəlif yanaşmalar tətbiq edilməkdədir. Bu isə öz növbəsində vergi orqanları, investorlar üçün maliyyə hesabatlarının oxunmasında çətinliklər yaratmaqdadır.

Ümumi olaraq müəssisə mübadilə vasitəsilə bitcoin və ya digər kriptovalyutalar əldə etdiyi zaman onların aktiv kimi uçotunu həyata keçirməldir. Çünki, daxil olan bu vəsaitlərdən müəssisənin uzunmüddətli və ya qısamüddətli dövrdə satışından və ya mübadilə vasitəsi kimi istifadəsindən iqtisadi fayda əldə etməsi gözləniləndir. Resursun aktiv kimi uçota alınması üçün əsas şərtlərin ödənilməsi gərəkdir. Konseptual Çərçivəyə görə aktivlər dedikdə daha öncələr baş vermiş əməliyyatlar nəticəsində müəssisə tərəfindən idarə edilən resurslar başa düşülür və növbəti dövrlərdə onların istifadəsi nəticəsində iqtisadi fayda əldə edilməsi gözləniləndir (İASB, 2015). Kriptovalyutalar əldə edən müəssisələr üçün nəzarətin əldə saxlanılması isə aydın başa düşülən məsələlərdəndir. Hər hansısa bir şirkət kriptovalyutalara nəzarəti tam olaraq əldə saxlayır və investisiya və ya mənfəət əldə edilməsi məqsədilə onların istifadəsinə sahib olur. Nəticə olaraq kriptovalyutaların aktiv kimi təsnifləşdirilməsi mütləqdir və müzakirə mövzusu deyildir. Yəni, müəssisəyə daxil olan və ya şirkət tərəfindən investisiya edilərək əldə edilən rəqəmsal aktivlər tam olaraq müəssisənin ixtiyarındadır və onlar maliyyə hesabatlarında aktiv kimi uçota alınmalıdırlar (Jake Frankenfield, 2023). Kriptovalyutaların aktiv kimi uçota alınması sual altında olmasa da, onların hansı aktivlərin tərkibində uçota alınması və təsnifləşdirilməsi isə sual altında qalmaqdadır. Beynəlxalq aləmdə fəaliyyət göstərən bəzi müəssisə və təşkilatlar isə onları pul vəsaitləri və ya onların ekvivalentləri kimi uçota alınmasını həyata keçirir və bunun tərəfdarıdırlar. İlk baxışda kriptovalyutaların daha çox pul vəsaitləri kimi uçota alınması sadə görünsə də, bu prosesin mövcud standartlara əsasən uçota alınmasında bir sıra çətinliklər mövcuddur.

Pul vəsaitləri dedikdə, müəssisə tərəfindən nəzərat edilən valyutalar başa düşülməkdədir.

Müəssisə və təşkilatlar biznes əməliyyatlarının yerinə yetirilməsini, satışların və alışların həyata keçirilməsini, müəssisənin operativliyini pul vəsaitləri olmadan yerinə təşkil edə bilməyəcəkdir. "İnternational Accounting Standarts 7" "Pul axını hesabatına" əsasən pul vəsaitləri dedikdə kassada və müəssisənin depozit hesabında mövcud ola biləcək likvid vəsaitlər nəzərdə tutulmaqdadır (İAS 7, 2001). "İnternational Accounting Standarts 32" "Maliyyə alətləri və təqdimat" standartına görə isə pul vəsaitləri dedikdə biznes əməliyyartları zamanı mübadilə edilə bilən fiat resurs başa düşülməkdədir (İAS 32, 2001). Nəticə olaraq pul vəsaitləri dedikdə müəssisə tərəfindən istifadə edilən hüquqi statusu olan fiat vəsaitlər başa düşülməkdədir. Fiat vəsaitlər dedikdə, dövlətlər və ya hökümətlər tərəfindən çap edilən və istifadəyə buraxılan hüquqi statuslu likvid vəsaitlər nəzərdə tutulmuşdur (Ivy Wigmore, 2018). Yəni, pul vəsaitləri dedikdə hökümətlər tərəfindən tədavülə buraxılan və emissiya edilən vəsaitlər başa düşülməkdədir. Bunun əksinə olaraq isə bitcoin və onun timsalında olan digər kriptovalyutalar əsasən dövlət tərəfindən tədavülə buraxılmayan vəsaitlərdir və onların fiat pul vəsaitləri olması sual altında olacaqdır. Yəni nəticə olaraq kriptovalyutaların fiat pul vəsaiti olmasını demək mümkün deyildir və onlar Dövlətlər tərəfindən tənzimlənməməkdədir (Andy Rosen, 2022). Kriptovalyutaların sözügedən xüsussiyyətlərinin olması isə öz növbəsində onların pul vəsatləri kimi uçota alınmasında problemlər yaratmaqdadır. Kriptovalyutaların pul vəsaitləri kimi uçota alınması üçün onların hüquqi leqal tender statuslu fiat pul vəsaitləri olması mütləqdir və ya mövcud standartlara mümkün dəyişikliklər edilməsi labüddür.

Digər bir tərəfdən isə bəzi müəssisə və təşkilatlar tərəfindən onların pul vəsaitlərinin ekvivalentləri kimi uçota alınmasını təşkil etməkdədirlər. "İnternational Accounting Standarts 7" "Pul axını hesabatı" standartlarına əsasən pul vəsaitlərinin ekvivalenti dedikdə qısamüddət ərzində nağda çevrilə biləcək kifayət qədər likvid olan aktivlər başa düşülür və bu aktivlərin dəyəri üzrə risk göstəricisi aşağı olaraq qiymətləndirilməlidir. Kriptovalyutalar üzrə likvidlik göstəricisi kifayət qədər yüksəkdir. Bu cəhətdən hansısa kənarlaşma mövcud deyildir. Digər tərəfdən risk amilinin aşağı olması məsələsinə diqqət yetirmək gərəkdir. Bildiyimiz kimi kriptovalyutalar üzrə risk göstəricisi kifayət qədər yüksəkdir. Yəni gün ərzində kriptovalyutaların 30% və ya daha yüksək həddə qədər dəyər itirməsi və ya dəyər qazanması halları praktikada müşahidə edilən hallardan hesab edilməkdədir (Nicole Lapin, 2021). Ümumi olaraq kriptovalyutalar üzrə illərə əsasən orta qiymət göstəricisi aşağıdakı kimi olmuşdur:

***İllər üzrə orta qiymətlərdə dəyişkənlik göstəricisi***

| İllər | Bitcoin`in orta qiymətləri USD ilə | Dəyişiklik USD ilə | Dəyişikliklər faizlə |
|---|---|---|---|
| 2023 | 16 625 | 31 062 | 65% |
| 2022 | 47 687 | 18 313 | 62% |
| 2021 | 29 374 | 22 174 | 308% |
| 2020 | 7 200 | 3 357 | 87% |
| 2019 | 3 844 | 9 814 | 72% |
| 2018 | 13 657 | 12 659 | 1268% |
| 2017 | 998 | 564 | 130% |
| 2016 | 434 | 120 | 38% |
| 2015 | 314 | 440 | 58% |
| 2014 | 754 | 741 | 6% |

Mənbə: Müəllif tərəfindən toplanan datalara əsasən hazırlanmışdır.

Bitcoin kriptovalyutasının bazar dəyəri 2017-2018-ci illərdə ortalama olaraq 7 000 ABŞ dolları həcmində olmasına baxmayaraq, 2021-ci ildə isə onun dəyərinin 65000 USD həcminə yaxınlaşması onların volatillik göstəricisinin həddən artıq yüksək olması anlamına gəlməkdədir. Bu dövr ərzində 9.5 dəfə artım deməkdir. 2021-ci ilin 1 rübünə əsasən əldə edilmiş datalarına əsasən kriptovalyutalar üzrə orta aylıq qiymətdən standart yayınma göstəricisi 20% təşkil etmişdir ki, bu da volatillik üzrə göstəricinin kifayət qədər yüksək olması anlamına gəlməkdədir. Nəticə olaraq kripto-

valyutalar üzrə volatillik göstəricisinin yüksək olması risk yaradan amillərdən hesab edilməkdədir. Bu halların aradan qaldırılması isə yalnız kriptovalyutaların stabilləşməsi halında mümkün ola biləcəkdir. Onların stabilləşməsi ehtimalı isə kriptovalyutaların leqal tender statusunu alması şərtilə həyata keçirilə bilər.

Kriptovalyutalar üzrə leqal tender statusunun alınması öz növbəsində çox çətin və vaxt aparan hadisələrdən biri kimi ola bilər. Dünya dövlətləri tərəfindən onların yekdilliklə qəbul edilməsi və leqal olaraq istifadəyə verilməsi halı hal-hazırda çətin görünən məsələlərdən hesab edilməkdədir. Növbəti dövrlər ərzində kriptovalyutaların volatillik göstəricisinin stabilləşməsi və onların leqal statuslarının aktuallaşması onların uçotuna olan yanaşmanı dəyişə bilər. Kriptovalyutaların pul vəsaitləri və ya pul vəsaitlərinin ekvivalenti kimi uçota alınması isə müəssisə və təşkilatların maliyyə hesabatlarını hazırlayanlar üçün daha sadə uçota almanın tətbiqinə yol aça bilər. Yekun olaraq onların uçota alınması zamanı yaranan qeyri-müəyyənliklər mütləq şəkildə aradan qalxmalıdır.

**Nəticə**

Araşdırma nəticəsində məlum olur ki, hal-hazırda müəssisə və təşkilatların kriptovalyutaları aktiv kimi təsnifləşdirməsi ən vacib məsələlərdən biridir. Müəssisənin əldə etdiyi kriptovalyutalar tam olaraq aktivlərin tərifinə uyğundur və onlar maliyyə hesabatlarında mühasiblər tərəfindən uçota alınmalıdırlar. Digər tərəfdən onların pul vəsaitləri və ya pul vəsaitlərinin ekvivalenti kimi uçota alınması prosesi maliyyə hesabatları hazırlayanlar tərəfindən həyata keçirilməkdədir. Mövcud standartlara istinadən isə onların pul vəsaitləri kimi uçota alınmasında bir sıra çətinliklər mövcud olmaqdadır. Kriptovalyutaların hüquqi statuslarının olmaması, leqal tender sayılmaması, fiat pul vəsaitləri olmamasına əsasən onların mövcud standartlara görə pul vəsaitləri kimi uçota alınması həyata keçirilə bilməyəcəkdir. Onların sözügedən aktivlərin tərkibində uçota alınması üçün hüquqi statuslarının olması və dövlətlər tərəfindən dəstəklənməsi həyata keçirilməlidir. Bu isə hal-hazırda mövcud olan situasiyaya əsasən tam olaraq təşkil edilə bilməyəcəkdir. Digər tərəfdən onların pul vəsaitlərinin ekvivalenti kimi uçota alınması məsələsinə nəzər yetirildi. Buna baxmayaraq, onların volatillik göstəricisinin kifayət qədər yüksək olması, hüquqi statuslarının olmaması risk amili daşımasına səbəb olmaqdadır. Nəticə olaraq onların pul vəsaitlərinin ekvivalenti kimi uçota alınması zamanı bir sıra çətinliklər yaranmaqdadır. Yekun olaraq müəssisə tərəfindən əldə edilən kriptovalyutaların pul vəsaitləri və ya onların ekvivalenti kimi uçota alınması mövcud standartlara yeniliklər gəlməyənədək mümkün olmayacaqdır. Onların alternativ olaraq qeyri-maddi aktivlər, inventar kimi uçota alınması isə müəssisə və təşkilatlar tərəfindən həyata keçirilə bilər. İnvestisiya məqsədi daşıyan kriptovalyutaların qeyri-maddi aktivlərin tərkibində, qısamüddətli dövrdə biznes əməliyyatlarının təşkil edilməsi üçün istifadə edilən kriptovalyutaların isə inventarda uçota alınması baş tuta bilər.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Ofir Beigel, 15/01/2023, Who Accepts Bitcoin as Payment?
2. KPMG, Mart 2022, Executive summary: Accounting for crypto assets
3. Thomson Ruders, 19 september 2022, Regulation is coming to crypto: What that means for tax & accounting professionals?
4. İnternational Accounting Standart Board, 2015. Accounting for assets
5. Jake Frankenfield, february 2023, Cryptocurrency Explained With Pros and Cons for Investment
6. "İnternational Accounting Standarts 7", Cash Flow Statement, 2001
7. "İnternational Accounting Standarts 32" Financial İnstruments: Presentation, 2001
8. Ivy Wigmore, 2018, fiat money (fiat currency)
9. Andy Rosen, 2022, What Is Fiat Money, and How Does it Differ from Cryptocurrency?
10. Nicole Lapin, 2021, Explaining Crypto's Volatility
11. https://en.wikipedia.org/wiki/Volatility_risk, Volatility risk
12. https://www.coinbase.com/price/bitcoin
13. https://www.investopedia.com/articles/forex/121815/bitcoins-price-history.asp
14. Blockchain. "Bitcoin BTC," Select "Custom: Nov 1, 2021 - Nov 30, 2021." Accessed Dec. 9, 2021
15. The Coinbase Blog. "Coinbase Announces Effectiveness of Registration Statement and Anticipated Listing Date of its Class A Common

Stock on the Nasdaq Global Select Market." Accessed Dec. 9, 2021
16. https://bitcoin.org/en/faq#general
17. Markets.businessinsider.com
18. Buy Bitcoin Online, 3 May 2018, "The Bitcoin Volatility Index"
19. Admiral Markets, 2018, "is a Bitcoin Cash?"
20. Chuck Jones, 12 March 2018, "Blaming Mt. Gox For Bitcoin's Recent Price Drop Just Doesn't Compute"
21. Bitcoin-made-easy, 2018, "About Bitcoin"
22. GOBankingRates.com: 8 Cryptocurrency Tax Nightmares and How to Avoid Them
23. 'It's going to be a nightmare': Some bitcoin investors are in for a rocky tax season By Brian Fung, Jan. 11, 2018
24. The problems with Bitcoin, May 3 2016
25. Accounting for Leases Under the New Standard, Part 1. Retrieved April 11, 2018
26. Cryptographic assets and related transactions: accounting considerations under IFRS by PwC, December 2019

**Султан Гурбан оглы Нифталиев**
UNEC-докторант в области бухгалтерского учета и аудита
E-mail: Sultanniftaliyev95@gmail.com
ORCID: 0000-0002-0887-5210

# ПОДХОДЫ К КЛАССИФИКАЦИИ КРИПТОВАЛЮТ КАК ДЕНЕЖНЫХ СРЕДСТВ И ИХ ЭКВИВАЛЕНТОВ

**Резюме**

Криптовалюты, будучи новыми цифровыми активами, представляют собой технологический инструмент, который приносит предприятиям экономическую выгоду в следующем периоде. Учитывая глобальную экономическую ситуацию, экономическое значение криптовалют растет день ото дня и начинает использоваться все большим количеством людей. Криптовалюта Биткойн, основанная в 2009 году, считается отцом существующих криптовалют и является первым цифровым активом. Хотя биткойн изначально использовался как бесполезный, когда он был создан, его рыночная стоимость в последнее время росла в геометрической прогрессии. Это делает важным анализ их подходов к бухгалтерскому учету и применение единых стандартов. Предприятия и организации уже приобретают их и организуют бухгалтерский учет, ссылаясь на стандарты бухгалтерского учета. Согласно Международным стандартам финансовой отчетности во всем мире не принят единый свод стандартов организации их единого учета. В результате возникает ряд трудностей у тех, кто читает финансовую отчетность, налоговые органы, инвестиционные компании и т. д., или у людей, исходя из разных подходов к их учету. Некоторые предприятия или организации учитывают их как денежные средства или их эквиваленты. В статье уделено внимание подходам к их учету в составе указанных активов. Отсутствие единых стандартов приведет к разным подходам и, как следствие, к разным решениям. Отсутствие стандартов финансовой отчетности, касающихся учета и классификации криптовалют в активах, ежедневно создает огромные проблемы для компаний. Устранение таких проблем можно рассматривать как одно из мероприятий, требующих некоторого времени.

**Ключевые слова:** Криптовалюты, Международные стандарты финансовой отчетности, МСФО, Денежные средства или их эквиваленты

**Sultan Gurban oglu Niftaliyev**
UNEC- doctoral student in accounting and auditing
E-mail: Sultanniftaliyev95@gmail.com
ORCID: 0000-0002-0887-5210

# APPROACHES TO THE CLASSIFICATION OF CRYPTOCURRENCIES AS CASH AND CASH EQUIVALENTS

**Summary**

Cryptocurrencies, being new digital assets, are a technological tool that brings economic benefits to enterprises in the next period. Considering the globalized economic situation, the economic significance of cryptocurrencies is increasing day by day and is starting to be used by more people. Bitcoin cryptocurrency, founded in 2009, is considered the father of existing cryptocurrencies and is the first digital asset. Although Bitcoin was initially used as worthless when it was created, its market value has been growing exponentially in recent times. This makes it important to analyze their accounting approaches and apply uniform standards. Enterprises and organizations are already acquiring them and organizing their accounting by referring to the accounting standards. According to the International Standards of Financial Reporting around the world, a single set of standards for the organization of their unified accounting has not been adopted. As a result, a number of difficulties arise for those who read financial statements, tax authorities, investment companies, etc., or people, based on different approaches to their accounting. Some enterprises or organizations are recording them as cash or cash equivalents. In the article, attention is paid to the approaches to their accounting in the mentioned assets. The lack of uniform standards will lead to different approaches and, as a result, different decisions. The lack of financial reporting standards regarding the accounting and classification of cryptocurrencies in assets is creating huge problems for companies every day. Eliminating such problems can be considered as one of the events that take some time.

**Keywords:** Cryptocurrencies, International Financial Reporting Standards, IFRS, Cash or cash equivalents

**Rafayıl Şükür oğlu ŞÜKÜROV, i.f.d., dos.**

**Günel Qabil qızı ƏSGƏROVA**
Azərbaycan Texnologiya Universitetinin magistrantı
E-mail: gunelesgerova2000@gmail.com

# BİZNESİN İNKİŞAFINDA KADR POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASININ MÜASİR PROBLEMLƏRİ

**Xülasə**

Firma və müəssisələrin məqsədlərinə çatmaq üçün müəssisəyə yaxşı planlaşdırılmış, seçilmiş və ixtisaslaşmış insanları saxlamaq və məqsədyönlü şəkildə yönləndirmək lazımdır. Bu fəaliyyətlər kadrların idarə olunması üçün ən vacib şərtlərdən biridir. Biznes liderləri artıq başa düşüblər ki, insan resursları ilə bağlı siyasətləri formalaşdırarkən müəyyən elementlər getdikcə daha vacib olur. Məsələn, işçilərin müdafiəsi, onların düzgün qiymətləndirilməsi, əməkhaqqının həyat səviyyəsinə uyğun təmin edilməsi, yaradıcılıq sahəsində bəzi sınaqların keçirilməsi, hər bir işçiyə bərabər münasibət, rahat iş şəraitinə nail olmaq bu elementlər arasındadır. Onlar idarəetmə dəyişikliklərinin dərhal həyata keçirilməsini təmin edən proaktiv strategiyaların və planların tam həyata keçirilməsinə imkan verən idarəetmə fəaliyyətlərini nümayiş etdirirlər.

**Açar sözlər:** kadr, insan resursları, kadr potensialı

## Giriş

Kadrların idarə edilməsi çoxşaxəli və son dərəcə mürəkkəb proses olub, özünəməxsus xüsusiyyətlərə və qanunauyğunluqlara malikdir. Ən ümumi formada kadrların idarə edilməsi müəssisənin idarəetmə komandasının, kadrların idarə edilməsi sisteminin bölmələrinin rəhbərləri və mütəxəssislərinin məqsədyönlü fəaliyyəti, o cümlədən kadr siyasətinin konsepsiyası və strategiyasının, kadrların idarə edilməsinin prinsip və metodlarının hazırlanması kimi başa düşülür.

Kadrların planlaşdırılması, formalaşdırılması, bölgüsü və rasional istifadəsi kadrların idarə edilməsinin əsas məzmununu təşkil edir və bu baxımdan istehsalın maddielementlərinin idarə edilməsinə oxşar hesab olunur.

Eyni zamanda, kadrlar, ilk növbədə, sosial-psixoloji olanlar dominant rol oynayan fərdi-səciyyəvi keyfiyyətlər və xassələrin mürəkkəb dəsti ilə xarakterizə olunan insanlardır. Buna görə də, elmi-praktik istiqamət kimi kadrların idarə edilməsinin predmeti müəssisənin fəaliyyətinin təşkili şəraitində işçilərin potensialından ən tam və səmərəli istifadə etmək baxımından istehsal prosesində olan münasibətlərdir.

Müasir şəraitdə kadrların idarə edilməsinin əsas məqsədi işçilərin bacarıqlarını inkişaf etdirmək və onları daha yüksək səviyyəli işi yerinə yetirməsi üçün stimullaşdırmaq məqsədilə səmərəli kadr hazırlığı, təkmil təlim və əmək motivasiyasının birləşməsidir.

Formalaşmış kadr potensialının keyfiyyətinin ölçüsü bir işçinin peşəkar və ixtisas xüsusiyyətlərinin dinamik inkişaf edən sosial iqtisadiyyatın tələbləri ilə tarazlıq dərəcəsidir. Kadr potensialından istifadə işçinin, işçi qüvvəsinin, bütövlükdə cəmiyyətin əmək, ixtisas, qabiliyyət və bacarıqlarının həyata keçirilməsidir.

Bazara keçid şəraitində sənaye müəssisəsinin kadrlarından rasional istifadənin mahiyyəti, fikrimizcə, müəssisənin hər bir işçisinin bacarıqlarının daha dolğun aşkar edilməsində və həyata keçirilməsində, yaradıcı və mənalı iş qabiliyyətinin gücləndirilməsindədir. Bu da əməyin xarakteri, işçilərin peşə və ixtisas səviyyəsinin yüksəldilməsi, onun hərtərəfli stimullaşdırılması, müəssisənin yekun nəticələrində hər bir işçinin töhfəsinin müvafiq qiymətləndirilməsi nəzərə alınmaqla mümkündür. Müəssisə istehsalın mükəmməl maddi-texniki bazasına, , ən müasir texnika və texnologiyaya malik olsa belə, işçilərin ixtisas və digər qabiliyyətlərindən səmərəsiz istifadə etdikdə istehsal prosesi normal həyata keçirilə bilməz.

Kadr potensialından istifadə yerli müəlliflər tərəfindən həm kəmiyyət, həm də keyfiyyət baxımından nəzərdən keçirilir. Kəmiyyət

nöqteyi-nəzərindən hər bir struktur bölmə və bütövlükdə müəssisə üçün kadrların mövcudluğu (kafiliyi) istehsalat binalarının həcminə və kadrların malik olduğu potensial imkanlara, keyfiyyət baxımından isə kadr potensialına əsasən müəyyən edilir, işçilərin peşə və ixtisas səviyyəsinin yerinə yetirilən işin mürəkkəbliyinə uyğunluq dərəcəsi nəzərə alınır. Əmtəə və xidmətlər bazarında istehsal müəssisələri arasında gərgin rəqabət şəraitində birinci və ikinci hallarda uyğunsuzluğun nəticələri aşağıdakı arzuolunmaz hadisələrdir: işçinin təqsiri üzündən nikah, müqavilə öhdəliklərinin yerinə yetirilməməsi, avadanlıqların keyfiyyətsiz saxlanılması və mövcud avadanlıq parkının tam işlənilməməsi, kadrların yüksək yerdəyişməsi və s. Belə neqativ halların qarşısını almaq üçün müəssisədə iş kateqoriyasının və işçilərin ixtisas səviyyəsinin müqayisəsinin müntəzəm təhlilini aparmaq lazımdır. Bu, işçilərin potensialını nəzərə almaqla onların istifadəsini qiymətləndirməyə və işçilərin konkret iş yerləri və struktur bölmələri üzrə, növbə və ya bir il ərzində işlədiyi dövrlər üzrə rasional bölgüsünü təmin etməyə imkan verir.

İnsan resurslarından səmərəli istifadə etmək üçün müəssisə aşağıdakıları etməlidir:

1. Elmi əsaslandırılmış əmək normalarını müəyyən edir və istehsalın təşkilati-texniki şəraiti yaxşılaşdıqca onlara yenidən baxır;
2. İş yerlərinin sertifikatlaşdırılmasını və səmərələşdirilməsini həyata keçirmək, onların tələb olunan sayını müəyyən etmək və lazımsız iş yerlərini ləğv etmək;
3. İşçilərin əməyinin təşkili düsturlarını və iş kateqoriyalarını müəyyən etmək, işçilərə kateqoriyalar vermək, mütərəqqi iş üsullarının tətbiqini təşkil etmək;
4. Müəssisənin iş vaxtını təyin etmək, çevik qrafiklər tətbiq etmək, yarımştat işə icazə vermək, ev işini təşkil etmək və s.

Sosial-siyasi amillər. Ölkəmizdə uzun müddət həyata keçirilən məşğulluq siyasəti ekstensiv meyillərlə (əmək qüvvəsinə tələbatın artırılmasına diqqətin yönəldilməsi, ictimai iş vaxtı fondunun genişləndirilməsi və s.) səciyyələnirdi ki, bu da əksər hallarda müəssisələrə iş yerləri üçün işçilərin düzgün seçilməsinin qarşısını alırdı. Bununla yanaşı, fikrimizcə, həm müəssisənin, həm də onun işçilərinin maraqları nəzərə alınmayıb. Rusiya Federasiyasında işçilərin xarici əmək bazarında hərəkətinin intensivliyi, işsiz əhaliyə dövlət dəstəyinin göstərilməsi yüksək keyfiyyətli insan resurslarının formalaşdırılması və müəssisədə ondan səmərəli istifadə üçün obyektiv zəmin yaradır.

Dövlət tənzimlənməsi. Bazara keçid zamanı unutmaq olmaz ki, bazarın özünütəşkil edən sistem kimi ümumi tanınmasına baxmayaraq, dövlətin müdaxiləsi olmadan onun səmərəli fəaliyyət göstərməsi mümkün deyil.

İnsan resurslarının formalaşmasının dövlət tənzimlənməsi bu gün üç əsas üsul ilə həyata keçirilir:

- ✓ Hər hansı bir sosial-iqtisadi prosesin inkişafı üçün ümumi institusional əsasları qoyan qanunvericilik (müəssisənin kadr potensialının formalaşdırılması və istifadəsi barədə qərar qəbul edərkən əmək qanunvericiliyi məsələləri, onun gözlənilən dəyişikliklərinin mümkünlüyü, gələcək, əməyin mühafizəsi, məşğulluq və s. sahəsində qanunvericiliyin xüsusiyyətləri nəzərə alınmalıdır) .);
- ✓ İnzibati, onun köməyi ilə hər hansı inzibati norma və qaydalar, əsasnamələr, təlimatlar, tövsiyələr və s. təsdiq edilərək qüvvəyə minir;
- ✓ Dövlətin bazarda vəziyyəti sabitləşdirdiyi iqtisadi üsullar (qiymət, vergiqoyma, sosial-iqtisadi norma və standartların, habelə minimum sosial təminatların müəyyən edilməsi və s.).

Bazar vəziyyəti məhsul və xidmətlərin alqı-satqısı, mülkiyyət münasibətləri, satıcı və alıcı, mülkiyyətçi və işçinin maraqlarının balansına əsaslanan bərabərhüquqlu münasibətlər şəbəkəsi kimidir.

Bazara keçid dövründə müəssisələr tədricən kadrlara sərt inzibati təsir sistemindən bazar münasibətlərinə, iqtisadi üsullara əsaslanan mülkiyyət münasibətlərinə keçirlər.

Ona görə də, dəyişən prioritetlərə əsaslanaraq insan resurslarının formalaşdırılması və istifadəsinə prinsipial olaraq yeni yanaşmalar hazırlamaq lazımdır. Müasir şəraitdə müəssisə daxilində əsas şey kadrlar, ondan kənarda isə məhsulların (xidmətlərin) istehlakçılarıdır.

Effektiv kadr idarəetmə sistemi vasitəsilə hər bir işçinin şüurunu müdirə, ağılsız simasız ifaçıya yox, müəssisənin son nəticəsinə, təşəbbüs-

kar yüksək ixtisaslı məhsuldar işçiyə,. istehlakçıya yönəltmək lazımdır. Əmtəə və ya əmək bazarında baş verən hər hansı dəyişiklik müəssisənin kadrlarının formalaşması və onlardan istifadə proseslərində dərhal əks olunmalıdır.

Gərgin rəqabət şəraitində yeni texnologiyaların və yeni avadanlıqların tətbiqi, yeni məhsul növlərinin işlənməsi funksiyaların həcminin və məzmununun dəyişməsi ilə əlaqədar müəssisə işçilərinin nəzəri və xüsusilə praktiki biliklərinin daim yenilənməsini şərtləndirir..

Bu, yeni işçiləri işə qəbul edərkən və ya əməyin həvəsləndirilməsi sistemlərini inkişaf etdirərkən, habelə müəssisənin işçilərinin peşə bacarıqlarının, biliklərinin və iş təcrübəsinin artması əsasında karyera nərdivanında irəliləyərkən nəzərə alınır.

İnsan resurslarının idarə edilməsi müəssisələrin nəzərdə tutulan kadrlarla təmin edilməsi fəaliyyətinin həyata keçirilməsinə səbəb olur. İşçi qüvvəsinə ehtiyac nəzərə alınır. Burada planlaşdırma, monitorinq və nəzarət daha vacibdir. Menecerlər insan resursları ilə bağlı problemlərin həllinə cavabdehdirlər. Menecerlər və işçilər arasında daha da inkişaf etdirilməsi vəzifəsi resursların idarə edilməsi ilə dəyişdirilə bilər. Bu liderlik funksiyasının yerinə yetirilməsi, məhsuldarlığın daha aktiv olması üçün bütün digər şöbələrin yaradılması ilə bütünövlükdə təşkilat öz potensialını götürür. İnsan resurslarının idarə edilməsi proaktivdir, hadisələr baş verməzdən əvvəl planlar və vəziyyəti təmin etmək üçün tələblər hazırlanır. Lakin işçi qüvvəsinin idarə edilməsi reaktivdir. Hadisələr və problemlər ortaya çıxanda həll yolları axtarılır. Bu fərqlər aşağıda daha aydın şəkildə izah olunur (1).

| İş qüvvəsinin idarə edilməsi | İnsan resurslarının idarə edilməsi |
|---|---|
| 1. əlaqə yaradan | 1. birləşdirici |
| 2. reaktiv | 2. proaktiv |
| 3. taktiki | 3. strateji |
| 4. təklif əsas alınır | 4. tələb diqqətə alınır |
| 5. xidmət yoxdur | 5. xidmət mərkəzi |
| 6. iyerarxiya münasibətləri | 6. hədəflər |

Müəssisə daxilində işçilər aktiv kimi deyil, investisiya kimi, yəni qoyulmuş resurs kimi qiymətləndirilməlidir. Beləliklə, insan resurslarının qiymətləndirilməsində vurğulanan fəaliyyətlər bunlardır: işə qəbul, performansın ölçülməsi, inkişaf və mükafat.

HR biznes iqtisadiyyatının ayrılmaz hissəsi olduğundan, təşkilati öyrənmənin də tərkib hissəsidir. Bu həm də dövlətin və hər bir şirkətin əsas kadr siyasəti ilə bağlıdır. Ona görə də, kadr potensialı müxtəlif aspektlərin vəhdəti olduğu halda öyrənilməlidir. Eyni zamanda, konkret vəziyyətdən asılı olaraq işçinin sosial və işgüzar fəallığı, səmərəliliyi qiymətləndirilməlidir. İdarəetmə ilk növbədə insanların və işçilərin birgə fəaliyyətinin əlaqələndirilməsi və təşkilidir. Sözün geniş mənasında bura insan amili, insan münasibətləri, əməyin təşkili, sosial inkişaf, əmək davranışı, kadr siyasəti, əmək bazarı nəzərə alınmaqla əmək ehtiyatlarından səmərəli istifadə olunması kimi problemlər daxildir. Beləliklə, insan resurslarının idarə edilməsi bir sistem kimi özünəməxsus xüsusiyyətlərə və mənaya malikdir (2; s. 55)

Kadrların idarə edilməsi iqtisadi, sosial, hüquqi, təşkilati və psixoloji məsələləri əhatə edir. Buna görə də, kadrların idarə edilməsinə aşağıdakı aspektlər və istiqamətlər baxımından yanaşmaq lazımdır (3; s. 40):

- insan resurslarından səmərəli istifadə;
- işçinin potensialının üzə çıxarılması və onun fəaliyyətinin stimullaşdırılması;
- kadrların fəaliyyətinin iqtisadi göstəricilərlə və təşkilatların fəaliyyətinin nəticələri ilə əlaqələndirilməsi;
- təşkilatın iqtisadiyyatının tərkib hissəsi kimi kadrların idarə edilməsi;
- insanın istehsal fəaliyyətinin təşkili baxımından;
- insana və onun fəaliyyətinə iqtisadi, peşəkar ixtisaslaşdırılmış, demoqrafik, sosial, bioloji, mədəni və mənəvi dəyərlər sistemi baxımından yanaşma.

Təşkilatın öz məqsədlərini reallığa çevirmək qabiliyyəti birbaşa komandanın hər bir üzvünün fiziki və mənəvi keyfiyyətlərinin ümumi miqdarından istifadə etməsindən asılıdır. İşçinin fiziki keyfiyyətləri onun sağlamlıq vəziyyəti, iş təcrübəsi, əmək qabiliyyəti, yaşı, iş bacarıqları ilə müəyyən edilir. İşçinin mənəvi, şəxsi keyfiyyətlərinin bir hissəsi olaraq məsuliyyət ön plana çıxır ki, bu da hazırda işəgötürən üçün ən arzu olunan keyfiyyətdir, ondan sonra emosional sabitlik və dəyişən şərtlərə uyğunlaşma qabiliyyəti gəlir.

Təşkilatın kadr potensialından səmərəli istifadə təkcə yüksək istehsal səmərəliliyi deyil, həm də insanın hərtərəfli sosial təminatı, əlverişli mənəvi-psixoloji iqlim, rahat iş şəraiti, üçün geniş imkanlar deməkdir [3; s. 26].

Nəhayət, bu, insanın əsas istəkləri ilə tam üst-üstə düşən yüksək həyat keyfiyyətidir.

Təşkilatın kadr potensialının təhlili şirkətin fəaliyyətinin bütün mərhələlərində kadrların idarə edilməsi xidməti tərəfindən həyata keçirilir. Bu aşağıdakılara kömək edir:

1. Əlavə işçilərin işə cəlb edilməsi ehtiyacını müəyyən etmək;
2. Peşəkar inkişafa, və təlimə ehtiyacı müəyyən etmək;
3. Şirkətin işinin təkmilləşdirilməsi yollarını işləyib hazırlamaq;
4. Simulyasiya və motivasiya üçün tədbirlər hazırlamaq;
5. Daha yüksək vəzifələrə yüksəlmək üçün uyğunluğu qiymətləndirmək. .

Biznesin inkişafında təşkilatın insan resursları potensialının qiymətləndirilməsi inkişaf strategiyasına daxil edilə bilən effektiv vasitədir. Təşkilatda kadrlar şöbəsi və ya kadr meneceri varsa, ildə ən azı bir dəfə insan resurslarının qiymətləndirilməsi aparılmalıdır. Müəssisənin rəhbəri kadr potensialının qiymətləndirilməsinin nəticələrini alır. Müəssisənin kadr potensialını artırmaq üçün məqsədyönlü şəkildə həyata keçirilə bilər, sonrakı statistik emal üçün rəsmiləşdirilmiş nəticələr əldə etməyə imkan verən üsullardan istifadə edilməlidir. .[4; s. 162]

Müəssisədə kadrların idarə edilməsi bir-biri ilə əlaqəli bir çox elementdən ibarət mürəkkəb bir sistemdir. Ən mühüm proseslərdən biri də kollektivdə sosial gərginliyin tənzimlənməsidir.

Sosial gərginlik sosial şüurun və davranışın xüsusi vəziyyəti, reallığın qavranılması və qiymətləndirilməsinin konkret vəziyyətidir. O, münaqişəyə xasdır və onu müşayiət edir. Sosial gərginliyin miqyası əsasən münaqişənin sərhədləri ilə müqayisə edilir və onlar tərəfindən yaradılır.

According to Macdonald (1995), feminist economists face multiple difficulties in the empirical field. These relate to the measurement/valuation of women's unpaid work, the intra-household distribution of income and resources, and the processes of gendering in the paid labor market. The data collection standards and analysis methods of the dominant economics create difficulties for feminist analysis. Issues such as power relations in households and the subtle processes that make up the glass ceiling in the business world are not easily researched and measured. According to feminists, the data collected by statistical institutions and made available for economic analysis bears direct traces of the male bias of the discipline. Feminist economists use survey research, case studies, and participant observation to obtain primary data. It uses methods borrowed from other social sciences. However, economists are generally not trained in these methods. The challenges of generating primary data, even survey data that may be amenable to econometric techniques, remain untouched. Although case studies are also useful in analyzing the workforce process in companies, they fall outside the traditional methodology and are criticized for being subjective. It is also problematic to make generalizations in this study methodology. Poorly conducted case studies do not gain prestige within the discipline of economics, as they do not provide a wide area of analysis for feminist implications. In-depth interviews, on the other hand, are useful for obtaining appropriate detail, but there is no limitation for later qualitative analysis. However, economists are generally not trained in these methods. The challenges of generating primary data, even survey data that may be amenable to econometric techniques, remain untouched. Although case studies are also useful in analyzing the workforce process in companies, they fall outside the traditional methodology and are criticized for being subjective. It is also problematic to make generalizations in this study methodology. Poorly conducted case studies do not gain prestige within the discipline of economics, as they do not provide a wide area of analysis for feminist implications. In-depth interviews, on the other hand, are useful for obtaining appropriate detail, but there is no limitation for later qualitative analysis. However, economists are generally not trained in these methods. The challenges of generating primary data, even survey data that may be amenable to econometric techniques, remain untouched. Although case studies are also useful in analyzing the workforce process in companies, they fall outside the traditional methodology and are criticized for being subjective. It is also problematic to make generalizations in this study methodology. Poorly conducted case studies do not gain prestige within the discipline of economics, as they do not provide a wide area of analysis for feminist implications. In-depth interviews, on the other hand, are useful for obtaining appropriate detail, but there is no limitation for later qualitative analysis. Even survey data, which may be suitable for econometric techniques, remains untouched. Although case studies are also useful in analyzing the workforce process in companies, they fall outside the traditional methodology and are criticized for being subjective. It is also problematic to make generalizations in this study methodology. Poorly conducted case studies do not gain prestige within the discipline of economics, as they do not provide a wide area of analysis for feminist implications. In-depth interviews, on the other hand, are useful for obtaining appropriate detail, but there is no limitation for later qualitative analysis. Even survey data, which may be suitable for econometric techniques, remains untouched. Although case studies are also useful in analyzing the

workforce process in companies, they fall outside the traditional methodology and are criticized for being subjective. It is also problematic to make generalizations in this study methodology. Poorly conducted case studies do not gain prestige within the discipline of economics, as they do not provide a wide area of analysis for feminist implications. In-depth interviews, on the other hand, are useful for obtaining appropriate detail, but there is no limitation for later qualitative analysis. It is also problematic to make generalizations in this study methodology. Poorly conducted case studies do not gain prestige within the discipline of economics, as they do not provide a wide area of analysis for feminist implications. In-depth interviews, on the other hand, are useful for obtaining appropriate detail, but there is no limitation for later qualitative analysis. It is also problematic to make generalizations in this study methodology. Poorly conducted case studies do not gain prestige within the discipline of economics, as they do not provide a wide area of analysis for feminist implications. In-depth interviews, on the other hand, are useful for obtaining appropriate detail, but there is no limitation for later qualitative analysis.

Regarding the shortcomings in the approach, Blank (2013) draws attention to the definitions used, the modeling, and the criticisms of the feminist approach to the dominant theory. According to Blank (201), the feminist approach focused on expressing its dissatisfaction with the accumulated literature rather than creating an alternative in the economics literature. If this approach is to gain long-term legitimacy, it must move from criticism to construction. The feminist approach should be clear about what a broader definition of "economic space" would encompass. In order to show how the new models to be established produce a perspective for both macroeconomic and microeconomic behaviors, it should provide clarity when modeling the relationships between individuals. feminist economists, they need to present concrete research examples that draw on broader methodologies to produce empirical results that are more informative and convincing than traditional economic approaches. On the other hand, the rational choice principle, which is one of the main criticisms of the approach, has proven to be useful and durable in some cases (2). There is an empirical convenience provided by this principle, and the prevailing model has strong predictive ability in some situations in industrialized societies. In other words, there is reality in the standard economic model, but this is only a partial reality. As a representation of white, male, middle-income people in a democratic, industrialized and Westernized society, it is a good approximation of probable reality. On the other hand, these models are not only about gender, but also about gender. It also falls short of describing all the experiences of many low-income men, men and women of color, and many indigested immigrants, with many women not adequately describing all the forces that motivate their behavior. Therefore, the feminist approach will not be the only alternative in efforts to develop alternatives to standard economic models.

Although the feminist approach is subject to various criticisms in terms of the analysis methods, definitions and models it uses, the strong interaction it establishes between pre-labor market and intra-market discrimination makes it possible to deal with discrimination from a much broader perspective, freeing it from abstractions. The asymmetric and hierarchical division of labor created by gender between men and women sheds light on the reasons for the supply- and demand-side preferences put forward by neoclassical economics when explaining discrimination, and why women are concentrated in the secondary labor market under the institutional structure of the markets.

**Conclusion**

In this study, in which the effect of gender-based inequality in the labor market on individual income distribution is investigated, the feminist approach, gender analysis is adopted and gender-based discrimination/inequality is read as gender discrimination/inequality. In the continuation of the study, empirical analysis was applied by using the regression-based decomposition method in order to reveal the effect of gender-

based discrimination in the labor market on individual income distribution.

**LITERATURE BLACK:**

1. Akgul, T.(2018). Discrimination Against Women In Turkish Labor Market: An Analysis Of Gender Wage Gap With Blinder-Oaxaca And Juhn-Murphy-Pierce Decomposition Methods, 2004-2017 Period. Journal of Economics, Finance and Accounting (JEFA), V.5(4), p.349-358.

2. Blau, DF & Jusenius, C.L. (2016). Economists' Approaches to Sex Segregation in the Labor Market: An Appraisal. Signs. 1(3):181-199. Accessed: 25.05.2020. JSTOR Journals

3. Chain,GG (2016). The Economic Analysis Of Labor Market Discrimination: A Survey. Edit: Orley Ashenfelter, David Card. Handbook of Labor Economics, Volume 1, 693-785, Elsevier.

4. Chain,GG (2016). The Economic Analysis Of Labor Market Discrimination: A Survey. Edit: Orley Ashenfelter, David Card. Handbook of Labor Economics, Volume 1, 693-785, Elsevier.

5. Günalp, B., Cilasun, SM, Acar, E.Ö.(2013). Male-Female Labor Market Participation And The Extent Of Gender-Based Wage Discrimination In Turkey. Discussion Paper, No. 2013/15, Turkish Economic Association, Ankara.

6. Kaya, E. (2010). Quantile Regression And The Gender Wage Gap: Is There A Glass Ceiling In The Turkish Labor Market?. Accessed: 20.02.2020.https://ssrn.com/abstract=2320411.

7. Oaxaca, R. (2013). Male-Female Wage Differentials in Urban Labor Markets. International Economic Review, Vol. 14, No. 3, p. 693-709. Accessed: 20.03.2020. JSTOR Journals

**Kamran Vahid Abdurakhmanov**
Azərbaycan Dövlət İqtisad Universteti
Email: a.kamran9655@gmail.com
ORCID: 0000-0002-3642-0512

## ƏMƏK BAZARINDA GENDER BƏRABƏRSİZLİYİ PROBLEMİNƏ FEMİNİST YANAŞMANIN NƏZƏRİ TƏHLİLİ

**Xülasə**

Bazar iqtisadiyyatında yaranan gəlirin istehsalda iştirak edən amillər və ya fərdlər arasında necə bölüşdürüləcəyi, bu bölgüsünün iqtisadi sistemə təsiri və ədalətli olub-olmaması bütün iqtisad elmində müzakirə olunan bir mövzu olmuşdur. Bu müzakirələr çərçivəsində təhlil vahidinin istehsal amillərinin mülkiyyətinə əsaslanan sosial siniflərdən fərdə keçməsi əmək bazarı daxilində dinamikanın müzakirəsi üçün daha geniş zəmin yaratmışdır. Beləliklə, əmək bazarında gender əsaslı ayrı-seçkiliyin təsirləri daha çox nəzərə çarpır. Bununla belə, bu görünürlük üstünlük təşkil edən iqtisadi yanaşmanın ayrı-seçkilik tərifinin imkan verdiyi dərəcədə həyata keçirilmişdir. Dominant iqtisadiyyatın dar və mücərrəd yanaşması qarşısında feminist yanaşma gender təhlilini tətbiq etməklə ayrı-seçkiliyin təbiəti və mahiyyəti haqqında daha vahid və əhatəli perspektiv təqdim etmişdir. Feminist yanaşmanın başlanğıc nöqtəsi olduğu bu araşdırmada qadınların əmək bazarındakı əlverişsiz mövqeyi və əmək bazarında qadınlara qarşı ayrı-seçkilik gender əsaslı ayrı-seçkilik/bərabərsizlik kimi oxunur. Bu kontekstdə əmək bazarında gender bərabərsizliyinin fərdi gəlir bölgüsünə təsiri əmək haqqı-maaş bərabərsizliyi vasitəsilə araşdırılır. Əmək bazarında gender əsaslı ayrı-seçkiliyin təsirlərini araşdıran parçalanma üsulları mühüm tapıntılar təqdim etsə də, dominant iqtisadi yanaşmanın təsiri bu tapıntıların əhatə dairəsini daraldır.

**Açar sözlər:** Gəlir Bölgüsü, Əmək bazarı, feminist

**Кямран Вахид Абдурахманов**
**Азербайджанский Государственный Экономический Университет**
Email: a.kamran9655@gmail.com
ORCID: 0000-0002-3642-0512

## ТЕОРЕТИЧЕСКИЙ АНАЛИЗ ФЕМИНИСТСКОГО ПОДХОДА К ПРОБЛЕМЕ ГЕНДЕРНОГО НЕРАВЕНСТВА НА РЫНКЕ ТРУДА

### Резюме

Как распределить доход, полученный в рыночной экономике, между факторами или лицами, участвующими в производстве, влияние этого распределения на экономическую систему и его справедливость — тема, обсуждаемая во всей экономической науке. В рамках этих дискуссий перенос единицы анализа с социальных классов, основанных на владении факторами производства, на индивида создал более широкую основу для обсуждения динамики рынка труда. Таким образом, последствия гендерной дискриминации на рынке труда более заметны. Тем не менее, эта видимость осуществлялась в той мере, в какой это позволяло определение дискриминации, даваемое преобладающим экономическим подходом. В противовес узкому и абстрактному подходу господствующей экономической теории феминистский подход обеспечил более целостный и всеобъемлющий взгляд на природу и сущность дискриминации путем применения гендерного анализа. В этом исследовании, исходя из феминистского подхода, невыгодное положение женщин на рынке труда и дискриминация женщин на рынке труда трактуются как гендерная дискриминация/неравенство. В этом контексте влияние гендерного неравенства на рынке труда на индивидуальное распределение доходов исследуется через неравенство заработной платы. Хотя методы декомпозиции, изучающие последствия гендерной дискриминации на рынке труда, позволяют сделать важные выводы, влияние доминирующего экономического подхода сужает рамки этих выводов.

**Ключевые слова:** распределение доходов, рынок труда, феминистка.

**Aqşin Raqub oğlu NƏZƏRLİ**
Azərbaycan Memarlıq və İnşaat Universiteti, magisrant
E-mail: *aqsinnazar@gmail.com*

# AZƏRBAYCANDA BİZNESƏ DƏSTƏK MEXANİZMLƏRİNİN MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRƏ TƏSİRİ

**Xülasə**

Məqalənin yazılmasında məqsəd Azərbaycanda biznesin inkişafına dair görülən tədbirləri, həyata keçirilən layihələri, dövlət proqramlarını araşdırıb, təhlil etmək və ölkənin mikro və makro göstəricilərə olan təsirini araşdırmaqdır. Məqalədə sözügedən makroiqtisadi göstəricilər ayrı-ayrılıqda müəyyənləşdirilir, ölkə iqtisadiyyatı üçün əhəmiyyəti, kəmiyyət və keyfiyyət göstəriciləri tədqiq edilir. Daha sonrakı hissədə isə bu göstəricilərin dünya və Azərbaycan üzrə statistik məlumatları yazılı və qrafiki şəkildə əks etdirilir. Həmçinin məqalədə biznesə dəstək üçün nəzərdə tutulan tədbirlər və qanunvericilik, bu tədbrlərin ölkə iqtisadiyyatına təsirləri də araşdırılır, müvafiq statistik göstəricilərə təsiri təhlil edilir, biznesə dəstək müxanizmlərinin ölkədəki nümunələri tədqiq edilir.

**Açar sözlər:** işsizlik, ÜDM artımı, inflyasiya, tədiyyə balansı, biznesə dəstək, fərman, məqsədyönlü iqtisadi siyasət.

**Giriş**

Biznesin inkişaf etdirilməsinə dair görülən tədbirlər hər bir ölkənin, iqtisadi, siyasi və sosial prioritetlərin əsasını təşkil etməklə, istər büdcə planı tərtib edilərkən (vergi gəlirlərini proqnozlaşdırarkən və s.), istərsə də iqtisadi planlama edilərkən bir əsas olaraq qəbul edilməkdədir. Çünki KOB və böyük biznes, holdinqlər, transmilli şirkətlər və yaxud digər biznes subyektləri ölkə daxili işsizlik, ÜDM, tədiyyə balansı, inflyasiya kimi problemlərinin həllində mühüm rola sahibdir. Dövlət bu prosesləri tənzimləyə bilər, lakin birbaşa müdaxilə edərəkən isə bazar iqtisadiyyatında yolverilməz olaraq qəbul edilən rəqabətlilik prinsipini pozmuş olar. Bu səbəbdən də dövlət dolayı yolla biznesə təşviq edərək ÜDM-nin artmasına, işsizlik və inflyasiya arasındakı balansa, tədiyyə balansına təsir edib, tənzimləyə və nəzarət edə bilər.

**İşsizlik, inflyasiya, ÜDM-in artımıvə tədiyyə balansında baş verə biləcək "görünməz problemlər"**

*Inflyasiya – İşsizlik* - bildiyimiz kimi iqtisadiyyatda işsizlik və inflyasiya arasında tərs mütənasiblik vardır. Yəni işsizlik artıqda inflyasiya azalır və ya əksinə. Bu səbəbdən də işsizlik iqtisadiyyatda tənzimlənməsi ən çətin göstəricilərdən biridir. Çünki dövlətlər hər zaman inflyasiya və işsizliyi minimum saxlamaq niyyətindədir. Lakin iki göstərici arasında sadəcə balans yarada bilərik.

*Ümumi daxili məhsul* - ÜDM-də artım hər bir dövlətin iqtisadi gücünü əsas göstəricilərindən biridir. Lakin ÜDM və ya hər bir nəfərə düşən ÜDM hələ heç də ölkədə rifahın yüksək olduğu nəticəsini vermir. Hər bir nəfərə düşən ÜDM-nin böyük olması ölkədə daxili istehsal və istehlakın böyük olduğunu özündə əks etdirdiyi kimi, bunun da nəfərlər arasında balanslı şəkildə olması daha arzuolunandır və rifahın daha yüksək olması ilə əlaqələndirilir. Cini indeksi gəlirlərin təmərküzləşmə əmsalı olmaqla ÜDM-nin qeyri-bərabər bölüşdürülməsinin səviyyəsini, gəlirin bölgüsündə qeyri-bərabərlik dərəcəsini miqdarca qiymətləndirməyə imkan verən statistik göstəricidir. Yəni əmsal böyüdükcə bərabərsizlik, azaldıqda isə bərabərlik artır.

Qrafikdən də göründüyü kimi, ÜDM-nin böyük olması ilə yanaşı, ÜDM-nin bərabər bölüşdürülməsi də rifahın yüksəkliyinə təsir edən amillərdəndir.

Tədiyyə balansının tərtibi zamanı əldə rəhbər tutulan əsas prinsip ikili yazılış sistemidir. Yuxarıda qeyd olunan cari əməliyyatlar hesabına ticarət hesabı, xidmətlər hesabı gəlirlər hesabı cari transfertlər subhesabları, digər tərəfdən kapital və maliyyənin hərəkəti hesabına daxil olan kapital hesabı, maliyyənin hərəkəti hesabı, birbaşa xarici investisiyalar, portfel investisiyalar, digər investisiyalar subhesabları daxildir ki, ticarət və gəlirlər hissəsi ölkədəki biznes mühitinin müəyyən etdiyi göstəricilərə əsaslanır.

| | |
|---|---|
|  |  |
| **Qrafik 1. 2022-ci il Dünya ölkələri üzrə hər bir nəfərə düşən ÜDM** | **Qrafik 2. 2022-ci il Dünya ölkələri üzrə Cini əmsalı**<br>**Mənbə:** https://www.imf.org |

**Dəstək mexanizmləri.** Ölkə üzrə sahibkarlıq subyektlərinin 99,6%-i kiçik və orta sahibkarlıq subyektləridir və onların əlavə dəyərin yaradılmasında, ixrac, məşğulluq və investisyalarda payı artır [5]. Kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin yüksəldilməsi, bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılması və institusional dəstək mexanizmlərinin formalaşdırılması məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb. Agentlik tərəfindən KOB-ların iqtisadiyyatda rolunun və rəqabət qabiliyyətinin, bilik və bacarıqlarının artırılması, maliyyə resurslarına və satış bazarlarına çıxışının genişləndirilməsi istiqamətində müxtəlif təşviq və dəstək mexanizmləri həyata keçirilir. KOB dostu ofisləri, KOB İnkişaf Mərkəzləri, KOB-lar üçün təhsil, elm, tədqiqat layihələrinin maliyyələşdirilməsi,"Startap şəhadətnaməsi"nin verilməsi buna misal ola bilər. Sahibkarlıq sahəsində lisenziya tələb olunan fəaliyyət növlərinin əhəmiyyətli dərəcədə azaldılması, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə investisiya təşviqi sənədinin verilməsi, satınalmalar sahəsində kotirovka sorğusu prosedurunun tamamilə elektronlaşdırılması və vahid internet portalı – etender gov.az vasitəsilə həyata keçirilməsi, vergi qanunvericiliyində köklü islahatlar və s. tədbirlər də özəl sektorun fəaliyyətinin gücləndirilməsinə, şəffaflığın və hesabatlılığın artırılmasına, rəqəmsallaşmanın geniş vüsət almasına, rəqabət mühitinin inkişafına xidmət edir. Azərbaycanın ixrac qabiliyyətinin artırılması və xarici investisiyaların cəlb edilməsi kimi öncül məqsədlərin reallaşdırılması məqsədilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) təsis edilib. Fond ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara yaxından dəstək verir. Sahibkarlığın inkişafına sistemli və ardıcıl dövlət dəstəyinin daha bir nümunəsi kimi Export.az elektron ticarət portalını göstərmək olar. Portal sahibkarlıq subyektlərinə biznes əlaqələrdə etibarlı vasitəçi, dünya biznesinə asan çıxış imkanının yaradılması missiyasını yerinə yetirir. Sahibkarlıq sahəsində inkişafa nail olmaq üçün hüquqi bazanın təkmilləşdirilmiş, sahibkarların hüquqlarının müdafiəsi məqsədilə indiyədək bir çox qanunlar qəbul olunmuşdur. Bu məqsədlə qəbul edilmiş və sahibkarlığa öz töhfənini verən belə qanunlardan biri də 2013-cü ilin 2 iyul tarixində qəbul olunmuş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunudur. Qanun sahibkarlıq və biznes sahələrində aparılan yoxlama və reydlərin məqsəd və prinsiplərini, təşkili və aparılması qaydalarını, yoxlama səlahiyyəti verilmiş orqanların və vəzifəli şəxslərin hüquq və vəzifələri, sahibkarların hüquqlarının və maraqlarının müdafiəsi kimi məsələləri müəyyən edir və tənzimləyir. Sahibkar hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədi daşıyan müvafiq orqanlar da fəaliyyətə başlamışdır ki, bunlara misal olaraq Azərbaycan Respublikasının Prezidenti yanında və mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya şuraları fəaliyyət göstərməkdədir. Sahibkarlığın inkişafı, əlverişli biznes mühitin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən

müəyyən edilmiş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir və onun mərkəzində durur. Ölkə iqtisadiyyatının davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet vəzifələrindəndir və qəbul edilmiş məqsədli dövlət proqramları çərçivəsində uğurla yerinə yetirilməkdədir. Hazırda bu sahədəki siyasət sahibkarlığa dövlət himayəsinin sistem şəklində həyata keçirilməsinin, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsinə yönəldilmişdir. Bu strateji xəttin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Sahibkarlığa dövlət maliyyə köməkliyi mexanizmi yaradılmış, bu mənbə kiçik və orta sahibkarların maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsinin mühüm real mənbəyi kimi çıxış edir. Fəaliyyəti ölkənin ixrac qabiliyyətinin artırılması və xarici investisiyaların cəlb edilməsi kimi öncül məqsədlərin reallaşdırılmasına yönəlmiş Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun yaradılması təmin edilmişdir. Dövlət-sahibkar münasibətləri inkişaf etdirilmiş, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Sahibkarların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılmış, onların tətbiqi nəticəsində müdaxilə halları azalmışdır. Sahibkarlığın inkişafına yönələn marifləndirmə, informasiya mənbələrinin və məlumata əlçatanlılıq texnologiyasında yeniliklərin edilməsi və gücləndirilməsi habelə işgüzar münasibətlərin inkişafı istiqamətində davamlı tədbirlər həyata keçirilməkdədir. 2008-ci il 1 yanvar tarixindən başlayaraq sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətində “bir pəncərə” prinsipi üzrə təşkili təmin edilməyə başlamışdır. “Bir pəncərə” sisteminin tətbiq edilməsindən sonra Azərbaycanda biznesə başlama prosedurlarının sayı 15-dən 1-ə və bunun üçün sərf olunan vaxt 30 gündən 3 günə qədər endirilmişdir. Sistemin tətbiqindən sonra biznes sahəsində canlanma müşahidə olunmuş, qeydiyyatdan keçən hüquqi şəxslərin sayında artım müşahidə olunmuşdur. Həyata keçirilən məqsədyönlü və davamlı tədbirlər nəticəsində özəl sektorun Ümumi Daxili Məhsuldakı payı 85 %-ə çatmışdır [6]. Ölkədə sahibkarlığın davamlı cə sürətli inkişafına nail olmaq üşün dövlətlə sahibkarlar arasındakı tərəfdaşlığın institusional təşkili həyata keçirilmişdir. Bu baxımdan yaradılmış mexanizmlər (Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu, Biznes Tədris Mərkəzləri və s.) dövlət-sahibkar münasibətlərinin sivil müstəvidə inkişafında əhəmiyyətli rol oynamaqdadır. 2003-cü ildə ölkənin ixrac qabiliyyətinin artırılması və xarici investisiyaların cəlb edilməsi kimi öncül məqsədlərin reallaşdırılması məqsədilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) təsis edilmişdir. Fond ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara yaxından dəstək verir. İqtisadiyyat Nazirliyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) tərəfindən bu istiqamətdə həm ölkənin daxilində, həm də xaricdə mühüm iqtisadi tədbirlər, o cümlədən biznes forumlar, sərgilər, seminar və konfranslar keçirilir. Bu tədbirlərin keçirilməsi istər ölkənin biznes mühitinin və iqtisadi potensialının təbliği, istərsə də yerli sahibkarların işgüzar əlaqələrinin inkişafı baxımından əhəmiyyətlidir. Xüsusilə xarici ölkələrdə təşkil edilən tədbirlər, eyni zamanda ölkə iqtisadiyyatının prioritet inkişaf istiqamətləri üzrə investisiya qoyuluşlarının həcminin artımında öz müsbət nəticələrini göstərməkdədir. Dövlət başçısının “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” 2018-ci il 31 iyul tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb. Güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6%-dən 5%-ə endirilmişdir. Eyni zamanda, yeni qaydalarda orta həcmli kreditlərin hədləri dəyişdirilərək 50 001 manatdan 1 000 000 manatadək müəyyən edilmişdir. Hal-hazırda ölkədə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirləri sistemli və ardıcıl olaraq davam etdirilir. Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu

sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq edilir. Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayı son 17 il ərzində 5 dəfə artıb, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 85 faizi, məşğulluqda payı isə 76 faizi ötüb.

**Biznesə dəstək mexanizmlərinin makroiqtisadi göstəricilərə təsiri.** Ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının əsasını Azərbaycan Respublikası regionlarının inkişafı tutur ki, regionların inkişaf etdirilməsi sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, həmçinin regionların sosial-iqtisadi inkişafına istiqamətlənmiş digər məqsədyönlü tədbirlərlə bağlı sərəncamlarda və digər hüquqi sənədlərdə nəzərdə tutulmuş vəzifələrin icrası ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafına və davamiyyətinə, regionlarda sosial infrastruktur təminatının və kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, biznes mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşlarının artmasına, yeni müəssisələrin, sahibkarlıq subyektlərinin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və bunla əlaqəli şəkildə yoxsulluq səviyyəsinin də azaldılmasına təkan vermişdir. Həyata keçirilən və regionların inkişafına yonələn müvafiq dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində iqtisadiyyatda irəliləyiş müşahidə olunmuşvə bu da öz növbəsində özünü ümumi daxili məhsulun 3,3 dəfə, o cümlədən qeyri-neft sektorunun 2,8 dəfə, sənayenin 2,6 dəfə, kənd təsərrüfatının 1,7 dəfə artması şəklində iqtisadi göstəricilərdə əks olunmuşdur. [1][6] (Qrafik 1). Keçən dövr ərzində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsi olaraq ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox yeni müəssisə təsis edilmiş, işsizlikdə 5 faizə, yoxsulluq səviyyəsində isə 5,1 faizə qədər enmə müşahidə olunmuşdur. [1] Dövlət proqramları çərçivəsində həyata keçirilən genişmiqyaslı işlər və görülən tədbirlər regionların növbəti illərdə də inkişafı üçün güclü hərəkətverici qüvvə rolunu oynamışdır. Aşağıda bəzi iqtisadi göstəricilər üzrə dəyişmə dinamikaları əks olunmuşdur.

Azərbaycan Respublikasında xüsusilə son illər həyata keçirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkəmiz Covid-19 pandemiyası və İkinci Qarabağ müharibəsi kimi ölkə iqtisadiyyatına birbaşa və güclü təsir edə biləcək məsələlərə baxmayaraq ölkənin sosial-iqtisadi inkişafına nail olmuş, regionlarda və sahibkarlıq fəaliyyətində ciddi uğurlar qazanılmış, iqtisadiyyata investisiya qoyuluşlarının həcmiində əhəmiyyətli dərəcədə artış müşahidə olunmuş, qeyri-neft sektorunun inkişafında, yeni iş yerlərinin və iş imkanlarının yaradılmasında, əhali gəlirlərinin artmasında və yoxsulluq səviyyəsinin azaldılmasında nəzərəçarpacaq irəliləyiş əldə edilmişdir.




**Qrafik 2. Ümumi daxili məhsul istehsalı (mlrd manat)**
**Mənbə:** https://stat.gov.az




**Qrafik 3. Məşğul əhalinin sayı (min nəfər)**
**Mənbə:** https://stat.gov.az

Bununla yanaşı, keçən ilin son aylarından başlayaraq ölkədə iqtisadi sahədə əldə olunmuş nailiyyətlərin möhkəmlənməsinə və əhalinin alıcılıq qabiliyyətinə mənfi təsir edən istehlak qiymətlərinin artımı müşahidə olunur. İnflyasiya səviyyəsinin gözlənilən həddən yüksək olması əsasən dünya bazarlarında xam neftin qiymətinin artmasının istehsal xərclərinə təsiri nəticəsində idxal mallarının bahalaşması, dövriyyədə olan pul kütləsi həcminin artması və izafi pul kütləsinin

müxtəlif maliyyə alətlərinə cəlbolunma mexanizminin kifayət qədər inkişaf etməməsi, iqtisadiyyata yönəldilən investisiyaların strukturunun təkmil olmaması, istehsalda, ticarətdə və idxal-ixrac əməliyyatlarında inhisarçılığa qarşı mübarizənin yetərli olmaması və s. səbəblərlə bağlıdır.



**Qrafik 4. Yoxulluq səviyyəsi, faizlə**
**Mənbə:** https://stat.gov.az



**Qrafik 5. Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla)**
**Mənbə:** https://stat.gov.az

Günümüzdə inflyasiya səviyyəsini artıran faktorların sosial-iqtisadi həyata və ümumi rifaha mənfi təsirini azaltmaq və məhdudlaşdırmaq məqsədilə xarici pul axınlarının azaldılması və dövlət büdcəsi xərclərinə edilən nəzarətin gücləndirilməsi, uğurlu bir şəkildə həyata keçirilən neft strategiyası və qeyri-neft sektorunda müşahidə olunan inkişaf nəticəsində ölkənin artmaqda olan maliyyə ehtiyatlarının daha da səmərəli idarə olunması, iqtisadiyyatda biznes subyektləri arasında sağlam rəqabət mühitinin formalaşdırılması ilə əlaqədar bir sıra önəmli tədbirlərin həyata keçirilməsi zərurəti yaranmışdır. Bununla bağlı ölkədə hüquqi baza formalaşdırılmış və lazimi qanunlar yaradılmışıdır. Azərbaycanın iqtisadi inkişafının yeni mərhələyə qədəm qoyduğu bir dövrdə makroiqtisadi sabitliyi qoruyub saxlamaq, maliyyə ehtiyatlarını səfərbər etmək və onlardan istifadənin səmərəliliyini artırmaq, mövcud əlverişli işgüzar mühiti və investisiya fəallığını, habelə həyata keçirilən islahatların sosial əhəmiyyətini və əhalinin gəlirlərini inflyasiya təzyiqindən qorumaq məqsədilə “Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında” 31 may 2005-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı vardır.

Ölkədə rəqabətli biznes mühitinin yaradılmaı, qeyri-neft sektorunun inkşafı, vergi-gömrük sistemin təkmilləşdirilməsi və prosedurlarda olan innovativ dəyişikliklər yeni biznesə başlayan sahibkarlar üçün geniş imkanlar yaratmışdır. Bu da öz növbəsində ölkədə olan inflyasiya birbaşa təsir etmişdir.

**Nəticə**

Hər bir ölkənin əsas məqsədi iqtisadi artıma nail olmaqla yaşam səviyyəsini yüksəltmək, mədəni, sosal rifahı yüksəltmək, ekoloji mühiti daima balanslı şəkildə saxlamaqdır. Bu prosesə təsir edən ÜDM artımı, hər bir nəfərə düşən ÜDM, ÜDM-nin bərabər bölüşdürülməsi, inflyasiya və işsizlik balansı kimi makroiqtisadi göstəricilər dövlətin birbaşa müdaxiləsilə deyil, dolayı yollarla təsir edə biləcəyi və nəzarət edə biləcəyi göstəricilərdir. KOB və böyük biznes subyektlərinin inkişafı, kəmiyyət və keyfiyyətin yüksəlməsi, işsizliyin və xarici pul axınlarının azalmasına, dövlət gəlirlərinin və ÜDM-nin artmasına, ölkələr və xalqlar arası inteqrasiyaya səbəb olmaqla, qeyd edilən makroiqtisadi göstəricilərin ölkə iqtisadiyyatına təsirini artırır. Bunun üçün də həm ölkəmizdə, həm də digər ölkələrdə ölkənin iqtisadi quruluşuna, iqtisadi imkanlarına və təbii amillərdən aslı olaraq müvafiq biznesə təşviq mexanizmləri araşdırılır, təkmilləşdirilir və tədbiq edilir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin Fərmanı
2. https://www.worldbank.org/ (Dünya Bankının rəsmi saytı)

3. İ.M.Mahmudov, T.Ş.Zeynalov, N.M.İsmayılov (2010).İqtisadi təhlil. Bakı: "İqtisad Universiteti" nəşriyyatı
4. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbyacan Respublikası Qanunu
5. https://smb.gov.az/ (Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəsmi saytı)
6. https://stat.gov.az/ (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi saytı)
7. Sahibkarlığa Kömək Milli Fondu- SKMF (jurnal)
8. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu "Kiçik və orta sahibkarlıq subyektləri üçün əyani vəsait"
9. https://www.imf.org/ (İnternational Monetary Fund-un rəsmi saytı)

**Ragub Nazarli AGSHIN**

**AZERBAIJAN UNIVERSITY OF ARCHITECTURE AND CONSTRUCTION, GRADUATE STUDENT IMRACT OF BUSINESS SUPPORT MECHANIAMS ON MACROECONOMIC INDICATORS IN AZERBAIJAN**

**Summary**

The purpose of writing the article is to research and analyze the measures taken for the development of business in Azerbaijan, implemented projects, state programs and to investigate the impact of the country on the micro and macro indicators. In the article, the mentioned macro indicators are determined separately, their importance for the country's economy, quantitative and qualitative indicators are studied. In the next part, the statistical data of these indicators for the world and Azerbaijan are reflected in written and graphical form. The article also examines measures and legislation intended for business support, the effects of these measures on the country's economy, analyzes the impact on relevant statistical indicators, and studies examples of business support mechanisms in the country.

**Keywords:** unemployment, inflation, balance of payments, business support, decree, targeted economic policy.

**Рагуб оглы Назарли АГШИН**
Азербайджанский Университет Архитектуры и Строительства, магистрант

**ВЛИЯНИЕ МЕХАНИЗМОВ ПОДДЕРЖКИ БИЗНЕСА НА МАКРОЭКОНОМИЧЕСКИЕ ПОКАЗАТЕЛИ В АЗЕРБАЙДЖАНЕ**

**Резюме**

Целью написания статьи является исследование и анализ мер, предпринятых для развития бизнеса в Азербайджане, реализованных проектов, государственных программ и исследование влияния страны на микро- и макропоказатели. В статье отдельно определяются указанные макропоказатели, изучается их значение для экономики страны, количественные и качественные показатели. В следующей части в письменной и графической форме отражены статистические данные этих показателей по миру и Азербайджану. Также в статье рассматриваются меры и законодательство, направленные на поддержку бизнеса, влияние этих мер на экономику страны, анализируется влияние на соответствующие статистические показатели, исследуются примеры механизмов поддержки бизнеса в стране.

**Ключевые слова:** безработица, инфляция, платежный баланс, поддержка бизнеса, декрет, адресная экономическая политика.

**Gülşən Əbülfət qızı HACIYEVA**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, müəllim
E-mail: gulshan.hajiyeva@hotmail.com

# ÖLKƏ İQTİSADİYYATINA XARİCİ İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİNİN İQTİSADİ-HÜQUQİ MƏSƏLƏLƏRİ

**Xülasə**

İnvestisiyanın cəlb edilməsi yolu ilə ölkənin, regionun və sahənin investisiya potensialının artırılması həmişə aktuallıq kəsb edən məsələlərdən biridir. İstənilən fəaliyyət növünün ilkin əsası onun investisiya təminatıdır. Digər tərəfdən hər bir subyekt özünün fəaliyyət sfersı ilə bağlı layihəni öz vəsaitləri hesabına tam maliyyələşdirə bilmir. Ona görə də investisiyaların cəlb edilməsi üçün əlverişli mühit yuadılmalıdır. Bu məsələnin həlli yalnız iqtisadi deyil, həm də hüquqi mexanizmlərə söykənir. Bunları nəzərə alaraq, təqdim olunan məqalədə investisya cəlbediciliyinin iqtisadi-hüquqi məsələləri nəzərdən keçirilmiş və müəyyən təkliflər verilmişdir.

**Açar sözlər:** investisiya, inteqrasiya, ixrac, risk, vergi, gəlir.

UOT: 332
JEL: E20

## Giriş

İnvestisiyaların cəlb edilməsi ixracın təkmilləşdirilməsi və inteqrasiya strategiyasının düzgün vektorunun seçilməsi ilə yanaşı xarici iqtisadi siyasətin və diplomatiyanın mühüm prioritetlərindən biridir. Bu prosesin əsasına ilk növbədə investisiya tələbatının müəyyən edilməsi təşkil edir.Göstərilə bilər ki, işğaldan azad olunmuş ərazilərin İqtisadiyyat Nazirliyi tərəfindən nvestisiya tələbatının ilkin hesablamaları aparılmışdır. Bu göstərici yalnız kənd təsərrüfatı və emal sənayesində (əsas dövlət prioritetləri) 9,64-10,64 milyard dollar təşkil edir.Həmin ərazilərın investisiya tələbatının ödənilməsi üçün birbaşa investisiya bazarının kifayət qədər dar seqmentində daha əlverişli investisiya mühitinə malik olan ölkələrlə rəqabət aparılmalı, daha çox investisiyaların cəlb olunduğu rəqabət mühiti yaradılmalıdır.

Məlum olduğu kimi, dünya ölkələri investisiya rejiminin liberallaşdırılması siyasətini həyata keçirirlər.Son beş ildə xarici investisiya rejimini dəyişdirən ölkələrin sayı 1,9 dəfə artmışdır.Dəyişikliklərin demək olar ki, 86%-i liberal xarakter daşıyır.Başqa sözlə, həyata keçirilən tədbirlər investisiya rejiminin yumşaldılmasına və ardıcıl olaraq, investisiya mühitinə müsbət təsir göstərir. Bu baxımdan ölkə və regionlar səviyyəsində əlverişli siyasi, iqtisadi, hüquqi, sosial və digər şəraitin yaradılması üzrə kompleks tədbirlər və qərarlar həyata keçirilməlidir. Onlar da öz növbəsində xarici investisiyaların risk dərəcəsini müəyyən edir və onlardan istifadənin səmərəliliyini artırır.

"Xarici invüstisiyaların qorunması haqqında" Qanunun əhəmiyyətini qeyd etməklə yanaşı onun təkkmilləşdirilməsinə ehtiyac olduğunu da qeyd etmək lazımdır.Bu Qanunda qeyri-müəyyənliklər vardır valyuta nəzarəti rejimindən asılılıq, özgəninkiləşdirməyə, o cümlədən birbaşa və dolayı müsadirəyə qarşı təminat (müsadirə və kompensasiya müəyyən edilmir) kimi mühüm məsələlər lazımınca işıqlandırılmır. Bu məsələlərin həlli və əlverişli investisiya mühitinin yaradılması üçün qanunda investisiya müddəalarının aydın və birmənalı olması təmin olunmalıdır.Ona görə ki, xarici investorlar işğaldan azad olunmuş ərazilərdə qanunvericiliyinin işlək mexanizmini əvvəlcədən bilmək istəyirlər. Mövcud qaydaların qeyri-müəyyənliyini nəzərə alsaq və ya bir sıra məmurlardan çoxsaylı icazələr tələb olunursa (çox vaxt onların tələblərini əlaqələndirmir), xarici investisiyalar üçün yüksək cəlbedicilik gözləmək olmaz. Xarici investisiya qanunvericiliyində əlavə riskləri azalda bilən sabitliyə ehtiyac var. Dünya miqyasında investisiya fəaliyyətinin çoxtərəfli əlaqələndirilməsinin daha da inkişaf etdirilməsi yollarının axtarışı davam etdirilir. OECD çərçivəsində çoxtərəfli

investisiya sazişi bağlanmışdır. Bu sazişlə yerli və xarici investorlar arasında hər hansı ayrı-seçkiliyi istisna edilir. O, məhsuldar kapitalın transsərhəd axınını daha da gücləndirməli, ona ən yüksək liberallaşdırma və müdafiə standartlarını, habelə mübahisələrin həllinin effektiv vasitələrini təqdim etməlidir. Bu saziş bütün ölkələrin iştirakı üçün açıqdır. Xarici investorlar öz fəaliyyətlərində adətən alternativlərlə müqayisədə hər bir investisiyanın gəlirlilik dərəcəsini hesablayırlar. İnvestisiyaların gəlirlilik səviyyəsi risk dərəcəsinin yüksəkliyindən asılıdır. Risk artdıqca, uğurlu investisiya halında kapitalın tələb olunan gəlir səviyyəsi əhəmiyyətli dərəcədə artır. Hesablamalara görə hər hansı bir risk və tam (100%) müvəffəqiyyət şansı ilə kapitalın tələb olunan gəlir səviyyəsi dörd il ərzində təxminən 20% olmalıdır. Orta dərəcədə risk və 80% müvəffəqiyyət şansı ilə tələb olunan gəlir dərəcəsi 32% ola bilər. Çox yüksək risk dərəcəsi ilə (50%) gəlirlilik dərəcəsi 67% -ə yüksəlir. Layihənin həddindən artıq yüksək dərəcədə riskli olması halında, müvəffəqiyyət şansı 20% -dən çox olmadıqda, investisiyanın tələb olunan gəlir səviyyəsi demək olar ki, 90% -ə çatmalıdır[4,səh. 64].

Ölkədə investisiya riskini azaltmaq üçün tədbirlər hazırlanarkən bu nəzərə alınmalıdır. İstər investorların öz səyləri, istərsə də xüsusi beynəlxalq təşkilatlar və assosiasiyalar vasitəsilə investisiya mühitini yaxşılaşdırmaq və riskləri azaltmaq üçün müxtəlif yollar mövcuddur.Layihənin dəyərinə investisiya riskinin dərəcəsindən asılı olan "risk mükafatları"nın əlavə edilməsi, həmçinin xaricdə investisiya fəaliyyətindən yarana biləcək itkilərdən sığorta kimi şirkətin ehtiyat fondunun yaradılması kifayət qədər adi haldır[6, səh.26].

Ümumi sosial-iqtisadi mühitin tədricən yaxşılaşdırılması prosesi beynəlxalq işgüzar dairələr tərəfindən etimadın artmasına böyük töhfə verir. Hökumətlər tərəfindən təklif olunan təşviqlərə (vergi güzəştləri, maliyyə stimulları) cavab verməzdən əvvəl transmilli şirkətlər iqtisadi və siyasi mühiti araşdırırlar. İqtisadi cəbhədə bir sıra əsas dəyişənlər üzrə proqnozları müəyyən edir: ÜDM-in artımı; aşağı inflyasiya; artan alıcılıq qabiliyyəti; məşğulluğun saxlanması: manatın sabit məzənnəsi; təkmil enerji və Telekommunikasiya infrastrukturu. Xarici investisiya qərarları sabit vergi və xarici ticarət rejimlərindən faydalanır. Vergitutma məsələsi son dərəcə vacibdir və siyasətlər qanunverici orqanın minimal dəyişiklikləri və ikiqat vergitutma müqavilələrinə tam riayət etməklə daha aşağı vergilərə yönəlməlidir [3, səh.92].

Respublikanın xarici ticarətində Avropa İttifaqı ölkələrinin,ABŞ və Türkiyənin rolu durmadan artır.Bu ölkələr prioritet ticarət tərəfdaşlarıdır və böyük ehtimalla gələcəkdə də olacaqlar Bu ölkələrin zəngin neft və qaz yataqlarının işlənməsində, neft məhsullarının dünya bazarlarına daşınmasında və digər iri layihələrdə iştirakı, o cümlədən respublikanın əsasən Qərb dövlətləri ilə inteqrasiyaya doğru strateji yönümlü olması, ÜTT-yə üzvlük bu ölkələrlə ticarət-iqtisadi əlaqələrin daha da təkmilləşdirilməsi və genişləndirilməsinin real əsası kimi çıxış edir.

Təhlillər göstərir ki, son illər respublikanın xarici ticarəti sürətlə artıb və nəticədə ticarət balansı müsbət göstəricilərə malikdir. Bu vəziyyətin əsas səbəbləri neft və neft məhsullarının satışı ilə əlaqədar ixracın kəskin artmasıdır. Bununla belə, son bir ildə dünya bazarında neftin qiymətində və müvafiq olaraq valyuta daxilolmalarında kəskin azalma müşahidə olunur. Bu baxımdan ölkə ixracının qeyri-neft sektoru əsasında modernləşdirilməsinin və idxalın əvəzlənməsi ilə bağlı düşünülmüş siyasətin aparılmasının zəruriliyi və aktuallığı kəskin şəkildə artmışdır. MDB ölkələrinin ənənəvi ticarət tərəfdaşları kimi payı son illərdə əhəmiyyətli dərəcədə azalsa da, respublikanın həm ixracında, həm də idxalında kifayət qədər mühüm yer tutur. Respublikanın ixrac və idxalında ticarət blokları və inteqrasiya birliklərinə münasibətdə Aİ, İƏT, GUAM və QDİƏT-in rolu və əhəmiyyəti nəzərə çarpacaq dərəcədə artır ki, bu da hər ehtimala qarşı ticarət və ticarətdə əsas tərəfdaşlar olacaq.

Qısa müddətdə ixracdan maksimum effekt əldə etmək üçün vergi güzəştləri həm mənfəət vergisi, həm də aksizlər və əlavə dəyər vergisi (ƏDV) ilə bağlı tətbiq oluna bilər. İxracın inkişafında prioritet olan müəssisələrin mənfəətindən vergi tutulmaları üçün respublikada aparılan ixracyönümlü siyasətə uyğun belə

güzəştlərin tətbiqi məqsədəuyğun olardı. Işğaldan azad olunmuş ərazilər iqtisadiyyatına birbaşa xarici investisiyaların optimallaşdırılması üçün ixracla bağlı prioritet sektorlara yönəlmiş məqsədyönlü investisiya siyasəti proqramlarının hazırlanması zəruridir. Bu proqramlar qismən dövlət büdcəsindən, qismən də güzəştli bank kreditləri hesabına maliyyələşdirilə bilər. Son nəticədə xarici kapital milli iqtisadiyyatın inkişafına və onun elmi-texnoloji səviyyəsinə töhfə versə də qəbul edən ölkə tərəfindən sərmayənin yeni formalarından istifadə edilməsi balanslaşdırılmış və ehtiyatlı şəkildə həyata keçirilməlidir, çünki o,arzuolunmaz nəticələrə gətirib çıxarır. Xarici investorlar tərəfindən müqavilə formalarından istifadə sərfəli şərtlərlə gəlir əldə etmək, obyektə nəzarət etmək və eyni zamanda riski azaltmaq üçün cəlbedici perspektivlər açır.

**Nəticə**

Araşdırmalar göstərir ki. hazırda respublikamızda investistisya cəlbediciliyinin yüksəldilməsi hər zaman olduğundan daha aktual və əhəmiyyətlidir. Ona görə ki, uzun müddət işğal altında qalmış əraizərimizin azad olunması onların bərpasına və məskunlaşdırılmasına, eləcə orada istehsal və biznes fəaliyyətinin təşkilnə külli miqdarda vəsait tələb edir. Ona görə də investorlarda inamı artırmaq, onların mümkün risklərdən sığortalanması üçün zəruri hüquqi baza formalaşdırılması və iqtisadi strategiya daim təkmilləşdirilməlidir.Bundan ötrü xarici sərmayələrin qorunmasına dair qanunvericilikdə olan boşluqlar aradan qaldırılmalı, beynəlxalq təcrübə öyrənilməklə onun əsasında optimal vergi sistemi və rəqabət mühiti formalaşdırılmalıdır. Müvafiq tədbirlərin həyata keçirilməsi zamanı investorların və dövlətlərin maraqları səmərəli şəkildə koordinasiya olunmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

**1.** Azərbaycan 2020: Gələcəyə Baxiş İnkişaf Strategiyasi.Bakı 2012.

**2.** Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı, 2012.

**3.** БабановА.В. Классификация факторов, формирующих инвестиционную привлекательность региона// Экономический журнал, 2012, с. 88-95

**4.** Глущенко М.Э. Методологические подходы к оценке инвестиционной привлекательности // "Экономический анализ: теория и практика", 2009, № 2

**5.** Лаврухина Н.В. Методы и модели инвестиционной привлекательности педприятия //Журнал "Теория и практика общественного развития", 2015.

**6.** Мяшкин В.Н.Факторы инвестиционной привлекательности региона и их оценка // Инвестиционная политика региона, 14 (341), 2014, с. 23-28

**Гюльшан Абульфат кызы ГАДЖИЕВА**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ, ПРЕПОДАВАТЕЛЬ**

## ЭКОНОМИКО-ПРАВОВЫЕ ВОПРОСЫ ПРИВЛЕЧЕНИЯ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ В ЭКОНОМИКУ Страны

**Резюме**

Повышение инвестиционного потенциала страны, региона и района за счет привлечения инвестиций является одним из вопросов, которые всегда актуальны. Первичная основа любого вида деятельности является ее инвестиционная безопасность. С другой стороны, каждый субъект не может полностью финансировать проект, относящийся к его сфере деятельности, за счет собственных средств. Поэтому должны быть созданы благоприятные условия для привлечения инвестиций. Решение этого вопроса основывается не только на экономических, но и на правовых механизмах. С учетом этого в представленной статье были рассмотрены экономико-правовые вопросы инвестиционной привлекательности и сделаны определенные предложения.

**Ключевые слова:** инвестиции, интеграция, экспорт, риск, налог, доход.

**Gulshan Abulfat HAJİYEVA**
Azerbaijan State University of Culture and Arts, teacher

# ECONOMIC AND LEGAL ISSUES OF ATTRACTING FOREIGN INVESTMENTS TO THE COUNTRY'S ECONOMY

**Summary**

Increasing the investment potential of the country, region and area by attracting investment is one of the issues that are always relevant. The primary basis of any type of activity is its investment security. On the other hand, each entity cannot fully finance the project related to its sphere of activity at the expense of its own resources. Therefore, a favorable environment for attracting investments should be created. The solution of this issue is based not only on economic, but also on legal mechanisms. Taking these into account, the presented article reviewed the economic and legal issues of investment attractiveness and made certain proposals.

**Keywords:** investment, integration, export, risk, tax, income.

**Matin Jeyhun HASANOV**
Azerbaijan State University of Economics, Azerbaijan, Baku
Doctoral student
Email: metinhesenov12@gmail.com

# IMPACT OF BUSINESS DIGITALIZATION ON THE DEVELOPMENT OF SMALL AND MEDIUM ENTREPRENEURSHIP IN AZERBAIJAN

**Summary**

Milli iqtisadiyyatın qeyri-neft sektoru sahələrində kifayət qədər iqtisadi artım və ixrac potensialının olmasını qeyd edə bilərik. Azərbaycanda qeyri-neft sektoru sahələrinin və onların ixrac potensialının daha obyektiv olaraq qiymətləndirilməsi və ondan səmərəli istifadə edilməsi istiqamətində əlavə tədbirlərin görülməsi, eyni zamanda, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin, ixrac potensialının artırılması sistemli və kompleks şəkildə bir-biri ilə əlaqəli şəkildə baxılmalı, dəyərləndirilməli və zəruri tədbirlər görülməlidir.

Qeyri-neft sektorunun inkişafının intensivləşmədi həm də milli brendlərin formalaşdırılmasına və dünya bazarlarına çıxarılmasına əlavə imkanlar verir. Ümumilikdə ölkələrin və onların iqtisadi subyektlərinin beynəlmiləlləşmə və qloballaşma proseslərinə cəlb olunması dünya bazarlarında rəqabəti artırır və gərgin, dinamik rəqabətlə səciyyələnən hiperrəqabətin formalaşmasına şərait yaradır. Hiperrəqabət məhsulun həyat dövrlərinin sürətlənməsinə, əvəzedici məhsulların, yeni texnologiyaların, biznes modellərinin və s. davamlı olaraq meydana çıxmasına səbəb olmuşdur. Beynəlxalq iqtisadi münasibətlərin belə intensivləşməsi ayrı-ayrı ölkələrin davamlı rəqabət üstünlüklərinin yaradılması və saxlanması problemlərini aktuallaşdırır. Qeyd etmək lazımdır ki, qloballaşma ilə paralel gedən milli iqtisadiyyatların post-sənayeləşməsi iqtisadiyyatda biliyin və elmin rolunun artmasına, innovasiya proseslərinin sürətlənməsinə töhfə vermiş və nəticədə iqtisadiyyatın dəyişməsinə də təsir etmişdir. Elm və texnikanın yeni nailiyyətlərinin tətbiqinə əsaslanan rəqabət iqtisadi inkişafın mühərrikinə çevrilir. İnkişaf etmiş ölkələrin təcrübəsinin göstərir ki, uzunmüddətli perspektivdə dayanıqlı iqtisadi artım daha çox intensiv amillərdən, yəni elmin, texnikanın, texnologiyanın və biliklərin kommersiyalaşdırılmasında qabaqcıl təcrübənin ən mütərəqqi nailiyyətlərinin inkişafını təmin edən amillərdən asılıdır. Bu proseslərin qeyri-neft sektoru üçün səciyəvi olmasının nəzərə alsaq, bu sektorun inkişafının ölkəmizin beynəlxalq əmək bölgüsü sistemində daha səmərəli şəkildə ixtisaslaşması üçün nə dərəcə də vacib olduğunu görə bilərik. Qeyd olunan amillər baxımından, Azərbaycanda qeyri-neft sektoru sahələrinin və onların ixrac potensialının gücləndirilməsi istiqamətində daha təsirli addımların atılması vacibdir.

Bunlarla bağlı mövcud vəziyyəti araşdırmaq üçün, ölkəmizin misalında qeyri-neft sektorunun inkişaf prosesləri və ixrac potensialı ilə bağlı statistik təhlillərə müraciət etməyi lazım bilmişik.

Şəkil 1-də Azərbaycanda 2011-2021-ci illər üzrə neft-qaz və qeyri-neft sektorunda ÜDM-un həcmi dinamikasının təhlilini vermişik və 2021-ci ildə qeyri-neft sektoru ÜDM-in artımı 2020-ci illə nisbətdə 12,8 % təşkil edib.

Şəkil 2-də Azərbaycanda Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə 2021-ci il üçün ixracın strukturu əks olunmuşdur.

Şəkil 2-nin təhlilindən nəticə çıxarsaq, görərik ki, 2021-ci ilin yekununda ölkə ixracının strukturunda neft və təbii qaz ixracından ibarət olan mineral yanacaq və bu xarakterli resursların ixracının xüsusi çəkisi 88,4 % təşkil etmişdir və bu əvvəlki illərə nisbətən bir neçə faiz aşağıdır. Bu onu göstərir ki, qeyri-neft ixracının payı ildən-ilə artmaqdadır. Daha çox ixrac olunan qeyri-neft məhsulları sırasında qida məhsulları və kimya sənayesinin məhsulları önəmli yer tuturlar. Bunlarla belə, digər qeyri-neft sahələrinin güclü ixrac potensialının olmasına baxmayaraq, ixracın strukturunda onların payı xeyli aşağıdır. Buna görə

də, prioritet vəzifələr kimi qeyri-neft sektoru sahələrinin ixrac potensialının obyektiv olaraq dəyərləndirilməsi və realizə edilməsi aktual vəzifələr və mühüm hədəflər kimi baxılmalıdır.




**Şəkil 1. Azərbaycanda neft-qaz və qeyri-neft sektorunda ÜDM-un həcmi, mlyn manat, 2011-2021-ci illər**
Mənbə: ARDSK - https://stat.gov.az/




**Şəkil 2. Azərbaycanda Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə 2021-ci il üçün ixracın strukturu, %-lə.**
Mənbə: ARDSK-nın məlumatları üzrə hazırlanmışdır https://stat.gov.az/

**Yaxın perspektivdə ölkənin qeyri-neft sektorunun ixrac imkanlarından məhsuldar istifadə olunması prioritetləri**

Azərbaycanın qeyri-neft sektorunun inkişaf etdirilməsi və qeyri-neft ixrac imkanlarının artırılması rəqabətqabiliyyətli iqtisadiyyat sahələrinin yaradılmasını tələb edir. Belə ki, milli iqtisadiyyatın rəqabət qabiliyyəti bir sıra amillərlə yanaşı, həm də beynəlxalq bazarlarda möhkəmlənə bilməsi ilə bağlıdır. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin formalaşmasında və yüksəlməsində ixrac potensialının rolu və əhəmiyyəti kifayət qədər yüksəkdir. Xüsusilə yeni yaradılan iqtisadi qurumlarda, o cümlədən əvvəldə qeyd etdiyimiz kimi azad iqtisadi zonalarda ixracyönlü məhsulların istehsalı üçün əlverişli şərait vardır [7]. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması mürəkkəb vəzifədir və ixracyönlü məhsulların dünya bazarlarına çıxarılması, milli brendlərin formalaşdırılması və müxtəlif dünya ölkələrinə göndərilməsi ölkənin imicini artırır və daha çox valyuta vəsaitləri əldə etməyə imkan verir. İxrac potensialının artırılması və daha çox ölkələrə qeyri-neftqaz sektoru sahələrinin məhsullarının göndərilməsi, bu məhsullar üzrə yerli istehsalın genişləndirilməsini stimullaşdırır və motivasiyanı yüksəldir [8].

Ona görə də hesab edirik ki, Azərbaycan üçün ənənəvi olan və perspektivi kifayət qədər yüksək qiymətləndirilən bir qrup iqtisadiyyat sahələrinin intensiv inkişafının təmin olunması üçün yüksək texnologiyaların transferi strategiyası işlənilməli və adekvat tədbirlər görülməlidir [9]. Ölkəmizdə qeyri-neft sektoru sahələrinin məhsuldarlığının artırılması, əlavə dəyər və istehsal zənciri üzrə tədbirlərin görülməsi, rəqabət qabiliyyətli emal sənayesi müəssisələri şəbəkəsinin yaradılması baxımından bir çox məsələlərin ardıcıl şəkildə həll edilməsi və Azərbaycanın daha çox gəlir gətirən iqtisadiyyat sahələrinin potensialından istifadə olunmasında mütərəqqi yanaşmaların və yüksək texnologiyaların tətbiqinin sürətləndirilməsi vacibdir. Azərbaycanda xarici investisiyaların cəlb edilməsi baxımından neft və qaz sahəsində

toplanılmış təcrübənin qeyri-neft sektoru sahələrinə yönəldilməsi və potensial investorların ölkəyə gətirilməsi üçün əlavə tədbirlərin görülməsi, eyni zamanda ölkə səviyyəsində investisiya resurslarından səmərəli istifadə edilməsi üçün daha şəffaf mühitin yaradılması, iqtisadiyyatın bütövlükdə şəffaflaşdırılması, hesabatlılığın artırılması və maliyyə resurslarından səmərəli istifadə edilməsi tədbirlərinə ciddi şəkildə ehtiyac vardır. Bütün bunlar, ixracyönlü məhsulların istehsalını artırmağa imkan verən ciddi amillər kimi dəyərləndirilə bilər [10].

Qeyd edək ki, yeni şəraitdə dünya iqtisadiyyatında köklü transformasiyalar gedir. Belə ki, qlobal problemlər səbəbindən və qlobal təhlükələrin artması ilə əlaqədar olaraq milli iqtisadiyyatın ənənəvi sütunları laxlamağa başlamış və transformasiyalar dərinləşməkdədir. Bu isə hazırkı dövrdə milli iqtisadiyyatlara yeni rəqabət yanaşmalarının ortaya qoyulmasını, yeni mexanizmlərin işləməsini təkmilləşdirir. Bu amillər nəzərə alınmaqla, milli iqtisadiyyatın şaxələndirilməsi və bu proseslərdə neft-qaz sektoru sahələrinin fəaliyyətinin gücləndirilməsi və qeyri-neftqaz ixracının strukturunun genişləndirilməsi vacibdir: 1) ilk növbədə, hər bir ölkə özünün iqtisadi inkişaf prioritetləri, iqtisadi inkişaf hədəfləri, obyektiv reallıqları baxımından, özünəməxsus öz iqtisadi inkişafını ehtiva edən milli prioritetlər və iqtisadi inkişaf hədəfləri müəyyənləşdirilməlidir; 2) dünya iqtisadiyyatında baş verən proseslərin diqqətlə öyrənilməsi, izlənilməsi və bununla bağlı adekvat tədbirlərin görülməsi dövlətlərin iqtisadi siyasətlərində önəmli yer tutmalıdır; 3) üzun müddət ərzində özünü kifayət qədər səmərəli göstərmiş iqtisadiyyat sahələrinin hazırkı dövrdə fəaliyyətinin adekvatlığı və hansı səviyyədə səmərəli olub-olmaması məsələləri yenidən araşdırılmalı və qiymətləndirilməlidir; 4) ölkədə mövcud resursların hərəkətə gətirilməsi, resurslardan qənaətlə istifadə olunması, ilk növbədə, ölkə iqtisadiyyatının inkişafına, yəni iqtisadi artımına və yeni maliyyə mənbələrinin yaranmasına imkan verən sahələrin inkişafına xüsusi önəm verilməli, məqsədli dövlət proqramları işlənilməli, tədbirlər planı hazırlanmalı və kompleks şəkildə həyata keçirilməlidir; 5) ölkənin təbii resurslarının və digər imkanlarının, istifadə olunmamış ehtiyatlarının təsərrüfat və maliyyə dövriyyəsinə cəlb olunması məsələlərinə xüsusi diqqət yetirilməlidir; 6) ölkədə iqtisadiyyatın şaxələndirilməsi və onun şəffaflığının təmin olunması tədbirləri görülməlidir; 7) “kölgə iqtisadiyyatı”nın həcmi kifayət qədər azaldılmalı, korrupsiyaya qarşı önəmli mübarizə aparılmalı və korrupsiya hallarına son qoyulmalıdır; 8) ölkədə sağlam rəqabət mühitinin təmin edilməsi kifayət qədər strateji məsələ hesab olunur, biznes və sahibkarlıq subyektlərinin daha sağlam rəqabət mühitində çalışması üçün köklü tədbirlər görülməli, inhisarçılıq meyillərinin qarşısı qətiyyətlə alınmalı, rüşvətxorluq halları aradan qaldırılmalıdır; 9) ölkə iqtisadiyyatının regional və beynəlxalq səviyyədə inteqrativ proseslərinin genişləndirilməsi və daha səmərəli iqtisadi əlaqələrin nəzərə alınması vacibdir; 10) ölkə iqtisadiyyatında mövcud resurslardan istifadənin hazırkı dövrün tələblərinə uyğun, qənaət rejimində istifadə olunması, xüsusilə ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı strateji tədbirlər hazırlanmalı və həyata keçirilməlidir; 11) ölkə əhalisinin həyat şəratinin yaxşılaşdırılması və yüksəldilməsi üçün zəruri tədbirlərin görülməsi, əhalinin sosial təbəqələrininin vəziyyətinin nəzərə alınması və ümumilikdə, ölkədə sosial-iqtisadi inkişafın tarazlı şəkildə inkişaf etdirilməsinin diqqət mərkəzində saxlanılması təmin edilməlidir [11]. Digər tərəfdən, ölkəmizdə bir sıra iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi üçün kifayət qədər resurslar, filizlər, qeyri-filizlər, yəni yeraltı və yerüstü resurslar vardır. Onlarla bağlı hasilat sənayesinin inkişaf etdirilməsi, tədbirlərin görülməsi və bununla bağlı olaraq emal sənayesi müəssisələrinin yaranması, rəqabət qabiliyyətli emal müəssisələrinin formalaşdırılması vacibdir. Bunlar barəsində məqsədli dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi, zəruri tədbirlərin görülməsi istiqamətində atılan addımlar əlbəttə az deyildir. Son 10 ildə gələcəyə baxış inkişaf konsepsiyasının reallaşdırılması, qeyri-neftqaz sənayesinin şaxələndirilməsi baxımından görülən tədbirlərin həyata keçirilməsi, bununla bağlı müvafiq infrastrukturun yaradılması kifayət qədər təqdirəlayiq bir haldır və bunun nəticələrinin qeyri-neft ixracının artımına təsirini də göstərmək olar.

Növbəti illərdə başlıca vəzifələr sırasında qeyri-neft sektorunun ixracını intensivləşdirməyə imkan verən iqtisadi siyasətin və xarici ticarət konsepsiyasının reallaşdırılması, milli brendlər

vasitəsi ilə daha çox beynəlxalq bazarlara çıxışın təmin edilməsi və ölkənin ixrac potensialının qeyri-neft ixrac məhsulları hesabına artırılmasının təmin edilməsi və s. daha çox seçilirlər [12].

**Nəticə**

Nəticə etibarilə qeyd edə bilərik ki, yaxın illərdə Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsində daha çox işlərin görülməsi tələb olunur və bunların bir qrupunu ümumiləşdirmişik:

– Azərbaycanda qeyri-neft sektorunun ixrac imkanlarının obyektiv olaraq yenidən qiymətləndirilməsi və daha yüksək hədəflərin qarşıya vəzifə kimi qoyulmasına ehtiyac yaranmışdır;

– ölkənin perspektivli qeyri-neft sektoru sahələrinin resurz bazasında yüksək texnologiyalar əsaslı emal komplekslərinin yaradılması və daha rəqabətqabiliyyətli ixracyönlü məhsulların istehsalının çeşidinin və həcminin artırılması tədbirləri görülməlidir;

– dünya bazarlarında mövcud rəqabətə tab gətirə biləcək milli brendlərin yaradılması istiqamətlərində təsirli tədbirlər həyata keçirilməli və bu qəbildən olan ixracyönlü məhsulların istehsalının artırılması istiqamətində sistemli işlər aparılmalıdır və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Stiglitz, J.E., Ocampo J.A. Capital Market Liberalization, Globalization, and the IMF // Capital Market Liberalization and Development. New York: Oxford University Press, 2010, pp. 76-100.
2. Şəkərəliyev, A.Ş. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. – Bakı: Turxan NPB, –2016. – 536 s.
3. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2022, – 422 s.
4. Əhmədov, M.A. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları / M.A Əhmədov, A.C.Hüseyn. – Bakı: “İqtisad Universiteti”, – 2011, – 120 s.
5. Ələsgərov, A.K., Muradov A.N. Qloballaşma mühitində milli iqtisadi inkişaf modelinin: formalaşması və inkişafı problemləri. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. – Bakı: – 2010. – 258 s.
6. Nuriyev, Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı “Avropa” nəşriyyatı, 2013, – 422 s.
7. Əliyev, Ş.T. Azad iqtisadi zonalar. Sumqayıt Dövlət Universiteti, Bilik, PM–2013,– 280 s.
8. Məmmədov, İ. Qeyri-neft sektorunun inkişaf istiqamətləri. – Bakı: Apastrof.–2012,–524 s.
9. Əliyev, Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018. – 376 s.
10. Aslanov, H.H. Xarici ticarət əməliyyatlarının rəsmiləşdirilməsi və bu sahədə “bir pəncərə” sisteminin tətbiqi // Audit, 2021, 1 (31), s.74-84.
11. Əliyev, Ş.T. Azərbaycanda strateji yol xəritələrinin gerçəkləşdirilməsində ixrac potensialının artırılması yolları. – 2017 Audit № 1, – s. 60-66.
12. Qasımlı, V. Azərbaycanın ixrac strategiyasının konseptual əsasları// Strateji təhlil, №1(2), Bakı, 2011. – s.223-238.

**Зибейда Ариф кызы ШАКАРАЛИЕВА**
докторант Азербайджанского ГосударственногоЭкономического
Университета, доктор экономики по философии, доцент.
E-mail: arifshakaraliyev1949@mail.ru

## ПРИОРИТЕТЫ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА НЕНЕФТЯНОГО СЕКТОРА АЗЕРБАЙДЖАНА

**Резюме**

*Целью исследования* – является определение приоритетов эффективного использования экспортного потенциала ненефтяного сектора Азербайджана в современных условиях. С этой целью исследован экспортный потенциал ненефтяного сектора в нынешних условиях и рассмотрены приоритеты в соответствии с требованиями времени. Обоснована необходимость повышения роли ненефтяного сектора в экономике страны с учётом освобождённых от оккупации территорий. Подготовлен ряд рекомендаций и предложений по повышению эффективности экспортных возможностей ненефтяного сектора Азербайджана.

*Методы исследования* – состоят из характерных методов для научных исследований – в том числе, анализ, синтез, сравнительный анализ, статистика и обобщение. Кроме того, учтены научные труды различных исследователей, которые изучали проблемы повышения экспортного потенциала ненефтяного сектора.

*Результаты исследования* - связаны с эффективным использованием полученных результатов в разработке и реализации целевых программ и подготовке комплексных мероприятий по повышению экспортных возможностей ненефтяного сектора страны.

***Ключевые слова:*** ненефтяной сектор, экспорт, ненефтяной экспорт, сферы ненефтяного сектора, приоритеты ненефтяного экспорта, перспективы ненефтяного экспорта.

**Zibeyda Arif SHAKARALİYEVA**
doctoral student of Azerbaijan State Economic University,
Ph.D. in economics, Associate Professor.
E-mail: arifshakaraliyev1949@mail.ru

## PRİORİTİES FOR THE EFFECTİVE USE OF THE EXPORT POTENTİAL OF THE NON-OİL SECTOR OF AZERBAİJAN

**Summary**

*The purpose of the research* is to determine priorities for the effective use of the export potential of the non-oil sector of Azerbaijan in modern conditions. The export potential of the non-oil sector in the current environment is investigated and priorities are considered in accordance with the requirements of the time. The need to increase the role of the non-oil sector in the country's economy, taking into account the territories liberated from occupation, is justified. A number of recommendations and proposals to improve the efficiency of export opportunities of the non-oil sector of Azerbaijan are given in the end of the article.

*Research methods* - consist of characteristic methods for scientific research - including analysis, synthesis, comparative analysis, statistics and generalization. In addition, the scientific works of various researchers who studied the problems of increasing the export potential of the non-oil sector are taken into account.

*The results of the research* are related to the effective use of the results obtained in the development and implementation of targeted programs and the preparation of comprehensive measures to increase the export capabilities of the country's non-oil sector.

***Key words:*** non-oil sector, export, non-oil export, non-oil sector spheres, non-oil export priorities, non-oil export prospects.

**Zeynalabdin Arif oğlu ƏLƏKBƏROV**
Odlar Yurdu Universitetinin doktorantı
E-mail: zeynalabdin.alakbarov@bk.ru

# AZƏRBAYCANDA SƏNAYE SAHƏLƏRİNİN İNNOVASİYALAŞDIRILMASI PROSESLƏRİNİN MÜASİR VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

*Tədqiqatın məqsədi* Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinin müasir vəziyyətinin qiymətləndirilməsindən ibarətdir. Bunun üçün ilk növbədə sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinə və bununla bağlı tədbirlərin gedişinə baxılmış və ümumilikdə sənaye sahəsində innovasiyaların tətbiqinin müasir vəziyyəti araşdırılmışdır. Qlobal texnoloji inkişaf prosesləri nəzərə alınmaqla, Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinin sürətləndirilməsinə mane olan amillər təhlil olunmuşdur. Hazırki şəraitdə yüksək texnologiyaların və yeni innovasiyaların tətbiqi hesabına ölkənin sənaye sahələrinin inkişaf etdirilməsi istiqamətində bir sıra tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

*Tədiqatın metodu* ilk növbədə, bir sıra elmi metodlardan, o cümlədən analiz, sintez, ümumiləşdirmə və müqayisə kimi metodlardan istifadə olunmuşdur. Bunlarla yanaşı sənaye sahələrinin innovasiyalaşdırılması ilə bağlı problemləri araşdıran bir qrup tədqiqatçıların fikirlərinə də yer verilmişdir.

*Tədqiqatın nəticələri* nöqteyi nəzərindən isə bunu qeyd etmək olar ki, Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılması prosesləri qaçılmaz bir prosesdir və bununla bağlı məqsədli proqramların fəaliyyət strategiyasının hazırlanmasında məqalədə əldə olunmuş elmi-praktiki nəticələr faydalı ola bilər.

**Açar sözlər:** Azərbaycan, sənaye sahələri, innovasiyalaşdırma, innovasiya prosesləri, innovasiya proseslərinin qiymətləndirilməsi, innovasiya proseslərinin səmərəliliyi.

**UOT: 338.242:338.246.025.2:338.33**
**JEL: D04; O14; F5**

## Giriş

Dünya iqtisadiyyatının müasir inkişaf prosesləri və baş verən qlobal tranaformasiyalar nəticəsində bu qənaətə gəlmək olar ki, son 10 illiklərdə uzun illət ərzində ənənəvi olan iqtisadiyyat sahələri üzrə fəaliyyət mexanizmləri və tətbiq olunan praktiki alətlər, təkmilləşdirmə proseslərini keçməyə məcburdur. Belə ki, qlobal təh-didlər artdıqca ənənəvi iqtisadiyyat mexanizmləri özünü doğrultmadı və dünya səviyyəsində bir sıra ardıcıl böhranlar baş verdi. Böhranlar nəticəsində dünya iqtisadiyyatının sabitliyi pozuldu. Maliyyə problemləri və investisiyaların hərəkətində ciddi çətinliklər yarandı. Çoxlu sayda iqtisadi subyektlər, maliyyə-kredit müəssisələri iflic vəziyyətinə düşdülər və ya bağlandılar. Dünya ölkələri arasında iqtisadi əlaqələrdə müəyyən mənada tənəzzül baş verdi. Amma dünya bu prosesləri tənzimləməyə çalışdığı bir vaxtda başqa bir qlobal problem Covid-19 pandemiyası baş verdi. Covid-19 pandemiyası dünya iqtisadiyyatını iflic vəziyyətinə gətirib çıxardı.

Xüsusilə xidmət sahələrinin işində problemlər yaratdı. Belə bir şəraitdə dünya iqtisadiyyatının hazırda daha çox tətbiq olunan mexanizmlərinin təkmilləşdirilməsi daha çevik, məhsuldar və rəqabət qabiliyyətli fəaliyyət istiqamətlərinin ön plana çəkilməsi məsələləri xeyli aktuallaşmışdır. Belə sahələrdən biri də innovasiyalaşdırma prosesləridir. Əlbəttə dünya təcrübəsində innovasiyalaşdırma prosesləri ilə bağlı xüsusilə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə müəyyən təcrübə toplanmışdır. İnnovasiyaların işlənməsi, mənimsənilməsi və tətbiqi istiqamətində müəyyən dövr keçmişdir və bir çox ölkələr bu sahədə ciddi uğurlar qazanmışdır [1, s.267]. Demək olar ki, hər il yeni texnologiyaların işlənməsinə texnologiyalar bazarının inkişaf etməsinə yüz milyardlarla dollar məbləğində vəsaitlər xərclənir [2, s.179].

Qeyd edək ki, hazırda dünya iqtisadiyyatının önündə gedən ABŞ və Çin hər il yeni texnologiyaların inkişaf etdirilməsinə, innovasiyaların işlənməsi və texnologiyalar bazarının daha dərin inkişafı üçün 600-700 milyard məbləğində vəsaitlər ayırırlar, investisiyalar yatırırlar, investisya-innovasiya şirkətlərini stimullaşdırırlar, bu sahədə olan bürokratyanı aradan qaldırırlar və s. Təsadüfi deyildir ki, son illərdə dünya iqtisadiyyatının önündə gedən ABŞ-la fərqin azaldılmasında Çinin əsas fəaliyyət istiqamətlərindən biri də müasir texnologiyaların daha tez və çevik işlənilməsi və tətbiqilə bağlı olmuşdur. Hesab edirik ki, bu proseslər iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələr, o cümlədən, Azərbaycan üçün xarakterik olmalıdır [3, s.235]. Təəssüf ki, bir məsələyə toxunmaq istərdik ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin bəziləri istisna olmaqla, əksəriyyətində texnologiyalar və innovasiyalar bazarının inkişaf etdirilməsi, xüsusilə sənaye sahələrinin innovasiyalaşdırılması proseslərində əhəmiyyətli nəticələrin əldə edilməsi istiqamətində əsas etibarilə axtarış xarakterli fəaliyyət daha çox diqqət çəkir.

Düzdür bəzi ölkələrdə artıq milli innovasiya sisteminin formalaşdırılması prosesləri gedir, innovasiya yönlü sənaye klasterləri, innovasiya mərkəzləri və texnologiyalar, texnoloji mərkəzlər yaradılmışdır və xüsusi iqtisadi zonalar, elmi-texnoloji parklar elmi-texnoloji mərkəzlər fəaliyyət göstərirlər [4, s.75]. Bu qəbildən olan ixtisaslaşdırılmış innovasiya texnoloji mərkəzlərinin yaranması hesabına milli innovasiya sisteminin inkişaf etdirilməsi, innovasiya zonalarının yaradılması, intellektual resursların bu istiqamətə yönəldilməsi və eyni zamanda iqtisadiyyata müxtəlif sahələrin, o cümlədən sənaye sahələrinin innovasiyalaşdırılması prosesləri genişlənməkdədir. Lakin bu sahədə daha yüksək nəticələrə nail olmaq üçün hesab edirik ki, hər bir ölkənin özünəməxsus innovasiya siyasəti və innovasiyalaşdırma proseslərinin təşkil edilməsində yanaşmaları mövcud olmalıdır.

**Müasir şəraitdə sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinin təhlili**

Dünya səviyyəsində sənaye sahələrinin inkişaf etdirilməsi olduqca vacib məsələlərdəndir. Əlbəttə son onilliklərdə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sənaye sahələrinin daha çox intellektual resurslarla bağlı olan sahələrinə, yəni qeyri-maddi istehsalla bağlı olan sahələrə diqqət yetirilməkdədir. Məsələn Google, Facebook, Twitter, Microsoft kimi şirkətlərin aktivləri 100 milyardlarla ölçülür və dünyada ən çox gəlir əldə edən, vergi ödəyənlər sırasındadırlar. Artıq onlar öz aktivlərinə görə neft-qaz şirkətlərini belə üstələməkdədirlər. Bununla belə, hesab edirik ki, ənənəvi sənaye sahələrinin inkişaf etdirilməsi, xüsusilə ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsində, sənaye təyinatlı iqtisadiyyat sahələrinin resurslarından səmərəli istifadə olunması məsələləri hələ uzun illər aktual olaraq qalacaqdır. Əlbəttə, rəqəmsal texnologiyalar əsasında sənaye sahələrinin inkişaf etdirilməsi, bilik iqtisadiyyatının mümkün resurslarının mobilizasiya edilməsi və əlavə dəyər maliyyə dövriyyəsinə cəlb olunması, iqtisadi artım proseslərində özünü göstərməsi vacib şərtlərdəndir [5, s.161]. Bu ölkənin milli iqtisadi inkişaf proseslərində texnoloji elementlərin üstünlüyünə dəlalətidir. İntellektual resursların daha yüksək səviyyədə olmasının ifadəsi kimi baxıla bilər. Bütün bunlarla bərabər hesab edirik ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətində hələ ki, bu səviyyəyə çatmaq üçün ənənəvi sənaye sahələrinin imkanlarında maksimum səmərəli istifadə edilməli, məhsuldar fəaliyyət istiqamətləri dəyərləndirilməli, bu sahələrin innovasiyalaşdırılması prosesləri sürətləndirilməlidir.

Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin əvvəldə qeyd etdiyimiz kimi təcrübəsində də bunlar özünü göstərmişdir. ABŞ, Böyük, Britaniya, Almaniya, Yaponiya və s. bu kimi ölkələrdə innovasiya mərkəzlərinin yaradılması, xüsusi innovasiya fondlarının yaradılması, innovasiyaların işlənməsi və tətbiqilə məşğul olan firma və təsərrüfat subyektlərinin vergi güzəştlərilə təmin olunması və dövlət tərəfindən stimullaşdırılması tədbirləri diqqət çəkir.

Belə ki, oniliklər ərzində həmin ölkələrdə, bu baxımdan bir sıra dünya ölkələrində innovasiya proseslərində fəal iştirak edən şirkətlərin stimullaşdırılması, vergi güzəştlərinin verilməsi, dövlət tərəfindən texnologiyalar bazarının inkişaf etdirilməsi üçün əlavə tədbirlərin görülməsi, innovasiyaların və texnologiyalar təyinatlı məhsulların dövlət sifarişi sisteminin formalaşdırılması, anoloji bazarlarda sağlam rəqabət mühitinin təmin edilməsi istiqamətində aparılan işlər müsbət nəticələr vermişdir və nəticə göz qabağındadır. Bu ölkələrdə texnoloji inkişafın səviyyəsi digər

ölkələrlə müqayisədə 30-50 il öndədir və demək olar ki, yeni texnologiyaların transferi ilə bağlı məsələlərdə bu amil xüsusi diqqət mərkəzində saxlayır. Məsələ burasındadır ki, iqtisadi cəhətdən və texnoloji baxımdan inkişaf etməkdə olan ölkələrə və ya üçüncü ölkələrə yüksək texnologiyaların transferində tələsmirlər və bir qayda olaraq bu texnologiyalarla üzün müddət öz üstünlüklərini qoruyurlar və yalnız müəyyən müddətdən - 10 il, 20-30 il keçdikdən sonra bu texnologiyaları üçüncü ölkələrə verməyə başlayırlar. Bu isə dünya səviyyəsində texnoloji inkişaf baxımından ölkələr arasında fərqlərin aradan qaldırılmasını gecikdirir. Eyni zamanda, dünya səviyyəsində və dünya ölkələri arasında innovatik inkişafı, mübadiləni ləngidir.

Bu qeyd edilənlər dünya iqtisadi proseslərin ümumən innovasiyalaşdırılmasına mane olur və buna görə də dünya iqtisadiyyatında qütbləşmə və dünyanın müxtəlif regionlarında iqtisadi inkişaf səviyyəsinin artım tempi və ya həcmi, texnoloji inkişaf səviyyəsi, innovasiyalaşdırılması nöqteyi-nəzərindən mövcud vəziyyəti xeyli fərqlidir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə son illərdə bununla bağlı görülən tədbirlər diqqət çəkir. Məsələn, Brazilya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası və s. bu kimi ölkələrdə texnoloji innovasiya mərkəzlərinin yaradılmasına, innovasiyaların işlənməsi və tətbiqinə yüz milyardlarla vəsaitin ayrılmasına başlanılmışdır.

Biz əvvəldə də qeyd etdik ki, hazırda dünyada innovasiyalar və texnologiyalar bazarının inkişaf etməsinə ən çox vəsait ayıran ölkə kimi Çin öndə gedir [6, s.145]. Bu da təsadüfi deyildir. Məhz bu kimi addımların hesabına ölkənin bütün regionlarında çoxlu sayda innovasiya mərkəzləri, innovasiya zonaları, elmi-texniki parklar və yeni məhsulların işlənilməsi, tətbiqi, dünya bazarlarına çıxarılması baxımından kompleks işlər görülmüşdür, yüzlərlə məhsul üzrə Çin dünya üzrə birinci yerdədir və bunların əksəriyyəti rəqabət qabiliyyətli sənaye-innovatik sənaye müəssisələridir.

Məhz iqtisadiyyatın innovasiyalaşdırılması hesabına ölkənin sənaye ixrac potensialı əhəmiyyətli səviyyədə yüksəlmişdir. Anoloji məsələlər Brazilya və Rusiya iqtisadiyyatında da son illər diqqət çəkmişdir. Lakin son illərdə Rusiya iqtisadiyyatının təcrid edilməsi və onlara qarşı ABŞ, Böyük Britaniya və Avropa Birliyi ölkələri tərəfindən sanksiyaların tətbiq edilməsi, bu məsələlərdə müəyyən problemlər yaratmışdır. Çünki, xarici ölkələrdə texnoloji mərkəzlərdə Rusiyaya konkretləşdirici materialların və hissələrin verilməsi dayandırılmışdır. Lakin hesab edirik ki, Rusiya bununla bağlı öz imkanları daxilində gördüyü tədbirlər, müəyyən müddətdən sonra innovasiya proseslərinin yenidən intensivləşdirilməsinə gətirib çıxara bilər. Çünki bu ölkədə resurslar kifayət qədərdir və sənaye sahələrinin inkişaf etdirilməsi, innovasiyalaşdırılması baxımından da resurslar kifayətdir və həm də elmi-texniki səviyyə mövcuddur.

Dünyanın bir çox iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrində də texnoloji inkişafın və milli iqtisadiyyatın innovasiyalaşdırılması proseslərini qeyd etmək olar. Həmin ölkələrdə: 1) əsas məqsəd texnoloji inkişafın təmin olunması; 2) ölkə səviyyəsində innovasiyaların işlənməsi və innovatik məhsulların istehsalına marağın artırılması; 3) innovasiyaya mane olan amillərin aradan qaldırılması üçün dövlət tərəfindən davamlı tədbirlərin görülməsi; 4) qanunvericilik bazasının gücləndirilməsi; 5) innovasiya infrastrukturunun formalaşdırılması və 6) innovasiya məhsullarına dövlət sifarişləri sisteminin gücləndirilməsi və s. bu kimi tədbirlər nəticəsində dünyanın bir sıra ölkələrində sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinin sürətləndirilməsini qeyd etmək olar.

**Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılması problemləri və onların həlli yolları**

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra iqtisadiyyat sahələrinin resurslarından səmərəli istifadə olunması və xüsusilə müstəqil iqtisadi inkişaf imkanlarından və prioritetlərindən bəhrələnməklə iqtisadiyyatın şaxələndirilməsi strategiyasını ön plana çəkmişdir. Lakin uzun illər bununla bağlı resursların konsolidasiyası və xüsusilə, sənaye sahələrinin inkişaf etdirilməsi üçün imkanlar məhdud olmuşdur.

1994-cü il sentyabrın 20-də bağlanmış "Əsrin Kontraktı"nın reallaşdırılması nəticəsində tədricən ölkə səviyyəsində makroiqtisadi və makromaliyyə sabitliyi təmin olunmuşdur. Ölkənin aparıcısı və lokomotivi hesab olunan neft sənayesinin inkişaf etməsi, milli karbohidrogen resurslarının dünya bazarlarına çıxarılması və valyuta ehtiyatlarının formalaşdırılması hesabına bir sıra sahələrdə, o cümlədən sənaye sahələrində

geniş miqyaslı islahatların aparılması mümkün olmuşdur.

Belə ki, Azərbaycan sovetlər birliyi dövründə də sənaye sahələri baxımından güclü potensiala malik olmuşdur. Xüsusilə, Sumqayıt şəhərində, Sumqayıt sənaye mərkəzində qeyri-neft təyinatlı sənaye kompleksləri fəaliyyət göstərmişdir. Eyni zamanda, Bakıda, Gəncədə ölkənin digər şəhərlərində ittifaq əhəmiyyətli, Moskvaya tabe olan iri sənaye müəssisələri fəaliyyət göstərmişdir. Lakin müstəqilliyin bərpasından sonra bunların əksəriyyəti ya fəaliyyətini dayandırmış ya da məhdud layihə gücündə fəaliyyət göstərməyə məcbur olmuş, istehsal-satış əlaqələri pozulmuş, kooperasiya əlaqələri sıfırlanmış və beləliklə bu sahədə fəaliyyəti yenidən başlamaq lazım gəlmişdir. Açığını deyək ki, bu proseslər o qədər də asan getməmişdir və bu müəssisələrin əksəriyyəti bu gün də fəaliyyət göstərmirlər və tamamilə bağlanmışlar.

Ölkədə iri sənaye müəssisələrinin bir hissəsi özəlləşdirilməyə verilsə də onların sağlamlaşdırılması istiqamətində nəzərdə tutulan investisiya planları reallaşdırılmamış, tələb olunan və özəlləşdirmə zamanı götürülən öhdəliklər yerinə yetirilməmiş, bu müəssisələrin profilləri üzrə inkişaf etdirilməsi, reabilitasiya olunması təmin edilməmişdir. Bu azmış kimi əksər iri müəssisələrin aktivləri, əsas fondlar kimi olan avadanlıqlar və ümumiyyətlə resursları dağıdılmış, yerlərində qeyri-sənaye profili, obyektlər tikilmiş, xidmət sahələri yaradılmışdır və bunlar xüsusilə Bakı şəhəri üçün xarakterik olan hallardandır. Əlbəttə biz də tərəfdarı deyilik ki, Bakı şəhərinin içərisində sənaye müəssisələri fəaliyyət göstərsin. Amma həmin sənaye müəssisələrinin ənənələri, kadr potensialı və profilləri, nəhayət dünya bazarında yerləri olmuşdur. Həmin istiqamətdə fəaliyyətin təmin olunması, ənənəvi sahələrin müasir dövr üçün aktual olan elementlərinin qiymətləndirilməsi və innovasiyalaşdırılması hesabına, modernizasiya edilməsi hesabına yenidən dünya bazarlarına çıxması potensialı diqqət çəkir.

Qeyd edək ki, uzun illərdir ki, Bakı şəhərində mərkəzində sənaye müəssisələrinin köçürülməsi məsələləri gündəmdədir. Lakin bu vaxta kimi həmin məsələlər həll olunmamışdır. Belə ki, bu müəssisələr faktiki olaraq hələ də fəaliyyət göstərirlər və onlar vergi ödəyiciləri kimi qeydiyyatdadırlar. Bu qəbildən olan müəssisələrin işçiləri, rəhbərliyi vardır. Onlar şəhər içərisində xeyli əraziyə malikdirlər. Hesab edirik ki, bu istiqamətlərdə əsaslı və təsirli tədbirlər görülməli, sənaye müəssisələrinin daha münasib yerlərdə təşkil edilməsi və müasir texnologiyalar, ilk növbədə innovasiyalar əsasında inkişaf etdirilməsi mexanizmləri hazırlanaraq tətbiq edilməli və dövlətin bu sahədə sənaye siyasətinin maksimum təkmilləşdirilməsi tədbirləri həyata keçirilməlidir.

Qeyd edək ki, Azərbaycan dövləti tərəfindən son illərdə sənaye sahələrinin inkişaf etdirilməsi istiqamətində önəmli addımlar atılmışdır. Qafqazda ilk texnoloji park, ilk sənaye parkı, ilk sənaye məhəlləsi Azərbaycana məxsusdur və bütün bunlar ölkənin əsas sənaye mərkəzi olan Sumqayıt şəhərində həyata keçirilmişdir. Artıq Sumqayıt Texnologiyalar Parkı 10 ildən çoxdur müxtəlif təyinatlı yüksək rəqabət qabiliyyətli elektrotexnika sənaye məhsulları və digər sənaye məhsulları istehsal edir.

Lakin hesab edirik ki, burada innovasiyaların işlənməsinə zəif münasibət və innovasiya məhsullarına marağın təmin edilməməsi, innovasiya bazarının ölkədə inkişaf etməməsi, bu kimi mütərəqqi və yüksək texnologiyalar əsaslı müəssisələrin rəqabət qabiliyyətinin artırılmasını ləngitmişdir [7, s.185]. Digər tərəfdən, Sumqayıt şəhərində Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Köhnə zərərli və ekoloji baxımdan təhlükəli olan kimya müəssisələri sökülmüş və onların əvəzində müasir infrastruktura malik olan Kimya Sənaye Parkı yaradılmışdır. Bu olduqca təqdirəlayiqdir. Demək olar ki, sahibkarlar üçün burada hər cür şərait vardır. Dövlət tərəfində müvafiq infrastrukturun yaradılması, burada yeraltı və yerüstü mühəndis qurğularının təmin edilməsi, yol infrastrukturunun təşkili və enerjidaşıyıcılarla təminatın yüksək səviyyədə olması, burada sahibkarlığın inkişaf etdirilməsi, sənaye sahələrinin inkişaf etdirilməsilə bağlı sərmayələrin yatırılması baxımından olduqca əlverişli bir sahədir [8, s.113].

Təsadüfi deyildir ki, artıq Sumqayıt Kimya Sənaye parkında rezidentlərin sayı sürətlə artmaqdadır və bura yatırılan investisiyaların ümumi həcmi 3,5 milyard dollardan çoxdur və 35-ə yaxın rezident artıq qeydə alınmış və bu proseslər ildən-ilə sürətlənməkdədir. Lakin təəssüf doğuran bir fakt ondan ibarətdir ki, Azərbaycanın sənaye sahələrində və sənaye müəssisələrində məhz yeni innovasiyaların

işlənməsi, mənimsənilməsi, tətbiq edilməsi istiqamətində fəaliyyət strategiyası yox dərəcəsindədir [9, s.10].

Qeyd edək ki, ölkədə rəsmi statistikaya nəzər salsaq innovasiyayönlü təkmilləşdirilmiş və ya əhəmiyyətli səviyyədə innovasiya əhəmiyyəti kəsb edən məhsulların istehsalı olduqca aşağı səviyyədədir və ölkənin yalnız bir sıra müəssisələrində innovasiyayönlü fəaliyyət öz əksini tapmışdır. Bunların nə dərəcədə yeni innovasiyalarla bağlı olması qaranlıq olaraq qalır. Belə ki, nə rəsmi statistikada, nə dövlət orqanlarının bununla bağlı hesabatlarında innovasiyaya dair məlumatlar öz əksini tapmamışdır. Uzun illərdir ölkədə milli innovasiya sisteminin yaradılmasında atılan addımlar başa çatdırılmamışdır [10, s.79]. Ümumiyyətlə, innovasiyaların işlənilməsi, mənimsənilməsi və tətbiqinin idarə edilməsi prosesləri, idarəetmə mexanizmləri də zəifdir. Vaxtı ilə Milli Elmlər Akademiyasının nəzdində bununla bağlı İnnovasiya Mərkəzi yaradılmışdır. Lakin bir müddət sonra həmin mərkəz bağlanmışdır.

Bundan sonra innovasiyaların idarəedilməsi ilə bağlı mərkəzi dövlət strukturunun yaradılmasına cəhd göstərilmişdir və hazırda Rəqəmsal İnkişaf və Rabitə Nazirliyinin tərkibində belə bir İnnovasiya Agentliyi fəaliyyət göstərir. Açığı deyək ki, bu İnnovasiyalar Agentliyinin dövlətin innovasiya siyasətinin formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində atdığı addımlar hələ ki, intensiv deyildir və son illərdə yalnız bir sıra startaplar istiqamətində aparılan tədbirlərə dair məlumatları qeyd etmək olar. Lakin qanunvericiliyin təkmilləşdirilməsi və ölkədə innovasiya fəaliyyəti haqqında qanunun qəbul edilməsi haqqında hələ də tutarlı bir informasiya yoxdur və yaxud ölkədə hansısa innovasiya mərkəzinin yaradılması haqqında qərar, nədə ki, görülən faktiki işlər barəsində məlumat əldə etmək çətindir.

**Nəticə**

Hesab edirik ki, Azərbaycanda innovasiya proseslərinin sürətləndirilməsi üçün bir sıra və xüsusilə sənaye müəssisələrinin innovasiyalaşdırılması proseslərinin intensivləşdirilməsi üçün bir qrup tədbirlərin görülməsinə ciddi zərurət vardır:

– Azərbaycanda innovasiya fəaliyyəti ilə bağlı qanunvericilik bazasının formalaşdırılması prosesləri axıra çatdırılmalı və ölkədə innovasiya fəaliyyəti haqqında qanun qəbul edilməlidir;

– Uzun illər ərzində yarımçıq qalmış milli innovasiya sisteminin formalaşdırılması və başa çatdırılması tədbirləri görülməli, dünya təcrübəsinə uyğun innovasiya sisteminin yaradılması təmin edilməlidir;

– Ölkənin intellektual resursları, milli sərvətləri, resurs potensialı nəzərə alınmaqla, paytaxt Bakı, Sumqayıt, Gəncə şəhərləri olmaqla, həmçini ölkə regionların hər birində innovasiya mərkəzlərinin, innovasiya-texnoloji mərkəzlərin, innovasiya-investisiya fondlarının yaradılması təmin olunmalı və bununla bağlı müvafiq tədbirlər görülməlidir;

– Dövlət tərəfindən innovasiya fəaliyyətinin stimullaşdırılması mexanizmləri işlənməli, innovasiya məhsullarının sifarişi ilə bağlı xüsusi mexanizm olmalı və bu sahədə dövlət sifarişləri sisteminin formalaşdırılması təmin edilməli və ölkədə sənaye müəssisələrinin innovasiya məhsulunun istehsalı istiqamətində maraqlarının artırılması tədbirlərinin sürətləndirilməsinə ehtiyac qalmaqdadır;

– İnnovasiya fəaliyyətinin stimullaşdırılması və ölkədə innovatik inkişafın sürətləndirilməsi məqsədilə, dünya təcrübəsinə müvafiq olaraq dövlət tərəfindən bu sahəyə yönəldilən vəsaitlərin artırılması, elmi tədqiqatların inkişafına məqsədli büdcə vəsaitlərinin çoxaldılması, elmi-texnoloji innovasiya mərkəzlərinin və ixtisaslaşdırılmış texnoparklar şəbəkəsinin, elmi-texniki parkların, tədqiqat mərkəzlərinin yaradılması prosesləri sürətləndirilməli və elmi-texnoloji innovasiyalar sahəsinə gənc kadrların gəlməsinin stimallşadırılmasına, peşəkar mütəxəssislərin hazırlanması proseslərinə diqqət artırılmalıdır və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Aliyev, Sh.T. The Strategics and the Role of the Oil Factor in Transition to the Innovation Economics of Azerbaijan// Subiaco, Italy Conference// International Symposium on Innovative Economic Policies for Climate Change Mitigation, http://www.economicswebinstitute.org/innopolicymitigation.htm, June -25th-26th 2009, p.265-268.

2. Cavadov, X.R. Milli İnnovasiya Sistemlərinin yaradlması üzrə beynəxalq təcrübə və onun Azərbaycanda tətbiqinin genişləndirilməsi imkanları // Azərbaycan vergi jurnalı, №3(125), 2015, S.177-194.

3. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, – 376 s.

4. Əliyev, Ş.T. Milli iqtisadiyyatın inkişafının sürətləndirilməsində sənaye klasterlərinin tətbiqini şərtləndirən amillər // Audit, № 4, 2015, S.73-79.

5. Hüseynov, S.M. Vençur fondları: kicik və orta sahibkarlıq subyektlərinin maliyyələşməsində vençur kapitalının əhəmiyyəti// İnnovasiyali iqtisadiyyat və menecment – 2022. №1, – s.158-167.

6. Алиев, Ш.Т. Проблемы вариативности создания и функционирования специальных экономических зон в Азербайджане в контексте мирового опыта// Маркетинг и менеджмент инноваций, Сумы, 2010, с.144-148.

7. Rəsulova, Ü.R. Sənayedə innovasiya fəaliyyətinin nəzəri və praktiki sspektləri // UNEC Elmi Xəbərləri, İl 7, Cild 7, yanvar - mart, 2019, s. 182 – 194.

8. Səlimova, G., Səlimova, A. İnnovasiya fəaliyyətini stimullaşdıran beynəlxalq əhəmiyyətli və müstəqil təhsil, tədqiqat və işləmələr (inkişaf) mərkəzinin yaradılması// "İqtisadi islahatlar" elmi-analitik jurnal. 2021, № 1(2). –s.108-120.

9. Алиев, Ш.Т. Вектор специальных экономических зон в инноватизации// Журнал Инновационная деятельность (ВАК), г. Саратов, 2010, № 4 (13), 2010, с.7-11.

10. Tağıyev, A.H., Səfərov Q.Ə. İnnovasiya layihələrinin menecmenti. Bakı: Elm, 2013, 284 s.

**Зейналабдин Ариф оглу АЛЕКБЕРОВ**
доктарант Университета «Одлар Юрду»
E-mail: zeynalabdin.alakbarov@bk.ru

## ОЦЕНКА СОВРЕМЕННОГО СОСТОЯНИЯ ПРОЦЕССОВ ИННОВАТИЗАЦИИ ПРОМЫШЛЕННОЙ СФЕРЫ В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

*Целью исследования* является обеспечение объективной оценки современного состояния процессов инноватизации промышленной сферы в Азербайджане. С этой целью раскрыты проблемы, замедляющие инноватизацию промышленной сферы страны и факторы, которые могут ускорить инноватизацию в этой сфере. Анализированы ведущие ненефтяные секторы промышленной сферы с точки зрения инноватизации и применения новых технологий в современном периоде. Обоснована необходимость интенсификации создания современной инфраструктуры по ускорению инноватизации промышленной сферы в Азербайджане в ближайшей перспективе. Подготовлен ряд рекомендаций по этим проблемам.

*Метод исследования* состоит из общеизвестных научных методов - анализа, синтеза, обобщения и сравнения. Кроме того, рассмотрены научные взгляды ряда учёных, которые рассмотрели проблемы инноватизации промышленных предприятий в современных условиях.

*Результаты исследования* рассматриваются в возможности разработки и реализации более продуктивных механизмов по интенсификации инноватизации промышленной сферы в Азербайджане в ближайшей перспективе.

**Ключевые слова:** инновация, инноватизация, процессы инноватизации, промышленная сфера, инноватизация промышленной сферы, оценка процессов инноватизации.

**Zeynalabdin Arif ALEKBEROV**
doctoral student of Odlar Yurdu University
E-mail: zeynalabdin.alakbarov@bk.ru

# ASSESSMENT OF THE CURRENT STATE OF INDUSTRIAL INNOVATION PROCESSES IN AZERBAIJAN

**Summary**

*The purpose of the research* is to ensure an objective assessment of the current state of the innovation processes of the industrial sphere in Azerbaijan. To this end, the problems that slow down the innovation of the country's industrial sector and factors that can accelerate innovation in this area are disclosed. The leading non-oil sectors of the industrial sphere are analyzed in terms of innovation and application of new technologies in the modern period. The need to intensify the creation of a modern infrastructure to accelerate the innovation of the industrial sphere in Azerbaijan in the near future is justified. A number of recommendations are given on these issues.

*Research methods* consist of well-known scientific methods - analysis, synthesis, generalization and comparison. In addition, the scientific views of a number of scientists who considered the problems of innovatization of industrial enterprises in modern conditions are considered.

*The results of the research* are considered in the possibility of developing and implementing more productive mechanisms for intensifying the innovation of the industrial sector in Azerbaijan in the near future.

**Key words:** innovation, innovation, innovation processes, industrial sphere, innovation of industrial sphere, evaluation of innovation processes.

Redaksiyanın ünvanı: AZ2011, Azərbaycan, Gəncə ş. Şah İsmayıl Xətai prospekti 103
Azərbaycan Texnologiya Universiteti Tel: +(994-22) 57-56-29,
Faks: +(994-22) 57-29-61 E-mail: info@atu.edu.az, uteca.iem@gmail.com

© Azərbaycan Texnologiya Universiteti 2022